KƏMALƏ RUİNTƏN

# ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ

*və*

# DÜNYA SİYASƏTİ

4629

*Bakı Slavyan Universiteti Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsi Elmi Şurasının 28 dekabr 2007-ci il tarixli iclasının qərarı ilə çap olunur (protokol №2)*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Adiloğlu" nəşriyyatı
Bakı 2008

63.3(5Aze)-6 + 66.4(5Aze)
R 96

*Elmi redaktor:* tarix elmləri doktoru, professor Musa Qasımlı

*Redaktor:* tarix elmləri namizədi Sevinc Ruintən

*Rəyçilər:* tarix elmləri doktoru, professor Eldar İsmayılov

tarix elmləri namizədi, dosent Adil Rəcəbli

siyasi elmlər namizədi, dosent Elçin Əhmədov

siyasi elmlər namizədi, dosent Kərəm Məmmədov

Ruintən K.F. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı: «Adiloğlu» nəşriyyatı, 2008. – 260 s.

*Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ məsələsi regional məsələ olmaqla yanaşı, dünya siyasətinə təsir göstərən amillərdən sayılır.*

*Monoqrafiyada münaqişənin həlli üçün səmərəli sayılan 2006-cı ilin fonunda münaqişənin mənbələri, onun inkişaf mərhələləri, beynəlxalq təşkilatların və münaqişənin nizamlanması prosesində birbaşa iştirak edən ATƏT-in Minsk qrupunun, həmin qrupun həmsədr dövlətlərinin mövqeyi və münaqişəyə münasibəti araşdırılır. Kitabda, həmçinin İranın nüvə məsələsi ilə Ermənistan-Azərbaycan münaqişəsinin qarşılıqlı təsiri təhlil edilir və münaqişənin Ermənistanın iqtisadiyyatına təsiri də diqqətdən kənarda qalmamışdır. Həmçinin beynəlxalq hüquqi sənədlərə istinad edilərək ermənilərin «öz müqəddəratını təyinetmə» və «dövlətlərin varisliyi» məsələləri kimi iddialarına faktlarla cavab verilir. Bununla yanaşı, monoqrafiyada münaqişənin bu günədək həll olunmamış qalmasının səbəbləri araşdırılır.*

*Monoqrafiya mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Onun əsas müddəa və nəticələrindən ali məktəblərin müvafiq fakültələrində mühazirə və seminarların keçirilməsində, tədqiqat işlərinin yazılmasında istifadə etmək olar.*

R $\frac{4722110018}{121\text{-}2008}$ qrifli nəşr

© K.Ruintən, 2008

## ÖN SÖZ

*XX əsrin əvvəllərində Azərbaycan xalqı respublika formasında dövlət müstəqilliyini elan etdi. Öz dövlətini qurmağa çalışan ermənilər də Azərbaycan əraziləri hesabına buna nail oldular. Həmin vaxt Azərbaycan İrəvan şəhərini Ermənistana güzəştə getdi. Bunun davamı olaraq sonrakı illərdə Kars vilayəti ilə birgə bütün İrəvan quberniyasına da Ermənistan sahib çıxdı. Lakin ermənilər əldə etdikləri ərazilər ilə kifayətlənməyərək onu genişləndirmək məqsədi ilə yenidən Azərbaycana və digər ölkələrə qarşı əsassız ərazi tələbləri irəli sürməkdə davam edirdilər. Bu dəfə onlar Azərbaycanın Qarabağ, Naxçıvan və Zəngəzur ərazilərinə qarşı iddialarla çıxış etdilər. Ermənilər həmin ərazilərin guya «tarixən» ermənilərə məxsus olduğunu və saxtakarlıqla ermənilərin yerli əhalinin çox hissəsini təşkil etdiyini bildirirdilər. Əslində isə ermənilər burada heç vaxt yerli xalq olmamış, müxtəlif dövrlərdə köçürülmüşdülər. Rus çarizmi Cənubi Qafqazda özü üçün bir istinadgah yaratmaq məqsədi ilə Rusiya-İran və rus-türk müharibələrindən sonra İran və Türkiyədən ermənilərin Azərbaycan ərazilərinə köçürülməsini təşkil etmişdi. Həmin vaxtadək təkcə Qarabağda türklər yerli əhalinin 80%-dən çoxunu təşkil edirdi. Köçürmə siyasəti nəticəsində isə ötən əsrin əvvəllərində ermənilərin sayı xeyli artsa da azərbaycanlılar yenə çoxluq təşkil edirdi.*

*Cənubi Qafqaz respublikaları özlərinin dövlət müstəqilliklərini elan etdiyi bir vaxtda inzibati ərazilərdə əhalinin milli tərkibinin müxtəlif olması yeni yaranmış respublikalar arasında ziddiyyətlərin meydana çıxmasına səbəb oldu. Azərbaycan hökuməti Dağlıq Qarabağ məsələsini dinc yolla həll etməyə çalışsa da, buna nail ola bilmədi, ona görə də Qarabağda general-qubernatorluq yaratdı. Buna baxmayaraq, həmin dövrdə ermənilərin Qarabağda və Zəngəzurda müsəlman əhaliyə qarşı etdikləri zorakılığa və soyğunçuluğa son qoymaq mümkün olmadı. Əksinə azərbaycanlılara qarşı amansız soyqırım həyata keçirildi. Baş verənlər müsəlman əhalinin çox hissəsini öz yaşayış yerlərini tərk edərək digər ərazilərə köçməyə məcbur etdi.*

*Xalq Cümhuriyyəti dövründə Ermənistan Qarabağı, Naxçıvanı və Zəngəzuru özünə birləşdirmək cəhdlərini reallaşdıra bilmədi.*

*1920-ci ildə Azərbaycanda, onun ardınca isə Ermənistanda sovet hakimiyyəti quruldu. Lakin sovet Ermənistanı da Azərbaycanın tarixi ərazilərinə iddialarını davam etdirdi və mərkəzi hökumətin köməyi ilə bir sıra əraziləri mənimsədi. Ermənilər Zəngəzuru ələ keçirməyə nail oldularsa da, Naxçıvanı və Qarabağı heç bir yolla Ermənistana birləşdirə bilmədilər. Qarabağın dağlıq hissəsində isə orada yaşayan erməni əhalinin istəyi və yerli əhalinin ümumi razılığı ilə 1923-cü ildə, Azərbaycan tərkibində qalmaqla Dağlıq Qarabağ muxtar vilayəti yaradıldı. Bununla da Azərbaycan və Ermənistanın müstəqillik dövründə açıq qalan sərhəd məsələsi sovet hökuməti dövründə öz həllini tapdı. Lakin ermənilər Azərbaycanın bir sıra tarixi ərazilərini, o cümlədən Dağlıq Qarabağı özününküləşdirmək üçün müxtəlif tədbirlərə əl atmaqda davam edirdilər. Onlar vaxtaşırı SSRİ-nin havadarlığı və birbaşa köməkliyi ilə bu sahədə müəyyən uğurlar da qazanırdılar.*

*Ötən əsrin sonlarında SSRİ dağılmaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda sovet imperiyasını qoruyub saxlamaq məqsədi ilə onun ərazisində milli münaqişələr qızışdırıldı. Ermənistanın Azərbaycana qarşı torpaq iddialarının yeni mərhələsi də məhz həmin dövrdə başlandı. Bu dəfə də Yerevanın təhriki ilə «milli məsələ» pərdəsi adı altında Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi məsələsi qaldırıldı. SSRİ-ni qoruyub saxlamaq cəhdləri isə uğursuzluqla nəticələndi. O, süqut etdi. Bundan istifadə edən Ermənistan hərbi təcavüzü nəticəsində və kənar qüvvələrin yardımı ilə Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağı və onunla həmsərhəd yeddi rayonu işğal etdi. Bu işğal Azərbaycana böyük fəlakətlər gətirmişdir.*

*Aqressiv separatizm və Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ problemi hazırda dünya birliyinin diqqət mərkəzindədir. Yaranmış vəziyyətdən istifadə edərək işğal etdikləri əraziləri boşaltmaq istəməyən ermənilər müxtəlif yollara əl atırlar. İşğalın davam etməsi isə dünyada baş verən siyasi proseslərdə mühüm rol oynayan və Cənubi Qafqazda öz yerini möhkəmlətməyə çalışan bəzi dövlətlərə öz məqsədlərinə çatmaq üçün geniş imkanlar yaradır. Münaqişənin həll olunmaması təkcə regionun deyil, həm də bəzi qonşu dövlətlərin təhlükəsizliyinə bir təhdid kimi qiymətləndirilir və haqlı olaraq onların narahatlığına səbəb olur.*



*Bütün bunların araşdırılması Azərbaycan siyasi elminin qarşısında duran əsas vəzifələrdən biridir. Bu baxımdan Kəmalə Ruintənin «Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti» adlı monoqrafiyası elmi və siyasi baxımdan aktual bir problemə həsr edilmişdir və praktik əhəmiyyət daşıyır. Müəllif müxtəlif dillərdə çap olunmuş çoxlu mənbə və ədəbiyyatdan, dövri mətbuatdan geniş istifadə edərək maraqlı bir əsər yazmışdır. Problemin qoyuluşu, ona yanaşma, məsələlərin şərhi və çıxarılan nəticələr doğru və inandırıcıdır. Monoqrafiyanın elm sahəsinin adamları, siyasətçilər, tələbə və magistrlar üçün əhəmiyyətli olacağına inanıram. Müəllifə isə yaradıcılıq uğurları arzulayıram.*

***Musa Qasımlı***
***tarix elmləri doktoru, professor***

## MÜƏLLİFDƏN

*Yaşadığımız dövrlə və şahidi olduğumuz hadisələrlə bağlı faktları bir yerə toplamaq, onları şərh etmək olduqca çətindir: xüsusilə də hadisələr hələ başa çatmayıbsa və hər gün onlarla bağlı bir-birinə ziddiyyət təşkil edən müxtəlif qərarlar qəbul edilirsə, dünya birliyi və beynəlxalq ictimaiyyət isə olanlara müxtəlif mövqelərdən yanaşırlarsa. Tədqiqatı heç cür bitirə bilmirsən, hər hansı qərarın qəbul edilməsini və onun nəticəsini də gözləmək qərarına gəlirsən.*

*Əlimizdə tutduğumuz kitab da hələ ötən ildən nisbətən kiçik həcmlə çapa hazır olsa da müəllif müəyyən məsələlərə münasibət bildirilməsini gözləmək və onun çapını bir neçə ay təxirə salmaq qərarına gəlmişdi. Kitab çapa tam hazır olduğu vaxt 2008-ci il 17 fevral tarixdə Kosovo birtərəfli şəkildə öz müstəqilliyini elan etdi və onun müstəqilliyi dünyanın bir çox dövlətləri, o cümlədən böyük dövlətləri tərəfindən tanındı. Azərbaycan Kosovo münaqişəsini Ermənistan-Azərbaycan münaqişəsi üçün presedent saymasa da onun müstəqilliyini tanımayıb. Ermənistanın, Azərbaycandan fərqli olaraq, Kosovo münaqişəsini Dağlıq Qarabağ üçün presedent saymasına baxmayaraq, o da Kosovonun müstəqilliyini tanımayıb. Rusiya Kosovanın müstəqilliyini tanımadan və ya Rusiyanın icazəsi olmadan Ermənistan da yəqin belə bir addım atmayacaq. Əks təqdirdə bu iki dövlət arasında mövcud münasibətlərə hər hansı şəkildə təsir edə bilər.*

*Kosovonun müstəqilliyini elan etməsinin ardınca, fevral ayının 19-da Ermənistan Respublikasında prezident seçkiləri keçirildi və Baş nazir Serj Sarkisyan səs çoxluğu ilə ölkə prezidenti seçildi. Artıq üçüncü prezident seçkiləridir ki, onun nəticələrinə görə Azərbaycan vətəndaşı olan Dağlıq Qarabağ erməniləri Ermənistan Respublikasının prezidenti seçilir. Bu fakt və yüksək postlarda da Dağlıq Qarabağlı ermənilərin vəzifə tutmaları belə qənaətə gəlməyə əsas verir ki, Dağlıq Qarabağ erməniləri doğrudan da xüsusi məqsədlərə malik olmuşlar. Lakin bu Ermənistanın iddia etdiyi kimi heç də Dağlıq Qarabağ ermənilərinin öz dövlətlərini qurmaq istəyi ilə üst-üstə düşmür. Onların istəyi öz dövlətlərinə malik olmaq deyil, sanki, hakimiyyət əldə etmək olmuşdur. Elə bu səbəbdəndir ki, onlar əllərinə düşən fürsətdən istifadə edərək Ermənistanda siyasi hakimiyyəti ələ keçiriblər və bu hakimiyyəti yerli ermənilərə qaytarmaq barədə düşünmürlər də.*

*Yazılmış hər bir kitab, əslində, bir kollektivin iştirakı ilə başa gələn prosesdir. Çünki onun yazılmasında bir çox müəlliflərin işlərindən istifadə edilir və bir çox mütəxəssislərin fikirləri nəzərə alınır. Təqdim edilmiş monoqrafiyanın hazırlanmasında öz diqqətini əsirgəməmiş mütəxəssislərin də əməyini xüsusi qeyd etmək yerinə düşər.*

*Bakı Dövlət Universitetinin «Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi» kafedrasının professoru, tarix elmləri doktoru və monoqrafiyanın elmi redaktoru Musa Qasımlıya dəyərli məsləhətlərinə və qeydlərinə, Bakı Slavyan Universitetinin «Beynəlxalq münasibətlər» kafedrasının müdiri dosent Oqtay Əliyevə səmərəli diskussiyalarına (xüsusilə Kosovo problemi ilə bağlı) və məsləhətlərinə, BSU-nun «Beynəlxalq münasibətlər və regionşünaslıq» fakültəsinin dekanı tarix elmləri namizədi, dosent Adil Rəcəbliyə, BSU-nun «Ölkəşünaslıq» elmi-tədqiqat laboratoriyasının baş elmi işçisi, fəlsəfə elmləri namizədi, dosent Həlimə-Xatın Qədirliyə, BSU-nun «Türkiyə araşdırmaları» mərkəzinin müdiri Toğrul İsmayıla və Bakı Dövlət Universitetinin «Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi» kafedrasının dosenti, tarix elmləri namizədi Rövşən Hətəmova, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, tarix elmləri namizədi Elman Nəsirova müəyyən nəticələrin əldə edilməsində verdikləri professional məsləhətlərə, BSU-nun «Beynəlxalq münasibətlər» kafedrasının gənc müəllimləri Səbinə Əliyevaya, Nərgiz Nağıyevaya və Fuad Həsənova lazımi ədəbiyyatın toplanmasında və mütəmadi diskussiyalara, BSU-nun «oxu zalı»nın işçiləri Ofelya xanım Qasımovaya və Telman Babayevə dövri mətbuatın araşdırılması və istifadəsində göstərdikləri köməkliyə, iş müddətində yaratdıqları işçi şəraitə və xoş rəftara görə təşəkkür edirəm.*

*Xüsusi təşəkkürü Ruintən Sevincə etmək istəyirəm: əvvəldən sonadək müəllifin iş prosesini izlədiyinə və göstərdiyi səbrə, müəllifi istifadə olunmuş ədəbiyyatın çox hissəsi ilə təmin etdiyinə, hər kiçik detal ətrafında ilk və son diskussiya və məsləhətlərə, kitabın redaktəsinə, nəhayət, onun çapına görə. Bundan başqa, kitabın mətninin kompüterdə yığılmasında göstərdiyi köməyə, televiziya vasitəsi ilə xəbərləri diqqətlə izləyən və bir çox hallarda baş verən yenilikləri müəllifə ilk çatdıran 249 saylı məktəbin 11-ci sinif şagirdi Ruintən Lamiyəyə də öz təşəkkürümü bildirirəm.*





# GİRİŞ

***... Bu təcavüz təkcə Ermənistanın təcavüzü deyildir. Bu, Azərbaycanı dağıtmaq, parçalamaq, Qafqazda güclü bir dövlət kimi məhv etmək məqsədi ilə toplaşan qüvvələrin birlikdə təcavüzüdür ...***

***Heydər Əliyev***

XX əsrin sonlarına doğru dünya inkişafında meydana çıxan qloballaşma meylləri beynəlxalq münasibətlərin və dünyanın siyasi quruluşunun dəyişikliklərə məruz qalmasına səbəb oldu. Dünyada gedən siyasi və iqtisadi proseslərdə qarşılıqlı bağlılıq və qarşılıqlı asılılıq özünü göstərməyə başladı.

Şərqi Avropada 1989-cu il hadisələri kommunist sisteminin iflası və sosialist blokunun məhvi ilə nəticələndi. Ən mühüm qlobal hadisə isə SSRİ-nin süqutu oldu. Bununla «soyuq müharibə» faktiki olaraq başa çatdı. 25 dekabr 1991-ci il tarixdə SSRİ prezidenti M.S.Qorbaçovun televiziya ilə canlı yayım zamanı Ali Baş Komandanın səlahiyyətlərinin ləğv edilməsinə dair qərar (N УП-3162) imzalaması və 26 dekabr tarixdə qəbul edilmiş son qərarlar* SSRİ-nin tam süqutunu, bununla da uzun illərdən bəri davam etmiş «soyuq müharibə»nin tamamilə başa çatdığını bir daha təsdiq etdi. Be-

** 26 dekabr 1991-ci il tarixdə Kremldə, SSRİ Ali Sovetinin palatalarından biri olan Respublikalar Sovetinin sonuncu iclası keçirildi. Sonadək İttifaqı tərk etməyən beş Asiya dövləti həmin iclasda 4 sənəd imzaladı: 1-SSRİ-nin bir dövlət və beynəlxalq hüququn bir subyekti olaraq süqut etdiyini təsdiq edən Bəyannamə (N 142-N); 2-SSRİ Ali arbitraj məhkəmələrinin hakimlərinin öz vəzifələrindən azad edilməsinə və SSRİ Prokurorları kollegiyasının ləğv edilməsinə dair Qətnamə (N 143-N); 3-Qosbankın sədri V.V.Geraşenkonun öz vəzifəsindən azad edilməsinə dair Qətnamə (N 144-N); 4-Qosbankın sədrinin birinci müavini V.N.Kulikovun öz vəzifəsindən azad edilməsinə dair Qətnamə (N 145-N). İmzalanmış göstərilən sənədlər SSRİ tərəfindən qəbul edilmiş son qərarlar oldu (351).*

ləliklə, Şərqlə Qərb arasında münasibətlərin yeni erası başlandı.

SSRİ-nin süqutu nə qədər qlobal, yəni dünya əhəmiyyətli bir hadisə olsa da, hadisə özlüyündə dünyanın qloballaşmasına deyil, onun lokallaşmasına bir işarə idi.

«Soyuq müharibə» zamanı «böyük dövlətlər birliyi» olan kapitalizm və sosializm düşərgələrinin, yaxud həmin düşərgələrin başında duran ABŞ və SSRİ kimi fövqəl dövlətlərin ideoloji mübarizəsi daha çox qlobal görünürdü. İndi isə ideoloji mübarizənin bitməsi dünyanın daha kiçik hissələrə ayrılmasına səbəb oldu. İki qütbdən birinin güc mərkəzi olaraq siyasi arenanı tərk etməsi isə heç də bir qütbün yeganə güc mərkəzi olaraq qalması ilə nəticələnmədi, əksinə nüfuz uğrunda mübarizə aparan və güc mərkəzinə çevrilməkdə olan bir neçə yeni qütb meydana çıxdı. Böyük dövlətlərlə yanaşı beynəlxalq təşkilatlar da nüfuz uğrunda mübarizəyə qoşuldular.

Hazırda dünyada gedən bütün siyasi proseslərə ABŞ daha çox təsir etmək imkanına malik olsa da Avropa İttifaqı, Rusiya, İslam dünyası, Çin dövləti də bu proseslərdə həlledici rola malik olmağa iddialıdırlar.

Ümumiyyətlə, qloballaşma bu gün böyük ziddiyyətlərlə müşaiyət olunur:

- bir tərəfdən bütün dövlətlər vahid birliyə inteqrasiya edir, milli dövlətlərə maraq azalır, digər tərəfdən milli və etnik azlıqların maraqları ön plana çəkilir;

- bir tərəfdən qloballaşma, kiçik millətlərin digər millətlərlə özü arasında eynilik axtarması və bir soy kökə malik kiçik millətlərin birləşmə meylləri, digər tərəfdən xalqların və s. daha kiçik millətlərə ayrılmaq, öz fərdi mədəniyyətlərini qabartmaq və inkişaf etdirmək istəyi ön plana keçir;





- bir tərəfdən dövlətdaxili qayda-qanunlar, digər tərəfdən beynəlxalq münasibətlərə, dünya və Avropa standartlarına uyğunlaşma meylləri ön plana çəkilir.

Buna uyğun olaraq, yeniləşən dünyada bir sıra amillərin - milli dövlətlərin rolunun azalmasına, qeyri-dövlət aktorlarının artmasına və yeni beynəlxalq institutların – yaranmasına baxmayaraq süqut etmiş sosialist ölkələrində birgə yaşayan müxtəlif millətlər də «öz müqəddəratlarını təyinetmə» hüququndan istifadə etməklə öz müstəqil dövlətlərini qurmaq imkanını əldən vermədilər. Eyni zamanda, qanunauyğun şəkildə müstəqillik əldə etmiş dövlətlərlə bərabər, digər ölkələrin ərazisi hesabına öz suveren dövlətlərini yaratmaq arzusunda olan bəzi kiçik millətlər və milli azlıqlar da dünyaya inteqrasiya prosesinə öz dövlətlərinə malik olaraq qoşulmaq və qloballaşan dünyada öz yerlərini bir dövlət olaraq tutmaq məqsədi güdməyə başladılar.

XX əsrin 90-cı illərində SSRİ-nin iflası ilə 70 il ərzində Sovet hökumətinin yeritdiyi siyasət nəticəsində bütün dünyadan və öz milli maraqlarından ayrı düşmüş dövlətlər üçün də həm qlobal, həm də milli maraqlardan doğan inteqrasiya gücləndi və əməkdaşlıq üçün əlverişli şərait yarandı. Müstəqillik əldə etmiş yeni suveren dövlətlərin, o cümlədən Cənubi Qafqaz dövlətlərinin qarşısında yeni imkanlar açıldı. Bütün digər suveren dövlətlər kimi beynəlxalq hüququn subyektinə çevrilmiş həmin dövlətlər də öz aralarında, digər ölkələrlə və müxtəlif beynəlxalq institutlarla müstəqil əlaqələr qurmağa və müstəqil siyasət yürütməyə başladılar.

«Soyuq müharibə»nin bitməsi ilə mübarizə aparan bloklar arasında bir sıra ziddiyyət və münaqişələr öz həllini tapsa da digər yeni münaqişələr meydana çıxdı. Bu münaqişələrin çoxu milli zəmində yarandı. Qaynar nöqtə və qarşıdurmalar məkanı sayılan Qafqazda baş verən münaqişələr də məhz milli zəmində meydana çıxdı. Ermənistan Respublika-

sının ərazi iddialarına əsaslanan məqsədyönlü xarici siyasəti nəticəsində və kənar qüvvələrin bilavasitə köməkliyi ilə suveren Azərbaycan Respublikasının tərkib hissəsi olan, azərbaycanlı və erməni əhalinin birgə yaşadığı Dağlıq Qarabağ ərazisində yaradılmış və postsovet məkanında mövcud münaqişələrin ən dəhşətlisi sayılan Ermənistan-Azərbaycan münaqişəsinə də milli don geyindirildi. Ümumiyyətlə, sərhəd zonalarında məskunlaşmış milli azlıqlar həmişə və hər yerdə təhlükə mənbəyi hesab edilirlər. Bu baxımdan Qafqaz da milli və etnik azlıqlar məsələsinə və münaqişələrə qarşı həssas regiondur. Mühüm geopolitik və geostrateji mövqeyinə, siyasi və iqtisadi proseslər üçün əlverişli məkanına görə Qafqaz regionu daim dünyanın ən nüfuzlu dövlətlərinin diqqətini özünə çəkmişdir. Münaqişə isə regionu öz təsir dairəsində saxlamaq istəyən kənar qüvvələrin əlində bir vasitədir.

Qafqaz Avropa və Asiyanın, Qərblə Şərqin, Şimalla Cənubun, Qara dəniz və Mərkəzi Asiya regionlarınm, İslamla Xristianlığın, həmçinin Türk dünyasının qovuşağında yerləşir, üç dənizə - Xəzər, Aralıq və Qara dənizə çıxışı var, Rusiya, Türkiyə, İran kimi böyük və nüfuzlu dövlətlərlə həmsərhəddir. Bununla da o, adıçəkilən bütün məkanları birləşdirən və birləşdirə biləcək bütün nəqliyyat sistemlərinin qovşağıdır. Qafqaza nəzarət etməklə Avrasiya qitəsində gedən bütün siyasi və iqtisadi prosesləri nəzarətdə saxlamaq və onlara təsir etmək mümkündür. XX əsrin sonlarında SSRİ-nin süqutu ilə regionun nəzarətdən çıxması onu yenidən ABŞ, Rusiya, İran, Türkiyə və Qərbi Avropanın böyük dövlətlərinin maraqlarının toqquşduğu məkana çevirdi. Ümumiyyətlə, geopolitik maraqlar həmişə ikidən daha artıq dövlətin, yaxud alyansların qarşıdurmasına səbəb olur (164, s.74). Həmin vaxt həm region dövlətlərində baş verən daxili siyasi proseslər və qeyri-stabil vəziyyət, həm region dövlətləri arasında qarşıdurmalar və narazılıqlar, həm də regionda nüfuz





uğrunda mübarizə aparan digər dövlətlər arasında baş verən ziddiyyətlər Qafqazı müasir beynəlxalq münasibətlər üçün mürəkkəb məkana çevirdi.

ABŞ-ın və Rusiyanın maraqları, demək olar ki, regionda marağı olan bütün dövlətlərin maraqlarını üstələyib və hər iki dövlət regionun həyatında əsas rol oynayır. 2002-ci ilin may ayında Moskva görüşü zamanı ABŞ və Rusiya prezidentləri Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarını özlərinin ümumi maraqları zonası elan ediblər. Onu da qeyd etmək lazımdır ki, müasir dövrdə Qafqaz regionu bəzən Qara dəniz regionunun bir hissəsi kimi, bəzən də Xəzər bölgəsi-Cənubi Qafqaz-Qara dəniz bölgəsi birlikdə bir region olaraq hesab edilir.

Qafqaz regionunun Xəzər bölgəsi həm iqtisadi, həm də strateji baxımdan dünya dövlətlərinin diqqətini daha çox cəlb edir. Fövqəl və böyük dövlətlərin hər biri Xəzərin neft və karbohidrogen ehtiyatlarına sahib olmaq və regionun enerji ehtiyatlarının dünya bazarına çıxarılması istiqamətini özü müəyyənləşdirməyə cəhd edir. Azərbaycan özünün əlverişli coğrafi şəraiti, o cümlədən Xəzər dənizinə çıxışı olması ilə regionda ən əlverişli mövqeyə malikdir və regionun lider dövləti sayılır.

Qafqaz regionu ABŞ-ın mühüm siyasi və iqtisadi maraqları zonasına daxildir. ABŞ-ın əsas məqsədlərindən biri Xəzər dənizinin enerji ehtiyatlarını və onların dünya bazarına nəqli marşrutunu öz nəzarətində saxlamaqdır. Lakin Qafqaz ABŞ hökuməti üçün təkcə Xəzərin enerji resurslarına görə maraqlı deyil, həm də ABŞ Xəzərin enerji ehtiyatlarına nəzarət etməklə, onların çıxarılmasına və nəqlinə sərmayə ayırmaqla regionda baş verən proseslərə təsir etməyə çalışır. Bununla yanaşı, həm də öz enerji tələbatını Xəzərin enerji ehtiyatları hesabına ödəyən ölkələri də öz təsir dairəsinə salmaq imkanı əldə edir. Cənubi Qafqazda öz mövqeyini möhkəm-

lətməklə ABŞ təkcə Qafqazda deyil, həm də Yaxın Şərqdə baş verən bütün siyasi prosesləri və hadisələri öz nəzarətində saxlamaq və postsovet məkanında hələ də nüfuz sahibi olan Rusiyanın mövqeyini zəiflətmək imkanı qazanır. Digər bir səbəb isə İranın nüvə məsələsi ilə bağlıdır ki, bu məsələdə ABŞ-la Rusiyanın mövqelərində müəyyən fərqlər mövcuddur.

Rusiya da öz növbəsində postsovet məkanında yerləşən ölkələri öz geosiyasi maraqları zonası hesab edir və Cənubi Qafqazda hələ ki, əvvəlki qədər olmasa da nüfuz sahibi olaraq qalmaqdadır.

Region dövləti və münaqişə tərəfi olaraq Azərbaycan və Ermənistan da öz mövqelərinə görə dünyada baş verən siyasi proseslər üçün müxtəlif səbəblərdən əhəmiyyətlidirlər.

Azərbaycanı daha maraqlı edən cəhətlərindən biri odur ki, Qafqaz məhz onun vasitəsilə Türk dünyasının qovuşduğu bir məkana çevrilir. 1990-cı illərin əvvəllərində türkçülüyün Azərbaycan vasitəsilə Cənubi Qafqaza, buradan isə Şimali Qafqaza, Volqaboyuna, Mərkəzi Asiyaya, Altaya və s. yayılacağından ehtiyat edən Rusiya, İran və digər qüvvələr hər hansı yolla buna mane olmağa çalışırdılar. Ermənistan türkçülüyün yayılmasının qarşısını almaq üçün ən sərfəli vasitə idi. Rusiyanın Ermənistandakı birinci səfiri V.Stupişin də Ermənistanın Rusiya siyasətində yerini aydınlaşdırarkən Ermənistanın və «Dağlıq Qarabağ»ın Rusiya üçün xüsusi əhəmiyyətli olduğunu bildirirdi və onları yayılmaqda olan türkçülüyün qarşısını almaq üçün daş manea hesab edirdi. O, hətta çinlilərin də artıq Ermənistan-Qarabağ səddinin aradan qalxmasının Çinin türkdilli rayonları üçün təhlükə olacağını anladıqları fikrində idi (386).

Azərbaycan regionda lider və ən əlverişli ölkə olsa da Ermənistanın da mövqeyi bəzi dövlətlər və məqsədlər üçün strateji baxımdan əhəmiyyətli sayıla bilər. Məsələn, hər hansı





region dövlətinin əleyhinə Ermənistanla əməkdaşlıq etmək mümkündür və o bir çox məqsədlər üçün alət rolunu icra edə bilər.

SSRİ-nin mövcud olduğu son illərdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində yaradılmış münaqişə Cənubi Qafqaz regionunda öz mövqeyini möhkəmlətmək niyyəti olan hər bir dövlətin əlində bir vasitəyə çevrildi. Ermənistan-Azərbaycan münaqişəsinin regionun iki dövləti arasında baş verməsi onu daha da gərginləşdirərək həllinə mane olsa da, öz siyasi məqsədlərini həyata keçirmək istəyən böyük dövlətlərə ondan dünya siyasətində öz maraqlarına uyğun şəkildə istifadə etmək imkanı verir. Münaqişələrin mövcudluğu regionu və ya münaqişə tərəfləri olan dövlətləri öz təsiri altına salmaq istəyən dövlətlər üçün geniş imkanlar açmaqla yanaşı, həm də təhlükəsizliyə təhdid sayılır. Ermənistan-Azərbaycan münaqişəsi isə təkcə Cənubi Qafqaz regionu və qonşu dövlətlərin təhlükəsizliyinə təhdid deyil, həm də Xəzər dənizinin enerji daşıyıcılarının boru kəmərləri vasitəsi ilə Avropaya və ümumiyyətlə, dünyaya çıxışını təmin etdiyi üçün beynəlxalq təhlükəsizliyə və iqtisadi maraqlara qarşı yönəlmiş bir hədədir. Dövlətlər münaqişənin nizamlanması prosesində və regionun, o cümlədən boru kəmərləri ərazilərindən keçən ölkələrin təhlükəsizliyinin təmin edilməsində iştirak etməklə həmin ərazilərdə öz mövqelərini möhkəmlətməyə çalışırlar. Cənubi Qafqaz regionunun hər üç dövlətinə təsir etmək üçün münaqişələr mövcuddur. Ermənistan-Azərbaycan münaqişəsi regionun iki dövlətinə təsir etmək imkanı verir. Gürcüstanın isə öz ərazisində münaqişələr mövcuddur.

Tarixən Azərbaycan ərazisi olan Dağlıq Qarabağ ətrafında Ermənistan və onun himayədarları tərəfindən yaradılmış gərginlik müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasının dünyaya inteqrasiyasını ləngidir və onun müstəqil daxili və xarici siyasət yürütməsinə ciddi problemlər yara-

dırdı. 1990-cı illərin əvvəllərində – Ermənistan siyasətçilərinin Azərbaycan əleyhinə çıxışlar edib onu nüfuzdan salmağa çalışdıqları bir vaxtda Azərbaycanın beynəlxalq aləmdə vəziyyəti o qədər də qənaətbəxş deyildi.

Sonralar beynəlxalq təşkilatlarla və müstəqil dövlətlərlə əməkdaşlıq etməklə dünya birliyinin tam hüquqlu üzvünə çevrilən Azərbaycan beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycana təcavüzünə və bunun nəticəsində yaranmış Dağlıq Qarabağ probleminə yönəldə bildi. Məqsəd isə dünya birliyinə və beynəlxalq ictimaiyyətə münaqişədə kimin haqlı, kimin haqsız olmasını göstərmək və münaqişənin ədalətli həllinə nail olmaq idi. Beynəlxalq ictimaiyyət də öz növbəsində münaqişəni diqqət mərkəzində saxlayır, lakin uzun müddətdir ki, hələ də kimə haqq qazandıracağı barədə düşünür.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, təşkilatların əksəriyyəti «soyuq müharibə» dövründə biri digərinə qarşı yaradılmışdı və ikiqütblü dünyada məxsus olduqları tərəfin mənafeyini əks etdirirdi. «Soyuq müharibə»nin başa çatması ilə təşkilatlar da yeni dövrə uyğunlaşmaq və XXI əsrin tələblərinə cavab vermək kimi problemlərlə qarşılaşdılar. Bunun üçün təşkilatlarda əsaslı islahatlara və dəyişikliklərə ehtiyac yarandı.

BMT və bütün digər beynəlxalq təşkilatlar Azərbaycanı öz sıralarına qəbul edən zaman Ermənistan və Azərbaycan arasında münaqişə artıq mövcud idi. Lakin bu, təşkilatların nəinki Azərbaycanı mövcud sərhədləri çərçivəsində qəbul etmələrinə mane olmadı, hətta onlar Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiq etdilər və Azərbaycanın ərazi bütövlüyünü tanıdılar. Dağlıq Qarabağın Azərbaycan ərazisindən ayrılmasını sübut edən heç bir hüquqi sənəd yoxdur və dünyanın heç bir dövləti, o cümlədən Ermənistan bu günədək «Dağlıq Qarabağ»ı müstəqil dövlət kimi tanımayıb.





Ermənistan istisna olmaqla bütün digər dövlətlər və mövcud beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıyırlar və beynəlxalq hüquqa əsasən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Beynəlxalq hüquq normalarına görə isə bütün ölkələrin sərhədləri toxunulmazdır və onun ərazi bütövlüyünün qorunması həmin dövlətin üzv olduğu beynəlxalq təşkilatların vəzifəsidir.

Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və respublikanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həlli Azərbaycanın xarici siyasəti qarşısında duran əsas vəzifələrdən biridir. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə dair beynəlxalq birlik qarşısında öhdəlik götürdüyü üçün isə onun həlli yalnız Azərbaycandan asılı deyildir. Buna görə də Azərbaycan özünün beynəlxalq təşkilatlar və suveren dövlətlərlə qarşılıqlı münasibətlərində bir nömrəli problem sayılan Ermənistan-Azərbaycan münaqişəsini daim gündəlikdə saxlayır.

2006-cı il münaqişənin həlli üçün səmərəli il sayılırdı. Çünki 2007-ci il Ermənistanda parlament seçkilərinə, 2008-ci il isə həm Ermənistanda, həm də Azərbaycanda prezident seçkilərinə həsr ediləcəyindən həmin müddət ərzində hər iki dövlətin münaqişənin həllinə ayırmağa vaxtı qalmayacağı güman edilirdi*.

Bundan başqa, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədr dövlətlərində də – Fransada 2007-ci**, ABŞ və

---

* *Ermənistanda 2008-ci ilin fevral ayında keçirilən prezident seçkilərində R. Köçəryanın siyasi kursunun davamçısı S.Sarkisyan səs çoxluğu ilə qalib gəldi. Azərbaycanda isə prezident seçkiləri həmin ilin oktyabr ayında keçiriləcək.*

** *2007-ci ilin 06 may tarixində Nikola Sarkozi Fransanın prezidenti seçildi.*



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Rusiyada* isə 2008-ci ildə Prezident seçkiləri ilidir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycandan başqa adıçəkilən bütün digər dövlətlərin prezidentləri özlərinin artıq ikinci prezidentlik müddətlərini başa vururlar və onları yeni prezidentlər əvəz edəcəklər. Bu isə yeni prezidentlər tərəfindən münaqişəyə fərqli münasibətlərin və yanaşmaların meydana çıxacağını istisna etmir.

* *2008-ci il 2 mart tarixdə Rusiyada prezident seçkiləri keçirildi və Vladimir Putinin siyasi kursunun davamçısı Dmitrii Medvedyev Rusiya Federasiyasının prezidenti seçildi.*





# FƏSİL 1

## ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN TƏHLİLİ

***Münaqişənin xarakteri.*** Ermənistan-Azərbaycan münaqişəsi SSRİ-nin və Ermənistan Respublikasının məqsədyönlü siyasəti nəticəsində yarandığı üçün subyektiv xarakterli qarşıdurmaya əsaslanan münaqişədir.

Münaqişə ilk illərdə asimmetrik xarakter daşıyırdı. Belə ki, o Azərbaycan və Ermənistanın hələ Sovet İttifaqının müttəfiq respublikaları olduğu zaman yaranmışdı və heç bir kənar qüvvə – digər dövlət, yaxud təşkilat onunla məşğul olmurdu. Çünki bu dünyanın iki fövqəl dövlətindən və qüvvələr balansını tənzimləyən iki qütbdən biri olan SSRİ-nin daxili işlərinə qarışmaq kimi qiymətləndirilə bilərdi. Həmin səbəbdəndir ki, ilk vaxtlar Rusiyanın Ermənistanı hərbi cəhətdən dəstəklədiyi üçün Azərbaycan tək qalmışdı və qüvvələr balansı Rusiyanın köməyindən bəhrələnən Ermənistanın xeyrinə idi. Münaqişənin başladığı ilk illərdə (1980-cı illərin sonu) Ermənistanda ilk silahlı dəstələr yaradılmışdı. Həmin dəstələr Levon Ter-Petrosyanın rəhbərlik etdiyi «Qarabağ» adlı komitəyə tabe idilər və guya Ermənistanın müxtəlif şəhərlərində erməni millətçilərinin kütləvi mitinqləri zamanı asayişi qorumaq məqsədi ilə yaradılmışdılar. 1989-cu ildən Dağlıq Qarabağda hərbi əməliyyatların sayı çoxalmışdı və Ermənistandan, digər respublika və dövlətlərdən ehtiyatda olan, SSRİ qoşunlarında xidmət etməkdən boyun qaçırmış, kriminal aləmə qoşulmuş ermənilər həmin əməliyyatlara cəlb edilmişdi. Həmin dəstələrə xüsusi təlimlər keçirilirdi və onlar müxtəlif yollarla gətirilmiş silahlarla silahlandırılırdılar (206).

Müttəfiq respublikaların müstəqillik əldə etdikləri ilk vaxtlarda – 1990-cı illərin əvvəllərində regionun və region dövlətlərinin qeyri-sabit vəziyyətindən istifadə edərək ərazini öz təsir dairəsinə salmağa və regiona nəzarəti öz əllərinə almağa çalışan dövlətlər Cənubi Qafqazda nüfuz uğrunda mübarizəyə başlamışdılar. Rusiya hələ də regionda öz nüfuzunu saxlamaqda idi və həm Ermənistan, həm də Azərbaycan münaqişənin açarının Rusiyanın əlində olduğunu bildirirdilər (365). Həmin dövrdə də Rusiya qoşunlarının Ermənistana köməyi nəticəsində münaqişədə qüvvələr balansı ermənilərin xeyrinə qeyri-bərabər olaraq qalmaqda idi. Bunun nəticəsidir ki, Azərbaycan ərazilərinin 20 %-i məhz həmin dövrdə Ermənistan tərəfdən işğal edildi.

Getdikcə isə münaqişə simmetrik xarakter almağa başladı, yəni qüvvələr balansı nisbətən bərabərləşdi. Buna səbəb olan amillərdən biri – Azərbaycanın müstəqillik əldə etdikdən sonra beynəlxalq təşkilatlarla əməkdaşlıq etməsi, böyük dövlətlərlə əlaqələr qurması; digəri – regionda vəziyyətin nisbətən sabitləşməsi və tərəflərin «atəşkəs»ə dair razılığa gəlmələri, ABŞ və Rusiya maraqlarının digər dövlətlərin maraqlarını üstələməsi və həmin dövlətləri regiondan sıxışdıraraq çıxarması; daha sonra isə Azərbaycanın iqtisadi cəhətdən getdikcə inkişaf etməsi oldu. Bu vaxt Rusiya Ermənistana artıq açıq-aşkar kömək etmək imkanını itirdi və kömək edəcəyi təqdirdə isə digər böyük dövlətlərin Azərbaycana yardım edəcəklərindən və Rusiyanın özünə qarşı təzyiqlərin meydana çıxacağından ehtiyat etməyə başladı. Bu gün də regionda qüvvələr balansının bərabər olmasındandır ki, heç bir tərəfin mövqeyi digər tərəfin mövqeyini üstələyə bilmir və münaqişə öz həllini tapmamış qalır.

Azərbaycanın iqtisadi, siyasi və hərbi sahədə gücünün getdikcə artması, regionda lider dövlətə çevrilməsi, nüfuzlu dövlətlər və təşkilatlar tərəfindən dəstəklənməsi nəticəsində





qüvvələr balansının gələcəkdə onun xeyrinə dəyişə biləcəyini istisna etmir. Lakin qüvvələr balansı təkcə dövlətin özünün daxili və xarici siyasətilə ölçülmür. Bu vaxt münaqişə tərəflərini dəstəkləyən dövlətlərin də nüfuzu, mövqeyi, onların münaqişəyə müdaxiləsi cəhdinin həm region, həm də həmin dövlətlərin özü üçün nə dərəcədə təhlükə törədə biləcəyi və həmin dövlətlərin öz aralarında razılığa gələ bilmələri, bir-birinə hansı güzəştlərə gedə biləcəkləri də qüvvələr balansına öz təsirini göstərir.

Qüvvələr balansına təsir edən amillərdən biri də ***diaspordur***. Hər hansı bir dövlət ərazisində məskunlaşmış müxtəlif milli azlıqlar öz diasporunu yaradırlar. Həmin diasporlar da öz lobbilərini təşkil edərək məskunlaşdıqları ölkədə bir sıra (xüsusilə də mənsub olduqları tarixi ölkələrinə dair) qərarların qəbul edilməsinə təsir etmək imkanı qazanırlar.

Ermənistanın «Yeni dövr» müxalifət partiyasının lideri A.Karapetyan da heç bir əlverişli şəraitə və mövqeyə malik olmayan Ermənistanın bütün dövlətlər üçün məhz öz diasporuna görə əhəmiyyətli və maraqlı olduğunu bildirib. Onun sözlərinə görə, erməni diasporu ABŞ-da və Fransada böyük nüfuza malikdir, bundan başqa müsəlman aləmində ən böyük xristian diasporudur. Həmin diaspordan «bəhrələnmək» üçün isə müstəqil Ermənistanın mövcudluğu mütləq vacibdir (207). A.Karapetyanın dediklərindən bu nəticəyə gəlmək olar ki, dövlətlər müstəqil Ermənistanla ermənistan diasporunun «xidmət»lərindən istifadə etmək üçün əməkdaşlıq edirlər. Ermənilərin «xidmət»ləri isə bütün dünyaya məlumdur.

Erməni diasporu böyük diasporlardan hesab edilir. Məsələn, ABŞ-da XX əsrin əvvəllərindən bu ölkəyə mühacirət etmiş bir milyona yaxın etnik erməni yaşayır. Erməni lobbisi ABŞ-ın iqtisadi-siyasi dairələrində geniş təmsil olunur. Onlar özlərinin çoxsaylı təşkilatlarına (o cümlədən siyasi təşkilatlara), dövri mətbuatlarına, radio, məktəb, elmi-tədqiqat

və s. bu tipli təsiretmə imkanları olan müəssisələrə malikdirlər (98, s.237).

1980-cı illərdə hadisələr başlayanda da müxtəlif ölkələrdə, xüsusilə ABŞ-da yaşayan ermənilər qarabağlı soydaşlarına kömək məqsədilə müdafiə təşkilatları yaradır, mitinqlər təşkil edir, yerli KİV-lər vasitəsilə Azərbaycan əleyhinə təbliğat aparırdılar. Həmin illərdə erməni diasporu ilə yanaşı erməni kilsəsi də hadisələrin gedişinə böyük təsir edirdi. Erməni din xadimləri məsələyə milli don geyindirməyə çalışırdılar. Xaricdə yaşayan erməni din xadimlərinin çıxışlarından belə nəticəyə gəlmək olurdu ki, sanki müsəlman dünyası ilə əhatə olunmuş Ermənistan yavaş-yavaş «çox böyük ərazilərini» itirmək təhlükəsi qarşısındadır (258, s.125, 127). Bu məsələ üstündən illər keçdikdən sonra – 2007-ci ildə yenidən Ermənistan rəsmiləri tərəfindən gündəmə gətirildi. Ermənistanın Baş naziri Serj Sarkisyan həmin il oktyabr ayının 19-da Amerikada çıxan «Los Angeles Times» qəzetinə müsahibəsində müsəlman ölkələrlə problemlərdə dinin rolundan danışarkən, Ermənistanın xristianlığın sərhədində yerləşdiyini, həm Türkiyə, həm də Azərbaycanla problemlərin əsasında isə məhz dini amilin durduğunu bildirdi. O, Ermənistan-Azərbaycan münaqişəsinə toxunaraq qeyd etdi: «Mümkündür ki, biz dünyanın həmin azsaylı xalqlarındanıq ki, Qarabağ məsələsində müsəlman çoxluğun tabeliyində olan xristian azlığıq. Bu halda da həmin amil çox əhəmiyyətli rol oynayır. Bir daha qeyd etmək istəyirəm ki, bu amil (dini amil – *K.R.*) mövcuddur» (375; 128). Sonra S.Sarkisyan jurnalistlərlə görüşündə «heç vaxt Qarabağ münaqişəsində dini zəminin durduğu»nu demədiyini, dediklərinin isə düzgün yozulmadığını bildirdi. Lakin o, bununla yanaşı, bir daha Qarabağ mübarizəsində hər halda dini amilin olduğunu qeyd etdi (350; 128).





2007-ci il iyul ayının 2-də Ermənistanın sabiq baş naziri Armen Darbinyan erməni diasporunun Rusiyada, ABŞ-da, Fransada və Latın Amerikasında böyük təsir gücünə malik olduğunu bildirərək qeyd edirdi: «Bu insanlar ermənilərin siyasi maraqlarını lobbiləşdirmək və onların iqtisadiyyatını inkişaf etdirmək üçün böyük potensialdırlar» (233).

Lakin Ermənistanla ABŞ-dakı erməni lobbisi arasında ziddiyyətlər də mövcuddur. ABŞ-dakı erməni lobbisi Ermənistan Respublikasının prezidenti R.Köçəryanın Moskvanın istəyinə uyğun hərəkət etdiyini bildirərək Ermənistan hökumətinin yürütdüyü siyasətdən narazılıq edir. Rəsmi Moskva da öz növbəsində ABŞ-ın Ermənistana təsir gücünün artmasını erməni lobbisinin xidmətləri sayır və bundan narahatlıq keçirir (35).

2006-cı il dekabr ayının 22-də Bakıda «Эхо Москвы» radiosuna müsahibə verən Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Ermənistanın bir ölkə kimi Azərbaycana rəqib olmadığını və erməni lobbisinin bu məsələnin həll olunması yolunda çətinliklər törətdiyini bildirmişdi. Ölkə başçısı qeyd etmişdi ki, Azərbaycan bütün sahələrdə erməni lobbisini üstələməlidir (69).

Müasir Azərbaycan dövlətinin xarici siyasəti qarşısında duran əsas vəzifələrdən biri də «Xaricdə yaşayan azərbaycanlıların potensialından səmərəli istifadə etmək»dir. Hələ XX əsrin əvvəllərində Əlimərdan bəy Topçubaşov ölkənin beynəlxalq münasibətlər sisteminə inteqrasiyası və onun maraqlarının daha səmərəli müdafiəsi üçün xaricdə azərbaycan lobbisinin yaradılmasını mühüm şərt hesab edirdi (237). 1990-cı illərdən isə ideya kimi mövcud olan Azərbaycan və türk diasporlarının birgə fəaliyyəti nəhayət 2007-ci ildə reallaşmağa başladı. Həmin il mart ayının 9-da Bakıda Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu keçirildi və bu, diasporların birgə fəaliyyətinin başlanğıcı oldu (60). Fo-

rum zamanı «Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası» adlı sənəd qəbul edildi (85). Bundan sonra Azərbaycan və türk diaspor təşkilatları birlikdə bir çox tədbirlərin həyata keçirilməsində yaxından iştirak etməyə başladılar.

***Münaqişənin fazaları.*** Mahiyyətindən, məzmun və formasından, iştirakçıların maraq və məqsədlərindən, ümumi beynəlxalq şərtlərdən və s. asılı olaraq münaqişənin inkişafının müxtəlif, o cümlədən əvvəlcədən deyilməsi mümkün olmayan fazaları* var (307, s.145-147).

* *I faza – Münaqişə – tərəflərin beynəlxalq arenada toqquşan iqtisadi və siyasi maraqları, həmçinin obyektiv və subyektiv ziddiyyətlər əsasında formalaşmış, əsasən, siyasi münasibətlərini əhatə edir. II faza – Obyektiv və subyektiv ziddiyyətləri həll etmək məqsədilə münaqişə tərəflərinin dinc və ya qeyri-dinc vasitələri tətbiq etmə, o cümlədən xarici birlik və xarici şəraitdən istifadə potensialını və imkanlarını nəzərə almaqla öz maraq, məqsəd, strategiya və mübarizə formalarını obyektiv olaraq müəyyənləşdirməsini, ümumi tarixi və beynəlxalq vəziyyəti qiymətləndirməsini əhatə edir. Bu fazada münaqişə tərəfləri ziddiyyətlərin bu və ya digər tərəfin maraqları baxımından və ya tərəflər arasında güzəşt əsasında həll edilməsi məqsədilə mübarizə və əməkdaşlıq xarakteri daşıyan qarşılıqlı fəaliyyət sistemi müəyyən edir, yaxud az da olsa həyata keçirir; III faza – münaqişə edənlər tərəfindən iqtisadi, siyasi, ideoloji, psixoloji, mənəvi, hüquqi, diplomatik və hərbi (birbaşa silahlı mübarizə formasında olmamaq şərtilə) vasitələrin geniş diapazonda istifadəsi, bu və ya digər formada münaqişənin birbaşa iştirakçılarının mübarizəsinə başqa dövlətlərin - fərdi, bloklar və müqavilələr vasitəsilə, BMT vasitəsilə - cəlb edilməsi, bununla da siyasi əlaqələr sisteminin və bütün münaqişə (bilavasitə və bilvasitə) tərəflərinin hərəkətlərinin gərginləşməsi; IV faza – mübarizənin ən yüksək siyasi səviyyəyə - beynəlxalq siyasi böhranadək böyüməsi. Bu vaxt siyasi böhran bütün dünyanı əhatə edə bilər ki, bu da silahlı mübarizəyə gətirib çıxarar. Bu fazada hər hansı bir tərəfin maraq, məqsəd və strategiyasından (və ya digər tərəfin hərəkətləri müqabilində, yaxud vəziyyətdən asılı olaraq) irəli gələn hərbi qüvvənin nümayişi məqsədilə praktiki tətbiqinə şüurlu keçid baş verə bilər; V faza – məhdud münaqişədən başlayan və müasir silahların tətbiqi ilə silahlı mübarizənin daha yüksək səviyyəyə - müttəfiqlərin və böyük dünya dövlətlərinin cəlb olunması, ərazilərin genişləndirilməsi səviyyəsinədək inkişaf edə biləcək beynəlxalq silahlı münaqişə (307, s.145-147).*





Ermənistan-Azərbaycan münaqişəsinin inkişafı prosesini mərhələlərə ayırsaq I mərhələ kimi, ümumiyyətlə, ermənilər və azərbaycanlılar arasında Dağlıq Qarabağ uğrunda mübarizənin 1988-ci ilədək olan dövrünü götürmək olar. Həmin müddət ərzində tərəflər arasında həmişə Dağlıq Qarabağla bağlı ziddiyyətlər mövcud olub. Hər iki tərəf həmin ərazilərin ona məxsus olduğunu tarixi, hüquqi və s. cəhətlərdən sübut etməyə çalışıb və bu sahədə müxtəlif işlər aparıblar. Xüsusilə ermənilər bu sahədə mümkün bütün variantlara əl atıblar. Münaqişənin nisbətən sakit görünən dövrü hər iki respublikanın SSRİ tərkibində olduğu dövrə təsadüf edir; II faza kimi 1988-1992-ci illəri götürmək olar. Həmin dövr ərzində tərəflər aralarındakı ziddiyyətləri daxili və beynəlxalq vəziyyətdən istifadə edərək öz imkanları və istəklərinə uyğun şəkildə həll etməyə çalışırdılar. Lakin 1990-cı ildən III fazanın əlamətləri özünü göstərməyə başladı. Bu vaxtdan başlayaraq Ermənistan sovet hökumətinin dəstəyi ilə Dağlıq Qarabağın bir sıra kənd, rayon və şəhərlərini işğal etdi və Dağlıq Qarabağdan azərbaycanlı əhalinin öz ata-baba yurdundan didərgin salınmasına səbəb oldu. Bu mərhələdə Rusiya, Türkiyə, Qazaxıstan, İran və s. dövlətlər münaqişənin həllində vasitəçilik etməyə cəhdlər etdilər.

1992-ci ildən isə münaqişə tam olaraq III fazaya keçir. Həmin vaxtdan ayrı-ayrı dövlətlər və təşkilatlar münaqişənin həlli prosesinə cəlb edilməyə başlayırlar. Çünki həmin vaxt ərzində həm Azərbaycan, həm Ermənistan artıq digər dünya dövlətləri tərəfindən tanınmış və bir sıra təşkilatlara üzv olmuşdular. Bu müddətdə vəziyyət daha da gərginləşdi və Azərbaycanın Dağlıq Qarabağla həmsərhəd olan daha yeddi rayonu Ermənistan tərəfindən işğal edildi. Bir sıra dövlətlər

vasitəçilik missiyasını öz əllərinə almaq üçün bir sıra cəhdlər etdilər. ATƏT də məhz 1992-ci ildən Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesinə qoşulub. Həmin vaxtdan indiyədək münaqişə özünün üçüncü mərhələsindədir. 2001-ci ildən, Azərbaycan və Ermənistan Avropa Şurasına daxil olduqları vaxtdan, bir sıra digər təşkilatların da münaqişənin nizamlanması prosesinə cəlb edilməsinə səylər göstərilir. Mütəmadi olaraq münaqişə AŞ PA-nın sessiyalarına çıxarılır. 2006-cı ildən yeniləşərək Demokratiya və İqtisadi İnkişaf uğrunda beynəlxalq Təşkilata çevrilən GUAM-ın təklifi ilə elə həmin il bütün üzv dövlətlərin ərazisində baş verən münaqişələrlə birlikdə Ermənistan-Azərbaycan münaqişəsi də BMT-nin Baş Məclisinə çıxarıldı və bir sıra digər tədbirlər görüldü. Son dövrlərdə isə münaqişənin inkişafı prosesində IV faza özünü göstərməyə başlayıb. Hər iki dövlət, həm Azərbaycan, həm də Ermənistan münaqişənin sülh yolu ilə həll olunmazsa hərbi yolla həll ediləcəyini və ölkənin hərbi qüvvələrinin buna hazır olduğunu bildirirlər.

***Münaqişənin inkişafı təsnifatı.*** Kanada politoloqu A.Rappoportun təsnifatına əsasən münaqişələr üç formada inkişaf edirlər: «mübarizə», «oyun», «debat». «Mübarizə» formasına cəlb olunmuş tərəflər əvvəlcədən bir-birinə münasibətdə müharibə əhval-ruhiyyəsində olurlar və öz rəqiblərinə daha ağır zərbə endirməyə cəhd edirlər. Bu vaxt tərəflər öz qarşılarına əlçatmaz məqsədlər qoyur, beynəlxalq vəziyyəti və əks tərəfin fəaliyyətini qeyri-adekvat dəyərləndirirlər. Münaqişənin «oyun» formasında inkişafı zamanı iştirakçıların davranışı səmərəli (rasional) şəkildə ölçülüb-biçilmiş olur. Üzdə tərəflər döyüşkən mövqe tutsalar da, əslində, münasibətlərin tam kəskinləşməsinə meylli olmurlar. «Oyun» formasında inkişaf edən münaqişələr zamanı qərarlar vəziyyət obyektiv dəyərləndirilərək bütün amil və imkanlar nəzərə alınmaqla qəbul edilir. «Debat» formasında inkişaf edən mü-





naqişələrdə iştirakçılar yaranmış ziddiyyətləri güzəşt yolu ilə həll etməyə cəhd edirlər (307, s.144).

Ermənistan-Azərbaycan münaqişəsinin gedişini bu təsnifata uyğun izah etsək, onda münaqişənin əvvəl «mübarizə», sonra isə «debat» formasında inkişaf etdiyini görərik. Çünki ilk illərdən atəşkəs tətbiq edilənədək (1988-1994-cü illər), Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar olaraq, münaqişəni müharibə yolu ilə həll edilməyə çalışırdılar. Buna görə də münaqişə «mübarizə» formasında inkişaf edirdi. 1995-ci ilin dekabr ayından bu günədək isə münaqişə «debat» formasında inkişaf edir. 1999-cu ilin aprel ayından dövlət başçılarının birbaşa dialoqları təşkil olunmağa başlanıb. Lakin münaqişə «debat» formasında inkişaf etməklə yanaşı, həmişə «oyun» forması da özünü göstərmişdir və hələ də göstərməkdədir. Tərəflər danışıqların nəticə verməyəcəyi halda münaqişənin silah yolu ilə həll ediləcəyini bildirirlər. Bununla yanaşı, hadisələr mövcud vəziyyət real qiymətləndirilərək ölçülüb-biçilmiş şəkildə inkişaf etdirilir.

***Münaqişənin həlli istiqamətləri.*** Bütün münaqişələrin sülh yolu ilə həllinin müxtəlif istiqamətləri mövcuddur:

- *münaqişənin qarşısının alınması;*

Bu vaxt silahlı toqquşmaların qarşısı alınır, yaxud, əgər silahlı toqquşma artıq başlayıbsa, onda barışıq, yaxud atəşin dayandırılması haqqında razılıq əldə edilir.

- *münaqişənin nizamlanması;*

Bu vaxt münaqişənin əsas səbəbi aradan qaldırılmır, yalnız onun inkişafının qarşısı alınır. Münaqişənin daha da pisləşməyəcəyinə dair şərt qoyulur, eyni zamanda onun həlli gələcəyə saxlanılır.

- *münaqişənin həll edilməsi;*

Bu vaxt münaqişə törədən səbəblər tamamilə aradan qaldırılır və bir qayda olaraq münaqişənin həll olunmasına dair razılıq imzalanır (307, s.148-149).

Bütün bu istiqamətləri münaqişənin həlli prosesinin mərhələləri kimi qəbul etmək olar.

Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesində 1994-cü ilin may ayında imzalanmış «atəşkəs haqqında» saziş münaqişənin qarşısının alınması istiqamətində atılmış addımdır. Həmin sazişin imzalanması ilə Ermənistan və Azərbaycan arasında silahlı toqquşmaların qarşısı rəsmən alındı.

Hazırda isə işlər münaqişənin nizamlanması istiqamətində gedir. Münaqişə tərəfləri və vasitəçilər bu istiqamətdə danışıqlar aparır və buna nail olmağa çalışırlar.

***Ermənistan-Azərbaycan münaqişəsi zamanı beynəlxalq hüququn pozulmuş prinsipləri.*** Ermənistan Azərbaycan torpaqlarını işğal etməklə ATƏM-in (ATƏT-in) 1 avqust 1975-ci il tarixli Helsinki yekun aktında öz əksini tapmış bir sıra beynəlxalq prinsipləri pozub.

Həmin prinsiplərdən biri *«güc tətbiq etməmək və ya güclə hədələməmək»* prinsipidir. Ermənilər:

I – digər dövlətin (burada: Azərbaycanın – *K.R.*) beynəlxalq sərhədlərini pozmaq məqsədilə, o cümlədən ərazi və sərhəd mübahisəsini həll etmək üçün güc tətbiq ediblər;

II – qeyri-nizami qüvvələr, silahlı dəstələr təşkil ediblər və onların təşkilinə dəstək veriblər;

III – digər dövlət (burada: Azərbaycan – *K.R.*) ərazisində terror aktları təşkil ediblər;

IV – digər dövlətin (burada: Azərbaycanın – *K.R.*) ərazisini qeyri-qanuni güc tətbiq etməklə işğal ediblər.

Yuxarıda sadalananlar hamısı hüquqazidd hərəkətlər sayılır*.

Münaqişədə Azərbaycan Respublikasının qarşı tərəfə silahlı cavabı kimi hərəkəti isə hüquqazidd sayılmamalıdır.

**Hərəkətlərin göstərilən prinsiplərə əsasən hüquqazidd olması L.Hüseynovun «Beynəlxalq hüquq» kitabına əsasən müəyyənləşdirilib.*





Çünki göstərilən prinsiplərə əsasən iki halda silahlı gücün tətbiqinə yol vermək mümkündür ki, onlardan biri ***özünü-müdafiədir***. Bu vaxt dövlət silahlı basqından özünü müdafiə etmək məqsədilə fərdi, yaxud digər dövlətlərin köməyi ilə güc tətbiq edə bilər (113, s.37).

Ermənistan erməniləri Dağlıq Qarabağda yaşayan ermənilərin hüquqlarının «pozulmasını» bəhanə gətirərək Azərbaycan ərazilərinə təcavüz etməklə və orada milli qarşıdurma yaratmaqla BMT Baş Məclisinin 9 dekabr 1981-ci il tarixli 36 /103 XXXVI qətnaməsinin «Digər dövlətin işlərinə qarışmamaq haqqında» bəyannaməsinin aşağıda göstərilən bəndlərini də pozublar. Bəyannaməyə əsasən:

I. . . .

1. Heç bir dövlət, yaxud dövlətlər qrupu hər hansı formada və ya hər hansı səbəbdən digər ölkələrin daxili işlərinə müdaxilə edə və ya qarışa bilməz;

2. Dövlətin daxili işlərinə müdaxilə və qarışmadan çəkinmə prinsipi aşağıdakı hüquq və öhdəlikləri əhatə edir:

II. a) özünün beynəlxalq münasibətlərində güc ilə hədələməkdən, digər dövlətlərin beynəlxalq tanınmış sərhədlərinin hər hansı formada gücdən istifadə etməklə dəyişdirməkdən, digər dövlətlərin siyasi, sosial və iqtisadi durumunu pozmaqdan, digər dövlətin, yaxud onun hökumətinin siyasi sistemini devirməkdən, yaxud dəyişməkdən, dövlətlər arasında gərginlik yaratmaqdan, yaxud millətləri öz milli kökündən və mədəni irsindən məhrum etməkdən çəkinmək dövlətin borcudur;

. . .

II. c) silahlı müdaxilədən, parçalama siyasətindən, hərbi işğaldan və ya digər dövlətə və ya dövlətlər qrupuna qarşı yönəlmiş hər hansı açıq, yaxud gizli formada müdaxilə və qarışmadan, yaxud digər dövlətin daxili işinə hərbi, siyasi və iq-

tisadi müdaxilə aktlarından, o cümlədən təzyiq tədbirləri və güc tətbiqetmə aktlarından çəkinmə ölkənin borcudur;

. . .

II. e) hər hansı formada, yaxud hər hansı bəhanə ilə digər dövlətin, yaxud onun hər hansı institutunun sabitliyini pozmaq fəaliyyətindən, yaxud cəhdindən çəkinmək dövlətin borcudur;

II. f) digər dövlətlərin siyasi quruluşunun devrilməsinə, yaxud parçalanmasına, birliyinin pozulmasına yönəlmiş hər hansı fəaliyyətdən, yaxud hər hansı bəhanə ilə digər dövlətlərdə separatçılıq, yaxud qiyamçı fəaliyyətinə birbaşa, yaxud dolayı yardım, həvəsləndirmə və dəstəkləməkdən çəkinmə dövlətin borcudur;

. . .

II. o) digər dövlətin ərazisində onun razılığı olmadan hər hansı iqtisadi, siyasi, yaxud hərbi fəaliyyətdən çəkinmə dövlətin borcudur (19).

Pozulmuş digər prinsip *«sərhədlərin toxunulmazlığı»* prinsipidir. Həmin prinsipə görə mövcud sərhədlər beynəlxalq hüquqa müvafiq olaraq müəyyən olunur və bu prinsip bütün dövlətlər tərəfindən tanınır (113, s.42). Ermənistan isə Azərbaycanın sərhədlərini pozduğu, Azərbaycana qarşı ərazi iddiası etdiyi və Azərbaycan dövlətinin sərhədlərinə qarşı qəsd etdiyi üçün beynəlxalq hüququn həmin prinsipini pozmuş sayılır.

Pozulmuş daha bir prinsip isə *«ərazi bütövlüyü»* prinsipidir.

Həmin prinsipə əsasən müstəmləkə və ya federasiya subyektlərinin əvvəlki sərhədləri yeni müstəqil dövlətlərin beynəlxalq sərhədləri olur və müvafiq razılıq olmadan dəyişdirilə bilməz. Dövlətlər bir-birinin ərazi bütövlüyünə hörmət etməlidirlər və hər bir dövlət digər dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş hərəkətlərdən çəkinməlidir. Dövlətlərin ərazisi güc tətbiq etməklə hərbi işğal obyekti ola bilməz (113, s.42).





Ermənipərəst mövqeyi ilə məşhur olan Minsk qrupunun keçmiş və birinci rusiyalı həmsədri Vladimir Kazimirovun fikrincə, Helsinki yekun aktında öz əksini tapmış prinsiplər iki zidd düşərgə tərəfindən və üçüncü dünya müharibəsinin qarşısının alınması məqsədilə müəyyənləşmişdi və öz dövrünün tələblərini əks etdirirdi. Bununla yanaşı, o özü qeyd edir ki, prinsiplərin öz dövrü ilə bağlı olması onların həmin dövrlə birgə keçib getməsi demək deyil. Həmin prinsiplərin gələcəyi var və onlar dövlətlər arasında münasibətlərin tənzimlənməsinin, hətta dünya sivilizasiyasının əsasında dururlar. O, qeyd edir ki, 1990-cı illər artıq həmin 1975-ci il deyildi. Bu artıq dünya sisteminin dəyişdiyi, bir dövlətin dağılıb, onun yerində bir-neçə dövlətin yarandığı dövr idi. Bu vaxt ərazi bütövlüyü prinsipi öz əvvəlki qüvvəsini tam qoruya bilmədi. Misal kimi isə o, SSRİ-ni, Yuqoslaviyanı, Çexoslavakiyanı və Efiopiyanı (Həbəşitanı) göstərir (279).

Bəzi tədqiqatçılar da belə hesab edirlər ki, soyuq müharibənin başa çatması ilə əks düşərgələrin mövqeyini əks etdirən prinsiplər öz əhəmiyyətini itirdi. İndi artıq israr etmək olmaz ki, mövcud dövlətlər öz birliyini qoruyub saxlamalıdırlar və beynəlxalq sərhədlər dəyişikliyə məruz qala bilməz (198).

Lakin yuxarıda göstərmişdik ki, qarşılıqlı razılıq əsasında dövlətlərin sərhədləri və əraziləri dəyişdirilə bilər, o cümlədən bir dövlət bir-neçə suveren dövlətə ayrıla, yaxud bir neçə suveren dövlətin birləşməsindən bir dövlət yarana bilər. Misal kimi göstərilən dövlətlərin də tərkibində bir neçə respublika birləşmişdi ki, vahid dövlət tərkibində öz sərhədlərinə malik idilər. Adı çəkilən dövlətlər də bir-birindən məhz həmin sərhədlər üzrə və qarşılıqlı razılıq əsasında ayrılmışdılar. Eritreyaya gəldikdə isə o, uzun müddət İtaliyanın müs-

təmləkəsi, sonra Böyük Britaniyanın protektoratı, 1952-ci ildən isə Efiopiyanın tərkibində federasiya olmuşdu. 1960-cı illərdən Eritreyada müstəqillik uğrunda mübarizə başlamışdı, 1993-cü ildə isə o, müstəqillik əldə etmişdi. Eritreyanın Efiopiyadan ayrılması sonda hər iki tərəfin qarşılıqlı razılığı əsasında mümkün olmuşdu.

Onu da xüsusi qeyd etmək lazımdır ki, SSRİ, Yuqoslaviya və Çexoslavakiya dövlətləri öz ərazilərini sonradan müstəqil olmuş həmin respublikalar hesabına qurmuşdular. Ermənilər isə müstəqil Azərbaycan dövlətinin əraziləri hesabına ikinci erməni dövləti yaratmaq niyyətindədirlər.

Ermənistan, əslində, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməyərək onu pozub və ərazisini silah gücünə işğal edib.

Münaqişənin başlandığı vaxtdan indiyədək keçdiyi inkişaf yollarını araşdırdıqda görürük ki, o, SSRİ və Ermənistan Respublikasının məqsədyönlü siyasəti nəticəsində yaradılıbdır. Keçdiyi mərhələlər ərzində isə Ermənistan tərəfi kənar qüvvələrin köməyi sayəsində qanunazidd hərəkət edərək beynəlxalq hüququn bir sıra prinsiplərini pozdub və Azərbaycan ərazilərinə təcavüz edərək onun bir hissəsini işğal edibdir. Azərbaycan tərəfinin isə tarixi ərazilərinə qarşı yönəlmiş təcavüzün qarşısını almaq məqsədilə atdığı addımlar isə qanun çərçivəsində olmuşdur. Gələcəkdə münaqişənin bir daha təkrarlanmaması üçün onun təkcə nizamlanması yox, həm də mütləq birdəfəlik həll edilməsi vacibdir.





# FƏSİL 2

## ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNDƏ DÖVLƏTLƏRİN VARİSLİYİ MƏSƏLƏSİ VƏ «ÖZ MÜQƏDDƏRATINI TƏYİNETMƏ» HÜQUQU

Dağlıq Qarabağa olan iddialarının ərazi iddiaları olmadığını «əsaslandırmaq» üçün ermənilər müxtəlif «arqument»lərdən çıxış edirlər. Onlar Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə Dağlıq Qarabağın onun tərkibində olmadığını və Azərbaycan Respublikasının da özünü AXC-nin varisi elan etdiyi üçün Dağlıq Qarabağın müstəqil Azərbaycanın sərhədləri hüdudlarından kənarda qaldığını iddia edirlər. Bunun da, öz növbəsində, Dağlıq Qarabağ «xalqı»na öz müqəddəratını istədiyi şəkildə həll etmək imkanı verdiyini bildirirlər.

***Dövlətlərin varisliyi.*** Varislik nədir və bir dövlət özünü digər dövlətin varisi elan etdikdə hansı qaydalara riayət etməlidir?

Varislik - hüquq və öhdəliklərin hüququn bir subyektindən digər subyektinə keçməsidir və qanun, müqavilə, yaxud digər hüquqi əsaslarla həyata keçirilə bilər. Bir ölkənin hüquq və öhdəlikləri digər ölkəyə aşağıdakı hallarda keçə bilər:

- ictimai quruluşu dəyişməklə nəticələnən sosial inqilab zamanı;
- milli-azadlıq mübarizəsi nəticəsində yeni müstəqil dövlətlər yaranan zaman;
- sələf ölkənin ərazisində bir neçə dövlətin yaranması, yaxud iki və daha artıq dövlətin birləşməsi nəticəsində bir dövlət yaranan zaman;
- ərazi dəyişikliyi baş verən zaman.

Yeni yaranmış dövlətlərin varisliyi zamanı beynəlxalq müqavilələr, onların ləğv edilməsi, beynəlxalq təşkilatlarda üzvlük, milliləşdirilmə, əmlak varisliyi kimi məsələlərə yenidən baxılır.

Dövlətlərin varisliyinə dair iki beynəlxalq konvensiya mövcuddur: «Müqavilələrə münasibətdə dövlətlərin varisliyi haqqında 1978-ci il Vyana Konvensiyası» və «Dövlət əmlakına, arxivlərinə və borclarına münasibətdə dövlətlərin varisliyi haqqında 1983-cü il Vyana Konvensiyası» (113, s.57).

Varislik faktı bir sıra müqavilələrə, o cümlədən dövlət sərhədlərini müəyyən edən müqavilələrə toxunmur (113, s.59). 1978-ci il Vyana konvensiyasının 11-ci bəndində də varisliyin müqavilə əsasında təyin edilmiş sərhədlərə aid olmadığı göstərilir (17).

Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının 62-ci maddəsinin 2-ci bəndinin «a» bölməsində də göstərilir: vəziyyət kökündən dəyişdiyi və dövlətin beynəlxalq müqaviləni birtərəfli tərk edəcəyinə əsas yarandığı halda belə dövlət, əgər həmin müqavilə ilə sərhədlər müəyyən edilirsə, müqavilədə iştirakını dayandıra bilməz (16).

Dövlət özünü hər hansı dövlətin varisi elan edirsə etsin, bunu yalnız özünü varis elan etdiyi anda malik olduğu sərhədlər çərçivəsində etmək hüququna malikdir. Müasir beynəlxalq hüquq dövlət sərhədlərinin «tarixi əsaslar üzrə» dəyişdirilməsini istisna edir. Hər hansı dövlətin ərazisi nə vaxtsa digər dövlətə məxsus olubsa da indiki vaxtda heç bir halda həmin ərazilər iddia predmeti ola bilməz. Əks halda bu, «ərazi bütövlüyü» və «sərhədlərin toxunulmazlığı» prinsiplərinin pozulmasına gətirib çıxarardı. Dövlətlərin əraziləri isə yalnız beynəlxalq hüquqa uyğun olaraq beynəlxalq müqavilə, birləşmə, ayrılma və s. əsasında dəyişdirilə bilər (329). Buna uyğun olaraq Azərbaycan Respublikasının da özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etməsi onun özünü





məhz varis elan etdiyi anda malik olduğu sərhədləri çərçivəsində mümkündür. Və AXC mövcud olduğu dövrdə «mübahisəli» olub, sonradan həllini tapan, yaxud həmin dövrdə AXC-nin tərkibində olub sonra SSRİ dövründə digər respublikalara verilən ərazilər, Azərbaycanın özünü varis elan etməsi ilə avtomatik olaraq həmin dövrdəki vəziyyətini və statusunu geri qaytara bilməz. Əgər belə olsaydı onda Ermənistan Respublikası əvvəl AXC-nin ərazisi olmuş, lakin Sovet dövründə ona verilmiş torpaqlardan könüllü olaraq vaz keçməli və onları Azərbaycana qaytarmalı olardı. Ya da ki, əgər dövlət özünü varis elan etməklə istədiyi əraziləri əldə edə bilərsə, onda Ermənistan özünü indiki Ermənistan ərazisinin də daxil olduğu ərazilərdə mövcud olmuş hansısa daha böyük dövlətin varisi elan edərdi və bununla da onun ərazilərinə yiyələnməklə hər bir ermənin arzusu olan «Böyük Ermənistan» dövlətini yaradardı. Yaxud Rusiya dövləti SSRİ-nin davamçısı olmaqla yanaşı rus imperiyasının varisi hesab edilirsə, onda gərək imperiyaya aid olmuş bütün torpaqlar yenidən ona qaytarılaydı.

4 dekabr 1991-ci il tarixli «SSRİ-nin xarici dövlət borclarına və aktivlərinə münasibətdə varislik haqqında» müqavilənin preambluasında göstərilir ki, SSRİ öz keçmiş subyektlərinə münasibətdə dövlət-sələf mövqeyindən çıxış edir (329). Bu da bütün keçmiş müttəfiq respublikaların SSRİ-nin varisi olduğunu göstərir. Düzdür, müttəfiq respublikalar arasında özünü SSRİ-nin varisi olmadığını iddia edən respublikalar da oldu. Lakin həmin respublikalarla da SSRİ-yə aid bəzi məsələlərin həll edilməsində varislik üçün nəzərdə tutulmuş qaydalara uyğun əməl edildi. Bu da hər bir müttəfiq respublikanın, ən azı dolayısı yolla, SSRİ-nin varisi olduğunu göstərir.

Konkret məsələlərlə bağlı varislik problemləri hər dövlətin öz istəyinə uyğun olaraq ikitərəfli beynəlxalq müqavilə

əsasında həll edilir. Beynəlxalq hüquqa əsasən bir (varis – K.R) dövləti digər (sələf – *K.R.*) dövlətin öhdəliklərini öz razılığı olmadan üzərinə götürməyə məcbur edən heç bir qanun yoxdur. Dövlətlərin varisliyinə dair qüvvədə olan beynəlxalq-hüquqi normalar adi hüquq normalarına uyğundur, yaxud maraqlı dövlətlərin razılığı əsasında həyata keçirilir (302, s.70). Dövlətlər əgər razılığa gələ bilməsələr, onda varislik məsələlərinin yuxarıda göstərilən Konvensiyaların müddəalarına əsasən həyata keçirilməsi nəzərdə tutulur. Konvensiyalarda, həmçinin göstərilir ki, hətta nəzərdə tutulmamış varislik məsələləri beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilir.

Varis dövlətə o hüquq və öhdəliklər keçir ki, dövlət özü onları qəbul etsin.

Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etməklə yanaşı, SSRİ-nin digər respublikaları ilə birgə varisliyə dair müəyyən müqavilələrdə - «SSRİ-nin xarici dövlət borclarına və aktivlərinə münasibətdə varislik haqqında» 4 dekabr 1991-ci il tarixli müqaviləsində; MDB-nin iştirakçı-dövlətlərinin ölkə başçılarının «Keçmiş SSRİ-nin xaricdəki mülkiyyəti haqqında» 30 dekabr 1991-ci il tarixli Sazişində; «Keçmiş SSRİ-nin qarşılıqlı maraq kəsb edən müqavilələrinə münasibətdə qarşılıqlı anlaşma haqqında» 6 iyul 1992-ci il Memorandumunda; Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında «SSRİ-nin xarici dövlət borclarına və aktivlərinə münasibətdə varislik məsələlərinin nizamlanması haqqında» 7 sentyabr 1993-cü il razılaşmasında və s. iştirak etdiyi üçün həm də SSRİ-nin varisi sayılır. Yuxarıda qeyd etdiyimiz kimi SSRİ-i də öz keçmiş subyektlərinə münasibətdə dövlət-sələf mövqeyindən çıxış edir.

Bütün yuxarıda göstərilənlər bir daha sübut edir ki, Azərbaycan Respublikası hansı dövlətin varisi olmasından asılı olmayaraq, bütün digər postsovet respublikaları kimi





özünün SSRİ-nin süqut etdiyi vaxtda malik olduğu sərhədlərini qoruyub saxlamış sayılır. Dağlıq Qarabağ da Azərbaycanın tərkib hissəsi olduğu üçün onun sərhədlərindən kənarda qala bilməzdi. Bundan başqa, Dağlıq Qarabağ AXC vaxtında da Azərbaycanın tərkibində olmuşdu ki, bu haqda növbəti fəsillərdə danışacağıq.

***«Millət*», «xalq**», «milli azlıq»lar və öz müqəddəratını təyinetmə hüququ***.*** XX əsrin əvvəllərində və sonunda mövcud imperiyaların süqutu ilə bir çox millətlər «öz müqəddəratını təyinetmə» prinsipinə əsaslanaraq öz milli dövlətlərini qurdular.

Lakin «millət»in və ya «xalq»ın «öz müqəddəratını təyinetmə»si milli dövlətlərin yaranması ideyası ortaya çıxdığı vaxtdan ziddiyyətli və mürəkkəb məsələ olaraq qalmaqdadır. Milli dövlətlərin yaranması iki yeni həmsərhəd dövlət arasında demək olar ki həmişə münaqişə vəziyyətinin yaranmasına, ya da münaqişəyə səbəb olur. Buna səbəb sərhəd zonalarında hər iki millət nümayəndələrinin birgə qarışıq yaşaması və onların yaşayış tərzlərinin bir-birilə qarışmasıdır. Milli dövlətlərin yaranması ilə həmin ərazilərin hansı dövlətin tərkibinə daxil edilməsi məsələsi meydana çıxır. Bu vaxt həmin problem ərazinin hansı dövlət ilə ərazi bağlılığı olduğu nəzərə alınmaqla, yaxud həmin ərazidə yaşayan əhalinin hansı dövlətin ərazisində yaşamaq istəyi nəzərə alınmaqla (referendum yolu ilə) həll edilir.

---

* *«Millət» - harada yaşamasından asılı olmayaraq vahid genotipə malik və bir-birinə milli şüur ilə bağlı insanlar qrupudur (153, s.159)*

** *«Xalq» - etnoqrafik milliyyətindən asılı olmayaraq bir dövlət ərazisində yaşayan insanlar qrupudur. (153, s.159)*

*** *«Millətin öz müqəddəratını təyinetməsi» və «Millətin öz müqəddəratını təyinetməsi hüququ» terminləri ilk dəfə XIX əsrin 70-ci illərinin sonunda meydana çıxıb. 1896-cı ildə isə «Millətin öz müqəddəratını təyinetmə» hüququ II İnternasionalın London Konqresi tərəfindən tanınıb.*

XX əsrin əvvəllərində müstəqil Azərbaycan və Ermənistan dövlətləri yaranandа da ermənilər azərbaycanlılırla birgə yaşadıqları bəzi digər ərazilərlə bərabər tarixən Azərbaycan torpağı olmuş Qarabağın dağlıq əraziləri uğrunda mübarizəyə başladılar. Baxmayaraq ki, Dağlıq Qarabağ Ermənistanla Azərbaycan arasında sərhəd zonası deyildi, Sovet hakimiyyəti dövründə hər halda orada yaşayan əhaliyə öz müqəddəratım təyin etmək imkanı verildi. Dağlıq Qarabağın Azərbaycanla ərazi bağlılığı nəzərə almaraq, həmçinin burada yaşayan əhalinin istəyi və iradəsilə onun Azərbaycan ərazisi olaraq qalmasına qərar verildi və Dağlıq Qarabağ muxtar vilayəti yaradıldı.

Üstündən illər keçdikdən, sovet imperiyasının da hələ mövcud olduğu bir vaxtda (1988-ci ildə) Ermənistanın təhriki ilə Dağliq Qarabağ ermənləri yenidən ilk əvvəl ortaya DQMV-nin Ermənistana birləşdirilməsi məsələsini atdılar. Sonra SSRİ-nin süqutunu gördükdə isə hərəkətlərini mövcud qanunlara əsaslanaraq «öz müqəddəratlarını təyinetmə» prinsipi və hüququ üzərində qurduqlarını bildirdilər.

Ermənilər öz müqəddəratını təyinetmə prinsipinin Vilson* variantına üstünlük verdiklərini bildirirlər. Vilsonun isə, öz növbəsində, öz müqəddəratını təyinetmə prinsipinə tarixi şərait və vəziyyətdən asılı olaraq müxtəlif münasibətləri olmuşdur. O ilk əvvəl milli özünü təyinetmənin tərəfdarı olmuş, sonra isə xalqın hökuməti seçmək hüququnu ön plana çəkməklə xalqın öz müqəddəratını dövlət daxilində təyinetməsi ideyasını irəli sürmüşdü. Məsələn, Versal konfransı zamanı onun təklif etdiyi 14 bənddən ibarət sülh planında göstərilirdi ki, Rusiya xalqı özü üçün lazım saydığı hökuməti seçməlidir.

* *Vudro Vilson 1913-1921-ci illərdə ABŞ prezidenti olub. O, I Dünya Müharibəsi zamanı məğlub edilmiş dövlətlərə güzəşt edilməsini təkid edirdi və xalqların «öz müqəddəratını təyinetməsi»ni müdafiə edirdi. Vilsonun ideyaları gələcəkdə müstəmləkəçilikdən qurtulma prosesi üçün əsas oldu.*





Bir müddət sonra Vilson prinsipdə dəyişiklik edərək xalqın öz müqəddəratını istədiyi şəkildə - istər hər hansı dövlətin tərkibində, istərsə müstəqil dövlət olaraq – təyin etmək hüququ olduğunu bildirdi (245).

Bütün bunlarla yanaşı, hər millət öz müqəddəratını bir dəfə təyin etmək hüququna malikdir. Həm ermənilər, həm də azərbaycanlılar, qeyd etdiyimiz kimi, bir millət olaraq öz müqəddəratlarını artıq XX əsrin I yarısında müstəqil dövlətlərini quraraq təyin ediblər. Dağlıq Qarabağda yaşayan ermənilər isə Dağlıq Qarabağ əhalisinin bir hissəsi olaraq öz müqəddəratlarını 1923-cü ilin avqust ayında referendum yolu ilə Azərbaycanın tərkibində muxtar vilayət olaraq qalmaqla təyin ediblər.

Yalnız o xalq öz müqəddəratını təyin edə (burda söhbət öz müqəddəratını xarici təyinetmədən gedir – *K.R*) bilər ki, onun yaşadığı ərazi müstəmləkə, yaxud daxil olduğu dövlətin tərkib hissəsi olmayaraq ondan asılı olsun, və ya daxil olduğu dövlətin konstitusiyası ölkə tərkibində olan ayrı-ayrı ərazilərə ayrılmaq hüququ versin, yaxud yaşadıqları dövlət onların bərabərlik hüququnu və öz müqəddəratını təyinetmə hüququnu (burada söhbət öz müqəddəratını daxili təyinetmədən gedir – *K.R.*) tanımasın (302, s.61).

Dağlıq Qarabağ isə tarixən Azərbaycan ərazilərinin ayrılmaz tərkib hissəsidir və Azərbaycan Respublikasının (həmçinin Azərbaycan SSR-in) Konstitusiyası heç bir ərazisinə ayrılmaq hüququ nəzərdə tutmur. Dağlıq Qarabağda yaşayan əhalinin bir hissəsi olan erməni əhaliyə isə muxtariyyat verməklə Azərbaycan dövləti onların öz müqəddəratlarını təyinetmə hüquqlarını tanıdığını göstərib. Bu səbəbdən də Dağlıq Qarabağda yaşayan erməni əhalinin yenidən «öz müqəddəratını (xarici – *K.R.*) təyinetmə» istəyi heç bir prinsipə əsaslanmır. Azərbaycan müstəqil bir dövlətə çevrildiyi vaxtdan er-

mənilər Azərbaycan ərazisində milli azlıq olaraq mövcuddurlar. Milli azlıq isə xalqın bir hissəsini təşkil edir və yaşadığı dövlətin vətəndaşıdır, özünün dil, etnik, mədəniyyət və ənənələrinə malik olur və həmin fərqli cəhətləri qoruyub saxlamaq hüququna malikdir. 1992-ci il 16 sentyabr tarixdə Azərbaycan Respublikası Prezidentinin «Azsaylı xalqlar və milli azlıqlar haqqıqda» fərmanı da həmin millətlərə yuxarıda göstərilən hüquqları verir (188, s.88).

Bundan başqa, BMT Baş Məclisinin 18 dekabr 1992-ci il tarixli (Qərar 47/135) «Milli və ya etnik, dini və dili azlıqlara mənsub insanların hüquqlarına dair» Bəyannaməsinin 8-ci maddəsinin 4-cü bəndində qeyd edilir ki, azlıqlara müəyyən hüquqlar verən bu Bəyannamədə Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə, o cümlədən bərabər suverenlik, dövlətlərin ərazi bütövlüyü və siyasi müstəqilliyinə zidd olaraq hər hansı bir fəaliyyətə icazə verəcək heç nə yoxdur (12).

Həmçinin xalqın bir hissəsinin, yaxud milli azlıqların öz müqəddəratını təyinetmə hüququ yoxdur (113, s.43). 1951-ci il BMT Baş Məclisinin VI sessiyasında xalqın və azlıqların eyni hüquqa malik olmadığı göstərildi. Azlıqlara öz müqəddəratını təyinetmə hüququnun verilməsi nəzərdə tutulmurdu. Məhz həmin sessiyada xalqın özünü idarə etməsini nəzərdə tutan «daxili» və xalqa müstəqillik verən «xarici» «özünü təyinetmə» məsələsi ortaya atıldı (245).

1955-ci il BMT Baş Məclisinin X sessiyasında isə «öz müqəddəratını təyinetmə» hüququnun ümumi xarakter daşıdığı və ayrı-ayrı fərdlərə aid olmadığı göstərilir (245). Minsk qrupunun amerikalı həmsədri Metyu Brayza da Dağlıq Qarabağın statusu ilə bağlı referendum keçirilməsi zəruri olarsa Qarabağ «xalqı» kimi 1988-ci ilədək orada yaşamış əhalinin nəzərdə tutulduğunu bildirmişdi (304). Dağlıq Qarabağ «xalqı» isə əslində Azərbaycan xalqının Dağlıq Qarabağda yaşayan bir hissəsidir.





«Azlıqlara dair insan hüquqlarınm və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyasına 1993-cü ildə AŞ PA tərəfindən tövsiyə edilmiş Əlavə protokol layihəsinin (tövsiyə 1201) 11-ci bəndində göstərilir: «Milli azlıqların çoxluq təşkil etdiyi regionlarda azlıqlar öz ixtiyarlarında uyğun yerli və muxtar idarəçilik orqanları, yaxud dövlətin milli qanunvericiliyinə uyğun şəkildə konkret tarixi və ərazi şəraiti nəzərə alınmaqla xüsusi statusa malik olmaq hüququna malikdirlər». Bu bəndlə əlaqədar bir sıra fikir ayrılıqları meydana çıxdığı üçün «Qanun yolu ilə demokratiya naminə Venesiya Komissiyası»na* müraciət edilərək həmin bəndə Komissiyanın münasibəti öyrənilmişdi. Cavab belə olmuşdu: «Beynəlxalq hüquq, prinsipcə, azlıqlar probleminin hər hansı ərazi həllini dövlətin boynuna qoya bilməz və dövlətlərdən, prinsipcə, azlıqları hər hansı desentralizasiya (mərkəzi orqanın bəzi vəzifələrini yerli orqanlara vermək) forması ilə təmin etmək tələb olunmur» (315). Bu bir daha xalqın bir hissəsi olan milli azlığın mütləq özünüidarə, yaxud muxtariyyat hüququ olmadığını göstərir və hər dövlət milli azlıqlar yaşayan əraziyə hər hansı statusu verəcəyini özü müəyyənləşdirir.

Göründüyü kimi, Ermənistan-Azərbaycan münaqişəsində söhbət «öz müqəddəratını təyinetmə»dən deyil, yalnız ərazi iddialarından gedə bilər ki, həmin torpaqların da tarixən Azərbaycan əraziləri olduğu məlumdur. Ermənilər isə həmin torpaqlrı ələ keçirməklə öz ərazilərini genişləndirmək məqsədi güdürlər. Bu zaman isə meydana beynəlxalq hüququn digər prinsipi çıxır. Bu ərazi bütövlüyü prinsipidir ki, Ermənistan Azərbaycan ərazilərini – Dağlıq Qarabağı və Dağlıq Qarabağa daxil olmayan digər 7 rayonu – işğal etməklə bu prinsipi (və bir neçə digər prinsipi) kobudcasına pozub.

* *Venesiya Komissiyası (Avropa Komissiyası) 1990-cı ildə yaradılıb. Hüquq sahəsində ideyalar mübadiləsi üzrə beynəlxalq səviyyədə tanınmış müstəqil forumdur.*

Millətin, yaxud xalqın öz müqəddəratını təyin etməsinin tərəfdarı olan və bu prinsipdən çıxış edən istər V.Vilson, istər V.Lenin* bildiriblər ki, həmin prinsip kiçik dövlətləri bölmək kimi anlaşıla bilməz. Bu haqda 1919-cu il may ayının 28-də Versalda Azərbaycan nümayəndələrini qəbul edən ABŞ prezidenti V.Vilson söyləmişdi: «Amerikalılar dünyanı kiçik hissələrə bölmək istəmirlər» (112, s.197).

V.Lenin də öz növbəsində yazırdı: «Millətin öz müqəddəratını təyinetməsi əsarət altında olan millətin referendum yolu ilə öz siyasi statusunu müəyyənləşdirməklə istismarçı millətdən tamamilə ayrılması mənasını verir. Lakin millətin öz müqəddəratını təyinetməsi hər hansı kiçik dövlətin bölünməsi, yaxud ayrılması ilə eyniləşdirilə bilməz. Çünki bu yalnız milli zülmdən qurtulma mənasında anlaşılır» (294).

«Müstəmləkə altında olan dövlətlərə və xalqlara müstəqillik verilməsi haqqında» 14 dekabr 1960-cı il Bəyannaməsi, «Beynəlxalq hüququn prinsipləri haqqında» 1970-ci il Bəyannaməsi, 1993-cü il Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı kimi Beynəlxalq sənədlərdə də göstərilir ki, «xalqın öz müqəddəratını təyinetmə»si prinsipi dövlətlərin ərazi bütövlüyünün və siyasi birliyinin pozulması kimi qiymətləndirilə bilməz (302, s.61).

Bütün deyilənlər, ermənilərin öz müqəddəratını artıq təyin edərək öz milli dövlətinə malik olduğunu və Dağlıq Qarabağda yaşayan ermənilərin isə yerli əhalinin bir hissəsi olaraq öz müqəddəratını artıq XX əsrin əvvəllərində təyin edərək Azərbaycan tərkibində qaldığını göstərir. Dağlıq Qarabağda yaşayan ermənilər milli azlıq olduqları üçün isə onların «öz müqəddəratını təyinetmə» adı altında Azərbaycan Respublikasının ərazisi bütövlüyünü pozmalarına heç bir haqları yoxdur.

* *V.İ.Lenin (Ulyanov) – SSRİ-nin və Bolşevik partiyasının yaradıcılarından biri və dünya proletariatının rəhbəri, Xalq Komissarları Sovetinin sədri.*





# FƏSİL 3

## ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN BAŞLANMASI VƏ ONUN HƏLLİ YOLUNDA ATILMIŞ İLK ADDIMLAR

Uzun illərdir ki, «böyük Ermənistan» ideyalarını reallaşdırmağa cəhd edən və bunun üçün hər vasitəyə əl atan ermənilər arzularının hələ də xəyal olaraq qalması ilə heç cür barışa bilmirlər. Bu arzularını həyata keçirmək üçün onlar özlərinin çoxdankı niyyətlərindən – bir sıra torpaqları, o cümlədən Azərbaycanın tarixi əraziləri olan Dağlıq Qarabağı ələ keçirmək planlarından hələ də əl çəkməyiblər.

Ermənilərin Dağlıq Qarabağla bağlı əldə etdikləri ən böyük uğur SSRİ-nin yarandığı ilk illərə təsadüf edir. Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdlərinin boşa çıxdığını başa düşən ermənilər həmin dövrdə ona, heç olmasa, muxtariyyat statusu verilməsinə nail oldular.

Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyətinin qələbəsinə həsr olunmuş 1 dekabr 1920-ci il tarixli iclasında N.Nərimanovun bəyan etdiyi Azərbaycan İnqilab Komitəsinin Bəyannaməsi Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə öz müqəddəratlarını tam təyin etmək hüququ verdi (248, s.6; 287, s.32).

Siyasi Büro və AK(b)P MK Təşkilat Bürosunun 27 iyun 1921-ci il tarixli iclasında «Azərbaycanın və Ermənistanın sərhədləri məsələsi» müzakirə olundu. İclasın qətnaməsində məsələnin «Dağlıq Qarabağın Azərbaycana meylli olması»nı nəzərə almaqla həll edilməli olduğu göstərilirdi və bununla əlaqədar olaraq «inzibati və iqtisadi məqsədəuyğunluq baxımından» ərazinin milli göstəricilərə əsasən bölünməsinin mümkünsüzlüyü qeyd edilirdi. Bundan sonra məsələyə 4-5

iyul 1921-ci il tarixdə RK(b)P MK-nın Qafqaz Bürosu plenumunun iclasında əsaslı şəkildə baxıldı. Müsəlmanlar və ermənilər arasında milli barışığın, həmçinin Aşağı və Yuxarı Qarabağın iqtisadi cəhətdən bir-birilə bağlı olması və onun Azərbaycanla daimi əlaqələrindən çıxış edərək RK(b)P MK Qafqaz Bürosu Dağlıq Qarabağa* muxtariyyat verməklə onu Azərbaycan SSR-in tərkibində saxlamaq qərarı verdi. Buna uyğun olaraq Azərbaycan K(b)P MK-ya Dağlıq Qarabağ muxtar vilayətinin sərhədlərini və onun əhatə edəcəyi ərazilərin həcmini müəyyənləşdirərək öz mülahizələrini RK(b)P MK Qafqaz Bürosuna təqdim etmək tapşırıldı (25, s.92).

1 avqust 1921-ci ildə Şuşa qəzasının 2-ci sahə Sovetinin fövqəladə qurultayında bir daha qeyri-rəsmi şəkildə Dağlıq Qarabağ məsələsinə baxıldı. Qurultayda iştirak edən Xalq Komissarları Sovetinin sədri Levon İsayeviç Mirzoyan bildirdi: «Qarabağın iqtisadi, mənəvi, siyasi və milli nöqteyi-nəzərdən Azərbaycanın mərkəzi (Bakı) ilə bağlı olması faktı artıq Qarabağın hansı siyasi quruma aid edilməli olduğunu həll edir» (277, s.6-7, 95-96).

7 iyul 1923-cü il tarixdə isə Azərbaycan MİK tərəfindən DQMV-nin yaradılmasını göstərən və onun əsas statusunu müəyyənləşdirən «Dağlıq Qarabağ muxtar vilayəti yaradılması haqqında» dekret qəbul edildi. Dekret milli zülmün və bərabərsizliyin aradan qaldırılmasını Sovet hökumətinin qarşısında əsas məqsəd kimi qoyurdu və məsələni həll etmək məqsədilə Azərbaycan MİK mərkəzi Xankəndi** olmaqla

* *Aşağı və Yuxarı Qarabağı bir-birindən ayıran Qarabağ yaylası Azərbaycan SSR-in sərhədləri çərçivəsində Dağlıq Qarabağ adlandırılmışdır (139, s.24).*

** *Partiyanın Qarabağ vilayət komitəsinin 1923-cü il sentyabr tarixli qərarı ilə S.Şaumyanın və 26 Bakı komissarlarının şərəfinə Xankəndi şəhərinin adı dəyişdirilərək Stepanakert adlandırılmışdı (277, s.7). Azərbaycan Respublikası Prezidentinin imzaladığı 1991-ci il 26 noyabr tarixli Qanuna əsasən*





Dağlıq Qarabağın ermənilər yaşayan hissəsindən muxtar vilayət yaratmaq qərarı verdi (277, s.7). Qeyd etmək lazımdır ki, Siyasi Büro və AK(b)P MK-nın 1921-ci il 27 iyun tarixli iclasında ərazinin milli göstəricilərə görə bölünməsinin mümkünsüzlüyü göstərilsə də Azərbaycan MİK-in 7 iyul 1923-cü il tarixli iclasında Dağlıq Qarabağın ermənilər yaşayan hissəsindən muxtar vilayət yaradılması qərarı verilərkən həmin göstərişə əməl olunmamışdır. DQMV-nin ərazisi isə ermənilərin sayca üstün olduğu ayrı-ayrı əraziləri birləşdirməklə təşkil olunub. Muxtar vilyəti yaradanda Kəlbəcərə aid Ağdaban, Füzuliyə aid Yuxarı Veysəlli kəndləri onun sərhədləri daxilinə salınmışdı (139, s.32).

DQMV yaratmaq məqsədi ilə 1923-cü ilin avqust ayında Dağlıq Qarabağda yaşayan əhali arasında referendum keçirildi və yerli kəndlilər (xüsusilə də erməni kəndlilər) yekdilliklə muxtar vilayətin Azərbaycanın tərkibində qalmasına səs verdilər (248, s.11). 12 oktyabr 1923-cü il tarixdə AK(b)P MK-da referendumun nəticələri haqqında məlumat verən Qarabağ vilayət komitəsinin partiya katibi Sero Manutsyan da muxtariyyat aktlarının kəndlilər tərəfindən yekdilliklə qarşılandığını təsdiq etmişdi (248, s.16). 1923-cü ilin noyabr ayında isə Azərbaycan SSR III Sovetlər qurultayında vilayət MİK Sədri A.M.Qaragözov qeyd etmişdi: «...Azərbaycanın zəhmətkeş kütləsi Oktyabr inqilabının böyük prinsiplərini, millətin öz müqəddəratını təyin etməsinin böyük prinsiplərini həyata keçirərək – muxtariyyat elan etdi...» (248, s.17). Azərbaycan MİK Rəyasət heyəti 1924-cü ilin noyabr ayında «DQMV haqqında əsasnamə» təsdiq etdi. Sənəddə DQMV-nin Azərbaycanın tərkib hissəsi olduğu qeyd edilirdi (277, s.8). Azərbaycan K(b)P MK-nın Rəyasət heyətinin həmin ilin

*isə bir sıra şəhər və rayonların əvvəlki adları yenidən bərpa edildi, o cümlədən Stepanakert şəhərinin də əvvəlki Xankəndi adı qaytarıldı (144, s.130).*

16 iyul tarixli iclasının qərarı ilə Şuşa şəhəri DQMV-nin tərkibinə daxil edildi və AK(b)P-nin 5 may 1924-cü ildə keçirilmiş VI qurultayında Dağlıq Qarabağa tam muxtariyyat verildi (139, s.28, 30).

Sovet dövründə də ermənilər bir sıra Azərbaycan torpaqlarını Ermənistana birləşdirmək məqsədilə müxtəlif tədbirlərə əl atdılar. Bu sahədə onlar bəzi nailiyyətlər də əldə etdilər. Məsələn: 1922-ci ildə Dərələyəz, 1929-cu ildə Meğri, 1938-ci ildə Sədərək və Kərki kəndlərinin bir hissəsi, 1969-cu ildə Laçın rayonunun Qaragül yaylağı, Qubadlı rayonunun Çayzəmi əraziləri, Qazax rayonunun Kəmərli kənd ərazisi, Kəlbəcər rayonunun Zod qızıl yatağı ərazisinin bir hissəsi, 1982-ci ildə Qazax rayonunun İncədərə yaylağı, Kəmərli, Aslanbəyli və Qaynaqlı kəndləri ərazilərinin bəzi hissələri, 1986-cı ildə isə Qazax rayonunun daha 2500 hektarlıq ərazisi Azərbaycandan alınaraq Ermənistana birləşdirilmişdi (36). Bununla yanaşı, ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdləri bir nəticə vermədi, lakin onlar öz işğalçılıq siyasətlərindən əl çəkmədilər.

1980-cı illərin ortalarında SSRİ-də M.S.Qorbaçovun hakimiyyətə gəlməsi və onun «yenidənqurma»* adlanan siyasi-iqtisadi islahatlara başlaması ilə ictimai-siyasi proseslərin yeni mərhələsi başlandı. Məhz XX əsrin həmin illəri SSRİ-də millətlərarası münaqişələrin, o cümlədən ermənilərin Azərbaycana qarşı yönəlmiş yeni təcavüzünün başlanğıcı oldu.

1987-ci ildən başlayaraq ermənilər Moskvaya Ermənistanla Dağlıq Qarabağın birləşdirilməsini tələb edən ardı-arası kəsilməyən məktublar göndərirdilər. Həmin ilin avqust ayında Ermənistan Elmlər Akademiyası tərəfindən hazırlanmış və yüzlərlə erməninin imzaladığı ərizədə isə onlar Dağlıq

* *«Yenidənqurma» xətti Sov.İKP MK-nın 1985-ci il aprel plenumunda qəbul edilmişdi (144, s.38).*





Qarabağla yanaşı Naxçıvanın da Ermənistan SSR-ə verilməsini istəyirdilər. Noyabr ayının ortalarında isə Sov.İKP-nin baş katibi və SSRİ Ali Soveti Rəyasət heyətinin sədri M.Qorbaçovun iqtisadi məsələlər üzrə məsləhətçisi olan erməni Abel Aqanbekyan Fransanın «Yumanite» qəzetinə müsahibəsində bildirmişdi ki: «Dağlıq Qarabağ Muxtar Vilayəti tezliklə Ermənistana verilməlidir».

Moskva da öz növbəsində bütün olanlara «xüsusi» reaksiya verirdi ki, bu da münaqişənin daha da qızışmasına gətirib çıxarırdı. 2005-ci ildə Ermənistanın Təhlükəsilik Şurasının katibi və müdafiə naziri olan S.Sarkisyan ölkə parlamentində çıxışı zamam etiraf etdi ki, kommunist partiyasının mərkəzi komitəsi 1987-ci ildə Ermənistana, Dağlıq Qarabağa və Azərbaycana bir-birinə zidd impulslar göndərirdi. Bir tərəfdən erməniləri Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratlarını demokratik «təyin etməsi»nin yollarını axtarmağa ruhlandırırdı. Digər tərəfdən isə Azərbaycana bildirilirdi ki, Dağlıq Qarabağın statusunun dəyişdirilməsi onun ərazi bütövlüyünün pozulması və daxili işlərinə qarışmaq deməkdir (29).

Ermənilərin Dağlıq Qarabağ uğrunda apardıqları separatçılıq siyasəti 1988-ci ildən Ermənistan və Azərbaycan arasında açıq münaqişəyə çevrildi. SSRİ rəhbərlərinin dəstəyinə arxalanan ermənilər 1988-ci il fevral ayının 15-18-də Şuşa rayonu istisna olmaqla bütün rayon sovetləri sessiyasında DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə verilməsinin təklif edilməsi barədə, fevral ayının 20-də isə Dağlıq Qarabağ vilayət Sovetinin növbədənkənar sessiyasında «DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə verilməsi haqqında» qərar qəbul etdilər. Qərarda SSRİ Ali Sovetindən bu məsələyə baxmaq xahiş olunurdu (144, s.60). Lakin SSRİ rəhbərliyi ermənilərin qərarlarını rəsmən dəstəkləmədi və

SSRİ Ali Soveti Rəyasət Heyəti 23 mart 1988-ci il tarixdə DQMV-nin Ermənistan SSR-ə verilməsi təklifini rədd edən qərar qəbul etdi (107, s.134).

Ermənistan SSR Ali Soveti 15 iyun 1988-ci il tarixdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ muxtar vilayətini Ermənistan SSR-ə birləşdirmək (185, s.91), DQMV-nin yerli Soveti isə 12 iyul 1988-ci il tarixdə Azərbaycanın tərkibindən çıxmaq (107, s.134) haqda qərar verdi. Buna cavab olaraq Azərbaycan Respublikasının Ali Soveti 17 iyun 1988-ci il tarixdə həmin qərarın Konstitusiyaya zidd olduğunu və DQMV-nin Ermənistan SSR-ə verilməsinin qeyri-mümkün olduğunu göstərən qərar qəbul etdi (405, s.27). SSRİ Ali Soveti Rəyasət heyəti də bunlarla əlaqədar həmin ilin 18 iyulunda qərar qəbul edərək SSRİ Konstitusiyasının 78-ci maddəsinə əsasən müttəfiq respublikaların öz razılıqları olmadan ərazilərinin dəyişdirilməsinin mümkün olmadığını əsas götürərək DQMV-nin Azərbaycan ərazisi olmasını bir daha təsdiq etdi (107, s.134; 405, s.27, 28).

1989-cu ilin 16 avqustunda «DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı» keçirildi. Həmin qurultayda Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusundan imtina etdiyi bəyan edildi və Azərbaycan SSR-in Konstitusiyasının həmin ərazidə qüvvədən düşdüyü bildirildi (315). Bu zaman ermənilər öz hərəkətlərinə haqq qazandırmaq üçün «Azərbaycan SSR-in DQMV-də xüsusi idarə formasının tətbiqi haqqında» SSRİ Ali Soveti Rəyasət heyətinin 12 yanvar 1989-cu il tarixli qərarına istinad edirlər. Ermənilər həmin qərara uyğun olaraq Dağlıq Qarabağın Müttəfiq Respublika ərazisindən SSRİ ərazisinə* çevrildiyini

* *Ermənilər Dağlıq Qarabağın SSRİ ərazisinə çevrildiyini dedikdə, onun da müttəfiq respublikalarla eyni status qazandığını nəzərdə tuturlar.*





və bununla da «müttəfiq respublika» statusu qazandığını iddia edirlər (299, s.32, 122).

Lakin həmin qərar Dağlıq Qarabağda baş verən hadisələri Azərbaycanın nəzarətindən çıxarsa da muxtar vilayətə müstəqillik statusu vermirdi. Qərarda qeyd edilirdi ki, Dağlıq Qarabağ Azərbaycan tərkibində muxtar vilayət statusunu saxlamaqla DQMV-də müvəqqəti olaraq xüsusi idarə forması tətbiq edilsin (405, s.30).

Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusundan imtina etməsinə dair 1989-cu il 16 avqust qərarına gəldikdə isə bu qanun heç bir qüvvəyə malik deyildi. Çünki SSRİ Konstitusiyasının 71-ci maddəsinə əsasən Azərbaycan SSR müttəfiq respublika, 87-ci maddəsinə əsasən isə Dağlıq Qarabağ Azərbaycan SSR-in daxilində muxtar vilayət idi. 86-cı maddəyə əsasən isə muxtar vilayət haqqında qanun muxtar vilayətin xalq deputatları Sovetinin təqdimatı ilə müttəfiq respublikanın Ali Soveti tərəfindən qəbul edilirdi (14). Bununla yanaşı, SSRİ Konstitusiyasının 148-ci maddəsinə görə Yerli xalq deputatları Sovetləri SSRİ, müttəfiq və muxtar respublika qanunvericiliyi ilə onlara verilmiş səlahiyyət daxilində qərarlar qəbul edə bilərdilər (14). DQMV-yə muxtariyyatı ləğv etmək, ayrılmaq və s. bu kimi səlahiyyətlər verilməmişdi. DQMV də Azərbaycan Respublikasının Ali Sovetinə statusunun dəyişdirilməsi ilə bağlı müraciət etməmişdi. Azərbaycan Respublikasının Ali Soveti də öz növbəsində statusu ləğv edən bir qərar qəbul etməmişdi. Bundan başqa, SSRİ Konstitusiyası heç bir muxtar vilayətə müstəqillik hüququ vermirdi, əksinə 78-ci maddəyə əsasən müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməzdi, 79-cu maddəyə əsasən isə müttəfiq respublika özünün ölkə, vilayət, mahal, rayon bölgəsini müəyyənləşdirirdi (14). Bundan başqa, SSRİ Konstitusiyasının 141-ci maddəsi müttəfiq respublikanın Nazirlər Sovetinə muxtar vilayətlərin

xalq deputatları Sovetləri İcraiyyə Komitəsinin qərar və sərəncamlarını ləğv etmək hüququ verirdi (14). 27 avqust 1989-cu il tarixdə Azərbaycan SSR Ali Soveti Rəyasət heyəti də bu hüququndan istifadə edərək «DQMV əhalisinin səlahiyyətli nümayəndələri qurultayının» qərarlarının qeyri-qanuni olduğunu göstərən qətnamə qəbul etdi.

Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılması üçün göstərilən bu ciddi cəhdlər Ermənistan və Dağlıq Qarabağın birləşdirilməsi planının bir hissəsini təşkil edirdi. 1988-ci il 13 sentyabr tarixdə «Amerikanın səsi» radiosunun Ermənistan redaksiyası «Qarabağ» komitəsinin Dağlıq Qarabağla Ermənistanı birləşdirmək planı haqqında məlumat vermişdi. Həmin plana əsasən Qarabağ erməniləri çalışıb SSRİ tərkibindən çıxmalı, sonra, bu dəfə Ermənistan SSR-in tərkibinə daxil olmaq şərtilə, yenidən SSRİ-nin tərkibinə daxil edilmələri təklifilə müraciət etməli idilər. Yox, əgər Dağlıq Qarabağın Konstitusiyaya görə «öz müqəddəratını təyinetmə» hüququ olmadığı üçün bu plan baş tutmazdısa, onda Ermənistan Respublikası bu hüquqa malik olduğu üçün özü Dağlıq Qarabağın tərkibinə daxil olmasını elan etməli idi. Beləliklə, paytaxtı Stepanakert olmaqla yeni «Arsax» erməni respublikasının yaradılması nəzərdə tutulurdu (258, s.124).

23 avqust 1990-cı il tarixdə Ermənistan Respublikası müstəqillik haqqında Bəyannamə qəbul etdi. Bəyannamədə Ermənistan və «Dağlıq Qarabağ respublikası»nın birlikdə müstəqil olduğu göstərilirdi. Bəyannamədə qeyd edilmiş həmin fakt sübut edir ki, Azərbaycan ərazilərinin parçalanmasında, o cümlədən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsində Ermənistan Respublikasının özü maraqlı olmuşdur və hadisələrdə birbaşa iştirak etmişdir. Lakin bu özbaşına qərar heç bir səlahiyyətli orqan tərəfindən dəstəklənmədiyi və tanınmadığı üçün Ermənistanı və Dağlıq Qarabağı heç bir yolla birləşdirə bilməyəcəklərini başa düşən ermənilər bu dəfə





«müstəqil» «Dağlıq Qarabağ respublikası» yaratmaq fikrinə düşdülər. Ermənilər DQMV-dən başqa həm də onunla həmsərhəd olan Ağcakənd (həmin vaxt Şaumyan)* rayonuna da iddialı idilər. Buna görə də Ermənistan Respublikasının və tərkibində DQMV ilə Şaumyan (Ağcakənd) rayonu olmaqla «Dağlıq Qarabağ respublikası»nın ayrı-ayrılıqda müstəqilliyini elan etmək qərarı verdilər. Ssenari üzrə ilk əvvəl DQMV erməniləri 2 sentyabr 1991-ci il tarixdə «Dağlıq Qarabağ respublikası»nın yaranmasını elan etdilər. Ermənistan Respublikası isə 21 sentyabr 1991-ci il tarixdə xalq referendumu keçirdi. Bununla da Ermənistan Respublikası 23 avqust 1990-cı il tarixli «Müstəqillik Bəyannaməsi»nin məhz özünə aid hissəsini bir daha təsdiq etdi. Bunun ardınca Ermənistan həmin il oktyabr ayının 16-da prezident seçkiləri keçirdi. Ermənilər iddia edirlər ki, həm referendum, həm də prezident seçkiləri təkcə Ermənistan ərazisində keçirildiyi üçün Ermənistan Respublikası ilə DQMV-nin birləşməsi haqqında qərarlar öz etibarını itirdi. Həmin qərarların isə onsuz da heç bir hüquqi əsası yox idi və hüquqi qüvvəyə minə bilməzdi.

Bununla bağlı 17-21 sentyabr 1991-ci il tarixdə Yerevan şəhərində keçirilmiş «Millətlərarası münaqişələrin tənzimlənməsinin hüquqi, siyasi və mənəvi aspektləri» adlı Beynəlxalq Konqres keçirildi. Konqresin «Dağlıq Qarabağ respublikası»nın tanınmasına dair Qətnaməsində göstərilir ki, «Dağlıq Qarabağ respublikası»nın elan edilməsi beynəlxalq hüquqi aktlarla əks olunmuş xalqın «öz müqəddəratını təyinetmə»si hüququna əsaslanır. Həmin beynəlxalq hüquqi sənədlər kimi – 1) 10 dekabr 1948-ci il tarixli insan haqları Bəyannaməsinin 1-ci maddəsi; 2) ATƏM üzv dövlət nümayəndələrinin 1989-cu il tarixli Vyana görüşünün yekun sənədinin 4-cü bəndi; 3)

* *1990-cı ildə Azərbaycan Ali Sovetinin qərarı ilə Şaumyan rayonu ləğv edilərək ərazisi Goranboy rayonu ilə birləşdirilib.*

1945-ci il BMT Nizamnaməsinə üyğun olaraq «Dövlətlər arasında dostluq əlaqələrinə dair beynəlxalq hüququn prinsipləri haqqında» Deklarasiya – göstərilir (26).

İnsan haqları Bəyannaməsinin yalnız birinci maddəsini oxumağa hövsələsi çatmış ermənilər onu öz istəklərinə uyğun şərh ediblər. Əks təqdirdə Bəyannaməyə uyğun olaraq onlar «öz dərrakə və vicdan»larından istifadə edərək Dağlıq Qarabağ da daxil olmaqla işğal etdikləri digər ərazilərdə yaşayan azərbaycanlı əhalinin də «öz hüquq və haqları» olduğunu anlayardılar və «bir-birilə qardaşcasına» davranardılar. Yox əgər sənədi sonadək oxusaydılar görərdilər ki, sənədin sonuncu 30-cu maddəsində qeyd edilir: Bəyannamədə göstərilənlərin hər hansı dövlətə, insanlar qrupuna, yaxud ayrı-ayrı şəxslərə bu sənəddə əksini tapmış haqq və azadlıqların məhvinə yönəlmiş hər hansı fəaliyyətlə məşğul olmaq, yaxud əməliyyatlar həyata keçirmək hüququ verməsi kimi dərk edilə bilməz (18).

«Dövlətlər arasında dostluq əlaqələrinə dair beynəlxalq hüququn prinsipləri haqqında» Bəyannaməyə gəldikdə isə, BMT Baş Məclisi tərəfindən əvvəllər qəbul olunmuş bütün sənədlərdən fərqli olaraq, 24 oktyabr 1970-ci il tarixdə qəbul edilmiş (2625 (XXV)) həmin Bəyannamədə göstərilir ki, öz müqəddəratını «xarici» təyinetmə hüququna yalnız müstəmləkə, yaxud asılı vəziyyətdə olan xalqlar malikdirlər. Bəyannamədə, həmçinin qeyd edilir: «Göstərilən bəndlərin heç biri xalqların «bərabərhüquqlu olması» və «öz müqəddəratını (daxili – *K.R*) təyinetmə» prinsiplərinə əməl edən, ərazisində yaşayan xalqların irqindən, imanından, dərisinin rəngindən asılı olmayan hökumətə malik müstəqil və suveren dövlətin ərazi bütövlüyü və siyasi birliyinin parçalanmasına, qismən, yaxud tam pozulmasına gətirib çıxaran hər hansı hərəkətə icazə vermək və ruhlandırmaq kimi yozulmamalıdır» (245).





2003-cü il may ayının əvvəlində Ermənistanın «De-Fakto» xəbər agentliyinin suallarına cavab verən «Dağlıq Qarabağ respublikasının Təhlükəsizlik Şurasının katibi» Karen Baburyan* bildirmişdi ki, Azərbaycan özünün SSRİ-nin tərkibindən çıxmasını qanun çərçivəsində elan etmişdir və «Dağlıq Qarabağ» da həmin qanuna əsaslanaraq adekvat addım atmışdır (252).

Ermənilər Dağlıq Qarabağın muxtar vilayət, Ağcakənd rayonunun isə ermənilərin kompakt yaşadığı ərazi olduğu üçün «Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında» 1410-1 №-li 3 aprel 1990-cı il tarixli SSRİ Qanununun onlara Azərbaycanın tərkibindən çıxaraq «müstəqil» «Dağlıq Qarabağ respublikası» yaratmaq imkanı verdiyini iddia edirlər.

Ermənilərin əsas gətirdikləri digər «fakt» isə odur ki, Azərbaycan özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etməklə Sovet dövründə malik olduğu sərhədlərini itirir, bununla da 1918-20-ci illər AXC-nin sərhədlərinə yiyələnir və Dağlıq Qarabağ AXC-nin tərkib hissəsi olmadığı üçün o, müasir Azərbaycanın da sərhədlərindən kənarda qalır.

Əvvəldə də qeyd etdiyimiz kimi, dövlət özünü hər hansı dövlətin varisi elan edirsə etsin, bunu yalnız özünü varis elan etdiyi anda malik olduğu sərhədlər çərçivəsində etmək hüququna malikdir. Azərbaycan da müasir sərhədləri çərçivəsində Xalq Cümhuriyyətinin varisi olmuşdur.

Bundan başqa, 1918-ci ildə Azərbaycan və Ermənistan Respublikaları yarandığı vaxt Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibində qalmışdı (287, s.38). Bu da həmin ərazilərin əvvəllər də Azərbaycana məxsus olduğunu və buna görə də onun tərkibində qaldığını göstərir, əks təqdirdə Dağlıq Qarabağın Azərbaycana verildiyi göstərilərdi.

* *Karen Baburyan əvvəl «Dağlıq Qarabağın Ali Sovetinin sədri» olmuşdu.*

Cümhuriyyət dövründə Qarabağ və bir sıra digər ərazilər ermənilər və azərbaycanlılar arasında «mübahisəli» sayıldığı üçün 1919-cu ilin avqust ayının 26-da Qarabağ ermənilərinin VII qurultayında «Dağlıq Qarabağ ermənilərinin Azərbaycan hökuməti ilə müvəqqəti razılığı» qəbul edilmişdi (287, s.39). Razılığa görə məsələnin Paris sülh konfransında həllinədək Dağlıq Qarabağ da tərkibində olmaqla bütün Qarabağ həm ərazi muxtariyyatı, həm də onun erməni əhalisinin milli-mədəni muxtariyyatı əsasında Azərbaycanın tərkib hissəsi hesab edilirdi (277, s.27).

Həmin vaxt (1919-cu il) Parisdə olan Azərbaycan nümayəndələrinə göndərilən məlumatda deyilirdi: «Qarabağ məsələsi adlandırılan məsələ qəti şəkildə həll edildi... 7-ci erməni qurultayında Qarabağ ermənilərinin nümayəndələri Azərbaycan hökumətinin hakimiyyətini tanımaq barədə general-qubernator Xosrov bəy Sultanovla saziş bağladılar» (112, s.236).

BMT Baş Katibinin köçkünlər üzrə nümayəndəsi F.Denq özünün Azərbaycanda köçkünlük təcrübəsinə həsr etdiyi məruzəsində göstərir: «Həm Azərbaycan, həm Ermənistan iddia edirlər ki, onları Dağlıq Qarabağla uzunəsirlik bağlar birləşdirir. Lakin hazırki münaqişənin başlanğıcı XX əsrin əvvəllərinə təsadüf edir. Oktyabr inqilabından sonra yeni müstəqil dövlət olmuş Azərbaycan və Ermənistan Dağlıq Qarabağ ərazisi uğrunda mübarizə edirdilər. Paris sülh konfransı 1919-cu ildə Azərbaycanın həmin əraziyə olan iddialarını tanıdı. Azərbaycan və Ermənistan Sovet İttifaqına birləşdirildikdən sonra Dağlıq Qarabağla bağlı bu mövqe bir daha möhkəmləndirildi. Həmin vaxt Azərbaycanı onun qərb rayonu Naxçıvanla birləşdirən Zəngəzur rayonu Ermənistana verildi» (315).

Həmin illərdə erməni nümayəndə heyətinin başçısı A.Ağaronyan yerlərdə sərhədlər məsələsini həll etmək mümkün olmadığını bəhanə gətirərək sərhədlərin müəyyən edilməsi məsələsini Avropada müttəfiqlərin köməyilə həll etmək lazım olduğunu bildirirdi (112, s.343). 1920-ci ilin aprel ayında San-Remo şəhərində keçiriləcək konfransda Transqafqaz respublikalarının sərhədləri məsələsinin müzakirə edilməsi nəzərdə tutulurdu (112, s.340). 18-20 apreldə Antanta Ali Şurası San-Remo konfransında sərhədlər məsələsinə baxdı. İngiltərənin Baş naziri Lloyd Corc Ermənistanın Azərbaycanla və Gürcüstanla sərhədlərinin qarşılıqlı saziş əsasında həmin respublikaların özləri tərəfindən həll edilməli olduğunu bildirdi. Ermənilərin əsassız ərazi iddiaları ucbatından San-Remo konfransında da heç bir razılıq əldə edilmədi. Erməni məsələsi, bununla əlaqədar olaraq həm də sərhədlər məsələsi yenə də öz həllini tapmadı (112, s.350; 182).





10 iyul 1920-ci il tarixdə Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov, RK(b)P-nın Qafqaz Bürosunun üzvü Mdivani, AKP MK-nın üzvləri Mikoyan, Naneyşvili, XI Qızıl Ordunun Hərbi İnqilab Şurasının üzvləri Vesnik, Levandovski və Mixaylovun RK(b)P MK-nın adına göndərdikləri məlumatda da Qarabağın musavat hökuməti zamanında bütünlüklə Azərbaycan tərkibində olduğu göstərilir (28, s.54).

SSRİ dövründə isə həmin məsələyə baxılmış və əvvəldə də qeyd etdiyimiz kimi, Dağlıq Qarabağ əhalisinin istəyinə uyğun olaraq Ermənistan və Azərbaycan respublikalarının razılıqlarına əsasən Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində saxlanılması (məhz saxlanılması!) qərarı verilmişdi.

70 il mövcud olmuş Sovet İmperiyasının üstündən xətt çəkib olanları danmaq, qəbul edilmiş qərarların nəticələrini tanımamaq 15 müttəfiq respublikanın SSRİ tərkibində olduğu müddət tarixinin üstündən xətt çəkmək deməkdir. Həmin respublikaların SSRİ tərkibində olduğu müddətdə itirdikləri və qazandıqları çox şeylər var. Əsas itirilmiş olan müstəqillik idi ki, sonradan respublikalar bunu yenidən əldə etdilər. Hət-

ta sovet dövründən əvvəl öz müstəqil dövləti olmayan bəzi respublikalar da indi müttəfiq respublikanın sərhədləri çərçivəsində özlərinin müstəqil dövlətlərinə malik oldular. Ermənistan Respublikası da SSRİ dövründə Sovet hökumətinin köməkliyi ilə və Azərbaycan əraziləri hesabına öz ərazilərini daha da genişləndirərək indiki dövlət sərhədlərinə malik oldu. Yeni müstəqil dövlətlər isə gələcəyə inkişaf etmək üçün keçmişə – Sovet dövründən əvvəlki vaxta dönə bilməzlər. Lakin dönmək mümkün olsa belə, Dağlıq Qarabağ elə əvvəlki dövrdə də Azərbaycanın tarixi əraziləri olaraq onun tərkibində idi. Bundan başqa, 21 dekabr 1991-ci il tarixdə Müstəqil Dövlətlər Birliyi yaranmasına dair Alma-Ata Bəyannaməsi imzalandı*. Bəyannaməni imzalayan dövlətlər, o cümlədən Ermənistan Sovet İttifaqının müqavilələri üzrə beynəlxalq öhdəlikləri yerinə yetirəcəklərini təsdiq etmişdilər.

XX əsrin əvvəllərində ermənilərin bir sıra ərazilərə, o cümlədən Dağlıq Qarabağa iddiaları ucbatından sərhədlər məsələsi mübahisəli sayıldığı üçün Millətlər Liqası Azərbaycanın təşkilata üzvlüyünü qəbul etməmişdisə, əsrin sonlarında Millətlər Liqasının varisi və dünyanın bir nömrəli beynəlxalq təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı artıq Azərbaycanı tərəddüd etmədən müəyyənləşmiş sərhədləri çərçivəsində öz sırasına qəbul etdi. Azərbaycan Respublikası BMT-yə üzv qəbul edilərkən tərtib və təsdiq edilən xəritədə də Dağlıq Qarabağ Azərbaycan ərazisi olaraq göstərilir (55).

Manasyan adlı erməni müəllif öz kitabında qeyd edir ki, BMT-nin Azərbaycanın müstəqilliyini mövcud sərhədlər daxilində tanıması ondan irəli gəlir ki, BMT Azərbaycanın

---

* *21 dekabr 1991-ci il tarixdə o vaxtkı Alma-Ata şəhərində 11 suveren dövlət – Azərbaycan, Belorusiya, Qazaxıstan, Qırğızıstan, Moldaviya, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan, Ukrayna və Ermənistan bərabər hüquqlar əsasında Müstəqil Dövlətlər Birliyi yaratmaq haqqında protokol imzalamışdılar.*





qəbul etdiyi «qeyri-qanuni» sənədlərdən və təşkilatın ekspertləri isə Azərbaycanda baş verənlərdən bixəbərdirlər. Bir sözlə, Azərbaycan BMT-ni aldadaraq özünün tanınmasına nail olub (299, s.192-196). Bununla da erməni müəllif BMT-nin nüfuzunu şübhə altına qoyur.

Bundan başqa, əvvəldə də qeyd etdiyimiz kimi, ermənilər Ağcakənd rayonunu da «Dağlıq Qarabağ respublikası»nın bir hissəsi olaraq görürlər. Hazırda Ağcakənd rayonu Azərbaycanın nəzarəti altında olduğu üçün ermənilər 1992-ci il 12 iyun tarixdə Azərbaycan və Rusiya qoşunlarının birgə səyləri nəticəsində "Dağlıq Qarabağ respublikasının bir hissəsi» olan Şaumyan (Ağcakənd – *K.R.*) rayonunun bütünlüklə, Mardakert (Ağdərə – *K.R.*) və Əsgəran rayonlarının isə bir hissəsinin Azərbaycan tərəfindən işğal edildiyini bildirirlər (299, s.97, 137).

2006-cı il oktyabr ayının 9-da Dağlıq Qarabağ və Azərbaycanın digər əraziləri arasında sərhəd zonalarda ATƏT-in ekoloji vəziyyəti qiymətləndirən missiyası ilə görüşən «Dağlıq Qarabağ»ın «xarici işlər naziri» Masis Mailyan da hazırda «Dağlıq Qarabağ» ərazisinin 15 %-nin - Martuni (Xocavənd – *K.R.*) rayonunun şərq, Mardakert (Ağdərə – *K.R.*) rayonunun şimal-şərq hissəsi və Şaumyan (Ağcakənd - *K.R.*) rayonunun bütünlükdə Azərbaycan «işğalı» altında olduğunu bildirmişdi (323).

Ermənilər Dağlıq Qarabağın Azərbaycan Respublikasından ayrılmasını və orada referendum keçirilməsini «Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında» 1410-1 №-li 3 aprel 1990-cı il tarixli SSRİ Qanununun muxtar vilayətə verdiyi səlahiyyətlərlə əsaslandırırlarsa, Şaumyan (Ağcakənd) rayonunun da ermənilərin kompakt yaşadıqları rayon olduğunu iddia edərək həmin qanunun 3-cü maddəsinin ona da öz statusunu müəyyənləşdirmək imkanı verdiyini əsas gətirirlər (20).

Erməni özbaşınalığına son qoymaq və baş verən qanunsuzluqların qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikasınm Milli Şurası 1991-ci il 26 noyabr tarixində Azərbaycan Respublikası Konstitusiyasının 68-ci maddəsinin 3-cü hissəsini, 104-cü maddəsinin 2-ci bəndini, «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında» Konstitusiya Aktının 4-cü maddəsini əsas tutaraq Azərbaycan Respublikasının DQMV-ni milli ərazi qurumu kimi ləğv etdi (144, s.130).

Dekabr ayının 10-da isə Dağlıq Qarabağ erməniləri «Dağlıq Qarabağ respublikasının müstəqilliyinə dair referendum» keçirdilər (320).

Azərbaycan və Ermənistan Respublikalarının öz müstəqilliyini elan etməsilə Dağlıq Qarabağın Azərbaycan ərazisindən SSRİ ərazisinə çevrildiyini və «müttəfiq respublika» statusu qazandığını iddia edən ermənilər Dağlıq Qarabağ «əhalisi» arasında «Siz, Dağlıq Qarabağın SSRİ tərkibində respublika olmasına razısız?» sualını referenduma çıxarmaq niyyətində idilər. Lakin SSRİ-nin sonunun çatdığını gördükdə sualda dəyişiklik edərək onu «Siz, elan edilmiş Dağlıq Qarabağ respublikasının digər dövlətlər və birliklərlə əməkdaşlıq formalarını müstəqil müəyyənləşdirən müstəqil dövlət olmasına razısız» sualı ilə əvəz etdilər (262). «Referendum»un «nəticələrinə» əsasən «Dağlıq Qarabağ respublikası»nın Ali Soveti 6 yanvar 1992-ci ildə «Dağlıq Qarabağ respublikası»nın müstəqilliyi haqqında Bəyannamə qəbul etdi (320; 20).

Lakin «Dağlıq Qarabağ»da «müstəqillik referendumu» keçirilməsi və onun müstəqilliyini elan etməsi digər qanunlarla yanaşı «Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında» 1410-1 №-li 3 aprel 1990-cı il tarixli SSRİ Qanununa da ziddir. Müttəfiq respublika ilə birgə muxtar qurumlara və milli azlıqlara öz statuslarını təyin etmələk hüququ verən 3 aprel 1990-cı il tarixli SSRİ Qanunu həmin qərarların həyata keçirilməsini bir neçə mərhələdə nəzərdə tuturdu.





Qanunun 1-ci maddəsində göstərilirdi ki, SSRİ Konstitusiyasının 72-ci maddəsinə uyğun olaraq müttəfiq respublikanın SSRİ-dən çıxması ilə bağlı məsələlərin həlli yolları bu qərara əsasən həyata keçirilir.

Qanunun 2-ci maddəsinə əsasən müttəfiq respublikanın SSRİ-dən çıxması yalnız referendum yolu ilə mümkün ola bilərdi və həmin qərar müttəfiq respublikanın Ali Sovetinin öz təşəbbüsü ilə, yaxud Respublika ərazisində daimi yaşayan əhalinin $^{1}/_{10}$-nin imzaladığı tələbnamə əsasında qəbul edilə bilərdi. Referendum qərar qəbul edildikdən altı həftədən tez və doqquz aydan gec olmayaraq gizli səsvermə yolu ilə keçirilə bilərdi və referendumda ayrılması nəzərdə tutulan ərazidə həmin qərar qəbul edilənədək yaşayan və SSRİ qanunvericiliyə əsasən səs vermək hüququ olan SSRİ vətəndaşları iştirak edə bilərdi.

Qanunun 3-cü maddəsi müttəfiq respublika ilə yanaşı muxtar respublika, vilayət və dairələrə də seçim edərək SSRİ-nin, yaxud müttəfiq respublikanın tərkibində qalmaq, ya da öz istəyinə görə dövlət-hüquqi statusu məsələsini qaldırmaq imkanı verirdi. Bundan başqa həmin maddəyə əsasən müttəfiq respublikanın ərazisində milli azlıqların kompakt şəkildə yaşadığı yerlər mövcuddursa, onda həmin ərazilər üçün referendumun nəticələrinin ayrı hesablanması nəzərdə tutulurdu.

4-cü maddəyə əsasən referendumun təşkili, onun keçirilməsi və nəticələrinin müəyyənləşdirilməsi üçün müttəfiq respublikanın Ali Soveti maraqlı tərəfin nümayəndələrinin iştirakı ilə komissiya yaratmalı idi.

6-cı maddə muxtar qurumlar və milli qrupların kompakt yaşadığı yerlərdə keçirilən referendumun nəticələrini müttəfiq respublikanın Ali Soveti tərəfindən muxtar respub-

likanın Ali Soveti, yaxud müvafiq Xalq Deputatları Sovetlərinin iştirakı ilə araşdırmanı nəzərdə tuturdu.

9-cu maddəyə əsasən referendumun nəticələri SSRİ Xalq Deputatları Qurultayında araşdırılmalı və müttəfiq respublikanın Ali Soveti ilə razılaşdırılmış SSRİ Ali Sovetinin təqdimatına əsasən SSRİ Xalq Deputatları Qurultayı beş ildən çox olmayan bir müddətdə keçid dövrü müəyyənləşdirməli idi. Həmin müddət ərzində müttəfiq respublikanın SSRİ tərkibindən çıxması ilə meydana gəlmiş məsələlər öz həllini tapmalı idi. Keçid dövrü ərzində həmin ərazidə SSRİ Konstitusiyası və Qanunlarının qüvvədə olması nəzərdə tutulurdu.

13-cü maddədə (İttifaqı) tərk edən respublikanın beynəlxalq hüququn ümumqəbuledilmiş prinsip və normalarına, həmçinin SSRİ-nin iştirakçısı olduğu beynəlxalq müqavilələrdə öz əksini tapmış insan haqları və azadlıqlarına riayət etməli olduğu göstərilirdi.

Nəhayət, 20-ci maddəyə əsasən keçid dövrünün başa çatması, yaxud qanunda göstərilən qarşıya çıxan məsələlərin vaxtından əvvəl tənzimlənməsi ilə bir tərəfdən (İttifaqı) tərk edən respublikanın, digər tərəfdən isə SSRİ-nin, o cümlədən muxtar respublika və qurumların, həmçinin milli qrupların iddialarının təmin edilməsi və maraqların uyğunlaşdırılmasına dair prosesin başa çatdığını təsdiq edən qərar qəbul etmək məqsədilə SSRİ Ali Soveti SSRİ Xalq Deputatları Qurultayı çağırmalı idi. Həmin Qurultayın müvafiq qərar qəbul etdiyi vaxtdan müttəfiq respublikanın SSRİ tərkibindən çıxması baş tutmuş sayıla bilərdi (21).

«Dağlıq Qarabağ respublikası»nda keçirilən 10 dekabr «referendum»u – 23 sentyabr 1989-cu il tarixli «Azərbaycan SSR-in Suverenliyi haqqında Konstitusiya qanunu», 1991-ci il 30 avqust tarixli «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında» Bəyannaməsi və 1991-ci il 18 oktyabr tarixli «Dövlət müstəqilliyi haqqında Konstitusiya





Akt»ı qəbul edildikdən, «SSRİ-nin qorunub-saxlanmasına dair» 17 mart 1991-ci il tarixli referendumu keçirildikdən, Azərbaycan Respublikasının Dağlıq Qarabağın muxtariyyat statusunu ləğv edən 26 noyabr 1991-ci il tarixli qərarından və SSRİ-nin süqutunu təsdiq edən 8 dekabr 1991-ci il tarixli Belovejsk sazişindən sonra keçirilmişdi. Ermənilərin 10 dekabr «referendum»u hüquqi qüvvəyə malik deyildi və onun nəticələri heç bir səlahiyyətli orqan tərəfindən tanınmadı. Bunlardan başqa, keçirilmiş həmin qanunsuz referendumda yalnız erməni əhali iştirak etmişdi, çünki həmin ərazinin azərbaycanlı əhalisi öz daimi yaşayış yerlərindən didərgin salınmışdı. Erməni politoloqu Stepan Qriqoryan bildirir ki, referendum keçirilən vaxt Dağlıq Qarabağda azərbaycanlıların sayının az olduğu üçün onların iştirakı onsuz da referendumun nəticələrini dəyişməyəcəkdi (284, s.41). Milli azlıqların kompakt yaşamasına gəldikdə isə qeyd etmək lazımdır ki, ermənilər Dağlıq Qarabağda azərbaycanlı əhali ilə qarışıq yaşayırdılar.

Dağlıq Qarabağda referendumun keçirilməsinin özü qanunsuz olduğu və onun «müstəqil» elan edilməsi yolunda atılmış bütün addımlar başlanğıcdan qanun pozuntusu ilə müşaiyət edildiyi üçün «Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında» 3 aprel 1990-cı il tarixli SSRİ Qanununun da bütün maddələrinə zidd şəkildə həyata keçirilmişdi.

Referendumun qanunsuz keçirildiyini və onun nəticələrinin heç bir hüquqi əsası olmadığını göstərən amillərdən biri məhz ermənilərin əllərində bayraq etdikləri həmin 03.04. 1990-cı il tarixli SSRİ Qanununun özüdür. Qanuna əsasən referendum yalnız müttəfiq respublikanın Ali Sovetinin qərarı ilə və müttəfiq respublikanın bütün ərazisində keçirilə bilərdi. Azərbaycan Respublikasının Ali Soveti isə belə bir qərar verməmişdi. Həmçinin referendumun nəticələri də Qa-

nunda nəzərdə tutulduğu kimi SSRİ Xalq Deputatları Soveti tərəfindən araşdırılmamış və «Dağlıq Qarabağ respublikası»-nın müstəqil olmasına dair müvafiq qərar verilməmişdi.

Ermənistan isə Qanuna əsasən Müttəfiq Respublika (burada: Azərbaycan Respublikası) və SSRİ Xalq Deputatları Qurultayının səlahiyyətində olan vəzifəni özü icra edərək Dağlıq Qarabağın və Ağcakənd rayonunun əhalisi adından onun «müstəqilliyini» elan edib və bunun «Dağlıq Qarabağ respublikası» ermənilərinin öz qərarı olduğunu, həmçinin onların vəziyyətə uyğun bir addım atdıqlarını iddia edir.

Referenduma gəldikdə isə o, 17 mart 1991-ci il tarixdə SSRİ Xalq deputatları Qurultayının 24 dekabr 1990-cı il tarixli qərarına əsasən və «Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında» 3 aprel 1990-cı il tarixli SSRİ Qanuna uyğun şəkildə SSRİ-nin bir çox ərazilərində keçirilmiş və əhalinin çox hissəsi (76,4 %) SSRİ-nin qorunub-saxlanmasına səs vermişdi (268). Həmin referendumda Ermənistan Respublikasından fərqli olaraq Azərbaycan Respublikası iştirak etmişdi. 3 aprel 1990-cı il tarixli SSRİ Qanunu isə müttəfiq respublikanın SSRİ-dən çıxmaq istədiyi halda referendum keçirilməsini nəzərdə tuturdu. Azərbaycan isə, məlum olduğu kimi SSRİ-dən çıxmaq üçün müraciət etməmişdi.

«Dağlıq Qarabağ respublikası» və ona oxşar digər qondarma qurumlardan fərqli olaraq Azərbaycanın və digər müttəfiq respublikaların müstəqillik əldə etməsi isə təbii bir proses nəticəsində baş vermişdi.

SSRİ Konstitusiyasının 72-ci maddəsinə əsasən Müttəfiq respublikaların SSRİ-dən azad surətdə çıxmaq hüququ saxlanılırdı (14) və bununla yanaşı, SSRİ Xalq Deputatları Sovetinin 24 dekabr 1990-cı il tarixli qərarına əsasən SSRİ artıq bərabərhüquqlu suveren respublikalar Federasiyasına çevrilmişdi (23; 268). Azərbaycan da digər müttəfiq respublikalar kimi mövcud qanunlara uyğun olaraq və yaranmış şəraitdən istifadə edərək öz müstəqilliyini elan etmişdi.





19-21 avqust 1991-ci il dövlət çevrilişi cəhdindən (ГКЧП)* sonra elə həmin ilin sentyabr ayının 5-də qəbul edilmiş «Keçid dövründə SSRİ-nin dövlət hakimiyyəti və idarəçilik orqanları haqqmda» Qanuna əsasən SSRİ Xalq Deputatları Qurultayı səlahiyyətlərini ölkə Başçıları Sovetinə verərək öz fəaliyyətini dayandırdı (22). Qanunvericilikdə edilmiş çoxsaylı dəyişikliklər nəticəsində SSRİ Konstitusiyası öz hüquqi qüvvəsini itirdi və göstərilən qanuna əsasən SSRİ Ali Sovetinin qərarları Respublika Konstitusiyasına zidd olduğu halda Respublikalar həmin qanunun fəaliyyətini dayandırmaq hüququ əldə etdilər. Respublikaların ümumi maraqlarını əks etdirən daxili və xarici siyasətə dair məsələlərlə bağlı qərar vermək məqsədi ilə, formal olaraq, SSRİ Dövlət Soveti yaradıldı. Bura yeni SSRİ Prezidenti və müttəfiq respublikaların ən yüksək vəzifəli şəxsləri daxil idi. Əslində isə bütün səlahiyyətlər respublika hakimiyyətlərinin əlində cəmlənmişdi (22; 333).

1991-ci il avqust ayının 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar iclasında Azərbaycan xalqının öz müqəddəratını sərbəst təyin etmək hüququ və xalqın iradəsi əsas götürülərək «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında» Bəyannamə, həmin ilin oktyabr ayının 18-də isə «Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul edilmişdi. Həmin iclasda müstəqil Azərbaycan Respublikasının tanınması haqqında dünya birliyinin üzvü olan dövlətlərin parlament və hökumətlərinə müraciət edildi. Müraciətdə yenidən dünya birliyinin bəra-

---

* *Bəzi dövlət və partiya xadimləri SSRİ-nin birliyini və Kommunist Partiyasının bütün sahələrdə nəzarətini bərpa etmək məqsədi ilə dövlət çevrilişinə cəhd etmişdilər. Onların bu cəhdi uğursuzluqla nəticələnmişdi.*

bərhüquqlu üzvü olmaq istəyən Azərbaycan dövləti hamılıqla qəbul olunmuş beynəlxalq hüquq prinsiplərinə tərəfdar olduğunu qeyd edərək bütün dövlətləri, onların parlamentlərini və hökumətlərini Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında 30 avqust 1991-ci il tarixli Bəyannaməni nəzərə alaraq Azərbaycan Respublikasını müstəqil, suveren dövlət kimi tanımağa çağırdı (191, s.4).

Hər iki sənəd SSRİ-nin tam dağıldığı təsdiq edilməyənədək hüquqi sənəd kimi təsdiq olunmamışdı. «Müstəqillik haqqında Konstitusiya Aktı»nı təsdiq etmək məqsədilə Azərbaycan Respublikası Ali Sovetin qərarı ilə 1991-ci ilin 29 dekabrında «Müstəqillik haqqında» referendum keçirildi (111, s.35). İkinci dəfə* müstəqillik yoluna qədəm qoyan və müstəqilliyi dünya dövlətləri tərəfindən tanınan** Azərbaycan Respublikası da digər suveren dövlətlər kimi beynəlxalq hüququn subyektinə çevrildi və özünəxas daxili və xarici siyasət yürütməyə başladı.

* * *

Yuxarıda göstərilən bütün hadisələr Dağlıq Qarabağda qanlı toqquşmalarla müşaiyət olunurdu. Həmin toqquşmalar 1988-ci ilin 22 fevralından - ermənilər tərəfdən iki azərbaycanlı (ağdamlı) gəncin öldürülməsi və 19 nəfərin yaralanması ilə başlanmışdı (144, s.60). Həmin vaxt Ağdam rayonunda kolxoz sədri olan Sosialist Əməyi Qəhrəmanı Xuraman Qasımova bu vəhşiliklərin cavabını vermək istəyən azərbaycanlıların qarşısına çıxıb başından yaylığını açaraq onların ayaqları altına atmışdı və bununla da baş verə biləcək toqquşmanın qarşısını almışdı. Lakin bundan sonra toqquşmalar nəinki dayanmadı, hətta get-gedə daha da kəskin xarakter aldı.

Həmin ilin 23 fevralından isə Qafan rayonundan azərbaycanlıların çıxarılması ilə Ermənistandan azərbaycanlı əhalinin qovulması başlandı (144, s.60). Sonra Sumqayıt şəhərində mərkəzin dəstəyi ilə ermənilərin özləri tərəfindən təşkil edilmiş 28-29 fevral 1988-ci il hadisələri və bundan sonra baş vermiş bütün digər hadisələr münaqişəni daha da kəskinləşdirdi. Üstündən uzun illər keçəndən sonra 2005-ci ilin mart ayının 30-da Ermənistan parlamentində çıxış edən, həmin vaxt Təhlükəsizlik Şurasının katibi və müdafiə naziri olan, S.Sarkisyan 1988-ci il Sumqayıt və 1990-cı il Bakı hadisələrinin SSRİ rəhbərlərinin göstərişinə əsasən baş verdiyini bildirdi (29). Bu, ermənilər tərəfdən ilk təxribat deyildi. Ermənilər, ümumiyyətlə, münaqişə törədib sonra onu qarşı tərəfin üzərinə atmağa və baş verənlərdən öz xeyirlərinə istifadə etməyə, demək olar ki, adət ediblər. 1919-cu il iyun ayının 4 və 5-də erməni Milli Şurasının təhrikilə Qarabağda erməni və müsəlman icmaları arasında qarşıdurma yaranmışdı. Məqsəd ermənilərin azərbaycanlılar tərəfindən öldürüldüyünü və yaşayış yerlərindən qovulduğunu Versaldakı müttəfiqlərə göstərmək, bununla da Qarabağı Ermənistana birləşdirməyə nail olmaq idi. Lakin ingilis komandanlığı əsl səbəbi öyrəndikdən sonra erməni Milli Şurasını Qarabağdan uzaqlaşdırmağa nail olmuşdu (112, s.235).

Həmin 1919-20-ci illərdə Qafqazda münaqişə zonasında olmuş ingilis jurnalisti Skotland Liddelin Ermənistan və ermənilər haqqında dediyi sözlər təkcə həmin dövr üçün deyil, bu gün də öz aktuallığını qoruyub-saxlayıb. O demişdi: «Ermənistan əbədi olaraq toqquşma axtarır, nə vaxt ki, ona nail oldu, onu öz təbliğatında «təzyiq aləti» adlandırır və doğrudan da bu əməlli-başlı cəza alətinə çevrilir. Daşnaklar üçün ölmüş erməni çox qiymətlidir. Əgər ondan lazım oldu-

* *Azərbaycan ilk dəfə 1918-ci ilin 28 mayında müstəqillik əldə etmişdi.*

** *Azərbaycanın müstəqilliyini 9 noyabr 1991-ci ildə tanıyan ilk dövlət Türkiyə Cümhuriyyəti oldu (178, s.31). Onu da qeyd etmək lazımdır ki, 1918-ci ildə də müstəqil Azərbaycan Xalq Cümhuriyyətini ilk olaraq Osmanlı imperiyası tanımışdı (112, s.92).*

ğu kimi istifadə etmək mümkün olsa, onda o, təbliğat işinə çoxlu fayda gətirə bilər» (112, s,234).

Bu baxımdan, 19 fevral 2004-cü ildə Budapeştdə azərbaycanlı zabit Ramil Səfərov tərəfindən Azərbaycan bayrağını və zabitin şəxsiyyətini təhqir etdiyi üçün qətlə yetirilmiş erməni zabit Qurgen Markaryan və 19 yanvar 2007-ci ildə İstanbulda öldürülmüş erməni redaktor Qrant Dink də ermənilər üçün xüsusilə qiymətlidir. Bu, ermənilərin bir daha bütün dünyaya car çəkib ermənilərin əzabkeş millət olduğunu və hər yerdə təcavüzə məruz qaldığını göstərmək üçün əllərinə göydən düşmüş bir fürsətdir. Onlar hadisələrin baş vermə səbəblərini isə özləri istədikləri kimi çatdırır və öldürülmüş erməniləri qəhrəman kimi təqdim edirlər. Qeyd edək ki, «Proqress» erməni partiyasının sədri Ramil Səfərovun başına 125 min dollar qiymət qoyub.

* * *

Milli ordunun yaradılmasında da Ermənistan Azərbaycandan cəld tərpəndi. 1991-ci ilin aprelində Ermənistanda milli orduya çağırış başlandı və Ermənistan özünün milli ordusunu yaratdı (144, s.116).

Azərbaycan Respublikası isə həmin il avqust ayının 30-da öz dövlət müstəqilliyini bərpa etməklə yanaşı, «Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında» da qərar qəbul etdi. Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 5 sentyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi yaradıldı (144, s.116).

Münaqişə başlayarkən Azərbaycan və Ermənistan Sovetlər İttifaqının tərkibində olduğu üçün onu SSRİ çərçivəsində həll etməyə çalışırdılar. Buna görə də, əvvəldə qeyd etdiyimiz kimi, 1989-cü ilin 12 yanvarında SSRİ Ali Soveti Rəyasət heyəti DQMV-də milli münaqişənin gərgin olaraq qalması ilə əlaqədar və münaqişənin daha da kəskin xarakter almaması və regionda vəziyyəti stabilləşdirmək məqsədilə Dağlıq Qarabağ Azərbaycan ərazisində muxtar vilayət statusunu saxlamaq şərtilə DQMV-də A.İ.Volskinin sədrliyi ilə xüsusi idarə Komitəsinin yaradılmasına qərar vermişdi. Komitə birbaşa SSRİ-nin Ali orqanlarına tabe idi. Yerli dövlət orqanlarını və DQMV-ni idarə etmək Komitəyə tapşırılmışdı və vilayət xalq deputatları Şurası komitəsinin icra aparatı onun işçi orqanı vəzifəsini yerinə yetirirdi (405, s.30). Əvvəldə də qeyd etdiyimiz kimi, bu qərar münaqişənin həllini yaxınlaşdırmaqdansa, DQMV-də baş verən hadisələrin Azərbaycanın nəzarətindən çıxmasına səbəb oldu.





SSRİ rəhbərliyi ermənipərəst mövqe tutsa da öz qərarlarında Ermənistan SSR-in hərəkətlərinin qanunazidd və qızışdırıcı olduğunu açıq-aşkar bildirirdi. SSRİ Ali Soveti Rəyasət heyətinin «Ermənistan SSR Ali Soveti Rəyasət heyətinin 1 dekabr 1989-cu il və 9 yanvar 1990-cı il tarixli Dağlıq Qarabağa dair aktlarının SSRİ Konstitusiyasına uyğun olmadığına dair» 10 yanvar 1990-cı il tarixli qərarında və SSRİ Ali Soveti Rəyasət heyətinin «Dağlıq Qarabağda və bir neçə digər rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında» 15 yanvar 1990-cı il tarixli əmrində Ermənistan SSR Ali Sovetinin Dağlıq Qarabağa dair qəbul etdiyi SSRİ Konstitusiyasına uyğun gəlməyən aktların millətlərarası münasibətlərin gərginləşməsinə gətirib çıxardığı göstərilmişdi (405, s.34,37).

Müttəfiq respublikalar da SSRİ çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün müəyyən cəhdlər edirdilər. Rusiya və Qazaxıstan respublikalarının rəhbərlərinin Azərbaycan və Ermənistan tərəfinin razılığı ilə birgə vasitəçilik missiyaları bu istiqamətdə atılmış ilk addım kimi qiymətləndirilir. 20-23 sentyabr 1991-ci il tarixdə Rusiya Prezidenti Boris Yeltsinin və Qazaxıstan Prezidenti Nur-

sultan Nazarbayevin başçılıq etdikləri vasitəçilik missiyası Bakı, Gəncə, Xankəndi (o vaxt: Stepanakert) və Yerevanda səfərdə oldu. Vasitəçilik missiyasının iştirakı ilə 23 sentyabrda Şimali Qafqazın Jeleznovodsk şəhərində Azərbaycan və Ermənistan respublikaları Prezidentlərinin görüşü keçirildi. Görüşdə münaqişənin mərhələli nizamlanmasına dair bəzi məsələlər müzakirə edildi və nəticədə Rusiya tərəfdən B.Yeltsin, Qazaxıstan tərəfdən N.Nazarbayev, Azərbaycan tərəfdən A.Mütəllibov, Ermənistan tərəfdən Levon Ter-Petrosyanın* imzaladığı birgə kommunike qəbul edildi (107, s.136).

Kommunikedə tərəflər - atəşin dayandırılmasını; Azərbaycan və Ermənistanın DQMV-yə dair bütün qeyri-konstitusiya aktlarının ləğv edilməsini; qanuni hakimiyyət orqanlarının səlahiyyətlərinin tanınmasını; SSRİ DİN-ə məxsus Daxili Qoşunların və SSRİ Müdafiə Nazirliyinin hissələri istisna olmaqla, münaqişə bölgəsindən bütün silahlı dəstələrin çıxarılmasını, münaqişənin 1 yanvar 1992-ci il tarixədək nizamlanmasını zəruri və məcburi şərtlər kimi qəbul edirdilər. Həmin müddət bitdikdə isə bütün silahlı qruplaşmaların və onların fəaliyyətlərinin qeyri-qanuni hesab edilməsi və onların qarşısının SSRİ DİN-in daxili qoşunları tərəfindən alınması, silahlı dəstələrin iştirakçılarının isə qanuna uyğun şəkildə məsuliyyətə cəlb edilməsi nəzərdə tutulurdu.

Bundan başqa sənəddə aşağıdakılar öz əksini tapmışdı: Razılaşdırılmış tədbirlərin icrası məqsədilə Rusiya və Qazaxıstanın səlahiyyətli nümayəndələrindən ibarət müvəqqəti qrup yaradılır və onların 1 oktyabr 1991-ci ilədək fəaliyyətə

---

* *L.Ter-Petrosyan 1991-ci ildə beş illik müddətə Ermənistan Respublikasının ilk prezidenti seçilmişdi. Sonra ikinci prezidentlik müddətinə seçilən L.Ter-Petrosyan prezidentlik müddəti başa çatmamış istefa verməyə məcbur oldu. O bu addımını öz komandasının onu Dağlıq Qarabağın taleyinə dair Azərbaycanla danışıqlarda «razılaşma siyasəti» yürütdüyü üçün ittiham etməsi ilə izah etdi.*





başlayacağı nəzərdə tutulur. Bundan sonra Azərbaycan və Ermənistan Respublikaları deportasiya olunmuş əhalinin öz yerlərinə qaytarılmasına başlamalı və tərəflər daimi yaşayış yerlərində onların təhlükəsizliyini təmin etməlidirlər. Bu haqda danışıqlara 1 oktyabr 1991-ci ildə başlanmalıdır; Münaqişəyə cəlb edilmiş tərəflər - vasitəçilərin nəzarəti altında girovların azad edilməsinə başlamalı; İttifaq orqanları ilə birgə dəmir yol nəqliyyatı, hava əlaqəsi, rabitə və kommunikasiya sistemlərinin normal fəaliyyətini təmin etməli, vasitəçilərin iştirakı ilə avtomobil yollarının azad və faydalı istismarmı təmin etmək məqsədilə danışıqlara başlamalıdır. Tərəflər, həmçinin münaqişə haqqında obyektiv məlumat əldə etmək məqsədilə RF və Qazaxıstan nümayəndələrindən ibarət səlahiyyətli qrup yaratmaq qərarına gəldilər. Bunlarla yanaşı, Azərbaycan və Ermənistanın Ali orqanları ikitərəfli danışıqlar prosesinə başlamaq üçün səlahiyyətli nümayəndə heyətləri təyin etməlidirlər (27). Lakin Kommunike qəbul edildikdən sonra baş vermiş hadisələr sənəddə nəzərdə tutulanların həyata keçirilməsinə imkan vermədi.

Əvvəldə də qeyd etdiyimiz kimi, münaqişə Ermənistan və Azərbaycan respublikaları SSRİ-nin tərkibində müttəfiq respublika olduğu vaxtdan başlandığı üçün hər hansı digər dövlət, yaxud təşkilat ona müdaxilə etmirdi. Çünki bu, son zamanlar mövqeyinin zəifləməsinə baxmayaraq hələ də dünyanın iki fövqəl dövlətindən və qüvvələr balansını tənzimləyən iki qütbdən biri olan SSRİ-nin daxili işlərinə qarışmaq kimi qiymətləndirilə bilərdi.

Məsələn, 1991-ci ilin 9 noyabr tarixində Türkiyə Cümhuriyyəti Azərbaycanın müstəqilliyini tanıdığını bəyan edəndə, SSRİ hələ mövcud olduğu üçün, ABŞ bu hərəkətin dünyada gərginliyin artmasına səbəb ola biləcəyindən ehtiyat edərək ona tələsməməyi məsləhət görmüşdü. Buna cavab olaraq Türkiyə SSRİ ilə münasibətlərini qarşılıqlı hörmət əsa-

sında qurduğunu, Azərbaycanın istiqlaliyyətini tanımaq haqqında Türkiyə hökumətinin qərarının isə türk xalqının iradəsini ifadə etdiyini bildirmişdi. 11 noyabr 1991-ci ildə Türkiyə xarici işlər naziri Səfa Səray Türkiyə Cümhuriyyətinin hökuməti adından Azərbaycan Respublikasının müstəqilliyinin tanındığına dair bəyanatı Azərbaycan Respublikasının Prezidentinə təqdim etmişdi* (178, s.31-32).

1991-ci ilin sonunda respublikalar tam müstəqillik əldə etdikdən sonra isə münaqişənin həlli prosesinə qonşu dövlətlər və beynəlxalq təşkilatlar da qoşulmağa cəhd etdilər.

2 mart 1992-ci il tarixdə Azərbaycan BMT-yə üzv qəbul edildikdən sonra Ermənistanın təcavüzünün açıq-aşkar güclənməsi ilə bağlı BMT Baş Katibinə, Təhlükəsizlik Şurasının Sədrinə müraciət edərək Ermənistanın Azərbaycana qarşı təcavüzünü dərhal dayandırmağa, beynəlxalq hüquq normalarının və BMT Nizamnaməsinin açıq şəkildə pozulmasının qarşısını almağa, münaqişənin dinc siyasi yolla nizamlanmasına kömək göstərməyə çağırdı (107, s.139).

Həmin dövrdə Ermənistan-Azərbaycan münaqişəsinə qarışmamağa çalışan Türkiyə onun dinc yolla həllinə nail olmaq üçün beynəlxalq təşkilatlara müraciət etmişdi (178, s.42). 1992-ci ilin 11 mart tarixində Türkiyə Böyük Millət Məclisinin İnsan haqları Komissiyasının üzvləri dünya mətbuatı nümayəndələri üçün təşkil etdikləri mətbuat konfransında Qarabağda savaş yox, qətliam (soyqırım) baş verdiyini bildirmişdilər (178, s.39).

İran da münaqişə tərəfləri arasında vasitəçilik etmək istəyən dövlətlərdən idi. 1991-ci ilin mart ayında İran İslam Respublikasının xarici işlər naziri Azərbaycana və Ermənistana səfəri zamanı hər iki dövlət arasında ikitərəfli münasibətlərin inkişaf yolları və münaqişənin həllində vasitəçilik etmək istəyini bildirmişdi. Bunun nəticəsi olaraq, 7 may 1992-ci il tarixdə - Azərbaycan və Ermənistan Respublikası müstəqil olduqdan sonra – İİR Prezidenti Ə.Haşimi-Rəfsəncaninin vasitəçiliyi ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Y.Məmmədov və Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyan arasında Tehran Bəyannaməsi imzalandı (189, s.91). Bəyannaməyə əsasən atəşkəsin əldə edilməsi və iqtisadi tələbatı ödəmək üçün bütün kommunikasiya yolları açılacağı nəzərdə tutulurdu. Əldə edilmiş razılıq həyata keçiriləcəyi təqdirdə İİR-in müşahidəçiləri ilə yanaşı, ATƏM müşahidəçilərinin də prosesə cəlb ediləcəyi qərara alınmışdı. Lakin bu vasitəçilik səyləri uğursuzluqla nəticələndi (116, s.179).

Tehran Bəyannaməsinin ardınca 8 may 1992-ci ildə Şuşa şəhəri, 18 may 1992-ci ildə isə Laçın rayonu ermənilər tərəfdən işğal edildi. 1992-ci il avqust ayının 27-də Qazaxıstan Prezidenti N.Nazarbayevin təklifilə Azərbaycan və Ermənistan Respublikalarının xarici işlər nazirləri Qazaxıstanın o vaxtkı paytaxtı* Alma-Ata (indiki Almatı – *K.R.*) şəhərində görüşdülər. Tərəflər 1 sentyabr 1992-ci ildən başlayaraq 60 gün ərzində hərbi əməliyyatları dayandırmaq haqqında razılığa gəldilər. Lakin bu razılığa əməl edilmədi və həmişə olduğu kimi bu dəfə də tərəflər razılığın pozulmasında bir-birlərini günahlandırdılar.

* * *

ABŞ Konqresi 1992-ci il 24 oktyabr tarixdə müstəqillik əldə etmiş keçmiş sovet dövlətlərinə yardım haqqında «Rusiyada azadlığın, Avrasiyada demokratiyanın, azad bazar mü-

---

* *Türkiyə Cümhuriyyəti 1992-ci ilin 14 yanvarında Azərbaycan Respublikasını hüquqi cəhətdən tanıdı və onunla diplomatik münasibətləri bərpa etdi. (178, s.32)*

* *1998-ci ildən Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərinə köçürülüb.*



K.Ruintən. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı, 2008

nasibətlərinin müdafiəsi haqqında akt» adlanan qanunvericilik aktı qəbul etdi. Akt çərçivəsində ABŞ hökumətinin həyata keçirdiyi proqramlar aşağıdakı istiqamətlər üzrə qruplaşdırılırdı:

- ABŞ hökumətinin MDB-də işgüzar fəaliyyətə, idxal və ixracın inkişafına yardım proqramları;
- ABŞ hökumətinin maliyyələşdirilmə proqramları;
- Texniki yardım proqramları (107, s.138).

Həmin ilin dekabrında isə qısaca «Azadlığın müdafiə aktı» adlanan həmin akta Massaçusets ştatını təmsil edən Kerri adlı senatorun təşəbbüsü ilə Azərbaycana verilən yardımı məhdudlaşdıran 907-ci düzəlişi qəbul edildi. Bu düzəliş başqa dövləti mühasirədə saxlayan dövlətə yardımı qadağan edir və Azərbaycan Ermənistanı blokadada saxladığı üçün ona yardım edilməsi qadağan olunurdu. Azərbaycan hökumətinin Ermənistana və Dağlıq Qarabağa qarşı bütün blokadaları və hərbi gücdən istifadəni ləğv etməsini ABŞ prezidenti müəyyən edib bu haqda konqresə məlumat verməyincə Azərbaycan hökumətinə yardım göstərilməyəcəyi bildirildi (107, s.139). 2001-ci ilin 11 sentyabrında ABŞ-da baş verən terror hadisələrindən sonra 2001-ci ilin oktyabr ayında Senat Corc Buşa 907-ci düzəlişin qüvvəsinin dayandırılması üçün səlahiyyət verdi. Senatın qəbul etdiyi həmin qərar Konqresin hər iki palatasının nümayəndələrindən ibarət razılaşdırıcı komitənin müsbət rəyini aldıqdan sonra 2002-ci il yanvar ayının 25-də C.Buş həmin səlahiyyətdən istifadə edərək beynəlxalq antiterror koalisiyasının üzvü olan Azərbaycana qarşı tətbiq edilən 907-ci düzəlişin qüvvəsinin dayandırılması haqqında müvafiq sənəd imzaladı (146, s.58; 159, s.173). Amerika erməni Assambleyasının başçısı Van Qriqoryan buna etiraz edərək, ABŞ-Azərbaycan əməkdaşlığından qorxmaq üçün Ermənistanın ciddi əsasları olacağını və bu əməkdaşlığın onların iki yüz yaşlı «qədim» vətənlərinə ziyan vuracağını bil-





dirdi (182). Buna baxmayaraq, düzəlişin qüvvəsi dayandırıldı. Lakin o hələ də tamamilə ləğv edilməyib.

Ermənistanın keçmiş milli təhlükəsizlik naziri David Şahnazaryanın fikrincə münaqişənin ilk illərində Ermənistan bir sıra sahələrdə uğurlar əldə etmişdi ki, bunlardan biri də onun Azərbaycanı aqressor-ölkə kimi təqdim edə bilməsidir. D.Şahnazaryan qeyd edir ki, ABŞ Konqresinin Azərbaycana qarşı tətbiq etdiyi 907-ci düzəliş Azərbaycanın aqressor-ölkə olduğunu sübut edir (269).

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 26 aprel 2006-cı il tarixdə Vaşinqtonda Beynəlxalq Münasibətlər Şurasında görüşü zamanı isə ABŞ-ın sabiq prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi general Brent Skoukroft Ermənistanın apardığı hərbi əməliyyat və təcavüzün müqabilində ABŞ-ın sanksiyalarının Ermənistana deyil Azərbaycana tətbiq edildiyini qeyd etmişdi. Bunun cavabında Dövlət başçısı İ.Əliyev bildirmişdi ki, sanksiyanın tətbiq edilməsi müstəqilliyin ilk illərində Azərbaycanda diplomatiyanın zəif olması və ABŞ-ın Azərbaycanı ümumiyyətlə tanımaması səbəbindən baş vermişdi. Həmin vaxt ermənilər Konqresi və digər təsisatları Azərbaycanın təcavüzkar olmasına inandıra bilmişdilər (76). 2007-ci il aprel ayının əvvəlində AzərTAc-ın müxbirinə müsahibə verən Minsk qrupunun amerikalı həmsədri M.Brayza isə bu düzəlişin səmərəsiz qanun olduğunu və Dağlıq Qarabağ münaqişəsində bitərəf vasitəçi kimi çıxış etməyə imkan vermədiyini bildirib (149).

* * *

1993-cü il – münaqişənin artıq Dağlıq Qarabağ sərhədləri çərçivəsindən çıxdığı bir vaxtda Azərbaycan hökuməti beynəlxalq birliyin üzvü olan dövlətlərə və beynəlxalq təşkilatlara müraciət edərək Ermənistanın təcavüzkarlığının dayandırılması üçün onlardan yardım istədi. Həmin ilin aprel

ayında Turqut Özalın* Bakıya səfəri zamanı Türkiyə və Azərbaycan arasında müştərək müdafiə müqaviləsi bağlanacağı gözlənilirdi. Lakin Azərbaycan münaqişənin ATƏM çərçivəsində həllini dəstəklədiyi üçün onun beynəlxalq ictimaiyyətin köməyi ilə həllinə üstünlük verdi və Türkiyə də hərbi müdaxilənin münaqişəni daha da gücləndirəcəyindən ehtiyat etdiyi üçün belə bir müqavilə bağlanmadı (178, s.52). Elə həmin il Türkiyə Cümhuriyyətinin Baş Naziri Tansu Çillər BMT TŞ-ya Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı olaraq hər iki respublika arasında BMT-nin sülhməramlı qoşunlarının yerləşdirilməsi məqsədilə müraciət etməyi təklif etmişdi. Türkiyənin Azərbaycandakı səfirliyi bəyanat verərək Ermənistanın Azərbaycana qarşı təcavüzü və müstəqil Azərbaycanın ərazi bütövlüyünün pozulması hallarının yalnız Azərbaycanın daxili işi olmadığını, bütün beynəlxalq qanunları və hüququ pozan, həmçinin dünya miqyasında təhlükəli bir məsələ olduğunu bildirmişdi. Lakin ya Azərbaycan öz razılığını verməditi, ya da hər hansı digər səbəbdən Türkiyə BMT-yə müraciət etməmişdi (178, s.56). Göstərilən ilin 27 iyulunda Türkiyə Cümhuriyyətinin yeni prezidenti Süleyman Dəmirəl Fransa Prezidenti Fransua Mitteranla danışarkən, Rusiya Prezidenti B.Yeltsinə isə məktub göndərərək onlardan Ermənistan üzərində olan nüfuzlarından istifadə edərək onun beynəlxalq hüquq normalarına hörmət etməsini və işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasını təmin etmələrini xahiş etmişdi. O, həmçinin BMT və ATƏM çərçivəsində həmin dövlətlərlə əməkdaşlıq etməyə hazır olduğunu bildirmişdi (178, s.55).

Türkiyə özü isə Ermənistanın Azərbaycana qarşı hərbi əməliyyatları gücləndirməsi ilə əlaqədar olaraq Ermənistana

---

* *1993-cü ilin aprel ayında Türqut Özal vəfat etdi və həmin ilin may ayında Süleyman Dəmirəl Türkiyə Cumhuriyyətinin Prezidenti oldu.*





yardımı dayandırdı və öz hava yollarını Ermənistana və Ermənistandan uçan bütün təyyarələr üçün bağlı elan etdi* (178, s.50-51).

Artıq münaqişənin Dağlıq Qarabağın hüdudlarından çıxdığını və onun ətrafındakı Azərbaycanın digər rayonlarının da işğal edildiyini görən BMT TŞ məsələyə münasibət bildirmək qərarına gəldi. 1993-cü il aprel ayının 3-də Kəlbəcər rayonunun ermənilər tərəfindən işğalı ilə əlaqədar olaraq aprel ayının 6-da BMT Təhlükəsizlik Şurasının sədri Azərbaycanın Kəlbəcər rayonunun erməni silahlı birləşmələri tərəfindən işğalını ittiham edərək bu ərazilərin dərhal azad edilməsini və ordunun oradan çıxarılmasını tələb edən bəyanatla çıxış etdi (126), BMT TŞ isə bununla bağlı 30.04.1993-cü il tarixli 3205-ci iclasında 822 saylı qətnamə qəbul etdi (185, s.91). Lakin həm BMT TŞ-nın sədrinin bəyanatında, həm də TŞ-nın qətnaməsində Kəlbəcərin yerli erməni qüvvələri tərəfindən təcavüzə məruz qaldığı göstərilir. Bununla yanaşı, bəyanat və qətnamədə işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın son vaxtlar işğal edilmiş digər rayonlarından dərhal çıxarılmasını tələb edilməklə təcavüzkar qüvvənin yerli deyil, kənar qüvvə olmasının müəyyən olduğunu göstərilir. Yoxsa həmin qüvvələrin göstərilən ərazilərdən çıxarılması deyil, onlardan öz hərəkətlərinə son qoymaq tələb edilərdi. Bundan başqa, BMT TŞ-nın 29.07.1993-cü il tarixli 3259-cu iclasında münaqişədə iştirak edən erməni işğalçılarının tez bir zamanda hərbi əməliyyatları dayandırması, Ağdam və başqa zəbt olunmuş rayonların ərazisindən çıxarılmasını qəti surətdə tələb edən 853 saylı, 14.10.1993-cü il tarixli 3292-ci iclasında bir daha erməni qüvvələrinin zəbt olunmuş ərazilər-

---

* *1992-ci ilin sonu - 1993-cü ilin əvvəllərində Ankara ərazisindən keçməklə Ermənistana humanitar yardım aparılmasına Türkiyə icazə vermişdi. Bu yardım dünya birliyi ölkələri tərəfindən Azərbaycanın «blokadada saxladığı» «əzabkeş erməni xalqına» göndərilirdi (178, s.48-49).*

dən çıxarılmasını tələb edən 874 saylı və 11.11.1993-cü il tarixdə 3313-cü iclasında Dağlıq Qarabağ ermənilərinin Azərbaycan Respublikasının Zəngilan rayonu, Horadiz şəhəri və digər zəbt olunmuş əraziləri azad etməyə çağıran 884 saylı qətnamələri də mövcuddur (185, s.91).

Ermənilər özləri BMT TŞ-in qətnamələrini tam fərqli izah edirlər. «Dağlıq Qarabağ respublikası»nın «Təhlükəsizlik Şurasının» katibi K.Baburyan həmin qətnamələrin dolayı yolla «Dağlıq Qarabağ respublikası»nı tanıdığını hesab edir. O bunu onunla izah edir ki, əgər qətnamədə ərazinin yerli erməni qüvvələri tərəfindən tutulduğu göstərilirsə, bu artıq respublikanın tanınması elementlərindəndir (252). Bundan başqa, ermənilər bildirirlər ki, BMT qətnamələri fəal hərbi əməliyyatlar aparıldığı və «Qarabağ» ordusunun keçmiş DQMV ilə həmsərhəd rayonlarının bir hissəsini «azad» etdiyi bir vaxtda qəbul edilmişdi ki, həmin rayonlar hələ RK(b)P Qafqaz bürosunun qərarı ilə DQMV-nin tərkibinə daxil edilməli idilər. Bununla bərabər göstərirlər ki, qətnamələrdə Ermənistan Respublikasının ünvanına heç bir ittiham irəli sürülmür və BMT TŞ-nin 882 №-li qətnaməsində Kəlbəcərin işğalının yerli, yəni Qarabağın erməni qüvvələri tərəfindən həyata keçirildiyini göstərməyi vacib sayıb (299, s.81). Ermənistan, ümumiyyətlə, münaqişənin başlandığı gündən onun Dağlıq Qarabağa olan ərazi iddialarına qarşı çıxarılan qərarların heç birinə məhəl qoymamışdır. Qeyd etmək lazımdır ki, 1992-ci ildə Ermənistanın Ali Soveti Dağlıq Qarabağın Azərbaycan tərkibində olduğu göstərilən heç bir sənədi tanımayacağı haqda qərar qəbul edib (328).

Minsk qrupunun rusiyalı həmsədri Yuri Merzlyakov isə 2004-cü ilin iyul ayında Bakıya səfəri zamanı həmin qətnamələrə münasibətini belə bildirdi: «BMT TŞ-nın qətnamələri başqa şəraitdə qəbul edilib və onlar bu gün yerinə yetirilməyə bilər. Göstərilən tələblərin yerinə yetirilmə müddəti keçib və yeni nizamlama variantı axtarmaq lazımdır» (324).





BMT-nin qətnamələrində silahlı qüvvələrin kimə məxsus olduğunu göstərmək münaqişənin ölkədaxili, yaxud ölkələrarası münaqişə olmasını müəyyənləşdirməyə kömək edir. Adı çəkilən münaqişədə, əgər təcavüzkar qüvvələrin yerli erməni qüvvələri olduğu göstərilirsə, onda münaqişə ölkədaxili, əgər Ermənistan silahlı qüvvələri olduğu göstərilərsə və bu hüquqi cəhətdən təsdiq olunarsa, onda ölkələrarası və beynəlxalq münaqişə kimi qiymətləndirilməlidir (185, s.95). BMT TŞ-nın sənədlərində silahlı qüvvələrin yerli ermənilərə məxsus olduğu göstərilsə də münaqişənin Ermənistanla Azərbaycan arasında baş verdiyi qəbul edilib və o, beynəlxalq münaqişə hesab edilir.

Ermənistan əvvəlkitək Azərbaycan ərazilərini işğal altında saxlayır və işğal olunmuş əraziləri fəal şəkildə məskunlaşdırır, bununla da beynəlxalq ictimaiyyətin iradəsinə məhəl qoymur (126).

Qeyd etmək lazımdır ki, münaqişə Ermənistan və Azərbaycan arasında baş verdiyi üçün lap əvvəldən bütün görüşlərdə - həm 1991-ci il 20-23 sentyabr Jeleznovodsk şəhərində, həm 1992-ci il may ayının 7-də İranda, həm də həmin il 1 sentyabr tarixində Alma-Ata (Almatı) şəhərində görüşlər zamanı danışıqlar münaqişə tərəfi olaraq Ermənistan və Azərbaycan tərəfləri arasında aparılmışdı, sənədləri də münaqişə tərəfi olaraq həmin respublikaların nümayəndələri imzalamışdılar. Danışıqlar prosesi ATƏT çərçivəsinə keçdikdən sonra Ermənistanın təhriki və həmin dövrdə Rusiyanın təşəbbüsü ələ alması ilə «Dağlıq Qarabağ»ın münaqişə tərəfi kimi ortaya atılması meydana çıxdı.

Ümumilikdə isə, münaqişə ilə 1992-ci ildən ATƏM-in Minsk qrupu məşğul olduğu və 1994-cü ildən isə münaqişənin həllinə dair bütün səlahiyyətlər ATƏT çərçivəsinə keçdiyi üçün BMT daxil olmaqla bütün digər təşkilatlar və dövlətlər onun ATƏT çərçivəsində həllinə üstünlük verirlər.

# FƏSİL 4
## ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ VƏ ATƏT

ATƏM (indi ATƏT) 1992-ci ildən BMT Nizamnaməsinin VIII fəslini* əsas götürərək özünün regional razılaşma əsasında yaradılmış qurum olduğunu rəsmən bəyan etdi, bununla da BMT mandatı əsasında regional münaqişələrin həllində fəal iştirak etmək statusu qazandı (170, s.333). Azərbaycan da müstəqil dövlət olaraq həmin ilin yanvar ayından ATƏM-in üzvüdür (110, s.199) və elə həmin vaxtdan qurum Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesində yaxından iştirak edir. ATƏM-in Nazirlər Şurasının 24 mart 1992-ci il tarixində Helsinkidə keçirilən birinci əlavə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla nizamlanması məqsədi ilə danışıqlar üçün format şəklində Minsk qrupu yaradıldı. Qrupa Azərbaycan və Ermənistandan başqa doqquz dövlət – ABŞ, Fransa, Almaniya, İtaliya, Türkiyə, İsveç, Çexiya, Belarus, Rusiya – daxil edildi (110, s.203-204).

İlk əvvəl Minsk qrupuna üzv olan hər bir dövlətin növbə ilə qrupun sədri seçiləcəyi qərarlaşdırılmışdı. Bu qaydaya uyğun olaraq, 1992-ci ilin 1 mayında ATƏT-in mandatı əsasında italiyalı Mario Rafaelli qrupun ilk sədri, sonra isə isveçli Yan Eliasson qrupun növbəti sədri seçilmişdi (250, s.93).

Qrupun əsas vəzifəsi problemi dinc yolla həll etmək məqsədi ilə müvafiq sənəd hazırlamaq və xüsusi Minsk konfransı çağırmaqla münaqişəni həll etməkdir. Belarus dövlətinin regionda heç bir marağı olmadığı üçün yekun konfransı

* *BMT Nizamnaməsinin 8-ci fəsli regional razılaşmalar adlanır.*





onun paytaxtı Minsk şəhərində keçirmək nəzərdə tutulmuşdu və məhz buna görə qrup Minsk qrupu adlandırılır (97, s.13).

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) 1994-cü il dekabr ayının 4-5-də Budapeşt sammiti zamanı danışıqlar forumundan daimi fəaliyyət göstərən təşkilata çevrildi və 1 yanvar 1995-ci ildən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlanmağa başladı (97, s.31). Sammit zamanı dekabr ayının 6-da təşkilatın Ermənistan-Azərbaycan münaqişəsini dinc yolla nizamlama səyləri nəzərə alınaraq onun həlli səlahiyyətləri bütünlüklə ATƏT çərçivəsinə keçirildi.

Münaqişənin ATƏT çərçivəsinə keçirilməsinin üstünlüklərindən biri kimi onu qeyd etmək olar ki, BMT-dən fərqli olaraq bu təşkilat çərçivəsində təşkilatın bütün digər üzv dövlətləri kimi Azərbaycan da veto qoymaq hüququna malikdir. Və bu hüquq Azərbaycana onu qane etməyən qərarların qəbul edilməsinin qarşısını almaq imkanı verir. Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, Ermənistan da təşkilatın üzvü olaraq veto qoymaq hüququna malikdir və o da ölkəni qane etməyən qərarların qəbul edilməməsi üçün lazım bildiyi hallarda bu hüququndan istifadə etmək fürsətini əldən vermir.

ATƏT üzv dövlətlərin ərazisində münaqişələri həll etmək üçün səlahiyyət və prinsiplərə malikdir. Lakin ATƏT çərçivəsində və onun himayəsi altında müqaviləni yerinə yetirməkdən imtina edən tərəfə qarşı sanksiya tətbiqetmə mexanizmi mövcud deyil. Təşkilatda qərarlarm konsensus yolu ilə qəbul edilməsi də müqaviləni pozan tərəfə öz əməllərinə görə məsuliyyət daşımamaq imkanı verir. Böhran ATƏT-in səlahiyyətlərini aşan mərhələyə çatarsa, o, kömək üçün BMT Təhlükəsizlik Şurasına müraciət edə bilər. Beləliklə, BMT və ya digər səlahiyyətli təşkilat münaqişənin nizamlanması prosesinə qoşula bilər (110, s.456). Minsk qrupu tərəfindən qə-

bul edilən sənədlər də yalnız məsləhət və tövsiyə xarakteri daşıyır və məcburi sayılmır. Minsk qrupu görüşlərin keçirilməsinə dair tövsiyələr, təkliflər alır, regiona gedir, məsələləri yerində öyrənir və mövqeləri yaxınlaşdıra biləcək formullar tapmağa çalışır.

Münaqişənin nizamlanması yolunda ATƏT çərçivəsində və Rusiyanın vasitəçiliyi və səyləri ilə əldə olunmuş ən böyük nailiyyət 1994-cü il may ayından Ermənistan və Azərbaycan arasında atəşkəsin əldə edilməsidir. Bu məqsədlə 5 may 1994-cü ildə Qırğızıstanın Bişkek şəhərində görüş keçirildi və görüşün protokoluna əsasən (Bişkek protokolu) tərəflər həmin ilin may ayının 8-dən 9-na keçən gecə atəşin dayandırılması haqqında razılığa gəldilər (15, 126). Üstündən 13 ildən artıq vaxt keçməsinə baxmayaraq hələ də Bişkek görüşü və protokolu haqqında müxtəlif mövqelər və mübahisələr mövcuddur.

2003-cü ildə «Dağlıq Qarabağ respublikası»nın «Təhlükəsizlik Şurasının katibi» K.Baburyan Ermənistanın «Defakto» xəbər agentliyinə müsahibəsində bildirmişdi ki, Bişkek görüşünün əsas məqsədi «Dağlıq Qarabağ»ı bərabərhüquqlu tərəf kimi tanıtmaq idi və həmin sənədin qəbul edilməsi demək olar ki, «Dağlıq Qarabağ»ın münaqişə tərəfi statusunu təsdiq edir. O, həmçinin Bişkek protokolunun Azərbaycanın «Dağlıq Qarabağla» birbaşa danışıqlar apardığı yeganə görüş zamanı tərtib edilmiş yeganə sənəd olduğunu bildirmişdi. Müsahibə zamanı K.Baburyanın sənədi «Dağlıq Qarabağ respublikası»nın «parlament rəhbəri» kimi imzaladığı da qeyd edilir (252). Lakin sənəddə onun adı yazılmaqla yanaşı tutduğu mövqe göstərilmir. Çox güman ki, Azərbaycan tərəfi K.Baburyanı Dağlıq Qarabağın erməni icmasının nümayəndəsi kimi qəbul edirdi. Bu səbəbdən də görüş zamanı Azərbaycan Parlamentinin sədr müavini Afiyəddin Cəlilov sənədi imzalamaqdan imtina edərək onu Dağlıq Qarabağın





azərbaycanlı icmasının nümayəndəsinin də imzalamasını tələb etmişdi. Bundan sonra Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri N.Bəhmənovun da sənədi imzalamasına dair razılığa gəlinmişdi (393).

K.Baburyanın görüşdə təkcə erməni icmasının rəhbəri kimi yox, Azərbaycanda yaşayan milli azlıq nümayəndəsi olaraq iştirak etməsi də mümkün idi. Belə ki, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 18 dekabr 1992-ci il tarixli (Qərar 47/135) «Milli və ya etnik, dini və dili azlıqlara mənsub insanların hüquqlarına dair» Bəyannaməsinin 2-ci maddəsinin 3-cü bəndinə əsasən azlıqlardan olan şəxslər mənsub olduqları milli azlıqlara və yaşadıqları ərazi ilə bağlı münasib olduqda, regional səviyyədə qərarların qəbul edilməsində milli qanunvericiliyə zidd olmamaq şərtilə iştirak etmək hüququna malikdirlər (12).

Bişkek protokolunu isə may ayının 8-də Bakıda həmin vaxt Azərbaycan Parlamentinin sədri olan Rəsul Quliyev imzaladı. Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri Nizami Bəhmənovun da sənədi həmin vaxt imzalayacağı nəzərdə tutulmuşdusa da o, Bakıda olmadığı üçün sənədi imzalamamışdı (15). Bişkek protokolunu Rəsul Quliyevlə* yanaşı B.Ararktsyan**, Karen Baburyan, Vladimir Şumeyko***, M.Ş.Şerimkulov****, Rusiya Federasiyası Prezidentinin səlahiyyətli nümayəndəsi və Rusiyanın vasitəçilik missiyasının rəhbəri Vladimir Kazimirov və MDB iştirakçı dövlətləri assambleyasının Parlamentlərarası Şura katibliyinin rəhbəri M.Krotov imzalayıblar (15).

---

* *Azərbaycan Parlamentinin sədri*

** *Ermənistan Parlamentinin spikeri*

*** *MDB Parlamentlərarası assambleyanın sədri*

**** *Assambleyanın Dağlıq Qarabağ üzrə sülhməramlı qrupunun rəhbəri*

Bişkek protokolunu imzalayanlardan yalnız V.Kazimirovun və M.Krotovun vəzifəsi, protokolun mətnində isə V.Şumeykonun (MDB Parlamentlərarası assambleyanın sədri) və M.Ş.Şerimkulovun (Assambleyanın Dağlıq Qarabağ üzrə sülhməramlı qrupunun rəhbəri) vəzifələri və hansı qurumu və ölkəni təmsil etdikləri göstərilir. Bunlardan başqa nə Azərbaycan tərəfdən, nə də Ermənistan tərəfdən sənədi imzalayanların nə vəzifələri, nə də hansı tərəfi təmsil etdikləri sənəddə öz əksini tapmayıb. Sənəddə, həmçinin nə Azərbaycanın, nə də Ermənistanın adı göstərilməyib. Mümkündür ki, Karen Baburyanın sənəddə «Dağlıq Qarabağ respublikası» «Ali Sovetinin sədri» kimi göstərilməsinə Azərbaycan tərəfinin razı olmayacağı əvvəlcədən nəzərə alınaraq onun «vəzifəsi» göstərilmir. K.Baburyanın erməni icmasının rəhbəri kimi göstərilməsinə isə yəqin ki, əks tərəf etiraz edərdi.

Bişkek görüşündən sonra «Atəşkəs haqqında» üçtərəfli sənəd tərtib edildi. Həmin sənəddə tərəflərin 5 may Bişkek protokolunda əksini tapmış atəşkəs haqqında razılığa və 18 fevral 1994-cü il protokoluna* əsaslanaraq may ayının 11-dən 12-nə keçən gecə saat 00.01-dən gec olmayaraq atəş və hərbi əməliyyatları dayandırmaq haqqında razılığa gəldikləri göstərilir. Tərəflər sənədə əsasən 12 may saat 23.00-dək özlərinin atəşkəs haqqında əmrlərinin mətnini bir-birinə təqdim etməli idilər. Azərbaycan tərəfi həmin sənədi də N.Bəhmənovun imzalamasını tələb etdi və onun «Dağlıq Qarabağ»ı münaqişə tərəfi kimi qəbul etməkdən imtina edərək hər hansı sənədi onunla bərabərhüquqlu tərəf kimi imzalamayacağı bir daha məlum oldu. Buna görə də Minsk qrupunun rusiyalı

* *1994-cü ilin fevral ayının 18-də Moskvada Rusiya müdafiə nazirinin iştirakı ilə, Azərbaycan və Ermənistan Respublikalarının müdafiə nazirləri arasında görüş keçirilərək gələcək tədbirləri nəzərdə tutan protokol tərtib edilmişdi.*





həmsədri V.Kazimirov təklif etdi ki, tərəflər ayrı-ayrılıqda may ayının 10-dan 11-ə keçən gecə bütün cəbhə boyunca atəşkəsə hazır olduğunu göstərən və RF-nin xarici işlər və müdafiə nazirliklərinə, həmçinin RF prezidentinin səlahiyyətli nümayəndəsi kimi ona ünvanlanmış məktub imzalasınlar. May ayının 9-da Bakıda Azərbaycan Respublikası Müdafiə naziri M.İ.Məmmədov tərəfindən, 10-da Yerevanda Ermənistan Respublikasının müdafiə naziri S.A.Sarkisyan tərəfindən və 11-də Xankəndində «Dağlıq Qarabağ ordusunun komandanı» S.Babayan* tərəfindən imzalanmış eyni məzmunda üç məktub faks vasitəsi ilə Moskvaya göndərildi (393). Beləliklə, atəşkəs haqqında qanun 12 may 1994-cü ildə qüvvəyə mindi. Atəşkəs rejiminin dəfələrlə pozulmasına və şəhidlər verilməsinə baxmayaraq, bu günə qədər, ümumiyyətlə, müqavilə öz qüvvəsini saxlayır.

Azərbaycan indiyədək heç bir sənədi «Dağlıq Qarabağ»ın erməni icmasının onunla eyni hüquqlu tərəf kimi imzalamasına icazə verməyib. «Atəşkəs haqqında» sənəd də Azərbaycanın, Ermənistanın və «Dağlıq Qarabağ respublikası» silahlı qüvvələri komandanlarının imza etdiyi vahid sənəd deyil. Bu eyni məzmunlu üç müxtəlif sənəddir ki, Azərbaycan tərəfi imza etdiyi nüsxədə atəşi dayandırmağa razı olduğunu göstərir və həmin sənədlərin heç bir nüsxəsində «Dağlıq Qarabağ» münaqişə tərəfi kimi qeyd edilməyib.

Həm Bişkek protokolunun mətni, həm də «Atəşkəs haqqında» sənəd ermənipərəst V.Kazimirov tərəfindən hazırlanıb (393). Buna görə də təsadüfi deyil ki, həmin sənədlər vasitəsilə «Dağlıq Qarabağ»ın münaqişə tərəfi kimi qəbul etdirilməsinə cəhd edilirdi. ATƏM-in (ATƏT) Nazirlər Şurası-

* *Samvel Babayan 2000-ci ildə «Dağlıq Qarabağ Respublikası»nın «prezident»i A.Qukasyana sui-qəsd təşkil etdiyinə görə əvvəlcə öz vəzifəsindən azad edildi, sonra isə 14 il həbs cəzasına məhkum olundu (320).*

nın 24 mart 1992-ci il tarixli Helsinki birinci əlavə görüşünün yekun sənədinin 3-cü maddəsində isə Dağlıq Qarabağın seçilmiş və digər numayəndələrinin maraqlı tərəf kimi konfransa dəvət olunacaqları göstərilirdi. Bu, Minsk qrupunun sədrinin konfransda iştirak edən dövlətlərlə məsləhətləşmələrindən sonra mümkün ola bilərdi (39, s.113).

Ermənistan da Rusiyanın «Dağlıq Qarabağ»ı münaqişə tərəfi kimi qəbul etdirmək cəhdlərindən bəhrələnərək Ermənistan-Azərbaycan münaqişəsinin «Dağlıq Qarabağ respublikası» ilə Azərbaycan Respublikası arasında baş verdiyini və erməni əhalinin «öz müqəddəratını təyin etmək» istəyi olduğunu iddia edir və hər dəfə münaqişə tərəfi kimi danışıqlar masası arxasında Azərbaycanla «Dağlıq Qarabağ respublikası»nın üz-üzə oturmasına çalışır. Lakin bu o demək deyil ki, Ermənistan özü danışıqlardan kənarda qalmaq istəyir. O özü də danışıqlar prosesini tərk etmək niyyətində deyil. Çünki belə olsa münaqişə daxili münaqişəyə çevrilər və onun Azərbaycanın daxili işi kimi həllini zəruri edər. Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov da Dağlıq Qarabağın erməni icması ilə danışıqların o şərtlərlə mümkün olduğunu bildirir ki: «Ermənistan danışıqlar prosesini tərk etsin və Qarabağ erməniləri özlərinin Azərbaycan vətəndaşı olduqlarını təsdiq etsinlər, həmçinin Azərbaycanın ərazi bütövlüyünü və qanunlarını tanısınlar». Bundan narahat olan Ermənistan XİN mətbuat katibi Hamlet Qasparyan ölkəsinin E.Məmmədyarovun təklifini ciddi qəbul etmədiyini və münaqişənin nizamlanması prosesində Ermənistanın mövqeyinin dəyişməz olaraq qaldığını bildirib (263).

Minsk Qrupunun fəaliyyətdə olan rusiyalı həmsədri Y.Merzlyakov münaqişənin dövlətdaxili etnik qarşıdurma kimi yarandığı, sonra inkişaf edərək dövlətlərarası münaqişəyə çevrildiyi fikrindədir. Rusiyalı həmsədr atəşkəs haqqında sazişin altında «Dağlıq Qarabağ təmsilçisi»nin də imzası olduğunu və buna görə də danışıqların müəyyən mərhələsində «Dağlıq Qarabağ»ın da münaqişə tərəfi kimi dialoq prosesinə qoşulmasını zəruri hesab etdiyini və bunun tərəfdarı olduğunu da inkar etmir. O bu fikirdədir ki, «Dağlıq Qarabağ» bütün məsələləri təkbaşına həll edə bilməz (195).





Minsk qrupunun ilk rusiyalı həmsədri V.Kazimirov etiraf edir ki, 1992-ci ildə Rusiya «Dağlıq Qarabağ»ı münaqişə tərəfi kimi qəbul etdirməyə təşəbbüs göstərirdi və Minsk qrupuna bununla bağlı təsir etməyə çalışırdı (234). «Dağlıq Qarabağ» erməniləri də özlərini münaqişə tərəfi hesab etmirdilər və danışıqlara münaqişə tərəfi olaraq qoşulmağı düşünmürdülər. Burada da V.Kazimirova istinad etmək yerinə düşər. Kazimirov qeyd edir ki, elə həmin 1992-ci ilin avqust ayında Yerevan axır ki, Qarabağ ermənilərini Minsk qrupunun görüşlərində iştirak etməyə inandıra bildi. Boris Aşuryan, Robert Köçəryan və Qrant Xaçaturyan həmin vaxt danışıqların IV raunduna qoşuldular (280). 1990-cı ildən 1999-cu ilədək Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə məsləhətçisi olmuş Vəfa Quluzadə isə qeyd edir ki, Ermənistanın və Dağlıq Qarabağ ermənilərinin mövqeyi belə idi ki, tərəflər baza prinsipləri üzrə tam razılığa gəlməyincə Dağlıq Qarabağ erməniləri danışıqlarda iştirak etməyəcəklər. 1996-cı ilin may ayında isə Rusiyanın həmin vaxtkı xarici işlər naziri Y.Primakov Bakıya səfəri zamanı bəyan etdi ki, danışıqları Dağlıq Qarabağ nümayəndələrinin iştirakı ilə davam etdirməyin vaxtı çatmışdır. Lakin Azərbaycan tərəfi bununla razılaşmadı (250, s.92). Azərbaycan tərəfinin «Dağlıq Qarabağ»ı münaqişə tərəfi kimi qəbul etməyəcəyini görən Ermənistan «Dağlıq Qarabağ» ermənilərini özü təmsil etmək qərarına gəldi. Bununla əlaqədar olaraq, 2008-ci ilin 17 yanvar tarixində mətbuat konfransı zamanı Minsk qrupunun fransalı həmsədri Bernar Fasye bildirdi ki, danışıqlar formatının dəyişdirilməsini həmsədrlər həll etməyiblər,

bu uzun sürən proses olmuşdur. R.Köçəryan Ermənistanın prezidenti seçildikdən sonra belə qərar vermişdi ki, danışıqlar prosesində «Dağlıq Qarabağ»ı Yerevan təmsil edəcək. Rusiyalı həmsədr Y.Merzlyakov isə hazırda baza prinsiplərinin tərəfləri təmin etdiyi üçün danışıqlar formatında dəyişikliklərə ehtiyac olmadığını bildirib (381). Lakin Rusiya və Ermənistan hələ də Dağlıq Qarabağın erməni icmasını münaqişə tərəfi olaraq qəbul etdirmək fikrindən əl çəkməyiblər.

Rusiya 1992-ci ildən Minsk qrupunun üzvü olsa da Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında özü müstəqil olaraq həlledici rol oynamağa çalışırdı. Ümumiyyətlə, 1990-cı illərin əvvəllərində Rusiya postsovet məkanında öz mövqeyini qoruyub saxlamaq və regiona üçüncü qüvvəni buraxmamaq məqsədi ilə təkcə Cənubi Qafqaz regionunda deyil, bütün postsovet məkanında baş verən münaqişələrdə özü müstəsna rol oynamaq niyyətində idi. 1994-cü ildə Rusiyanın həmin vaxt xarici işlər naziri olan Andrey Kozıryev «Keçmiş SSRİ ərazisində mövcud münaqişələri nizamlamanın Rusiyanın xarici siyasəti qarşısında duran əsas məsələ» olduğunu bəyan etmişdi (393).

Rusiya atəşkəs haqqında sənədin ardınca münaqişə tərəfləri arasında cəbhə xətti boyunca MDB dövlətlərinin qoşunlarından təşkil edilməsi nəzərdə tutulan ordu yeritməyə cəhd edirdi (393). Cəbhə xətti deyəndə Dağlıq Qarabağla Azərbaycanın digər ərazilərini bir-birindən ayıran sərhədlər nəzərdə tutulurdu və təklif edilən qoşunun Rusiyaya tabe olacağı da bəlli idi. Bundan başqa, baxmayaraq ki, münaqişə artıq beynəlxalq təşkilatlarda müzakirə edilirdi və onunla birbaşa məşğul olan Minsk qrupu mövcud idi, Rusiya qoşun yeritmək qərarını özü, heç bir səlahiyyətli təşkilatla razılaşdırmadan vermişdi. 1994-cü ilin mart ayında Rusiya bəyanatla çıxış edərək bildirmişdi ki, Moskvanın öz sülhməramlı fəaliyyətini həyata keçirməsi üçün BMT-nin və ya ATƏM-in





icazəsinə ehtiyacı yoxdur, lakin onlarla əməkdaşlıqdan da imtina etmir (393).

1994-cü il Budapeşt sammiti zamanı da Rusiya münaqişənin həlli üçün mandat əldə etmək və münaqişə bölgəsinə öz sülhməramlı qoşunlarını yeritmək üçün cəhdlər etdi. Lakin onların bu cəhdləri baş tutmadı. Sammit zamanı münaqişə bölgəsinə çoxmillətli beynəlxalq qoşunların yeridilməsinə razılıq verildi. Həmin sülhməramlı qoşunların hər dövlət üçün hərbi qüvvələrin ümumi sayının 30%-dən çox olmamaq şərtilə ATƏM-in üzv dövlətlərinin hərbçilərindən təşkil edilməsi nəzərdə tutulurdu. Lakin həmin vaxt Dağlıq Qarabağ və onun ətrafında yeddi rayonu ermənilər işğal edərək öz nəzarətlərində saxladıqları üçün həmin qoşunlar da mövcud cəbhə xəttində yerləşdirilə bilərdi (97, s.28-32). Bu səbəbdən də sülhməramlı qoşunlar münaqişə bölgəsinə yerləşdirilmədi.

Münaqişənin bir dövlətin inhisarında qalmaması üçün Minsk qrupuna bir deyil, bir neçə həmsədr təyin edildi və verilmiş mandat əsasında onların fəaliyyəti müəyyənləşdirildi (97, s.33). Rusiyanın regionda təsir gücünə malik olduğu və münaqişənin onsuz həllinin çətin olduğu nəzərə alınaraq Rusiya Minsk qrupunun daimi həmsədri seçildi (250, s.93). Bütün həmsədrlər eyni hüquq və səlahiyyətlərə malikdirlər. Onların əsas məqsədi münaqişə tərəflərinin danışıqlar aparması üçün müəyyən təkliflər irəli sürmək, silahlı münaqişənin siyasi yolla həllinə nail olmaq məqsədi ilə danışıqlar aparmaq, münaqişə tərəfləri arasında görüşlər keçirilməsinə nail olmaqdır. 1994-cü ilin dekabr ayından Rusiya və Finlandiya, 1997-ci ildən isə Rusiya, Fransa (1997 yanvar) və ABŞ (1997 fevral) dövlətlərinin nümayəndələri Minsk qrupuna həmsədrlik edirlər (97, s.50). Həmin vaxt Azərbaycan Fransanın ermənipərəst mövqeyinə etiraz olaraq onun ATƏT-in Minsk qrupuna həmsədrlik etməsinə qarşı çıxmışdı. Fransa həmsədr

kimi bitərəf mövqe tutacağına söz verdikdən sonra isə rəsmi Bakı buna öz razılığını vermişdi (100).

Həmin ilin 1 avqustunda Vaşinqton şəhərində Prezidentlər B.Klintonun və H.Əliyevin Amerika-Azərbaycan münasibətləri haqqında birgə bəyanatlarında ABŞ Prezidenti açıq şəkildə münaqişənin ədalətli və uzunmüddətli sülhün əldə edilməsi məqsədilə ATƏT-in Minsk qrupunda Rusiya və Fransa ilə birgə işləmək əzmində olduğunu bildirmişdi. Türkiyənin münaqişənin nizamlanması prosesində iştirakı və vasitəçilik cəhdləri isə həmişə ermənilər tərəfdən maneələrlə qarşılaşıb.

Buna baxmayaraq, K.Myalo adlı rusiyalı müəllif kitabının* Ermənistan-Azərbaycan münaqişəsinə həsr etdiyi hissəsində sırf ermənipərəst mövqe nümayiş etdirməklə yanaşı həm də göstərir ki, Ermənistan heç vaxt Türkiyənin münaqişənin nizamlanması prosesinə vasitəçi kimi cəlb edilməsinin əleyhinə çıxış etməyib. Müəllif bunu onunla əsaslandırır ki, Ermənistan ABŞ-ın NATO çərçivəsində əməkdaşı olan Türkiyəni Ermənistan-Türkiyə münasibətləri tarixinin yenidən daha pis şəkildə təkrarlanmaması üçün nəzarətdə saxlayacağından arxayındır (319).

K.Myalodan fərqli olaraq ermənilər Türkiyənin gücünü heç də əhəmiyyətsiz saymırlar. Məsələn, 1992-ci ilin 15-20 iyulunda Romada Minsk qrupu çərçivəsində danışıqların ikinci mərhələsində Ermənistan Türkiyənin görüşlərdə iştirak etməməsini tələb etmişdi (97, s.15). 2007-ci ilin noyabr ayında da Ermənistanın «Ramkavar Azatarkan» və «Daşnaksütyun» partiyalarının birgə iclası zamanı ölkə parlamentinin vitse-spikeri Vaan Ovannisyan Türkiyəni Minsk qrupundan xaric etmək təklifi ilə çıxış etdi. Onun fikrincə qrupda münaqişəyə münasibətdə bitərəf mövqe tutan dövlətlər cəmlənib. Minsk qrupunda Türkiyənin xüsusi çəkisi olduğundan narahatlıq keçirən vitse-spiker qeyd etdi ki, o, Ermənistanla sərhədləri blokadada saxladığı üçün bitərəf dövlət sayıla bilməz və Azərbaycan Ankaranın göstərişi ilə oturub-durur. V.Ovannisyan niyyətini həyata keçirməyin yollarını belə bəyan etdi: «Hesab edirəm ki, Ermənistan erməniləri və bütün erməni diasporları Türkiyəni ATƏT-in Minsk qrupundan xaric etmək məqsədilə diplomatik səylərini birləşdirməlidirlər. Çünki məhz həmin ölkənin (Türkiyənin-*K.R.*) iştirakı münaqişənin həll olunmamış qalmasının səbəbidir» (396).

Ermənistan xarici işlər naziri V.Oskanyan da bu fikirdədir ki, Türkiyənin Ermənistanla diplomatik əlaqələri olmadığı və o, birmənalı olaraq Azərbaycanın mövqeyini dəstəklədiyi üçün Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesində vasitəçi ola bilməz (368). Qeyd etmək lazımdır ki, 1991-ci ilin fevral ayında Ermənistan Parlamenti 23 oktyabr 1921-ci il Qars müqaviləsi ilə müəyyən olunmuş Türkiyə-Ermənistan sərhədlərini tanımadığı haqqında qərar qəbul etmişdi. Buna baxmayaraq, 1992-ci ildə ATƏM-ə qəbul edildikdən sonra Ermənistan iki dövlət arasında mövcud sərhədləri olduğu kimi qəbul etmək məcburiyyətində qaldı. Həmin ilin yazında isə Türkiyə Ermənistanın yazılı olaraq iki ölkə arasında sərhədləri tanıdığını bəyan etməyəcəyi vaxtadək onunla diplomatik əlaqələr qurmayacağını bildirdi (160, s.135-136).

Ermənistan tərəfi münaqişənin əsasında beynəlxalq hüququn «öz müqəddəratını təyinetmə», Azərbaycan tərəfi isə «ərazi bütövlüyü» prinsipinin durduğunu israr edir. Tərəflərin öz aralarında razılığa gələ bilməmələrinin də əsas səbəbi həmin prinsiplərin bir-biri ilə ziddiyyət təşkil etməsidir. 2006-cı ilin ortalarında Minsk qrupunun yeni təyin edilmiş amerikalı həmsədri Metyu Brayza ABŞ-ın Azərbaycanın ərazi bü-

* *Мяло К.Г. Россия и последние войны XX века (1989-2000). К истории падения сверхдержавы. Москва, "Вече", 2002 г.*

tövlüyünü dəstəklədiyini, eyni zamanda insanların «öz müqəddəratını təyinetmə» hüququna da inandığını bildirib. O, həmçinin bu iki prinsipin bir-birilə ziddiyyət təşkil etdiyi üçün diplomatiya və beynəlxalq vasitəçilərə ehtiyac olduğunu və Minsk qrupunun da tərəflərlə işləyərək həmin prinsiplərin uyğunlaşdırılması yollarını axtardığını qeyd edib (148). Beynəlxalq hüququn bütün prinsipləri isə eyni qüvvəyə malikdir və bir prinsipə əməl edərkən digər prinsiplər nəzərə alınmalıdır ki, bir prinsipin həyata keçirilməsi digər prinsipin pozulması ilə nəticələnməsin. «Öz müqəddəratını təyinetmə» prinsipi də «dövlətin ərazi bütövlüyü» prinsipinin pozulması hesabına deyil, onu nəzərə almaqla həyata keçirilməlidir. Necə ki, «ərazi bütövlüyü» prinsipi «öz müqəddəratını təyinetmə» prinsipini pozmur və dövlətin sərhədləri daxilində xalqa muxtariyyat şəklində «öz müqəddəratını təyinetmə» hüququ verilir.

Ermənistan Dağlıq Qarabağ «xalqı»nın (Dağlıq Qarabağın erməni əhalisinin) «öz müqəddəratını təyin etmək» istəyində olduğunu dedikdə, əslində özünün əsas məqsədini – Azərbaycan ərazisində ikinci erməni dövlətini yaratmaq, yaxud Dağlıq Qarabağı Ermənistana birləşdirmək niyyətini nəzərdə tutur. Belə olmasaydı ATƏT-in üzv dövlətlərinin 1996-cı il Lissabon sammiti zamanı Ermənistan konsensus verməkdən imtina edərək sammitin Bəyannaməsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli prinsiplərinə dair 20-ci maddənin öz əksini tapmasına mane olmazdı.

Sammitin gedişində təşkilatçıların Helsinkidə keçirdikləri iclas zamanı qəbul edilmiş və Bəyannamədə öz əksini tapmayan həmin maddə münaqişənin üç prinsip əsasında həllini vacib sayırdı:

I prinsip – Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün toxunulmazlığı;





II prinsip – Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində «öz müqəddəratını təyinetmə» hüququ əsasında muxtariyyat və özünüidarə statusunun verilməsi;

III prinsip - Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması (138).

Bu bənddə Ermənistanı qane etməyən yəqin ki, I prinsipdə «Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı», II prinsipdə isə «Azərbaycan Respublikasının tərkibində» sözləridir. Çünki Ermənistan bilir ki, Azərbaycanın ərazi bütövlüyü dedikdə buraya Dağlıq Qarabağ da aiddir və Respublikanın ərazisi toxunulmaz qalsa, onda «Dağlıq Qarabağ» müstəqillik əldə etmir və II prinsipdə deyildiyi kimi Azərbaycan Respublikasının tərkib hissəsi olaraq qalır. Bu da Ermənistanın arzularını puç edirdi.

Həmin bənd Bəyannamədə öz əksini tapmadığı üçün Azərbaycan tərəfi Lissabon sammiti Bəyannaməsinin bütün mətninə konsensus verməkdən imtina etmişdi. Bir çox Dövlət başçıları Azərbaycan Prezidenti Heydər Əliyevlə Bəyannamənin bütün mətnilə bağlı etirazını geri götürmək barədə danışıqlar aparsalar da ölkə başçısı öz mövqeyini dəyişməmişdi. Bunun nəticəsi olaraq sammitin son iclasında belə bir qərar qəbul edildi ki, ATƏT-in fəaliyyətdə olan sədri sammitin bütün iştirakçıları adından xüsusi bəyanat versin və Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair Helsinkidə razılaşdırılmış üç prinsip həmin sənəddə öz əksini tapsın. Heydər Əliyev razılıq verdikdən sonra ATƏT-in həmin vaxt fəaliyyətdə olan sədri Flavio Kotti sammit iştirakçıları adından bəyanat verdi. Bəyanatda hər üç prinsip öz əksini tapdı və Ermənistandan başqa bütün digər ölkələrin həmin prinsiplərlə razı olduğu göstərildi. Bəyanatda, həmçinin onun ATƏT-in Lissabon sammitinin sənədləri sırasına daxil ediləcəyi də göstərilmişdi (41).

1996-cı il Lissabon sammiti zamanı təşkilatın Ermənistandan başqa bütün üzvləri münaqişənin yalnız Dağlıq Qarabağın Azərbaycanın tərkibində olmaqla, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi şərti ilə həllinin mümkünlüyünü təsdiqlədikləri üçün sammit ATƏT çərçivəsində əldə olunmuş nailiyyətlərdən biri kimi qiymətləndirilir.

1997-1998-ci illər ərzində Minsk qrupu münaqişənin həlli üçün üç variant təklif etmişdi. 1997-ci ilin iyun ayında təklif edilmiş birinci variant «Paket həlli» idi və özündə iki anlaşmanı birləşdirirdi. Birinci anlaşma silahlı münaqişənin dayandırılmasına, ikincisi isə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə həsr olunmuşdu. İkinci variant da həmin ilin sentyabr ayının 19-da təqdim edilmişdi və münaqişənin «mərhələli həlli»ni təklif edirdi. Üçüncü «Ümumi dövlət» variantı isə 1998-ci ilin noyabrında təklif edilmişdi (82). Ondan sonra tərəflərə konkret variant təklif edilməyib və sənədlərdə mütəmadi olaraq bəzi dəyişikliklər edilsə də danışıqlar «mərhələli variant» ətrafında aparılır.

1995-ci ilin dekabr ayında Minsk qrupunun Bonn görüşündə qəbul edilmiş və sonradan Avropa dövlətləri xarici işlər nazirləri Şurasında təsdiq edilmiş sənəddə Azərbaycan və Ermənistan arasında dialoq aparılmasına rəsmi beynəlxalq dəstək verilmişdi (165, s.237). Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması istiqamətində danışıqlar mərhələsi həmin vaxtdan başlansa da Azərbaycan və Ermənistan Dövlət başçılarının birbaşa dialoqları 1999-cu ilin aprel ayından təşkil olunmağa başlayıb. Həmin vaxt Vaşinqtonda NATO-nun 50 illik yubileyinə həsr olunmuş tədbirlərdə ABŞ Prezidenti B.Klinton və Dövlət katibi xanım M.Olbraytın təkidi ilə Azərbaycan Respublikasının Prezidenti H.Əliyev və Ermənistan Respublikasının Prezidenti R.Köçəryan görüşmüşdülər. Görüş zamanı müəyyən razılıq əldə etmiş Dövlət





başçıları bundan sonra danışıqlar prosesini davam etdirmək qərarı verdilər (88).

Görüşlər bir neçə mərhələdə aparılır. Əvvəlcə Minsk qrupunun həmsədrləri görüşüb tərəflərin rəyləri nəzərə almaqla təkliflər hazırlayır, bundan sonra xarici işlər nazirləri, sonda isə ehtiyac və zərurət yaranarsa ölkə Prezidentləri görüşür. Xarici işlər nazirlərinin görüşündə Prezidentlərin görüşü razılaşdırılmazsa həmin görüşdən, razılaşdırılarsa Prezidentlərin görüşündən sonra həmsədrlər bir də görüşüb danışıqların nəticələrini müzakirə edirlər. Heç vaxt danışıqlar zamanı müzakirə olunan məsələlər ictimaiyyət üçün tam açıqlanmır, yalnız ümumi məlumat verilir. Qeyd etmək lazımdır ki, həmsədrlər Dağlıq Qarabağın həm azərbaycanlı, həm də erməni icmasının nümayəndələrini də diqqətdən kənarda qoymurlar və vaxtaşırı onlarla görüşüb danışıqlar aparırlar.

2004-cü ilin aprel ayından başlayaraq danışıqlar «Praqa prosesi» formatında aparılır. Bu prinsip də münaqişənin mərhələli həllini təklif edir. Danışıqlar prosesində 2002-ci ildən 2004-cü ilin aprel ayınadək heç bir irəliləyiş olmamışdı. 2004-cü ilin aprel ayında isə Praqa şəhərində Azərbaycan və Ermənistan respublikalarının xarici işlər nazirlərinin bir sıra görüşləri keçirildi və bu görüşlərin nəticəsi olaraq həmin ayın sonunda Varşava şəhərində dövlətlərin Prezidentləri görüşdülər. Həmin görüşlər danışıqlar prosesinə yenidən təkan verdiyi üçün danışıqlar Praqa görüşlərinin davamı sayılır və «Praqa prosesi» adlandırılır (344). 2007-ci ilin sentyabr ayında Litva mətbuatına müsahibə verən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bildirib ki: «Biz 2004-cü ildən bəri müəyyən tənzimləmə mexanizmləri nəzərdə tutan Praqa prosesi deyilən prosesdəyik. Bu vaxta qədər bütün başqa variantlar dönə-dönə yoxlanılıb, lakin heç bir nəticə verməyib. Əgər Praqa formatı da uğursuz olarsa, onda prinsip etibarilə daha heç nə barədə danışmağa dəyməz. Onda danışıqlar apar-

maq üçün mövzu qalmır. Biz isə yalmz görüntü yaratmaq xətrinə danışıqlar aparmayacağıq. Bu bizə lazım deyil» (67).

Danışıqların «Praqa prosesi» dövrünə düşən hər ili münaqişənin həlli üçün münasib il sayılırdısa da 2006-cı il həmin illərin ən səmərəlisi hesab olunurdu. Böyük dövlətlər və beynəlxalq təşkilatlar münaqişənin 2006-cı il ərzində nizamlanmasının mümkünlüyünü əminliklə deyirdilər.

Hələ 2005-ci ilin dekabrında Bakıda əvvəl xarici işlər və müdafiə nazirləri, Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbərliyi ilə, sonra isə Dövlət başçısı İlham Əliyevlə görüşən Minsk qrupunun həmsədrləri görüşdən sonra mətbuat qarşısında bəyanatla çıxış etmişdilər. Bəyanatda göstərilirdi ki, əldə edilmiş razılığa əsasən, 2006-cı ilin ilk aylarında Prezidentlərin nəzərdə tutulmuş görüşündə razılıq imzalanacağı günün tarixinin müəyyənləşəcəyi mümkündür (369).

2006-cı il ATƏT-ə sədrlik etmiş Belçikanın xarici işlər naziri Karel de Quxt da münaqişə ilə bağlı ilk çıxışında həmin ildə təşkilatın görəcəyi işlərin sırasında «dondurulmuş» münaqişələrin tənzimlənməsi istiqamətində nailiyyətlər əldə etmək niyyətində olduğunu (154), yanvar ayının 16-da BMT-nin iqamətgahında jurnalistlərlə görüşündə isə Ermənistan-Azərbaycan münaqişəsinin 2006-cı il ərzində həll olunacağına ümid etdiyini bildirmişdi (47).

ABŞ-ın və Qərbin aparıcı dövlətlərinin münaqişənin tez bir zamanda həllinə çalışmalarına dair müxtəlif mülahizələr mövcuddur:

I – Qərb qlobal əhəmiyyətli enerji layihələrinin istismarı ilə əlaqədar olaraq bölgədə sabitliyin bərqərar olmasında maraqlıdır və buna görə hər an yenidən qızışa biləcək münaqişənin tez bir zamanda həll olunmasını istəyir;

II – Qərb Qara dəniz və Xəzər dənizi arasında siyasi və iqtisadi əlaqələrin möhkəmlənməsində və hər iki regionun Avratlantik təhlükəsizlik sisteminə daxil edilməsində maraqlıdır. Münaqişənin həll olunmamış qalması Avratlantik birliyin regionlarla bağlı geosiyasi və geoiqtisadi planlarının tam yerinə yetirilməsi prosesinə mane olur;





III – Regionda strateji tarazlıq sürətlə dəyişir. Azərbaycan regional əməkdaşlığın hərəkətverici qüvvəsi olaraq inkişaf edir, Ermənistan isə «yerində sayır». Qərb Ermənistanı bu vəziyyətdən çıxarmaq istəyir (64).

IV – İranın nüvə proqramı ətrafında yaranmış gərginliklə əlaqədar olaraq hər hansı region dövlətinin ərazisindən İrana qarşı hərbi sanksiyalar tətbiq etmək üçün ABŞ-a regionda sabitlik lazımdır (219).

* * *

«Praqa prosesi» formatında Azərbaycanın və Ermənistanın Dövlət başçıları İlham Əliyev və Robert Köçəryan 2006-cı il ərzində üç dəfə görüşüblər. Birinci görüş fevral ayının 10-11-də Rambuyedə, ikinci görüş iyun ayının 4-5-də Buxarestdə, üçüncü görüş isə noyabr ayının 28-də Minsk şəhərində baş tutub.

2006-cı ildə Ermənistan-Azərbaycan münaqişəsinə dair ilk görüş yanvar ayının 18-də Minsk qrupunun həmsədrləri Stiven Mənn*, Bernar Fasye, Yuri Merzlyakov və ATƏT sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik** arasında London şəhərində keçirildi. Yanvar ayının 19-da isə Londonda Azər-

---

***2006-cı ilin iyul ayında keçirilən Buxarest görüşündən sonra S.Mənni Metyu Brayza əvəz etdi*

***Anji Kaspşik 1996-cı ildən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsidir. ATƏT-in sədri bir il müddətinə seçildiyi kimi onun şəxsi nümayəndəsinin də mandatının müddəti bir ildir. Lakin hər yeni sədr A.Kaspşikin mandatının vaxtını uzadır və o, sədrin şəxsi nümayəndəsi olaraq öz fəaliyyətini davam etdirir. ATƏT-in fəaliyyətdə olan sədrini və onun komandasını regionda baş verənlər barədə məlumatlandırmaq şəxsi nümayəndənin əsas vəzifələrindən biridir. A.Kaspşik hər iki ayda məruzə hazırlayaraq təşkilatın bütün üzvlərinə təqdim edir (205).*

baycan və Ermənistan Respublikalarının xarici işlər nazirləri Elmar Məmmədyarov və Vardan Oskanyan arasında görüş oldu. Görüş münaqişənin nizamlanması ilə bağlı vacib müzakirələr keçirilməsi və 2006-cı ildə keçiriləcək görüşlərin və əsas tədbirlərin gündəliyini müzakirə etmək məqsədi daşıyırdı. Minsk qrupunun həmsədrləri fevral ayının 1-də Bakıda Elmar Məmmədyarov və Prezident İlham Əliyevlə görüşdülər. Bundan əvvəl isə amerikalı həmsədr Stiven Mənn bildirmişdi ki: «Tərəflər səy göstərsələr və güzəştə getsələr, 2006-cı il Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ili ola bilər» (200).

İlin əvvəlində həmin vaxt Fransa Prezidenti olan Jak Şirak da Fransa diplomatları qarşısında çıxış edərkən Ermənistan-Azərbaycan münaqişəsinin həllinin yaxın perspektivə aid olmasına və 2006-cı ilin Qafqazda sülh ili olması üçün ölkəsinin çalışacağına əmin olduğunu bildirmişdi (154). O, həmçinin münaqişənin nizamlanması yolunda real irəliləyişlərə nail olmaq məqsədilə görüş təşkil etməyə hazır olduğunu bəyan etmişdi (200). Dövlət başçıları İlham Əliyev və Robert Köçəryanın 2006-cı ildə ilk görüşləri fevral ayının 10-11-də məhz Fransa Prezidentinin təşəbbüsü ilə Paris yaxınlığında yerləşən Rambuye qəsrində baş tutdu. Azərbaycan və Ermənistan Dövlət başçılarının Rambuye görüşünün dönüş olacağına, gələcək danışıqlar üçün yeni mərhələ açacağına ümid böyük idi. Görüş zamanı «Dağlıq Qarabağ»ın statusunu müəyyənləşdirəcək referendum məsələsinin də müzakirə ediləcəyi nəzərdə tutulurdu. Minsk qrupunun fransalı həmsədri Bernar Fasye qeyd edirdi ki, bu görüşdə «Qarabağ ətrafında işğal olunmuş ərazilərdən erməni qoşunlarının mərhələli çıxarılması, həmçinin Dağlıq Qarabağın statusuna dair Qarabağ əhalisi arasında referendum prinsipi qəbul edilə bilər. Bu Qarabağın erməni və azərbaycanlı sakinləri öz fikirlərini bildirəcəkləri təqdirdə baş verəcək» (229).





Lakin amerikalı həmsədr Stiven Mənnin Rambuye görüşünün «çox vacib şans olduğu» və Amerikanın «tərəflərin belə bir tarixi şansı əldən verməyəcəklərinə ümid etdiyi» haqda bəyanatı (200), və gözlənilən bütün digər ümidlər özünü doğrultmadı. Görüşdə əldə olunan ən böyük uğur Dövlət başçılarının danışıqları davam etdirmək barədə razılığa gəlmələri oldu (120). Görüşdən sonra R.Köçəryanın Rambuye danışıqlarını yarımçıq tərk etməsi və bir daha geri qayıtmaması barədə söhbətlər gəzirdi. Lakin rəsmi Bakının da bu barədə susması deyilənlərin şaiyə olması fikrini yaradırdı. Hətta, Minsk qrupunun amerikalı həmsədri Stiven Mənn «Azadlıq» radiosuna müsahibəsində həmin görüşdə olduğunu, lakin R.Köçəryanın görüşü yarımçıq tərk etdiyini görmədiyini bildirmişdi. Lakin Azərbaycan Prezidenti İ.Əliyev 2007-ci il yanvarın 23-də Prezident sarayında Fransanın "Fiqaro" qəzetinin redaktor müavini Pyer Ruselinə müsahibəsində həmin hadisəyə toxunmuş və bundan sonra R.Köçəryanın doğrudan da danışıqları sonuncu mərhələ ərəfəsində yarımçıq tərk etməsi faktının doğru olması öz təsdiqini tapmışdı. R.Köçəryanın bu hərəkəti, ümumiyyətlə, Rambuye görüşünün pozulmasına səbəb olmuşdu və danışıqların ikinci günü Fransa Prezidenti Jak Şirakın danışıq prosesinə qoşulmaq planları da bu səbəbdən baş tutmamışdı (104). Bütün bunlara baxmayraq, fevral ayının sonlarında Moskvaya səfər edən ABŞ Dövlət katibinin müavini Nikolas Berns Rambuye görüşünün nəticələrinə təəssüfləndiyini bildirsə də, onun indiyədək keçirilmiş görüşlərdən ən perspektivlisi olduğunu bildirmişdi (330).

12-14 may 2006-cı il tarixdə ATƏT-in Yerevan ofisinin iştirakı ilə həyata keçirdiyi Ermənistanda sovet dövründən qalmış «melanj» tipli raket yanacağının utilizasiyası proqramınm açılışı mərasimində iştirak edən ATƏT-in Baş Katibi Mark Perren de Brişambo Qarabağ «xalqı»nın tezliklə refe-

rendumda öz iradəsini bildirmək imkanı əldə edəcəyinə ümid etdiyini bildirmişdi (321). Minsk qrupunun amerikalı həmsədri Metyu Brayza da Dağlıq Qarabağın statusu ilə bağlı referendum keçirilməsi nəzərdə tutulduğu üçün Qarabağ «xalqı» deyəndə kimi nəzərdə tutmaq lazım olduğunu aydınlaşdırarkən 1988-ci ilədək orada yaşamış əhalinin nəzərdə tutulduğunu bildirmişdi. O, həmçinin bu məsələnin prinsiplər paketinin bir hissəsi kimi işlənib hazırlanmalı olduğunu da qeyd etmişdi (380). Azərbaycan tərəfi də bu fikirdədir ki, öz yaşayış yerlərindən didərgin düşmüş azərbaycanlılar və əvvəllər həmin ərazilərdə yaşamış ermənilər birlikdə Dağlıq Qarabağın yerli əhalisini təşkil edir.

Əgər Dağlıq Qarabağın statusunu müəyyənləşdirmək məqsədi ilə referendum keçirilməsinə qərar verilərsə, Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkib hissəsi olduğu üçün referendumda Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq bütün Azərbaycanda yaşayan əhali iştirak etməli və Dağlıq Qarabağın statusunu həll etməlidir. Ayrı-ayrı regionlarda referendum keçirilməsi üçün isə Konstitusiyada dəyişikliklər etmək lazım gələrsə onda yenə referendum keçirmək lazım gəlir. Çünki Azərbaycan Respublikası Konstitusiyasının 152-ci maddəsində Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklərin yalnız referendumla qəbul edilə biləcəyi göstərilir. Lakin referendum keçirilməsi üçün mətndə dəyişikliklər vacib deyil, çünki Konstitusiyanın mətnində ayrı-ayrı ərazilərdə referendum keçirilməsini qadağan edən maddə, yaxud bənd yoxdur. Ayrı-ayrı ərazilərdə referenduma icazə vermək üçün Konstitusiyanın mətninə əlavələr etmək lazım gələcək. Azərbaycan Respublikası Konstitusiyasının XII fəslinin 156-cı maddəsinə əsasən Azərbaysan Respublikası Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları arasında 6 ay məsafə olmaqla iki dəfə Milli Məclisdə səsə qoyulur və bundan sonra





Prezident tərəfindən imzalandıqda qüvvəyə minir. Həmin maddənin V bəndinə uyğun olaraq Konstitusiya qanunları Azərbaycan Respublikası Konstitusiyasının əsas mətninə zidd olmamalıdır (9, s.59-60). Əgər Konstitusiyaya əlavə etmək qərarına gəlinsə belə referendumun keçirilməsi bu qərardan ən azı altı ay sonra mümkündür. Azərbaycan Dağlıq Qarabağa referendumsuz da yüksək statuslu muxtariyyat vəd edir. Dövlət başçısı İlham Əliyev 2005-ci ilin may ayında Varşava görüşündə Azərbaycanın güzəştə getməyə hazır olduğunu, Qarabağ ermənilərinə yüksək statuslu muxtariyyat veriləcəyini və onların təhlükəsizliyinin təmin ediləcəyini bir daha bildirmişdi (283). Bunun üçün isə ilk növbədə, ərazilər erməni işğalından azad edilməli, Qarabağdan qovulmuş bütün yerli əhali öz torpaqlarına qaytarılmalıdır. Lakin Ermənistan Dağlıq Qarabağın azərbaycanlı əhalisi öz yerlərinə qaytarılmamışdan və əksəriyyəti Dağlıq Qarabağa köçürülmüş əslən qarabağlı olmayan erməni əhali arasında referendum keçirilməsinə nail olmaq niyyətindədir.

2004-cü ildə Azərbaycan BMT Baş Məclisi qarşısında işğal edilmiş ərazilərin məskunlaşdırılması haqqında məsələ qaldırmış, erməniləri həmin əraziləri məskunlaşdırmaqla öz işğalçılıq fəaliyyətlərini daha da gücləndirməkdə ittiham etmişdi. Bunun da müqabilində ATƏT faktları araşdıran missiya təsis etmişdi (320). Həmin missiya 2005-ci ildə işğal altında olan ərazilərdə qeyri-qanuni olaraq 10-15 min erməninin məskunlaşdırıldığını müəyyən etdi (349). İşğal edən tərəfin öz əhalisini işğal etdiyi əraziyə köçürməsi isə Cenevrə Konvensiyasının 49-cu bəndinin 6-cı paraqrafına ziddir (91).

Ermənistanın Dağlıq Qarabağa veriləcək status ilə razılaşmaq istəmədiyi üçün isə Dövlət başçısı İlham Əliyev bəyan edib ki, Azərbaycanın indi «Dağlıq Qarabağ»a təklif etdiyi yüksək status gələcəkdə heç təklif edilməyə də bilər (92). Nəzərə almaq lazımdır ki, Dağlıq Qarabağ erməniləri

Azərbaycanda yaşayan milli azlıqdır və həmin muxtariyyat da məhz Dağlıq Qarabağ əhalisinin erməni icmasının istəyi nəzərə alınaraq təklif edilir və bu Azərbaycan tərəfindən ediləcək güzəşt kimi qiymətləndirilməlidir. Lakin Azərbaycanı milli azlıq olan ermənilərə belə status verməyə heç kim məcbur edə bilməz. Əvvəldə də qeyd etmişdik ki, Beynəlxalq hüquq azlıqların (hətta milli azlıq ərazidə çoxluq təşkil edirsə belə) problemini həll etmək üçün heç bir dövləti əraziyə hər-hansı status, yaxud mərkəzi orqanın hər-hansı vəzifəsini yerli orqanlara verməyə məcbur etmir (*Bax: Fəsil 2*).

Ermənilərin özlərinin də Dağlıq Qarabağın statusunu müəyyənləşdirmək məqsədi ilə keçirilməsi nəzərdə tutulan referenduma münasibətləri müxtəlifdir. David Babayan adlı erməni politoloqunun referenduma münasibəti belədir: «İlk növbədə referendumun keçirilməsi münaqişənin həllinə real imkanlar yaradacağı kimi görünür. Əslində isə yeni referendum 1991-ci ildə «Dağlıq Qarabağ Respublikası»nda keçirilmiş müstəqillik referendumunu qeyri-legitim edər*. İkincisi, rəsmi Azərbaycan referendumun 15-20 ildən sonra Qarabağa qayıdacaq azərbaycanlıların iştirakı ilə keçirilməsinin mümkün olacağını bildirir. Əgər Qarabağ referendumun keçirilməsini öz statusunu təsdiq etmək kimi qəbul edirsə, Azərbaycan Qarabağı Azərbaycanın tərkibinə qaytarmaq kimi qəbul edir ki, bu da Dağlıq Qarabağ üçün qəbul edilməzdir» (321).

* * *

Uğursuz başa çatmış Rambuye görüşündən sonra ABŞ-ın Dövlət katibi Kondoliza Rays münaqişənin həlli üçün yeni təkliflər açıqladı. Fransalı həmsədr B.Fasyenin sözlərinə görə bu təkliflər Minsk qrupunun həmsədr dövlətlərinin ümumi mövqelərini əks etdirirdi. Aprel ayının əvvəllə-

* *Əslində həmin referendum qanuna zidd şəkildə və azərbaycanlı əhalinin iştirakı olmadan keçirildiyi üçün qeyri-legitimdir.*





rində ABŞ-da K.Raysla görüşən Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov da yeni təklifin rəsmi Bakını təmin etdiyini bildirdi. Bundan əvvəl Ermənistanın xarici işlər naziri Vardan Oskanyan da ABŞ-da K.Raysla görüşəndən və həmin təklifi Moskvada Rusiyanın xarici işlər naziri Sergey Lavrovla müzakirə etdikdən sonra Minsk qrupu həmsədrlərinin təkliflərinin Ermənistan üçün mümkün olduğunu bildirmişdi (331).

Həm Azərbaycan, həm də Ermənistan belə hesab edir ki, vaxt onun xeyrinə işləyir, münaqişənin həll olunmamış qalması isə qarşı tərəfin ziyanınadır. Hər iki dövlətin rəsmi nümayəndələrinin dilindən tez-tez belə bəyanatlara rast gəlmək mümkündür.

Ermənistan Prezidenti R.Köçəryan da «Vaxt Azərbaycanın xeyrinə, Ermənistanın isə ziyanına işləyir» sözlərinə cavab olaraq 2006-cı il mart ayının 2-də bəyanat verərək bildirdi ki, əgər Azərbaycan tərəfi vaxtın onun xeyrinə işlədiyini təkid etsə, yaxud Qarabağ məsələsini güc tətbiq etməklə həll etməyə çalışsa bunun müqabilində Ermənistan tərəfi bir sıra tədbirlər həyata keçirəcək ki, bunlardan birincisi - «Dağlıq Qarabağ respublikası»nın müstəqilliyini de-yure tanıyacaq; ikincisi – Ermənistana «Dağlıq Qarabağ xalqının» təhlükəsizliyini təmin etmək imkanı verən müqavilə-hüquqi baza formalaşdıracaq; üçüncüsü – «Dağlıq Qarabağ» ətrafındakı ərazilər «təhlükəsizlik qurşağı» adlandırılaraq kompleks möhkəmləndirmə tədbirləri görüləcək (120; 347). Qeyd etmək lazımdır ki, ermənilər Dağlıq Qarabağ ətrafında işğal etdikləri yeddi rayonu «Dağlıq Qarabağ»ın azərbaycanlılar tərəfindən güllə atəşinə və bombardmana məruz qalmasının qarşısını almaq üçün bufer zona hesab edərək onu «təhlükəsizlik qurşağı», Laçını isə «həyat yolu» adlandırırlar (320). Təhlükəsizlik məsələləri üzrə ermənistanlı ekspert David Simonyan «Dağlıq Qarabağ»ı erməni dövlətlərindən biri kimi

görür və «təhlükəsizlik qurşağı»nın tərəflər arasında hərbi balansın qorunub saxlanması rolunu oynadığını bildirir. Onun fikrincə, həmin «zona»da yerləşən rayonların «qaytarılması nəticəsində hərbi balans Azərbaycanın xeyrinə dəyişər və erməni dövlətlərinin* hərbi-strateji vəziyyətinin pisləşməsinə gətirib çıxarar ki, nə sülh danışıqları, nə də regionda sülhməramlı qoşunların yerləşdirilməsi onu əvəz edə bilməz» (371).

Beynəlxalq böhran qrupunun Qafqaz bürosunun əlaqələndiricisi Səbinə Freyzerin fikrinə görə, hər iki tərəf vaxt qazanmaq istəyir. Onun sözlərinə görə: «Ermənilər hesab edirlər ki, hazırki vəziyyət nə qədər çox davam etsə Dağlıq Qarabağın de-yure tanınması üçün bir o qədər çox imkan yaranır. Azərbaycanlılar isə neft hesabına ölkənin ildən-ilə yaxşılaşan iqtisadi vəziyyətinin mövcud durumu dəyişəcəyinə ümid edirlər» (290).

Ermənistanın «Dağlıq Qarabağ respublikası»nın müstəqilliyini hələ də de-yure tanımamasının səbəbini 2005-ci ilin mart ayında o vaxt müdafiə naziri və Təhlükəsizlik Şurasının katibi olan Serj Sarkisyan** prinsipial güzəşt kimi qiymətləndirirdi və bir neçə aspektdən izah edirdi: I – Münaqişənin Minsk qrupu çərçivəsində sülh yolu ilə nizamlanmasını dəstəkləmək məqsədi ilə göstərilən xoş niyyət kimi təqdim etməklə prinsipial güzəşt kimi; II – NATO Parlament Assambleyasının sədri Pyer Lelyuşun Dağlıq Qarabağın demokratik özünü təyinetməsinə dair keçmiş DQMV əhalisi arasında daha bir referendum keçirilməsi haqqında təklifi nəzərə alındığı üçün (29). Qeyd etmək lazımdır ki, 2004-cü ilin oktyabr ayında Marşall fondunun alman şöbəsinin nümayəndəliyi tərki-

**D.Simonyan erməni dövlətləri deyəndə Ermənistanı və «Dağlıq Qarabağ respublikasını» nəzərdə tutur.*

***2007-ci ilin mart ayında A.Markaryanın vəfatından sonra həmin vaxtadək Müdafiə naziri olmuş Serj Sarkisyan Baş nazir vəzifəsində onu əvəz etdi.*





bində Ermənistana və Dağlıq Qarabağa səfər etmiş NATO Parlament Assambleyasının başçısı Pyer Lelluş və İspaniyanın sabiq xarici işlər naziri Anna Palasio həmin ilin sonunda Fransada nəşr olunan «Fiqaro» qəzetində həmmüəllif olaraq «Putin və imperiya kabusları» adlı məqalə dərc etdirmişdilər. Məqalədə deyilirdi: «Avropalılar, amerikalılar və rusiyalılar birgə elə güzəşt əldə etməlidirlər ki, onun əsasında Ermənistan Dağlıq Qarabağ üzərində müvəqqəti nəzarət əldə etsin. Bundan sonra beş, yaxud on il ərzində Dağlıq Qarabağın statusu referendum yolu ilə müəyyən edilsin» (242).

Referendumun ATƏT-in və BMT-nin himayəsi altında keçirilə biləcəyi üçün S.Sarkisyan vurğulayıb ki, həmin qurumların Kosovo təcrübəsini dərindən öyrənməsi vacibdir (29). Bundan başqa, S.Sarkisyan belə hesab edir ki, Ermənistan üçün Dağlıq Qarabağın müstəqilliyinin beynəlxalq səviyyədə tanınmasından daha çox onun Azərbaycan tərəfindən tanınması vacibdir: «Hətta 50 dövlət Dağlıq Qarabağın müstəqilliyini tanısa belə, bu Azərbaycanın Qarabağın müstəqilliyini tanıması üçün bir təsir vasitəsidir» (305). 2007-ci ilin sentyabr ayında müxalifətdə olan "İrs" partiyasının parlament fraksiyasının rəhbəri Raffi Ovannesyan «Dağlıq Qarabağ respublikası»nın tanınması haqqında parlamentə "qanun layihəsi" təqdim edəndə də bu, ilk növbədə, Ermənistanın dövlət rəsmilərinin ciddi etirazı ilə qarşılandı. Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Vladimir Karapetyan Xarici İşlər Nazirliyinin belə bir "qanun layihəsi" ilə razılaşmadığını və bu "qanun layihəsinin" parlamentdə müzakirəyə çıxarılmasının qəti əleyhinə olduğunu bildirdi. Sentyabr ayının sonunda Moskvada səfərdə olarkən Ermənistanın Baş naziri Serj Sarkisyan hələ Qarabağın müstəqilliyini tanımağın vaxtı çatmadığını bir daha qeyd etdi və danışıqlar prosesi başa çatmadığından bunun radikal addım ola biləcə-

yini və onun nəticələrinin aradan qaldırılmasının çətin olacağını bildirdi (286).

* * *

Minsk qrupunun həmsədrləri 2006-cı ilin 7-8 mart tarixində Vaşinqton şəhərində, sonra isə 20 mart tarixində ATƏT sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiklə Rambuye görüşünün nəticələri və münaqişənin sülh yolu ilə nizama salınması istiqamətində atılacaq növbəti addımlara dair fikir mübadiləsi aparmaq üçün İstanbul şəhərində görüşdülər (45). Minsk qrupu həmsədrlərinin və ATƏT sədrinin şəxsi nümayəndəsinin növbəti görüşü may ayının 2-də Rusiya XİN-də keçirildi. May ayının 19-da isə həmsədrlər Strasburqda E.Məmmədyarov və V.Oskanyanla görüşdülər. Görüşdən əvvəl Azərbaycanın xarici işlər naziri həmsədrlərin münaqişənin həlli ilə bağlı yeni ideyaları olduğunu bildirmişdi. Rusiyalı həmsədr Y.Merzlyakov da bu haqda bəyanatında qeyd etmişdi: «ideyalar çoxdur və vaxt da həlledicidir, onu əldən verməmək olmaz. Bundan yaxşı vaxt yəqin ki olmayacaq» (321). Fransalı həmsədr Bernar Fasye bir qədər əvvəl regiona səfəri zamanı, göstərilənlərə uyğun olaraq, həmsədrlər adından Azərbaycan və Ermənistan rəhbərlərinə «bəzi yeni təkliflər» və keçirilən müzakirələrin daha dəqiq detallarını təqdim etmişdi. Strasburq görüşündə həmsədrlər Bakı və Yerevanın həmin təkliflərə cavablarını gözləyirdilər (321). Görüşdən sonra Ermənistanın xarici işlər naziri V.Oskanyan həmsədrlərin yeni təkliflərinə münasibətini açıqlayarkən çox məsələlərin Azərbaycanın mövqeyindən asılı olduğunu bildirmişdi (136). Azərbaycanın isə mövqeyi həmişə olduğu kimi birdir – münaqişəni Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etmək.

May ayının 24-də isə Azərbaycan Respublikasının Dövlət başçısı İlham Əliyev Minsk qrupunun həmsədrləri, həmsədr dövlətlərin nümayəndələri - Rusiyanın xarici işlər





nazirinin müavini Qriqori Karasin, ABŞ Dövlət katibinin Avropa məsələləri üzrə müavini Daniel Frid, Fransa Prezidentinin beynəlxalq məsələlər üzrə müşaviri Pyer Morel və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsindən ibarət nümayəndə heyətini qəbul etdi və görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması ilə əlaqədar aparılan danışıqlarla bağlı fikir mübadiləsi aparıldı (70). Həmin gün Minsk qrupunun həmsədrləri olan dövlətlərin nümayəndələri birgə bəyanat verdilər. Nümayəndələr Bakıya birgə diplomatik missiya ilə gəldiklərini, məqsədlərinin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizama salınmasına kömək etmək olduğunu və hər iki tərəfin nizamlamanın əsas prinsipləri barədə razılığa gəlməsi vaxtının çatdığını bəyan etdilər. Bəyanatda, həmçinin deyilirdi: hər iki ölkə öz ictimaiyyətini müharibəyə deyil, məhz sülhə hazırlamalıdır (46).

Dövlət başçılarının 2006-cı ildə ikinci görüşü iyun ayının 4-5-də Buxarest şəhərində baş tutdu. Bu görüşdə də münaqişənin həlli yolunda heç bir razılıq əldə edilmədi. İyun ayının 7-də Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov tərəflərin fikirlərinin üst-üstə düşmədiyi məsələlərdə razılığa gələ bilmədiklərini, işğal edilmiş Azərbaycan torpaqları və qaçqınlarm öz evlərinə qaytarılması məsələsinin isə ümumiyyətlə müzakirədən kənarda qaldığını bildirdi (344). Ermənistanın xarici işlər naziri V.Oskanyan da öz növbəsində Azərbaycanın yalnız «Dağlıq Qarabağ» «xalqı»nın «öz müqəddəratını həll etmək hüququ»nu tanıdıqdan sonra erməni tərəfin ciddi güzəştlərə getməyə və Azərbaycanla ərazi məsələlərini müzakirə etməyə hazır olduğunu bildirdi (230).

Dövlət başçılarının görüşündən sonra iyun ayının 8-də Minsk qrupunun həmsədrləri S.Mənn, B.Fasye və Y.Merzlyakov öz aralarında görüş keçirərək birgə bəyanatla çıxış etdilər. Bəyanatda həmsədrlər münaqişə tərəflərinə təklif edilmiş əsas prinsiplərin qarşılıqlı qərarlar qəbul etmək imkanı

verdiyini, amma təəssüf ki, tərəflərin hələ də bu prinsiplər ətrafında razılığa gəlmədiklərini bildirdilər (344). Buxarest görüşündən sonra Minsk qrupunun amerikalı həmsədri Stiven Mənn Dövlət departamentində başqa vəzifəyə təyin edildiyi üçün Minsk qrupunun tərkibində öz vasitəçilik missiyasını başa vurdu (344). İyun ayının sonlarından ABŞ Dövlət katibinin Avropa və Avrasiya işləri üzrə köməkçisi Metyu Brayza Minsk qrupunun amerikalı həmsədri təyin edildi. M.Brayza tərəflər ilə bir müddət işlədikdən sonra onların prinsiplərə olan münasibətini belə şərh etdi: «bir tərəf deyir «bizim bu prinsiplərlə problemimiz var», digər tərəf deyir «biz prinsipcə onlarla razıyıq, lakin bəzi kiçik dəyişikliklər etməliyik» və heç kim demir ki, biz bu prinsiplərlə razıyıq» (322).

13 iyun 2006-cı il tarixdə Paris şəhərində Fransa XİN-də Azərbaycan və Ermənistanın xarici işlər nazirləri rusiyalı həmsədr Y.Merzlyakov, fransalı həmsədr B.Fasye və ATƏT sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikin iştirakı ilə görüşdülər. Görüş haqqında tam məlumat verilməsə də Buxarest görüşündə Prezidentlərin razılığa gəlmədikləri məsələlərin müzakirə edildiyi və nazirlərin həmin məsələlərdə ümumi məxrəcə gəlməyə çalışdıqları bildirilir (228).

Uzunsürən danışıqların nəticəsiz qaldığını görən Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan dövlətlərinin prezidentlərinin öz mövqelərini bəyan etməli və öz aralarında razılığa gəlməli olduqlarını bildirdilər. Amerikalı həmsədr Metyu Brayza bununla bağlı bəyan etdi ki, bu həmsədrlərin kənara çəkilməsi kimi qiymətləndirilməməlidir. Sadəcə həmsədrlər bütün mümkün variantları təklif ediblər, həmçinin münaqişənin Azərbaycan və Ermənistan dövlətlərinin istəyinə uyğun həll edilməsinin tərəfdarıdırlar və onlara heç bir təzyiq göstərməyəcəklər. Əgər Dövlət başçıları həmin variantlar əsasında razılığa gələ bilmirlərsə, onda öz mövqelərini bildirməli və öz variantlarını təklif etməlidirlər (317).





Minsk qrupu isə məhz tərəflər öz aralarında razılığa gələ bilmədikləri üçün yaradılıb. Və onun vəzifəsi təkcə görüşlər təşkil etmək deyil. Qrup tərəflər arasında gərgin vəziyyətin aradan qalxmasına, onların bir-birilə dil tapmasma və müəyyən qarşılıqlı güzəştlərin əldə edilməsinə və tərəfləri münaqişənin beynəlxalq hüquq və prinsiplər əsasında həll edilməsinə razılaşdırmağa çalışmalıdırlar. Minsk qrupunun isə kifayət qədər prinsipiallıq nümayiş etdirməməsi, təcavüzkar və təcavüzə məruz qalan tərəfə layiq olduqları münasibəti göstərməməsi Ermənistan-Azərbaycan münaqişəsinin hələ də həll olunmamış qalmasının əsas səbəblərindəndir.

Prezidentlərin mövqeyinə gəldikdə isə həm Azərbaycan, həm də Ermənistan Dövlət başçılarının mövqeləri artıq çoxdan və tam aydın şəkildə məlumdur. Hər iki dövlət dəfələrlə öz mövqeyini müxtəlif səviyyələrdə və müxtəlif məkanlarda açıqlayıb. Azərbaycan Respublikasının haqlı olaraq mövqeyi belədir ki, o heç vaxt torpaq itkisi ilə razılaşmayacaq və öz ərazisində ikinci erməni dövlətinin yaranmasına, yaxud Dağlıq Qarabağın Ermənistana birləşdiriləcəyinə razı olmayacaq, gedəcəyi ən böyük güzəşt isə Dağlıq Qarabağa Azərbaycanın dövlət sərhədləri hüdudlarında verəcəyi yüksək status ola bilər. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə «Azərbaycanın ərazi bütövlüyünün danışıqlar mövzusu olmadığını və heç vaxt Dağlıq Qarabağa müstəqillik statusu verilməyəcəyini» (121), 2006-cı il may ayının 30-da Parisdə NATO-nun PA-nın yaz sessiyasında çıxışı zamanı isə bir daha Azərbaycanın öz torpaqlarında ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyini bəyan etdi (58).

Ermənistan tərəfi də haqsız olsa belə öz mövqeyində israrlıdır və Dağlıq Qarabağ üçün hətta ən yüksək statuslu muxtariyyatı belə qəbul etmək istəmir, onu ya müstəqil, ya da Ermənistanın tərkibində görür.

2005-ci ilin mart ayında, həmin vaxt Təhlükəsizlik Şurasının katibi və müdafiə naziri olan S.Sarkisyan münaqişənin Ermənistan üçün üç əsas prinsip əsasında həllini mümkün sayırdı: I - Dağlıq Qarabağ Azərbaycana tabe ola bilməz; II – Dağlıq Qarabağın anklav olaraq qalması yol verilməzdir. Onun Ermənistanla quru sərhədləri olması və dünyanın inkişaf proseslərində iştirakı üçün şərait yaradılmasına beynəlxalq təminat vacibdir; III – müharibənin yenidən başlanmayacağına və Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinə dair beynəlxalq təminat vacibdir (29).

Həmin ilin dekabr ayında – Minsk qrupu həmsədrlərinin yaxın gələcəkdə danışıqların uğurla nəticələnəcəyinə əmin olduqları bir vaxtda isə Ermənistanın Baş naziri olan Andranik Markaryan* öz bəyanatında bildirmişdi: «Birmənalı olaraq, Dağlıq Qarabağ Azərbaycanın tərkibində olmayacaq, Ermənistanın isə sərhədləri dəyişikliklərə məruz qalmayacaq» və «Erməni tərəf Dağlıq Qarabağ üçün beynəlxalq-qəbul edilmiş hüquqi status müəyyənləşdirilməsində israrlıdır». «Dağlıq Qarabağın» danışıqlar prosesində münaqişə tərəfi kimi qəbul edilməsini istəyən Baş nazir onu da qeyd etmişdi ki: «Bütün bu tələblər qəbul edilərsə, onda hər hansı güzəştdən danışmaq mümkündür» (369).

Ermənistanın xarici işlər naziri Vardan Oskanyan isə öz ölkəsinin mövqeyini belə bildirib: «Bakı «Dağlıq Qarabağ xalqının» öz müqəddəratını təyinetmə hüququnu tanıdıqdan sonra Yerevan həm ərazi, həm də digər məsələləri müzakirə etməyə hazırdır» (321). V.Oskanyan 2005-ci il Prezidentlərin Varşava görüşündən sonra, elə Varşava şəhərində muxtariyyatın Dağlıq Qarabağ erməniləri üçün «keçilmiş mərhələ» olduğunu və rəsmi Yerevanın «Dağlıq Qarabağ»ın müstəqilli-

---

* *Andranik Markaryan 2007-ci ilin mart ayında müəmmalı şəkildə vəfat etdi.*





yinin tanınmasında israrlı olduğunu qeyd etmiş (283), 2006-cı il BMT Baş Məclisinin 61-ci sessiyasında isə bir daha Dağlıq Qarabağ ermənilərinin «öz müqəddəratlarını artıq müəyyənləşdirdiklərini» və heç bir dövlətin daxilində yaşamaq istəmədiklərini vurğulamışdı (172).

V.Oskanyana Azərbaycan Respublikası Prezident Aparatının beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədovun sözlərilə cavab vermək yerinə düşərdi: «Əgər söhbət hər hansı bir millətin öz müqəddəratını təyin etməsindən gedirsə, onda Dağlıq Qarabağda yaşayan ermənilər erməni millətinin çox kiçik bir hissəsi olaraq gedib Ermənistana qoşula və həmin ölkənin vətəndaşı ola bilərlər» (94).

Müdafiə nazirinin müavini, «Erkrapa» könüllülər İttifaqının sədri Manvel Qriqoryanın isə mövqeyi belədir: «Mən torpaqların qaytarılmasını istisna edirəm. Əgər belə cəhdlər olarsa, mən torpaqların qaytarılmasına mane olmağa hazıram» (321).

* * *

Göstərilən mövqelərlə yanaşı, ermənilər Dağlıq Qarabağa Kosovo modelinin* tətbiq edilməsinin tərəfdarıdırlar.

---

* *1999-cu ilədək Kosovo Serbiyanın muxtar vilayəti olub. 1998-1999-cu illərdə baş vermiş silahlı münaqişə nəticəsində Kosovoya beynəlxalq sülhməramlı qoşunlar yeridilib və orada BMT-nin mülki adminstrasiyası fəaliyyətə başlayıb. Kosovo 17 fevral 2008-ci ildə öz müstəqilliyini elan edənədək BMT adminstrasiyasının nəzarəti altında idi və o öz prezidentinə, hökumətinə və parlamentinə, polisinə malik idi (367).*

*BMT-nin Kosovo münaqişəsinin nizamlanması üzrə xüsusi nümayəndəsi Martti Ahtisaari «Kosovonun statusunun tənzilənməsinə dair ətraflı təklif» adlanan plan hazırlamışdı. M.Ahtisaarinin planında Kosovoya məhdud suverenitet verilməsi, yəni beynəlxalq nəzarətdə olmaq şərtilə müstəqillik təklif edilirdi. Plana əsasən Kosovo beynəlxalq (NATO, Aİ, ATƏT) hərbi və mülki nəzarətdə olacaq, bununla yanaşı beynəlxalq sazişlər bağlaya və beynəlxalq təşkilatlara üzv ola bilərdi. Eyni zamanda öz Konstitusiyasına, himninə, gerbinə, qoşununa, məhkəmə sisteminə və müxtəlif haki-*

2006-cı il oktyabr ayının birinci yarısında Ermənistanda çıxan «Ayots Aşxar» adlı qəzet Ermənistan-Azərbaycan münaqişəsi ilə Kosovo münaqişəsinin bir-birinin eyni olduğunu yazırdı. Qəzet bunu onunla əsaslandırırdı ki, Kosovonun müstəqilliyi ikinci alban ölkəsi, Dağlıq Qarabağın müstəqilliyi isə ikinci erməni dövlətinin yaranması deməkdir. Qəzet Avropa Şurasının baş katibi Terri Devisdən sitat gətirərək onun Kosovo münaqişəsi ilə digər münaqişələri eyniləşdirməyin düzgün olmadığını deyərkən Dağlıq Qarabağın adını çəkmədiyini göstərir və bununla da Kosovo modelinin Ermənistan-Azərbaycan münaqişəsi üçün presedent ola biləcəyinə işarə etdiyini vurğulayırdı (353). Bundan sonra, 2007-ci il iyun ayının 27-də Terri Devis Kosovo modelinin Ermənistan-Azərbaycan münaqişəsi üçün presedent ola biləcəyi haqqında danışarkən Kosovonun gələcək statusu ilə bağlı hələ ki, heç bir qərar qəbul edilmədiyini bildirərək qeyd etmişdi: «Separatçı rejimlər mövcuddurlar, lakin onlar beynəlxalq ictimaiyyət tərəfindən tanınmayıblar. Əminəm ki, həmin rejimlər Kosovo ətrafında vəziyyətdə çox maraqlıdırlar. Ola bilsin ki, onlar bundan presedent kimi istifadə etmək niyyətindədirlər. Konkret olaraq, əgər Dağlıq Qarabağ Kosovo məsələsindən presedent kimi istifadə etmək istəyirsə, bu çox acınacaqlıdır. İndiki şəraitdə mən yalnız bunu deyə bilərəm. Ermənistanın daxili niyyətlərini isə şərh etmək istəməzdim» (241). Həmin ilin noyabr ayının əvvəllərində Ermənistana səfər edən T.Devis Kosovo və Dağlıq Qarabağ arasında olan fərqi daha konkret göstərərək bildirmişdi: «Kosovo və Dağlıq Qarabağ münaqişəsi arasında çox böyük fərqlər var. Belə ki, Kosovoda separatçı rejim yoxdur və o, BMT tərəfindən idarə

*miyyət orqanlarına malik olacağı nəzərdə tutulurdu (251). Bu plan Kosovonu müstəqilliyə aparan mərhələli plan kimi qəbul edilirdi və Serbiya parlamenti bu planın ölkənin ərazi bütövlüyünü pozduğunu bildirirdi (295).*





olunan regiondur. Burada təhlükəsizliyi Avropa İttifaqının hərbiçiləri təmin edir. Dağlıq Qarabağda isə bunların tam əksidir» (93).

2006-cı il BMT Baş Məclisinin 61-ci sessiyasında Ermənistanın Kosovo məsələsini presedent kimi nəzərdən keçirmədiyini bildirən Ermənistanın xarici işlər naziri V.Oskanyan (172) isə sonra fikrini dəyişərək 2007-ci il oktyabr ayının 4-də BM-in 62-ci sessiyasında çıxışı zamanı bildirdi ki, Kosovo modeli «öz müqəddəratını təyinetmə» prinsipi əsas götürülən münaqişələr üçün presedent olmalıdır. 2008-ci il 17 fevral tarixində Kosovo birtərəfli şəkildə öz müstəqilliyini elan etdi və onun müstəqilliyi bir çox dövlətlər tərəfindən tanındı. Azərbaycan, Rusiya və Ermənistan onun müstəqilliyini tanımayan dövlətlər arasındadır. İndi, 19 fevral 2008-ci ildə Ermənistan Respublikasının prezidenti seçilmiş S.Sarkisyan 12 martda tələbələr qarşısında çıxış edərkən bildirdi ki: «Biz Kosovonu presedent saymamalıyıq. Dağlıq Qarabağ SSRİ-nin mövcud qanunları əsasında müstəqillik əldə edib və digər münaqişələrdən fərqlənir. Bizim hər hansı münaqişə ilə eyniləşmək haqqımız yoxdur». Aprel ayının 9-da keçiriləcək and içmə mərasiminədək Baş nazir vəzifəsini icra edəcək S.Sarkisyan Kosovonun müstəqilliyini tanımamasının səbəbini isə onunla izah etdi ki, Ermənistan yaxın gələcəkdə «Dağlıq Qarabağ»ın müstəqilliyini tanımağa hazırlaşmır, lakin xalqın öz müqəddəratını həll etməsinin tərəfdarı olduğu üçün isə Kosovonun müstəqilliyini alqışlayır (214).

Kosovo münaqişəsi nə üçün Ermənistan-Azərbaycan münaqişəsi üçün presedent ola bilməz? Hansı fərqlər onlara müxtəlif tərəflərdən yanaşmanı tələb edir?

I – Kosovo münaqişəsində Kosovo iki münaqişə tərəfindən biridir və münaqişə bir dövlət daxilindədir. Kosovo ərazisində dövlətdə çoxluq təşkil edən serblərin deyil, serb millətçiləri tərəfindən həmin ərazidə yaşayan və dövlət daxi-

lində azlıq olan albanların haqlarının pozulduğu hesab edilir*. 1999-cu il 21 mart tarixdə qəbul edilmiş və 24 martdan isə NATO qoşunları tərəfindən icrasına başlanmış «İttifaq qüvvəsi» əməliyyatı da məhz Yuqoslaviya Birləşmiş Respublikası hökuməti tərəfindən etnik albanlara qarşı həyata keçirilmiş soyqırım siyasəti nəticəsində yaranmış humanitar fəlakətin qarşısını almaq məqsədi daşıyırdı. Ermənistan-Azərbaycan münaqişəsində isə münaqişə tərəfləri Ermənistan və Azərbaycandır. Bu münaqişədə Azərbaycan ərazisində azlıq təşkil edən ermənilərin deyil, erməni separatçıları tərəfindən dövlət daxilində çoxluq olan Dağlıq Qarabağda yaşayan azərbaycanlıların haqları pozulub və Ermənistanın Azərbaycana təcavüzü nəticəsində onlar öz tarixi torpaqlarından didərgin salınıblar. Dağlıq Qarabağ erməni separatçıları və Ermənistan ordusu tərəfindən idarə edilir və ermənilər yerli əhali olan və məcburi köçkün düşən azərbaycanlıların geri qayıtmasına imkan vermirlər;

II – Kosovo ərazisi digər dövlət tərəfindən işğal edilməyib, buna görə də həmin münaqişənin «öz müqəddəratını təyinetmə» prinsipi əsasında həll edilməsini mümkün saymaq olar. Dağlıq Qarabağ problemi isə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranıb. Buna görə də münaqişənin həlli «ərazi bütövlüyünün pozulmazlığı» prinsipinə əsaslanmalıdır;

III – Münaqişəyə hüququ pozulmuş tərəfin haqlarının bərpası prizmasından baxsaq, onda dövlət daxilində azlıq olan hüququ pozulmuş kosovalı albanların haqlarını bərpa edərək onlara yaşadıqları ərazidə öz müqəddəratlarını «daxili», yaxud «xarici» təyinetmə hüququ verilməsi də qanuna uyğun sayılmalıdır. Dağlıq Qarabağda isə hüququ pozulmuş

* *Serblərin kosovalılara qarşı törətdikləri çoxsaylı kütləvi işgəncə və qətllər nəticəsində 1999-cu ilin mart ayınadək Kosovodan qaçqın düşənlərin sayı 1 mln. sayılırdı və daha 10 min nəfər ölmüş və itkin düşmüş hesab edilirdi (202).*





tərəfin haqları bərpa olunarsa, onda öz torpaqlarından didərgin salınmış azərbaycanlı əhali geri qayıtmalıdır. Lakin bu halda da Azərbaycan Dağlıq Qarabağda yaşayan milli azlıq olan erməni əhalinin istəyini nəzərə alaraq bölgəyə muxtariyyat verməyə hazırdır.

* * *

Rəsmi şəxslər tərəfindən göstərilən mövqelər hər iki dövlətin artıq müəyyən və qəti bir qərara gəldiklərini göstərir. Bu isə öz növbəsində belə düşünməyə əsas verir ki, əgər münaqişənin həlli yalnız Dövlət başçılarının qərarlarından asılıdırsa, onda bu yol müharibədən keçir. Xüsusilə də münaqişənin nizamlanması prosesinin heç bir nəticə vermədiyini və hər iki Dövlət başçısının ölkələrinin müharibəyə hazır olduğunu və lazım gələrsə münaqişəni hərb yolu ilə həll etməyə hazır olduqlarını bildirdiklərini nəzərə alsaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edib ki: «Biz danışıqları danışıqlar xətrinə aparmayacağıq. Onun səmərəsiz olduğunu və digər vəziyyət yarandığını görsək, danışıqlar dayandırılacaq və digər yeni vəziyyət yaranacaq ki, biz bunu nəzərdən keçirəcəyik» (316).

«Dağlıq Qarabağ respublikası»nın da münaqişənin həllinə dair öz mövqeyi var. «Dağlıq Qarabağ respublikası»nın prezidenti Arkadi Qukasyan* öz mövqeyini belə şərh edirdi: «Boynumuza qoyulmuş müharibə sübut etdi ki, problemi müharibə yolu ilə həll etmək mümkün deyil. Düzdür, biz öz torpaqlarımızı müdafiə etdik, qalib gəldik, amma demək olmaz ki, bizim xalqlarımız, ermənilər və azərbaycanlılar, xoşbəxtdirlər. Bu onu göstərir ki, məsələ siyasi yolla həll edilməlidir. Müharibə etməmək bizim ümumi işimizdir. Lakin biz

* *19 iyul 2007-ci il tarixdə «prezident seçkiləri» keçirildi və Bako Saakyan A.Qukasyanın yerinə «Dağlıq Qarabağ respublikası»nın «prezidenti» seçildi.*

müharibəyə hazır olmalıyıq. Bizim hazır olmağımız müharibənin yenidən bərpa olmasının qarşısını alar» (321). «Dağlıq Qarabağ müdafiə ordusunun komandanı» Seyran Oqanyan* Qarabağ münaqişəsinin həlli perspektivlərindən danışarkən əmin olduğunu bildirmişdi ki, münaqişənin həllinin nəticəsi olaraq ya «Dağlıq Qarabağ Respublikası»nın müstəqilliyi tanınmalıdır, ya da Dağlıq Qarabağ hər bir erməninin arzu etdiyi kimi Ermənistanın bir hissəsi kimi qəbul edilməlidir» (301).

Belə fikirlər mövcuddur ki, əgər münaqişənin müharibə yolu ilə həllinə qərar verilərsə, onda bu təkcə iki dövlət – Ermənistan və Azərbaycan arasında baş verən silahlı toqquşma olmayacaq.

Cənubi Qafqaz və Xəzər dənizi hövzəsi regionu strateji baxımdan həm ABŞ, həm də Rusiyanın maraqları dairəsindədir. Bundan başqa, 1992-ci ilin 6 aprelində Rusiya ilə Ermənistan arasında bağlanmış «Dostluq və əməkdaşlıq haqqında» müqavilənin 3-cü maddəsi Ermənistana hərbi yardım göstərilməsini nəzərdə tutur. Ermənistan ərazisində Gümrüdə RF-nın 102-ci hərbi bazası yerləşir və 1995-ci il 16 martda Rusiya ilə Ermənistan arasında 25 il müddətinə imzalanmış müqaviləyə əsasən Ermənistandakı Rusiya hərbi bazaları rəsmi statusa malikdir (107, s.135; 97, s.35). Robert Köçəryan bildirir ki, Ermənistan çox mürəkkəb regionda yerləşdiyi və qonşu dövlətlərlə münasibətləri nizamlanma mərhələsində olduğu üçün Rusiya hərbi bazalarının ölkə ərazisində yerləşdirilməsi Ermənistanın maraqlarına cavab verir. Rusiyanın müdafiə naziri Sergey İvanovun sözlərinə görə Ermənistanda Rusiya hərbi bazalarının olması dövlətlərin strateji partnyor

* *11 may 2007-ci ildən S.Oqanyan Ermənistan Respublikasının silahlı qüvvələrinin Baş qərargah rəisi və müdafiə nazirinin birinci müavini vəzifəsinə təyin edildi. Onun vəzifəsini isə Movses Akopyan tutdu.*





olduqlarını göstərir və həmin bazalar heç bir dövlətə qarşı çevrilməyib, yalnız Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvü olan RF və Ermənistanın təhlükəsizliyini qoruyurlar (264). 15 may 1992-ci ildə imzalanmış müqavilə təşkilatın üzv dövlətləri arasında hərbi-siyasi əməkdaşlıq və hər hansı üzv dövlətə qarşı təcavüz baş verərsə hərbi kömək də daxil olmaqla lazımi yardım nəzərdə tutur (355). Buna görə də, əgər Dağlıq Qarabağ uğrunda müharibə bərpa edilərsə KTMT-nin Ermənistana yardım edəcəyi gözlənilir. Lakin KTMT-nin yeddi üzvündən üçü – Qazıxıstan, Qırğızıstan və Özbəkistan türk dövlətidir. Müəyyən vaxtlarda həmin dövlətlərlə Azərbaycan arasında münasibətlər nisbətən soyuq olsa da son vaxtlar müxtəlif irimiqyaslı layihələrdə birgə iştirakları nəzərdə tutulur və dövlətlər arasında münasibətlər də getdikcə yaxşılaşmaqdadır. Bununla yanaşı, 2004-cü il Azərbaycan işğal edilmiş ərazilərində vəziyyətlə bağlı məsələni BMT Baş Məclisində müzakirəyə çıxarmağa cəhd edərkən KTMT-nin iki üzvü – Qazaxıstan və Qırğızıstan onu dəstəkləmişdilər. 2008-ci ildə isə həmin məsələ ilə bağlı BMT BM qətnamə qəbul edərkən KTMT-nin digər üzvü Özbəkistan bunun lehinə səs verdi (213).

Bunlardan başqa, Rusiya və Ermənistan arasında hər iki dövlətin təhlükəsizliyini təmin etmək məqsədi ilə 2001-ci ilin may ayında Yerevan şəhərində MDB çərçivəsində kollektiv operativ qüvvələr yaratmaq haqqında razılıq imzalanıb (240, s.170). Ermənistan, həmçinin 1995-ci ildən MDB-nin havadan hücum əleyhinə birləşmiş müdafiə sisteminə daxildir. Və həmin sistem Ermənistana havadan gözlənilməz hücum olarsa onu müdafiə etmək öhdəliyi götürüb (221).

2004-cü ilin yayında İstanbul sammiti zamanı isə NATO Qafqaz-Xəzər regionunu özünün strateji regionu elan edib (259). Bundan başqa, ABŞ konqresi Xəzər və Qara dəniz regionunun ABŞ-ın milli maraqları zonasına daxil oldu-

ğunu bildirib və o, neft strategiyasını regiona nüfuz və təsir etmək üçün mühüm faktor hesab edir. ABŞ-ın Azərbaycana maraq göstərməsinin səbəblərindən biri kimi 11 sentyabr 2001-ci il hadisələri göstərilir. Həmin hadisələrdən sonra Amerikaya müsəlman dünyasından yeni dostlar və tərəfdaşlar lazım idi ki, ABŞ da Azərbaycanla əməkdaşlığa üstünlük verdi (404, s.32).

ABŞ-la Azərbaycan arasında hərbi əməkdaşlığın üç istiqamətdə inkişaf etdiyi bildirilir: sülhün müdafiəsi məqsədi ilə Azərbaycanın imkanlarının gücləndirilməsi; su sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün ölkənin hərbi-dəniz qüvvələrinin gücləndirilməsi; ölkənin hava məkanını müdafiə sahəsində Azərbaycanın hərbi təsisatlarının idarəetmə imkanlarının NATO standartlarına yaxınlaşdırılması. Məhz bu proqram çərçivəsində ABŞ hər il Azərbaycana hərbi sahədə yardım edir, bir şərtlə ki, Azərbaycan həmin yardımdan Ermənistana qarşı hərbi əməliyyatlara başlamayacaq və ondan işğal altında olan ərazilərin azad edilməsi məqsədilə istifadə edilməyəcək (336).

Rusiyanın Cənubi Qafqazda həlledici rol oynamasının əleyhinə olan ABŞ Ermənistan və Azərbaycan arasında belə bir müharibəyə, ən əsası isə Rusiyanın həmin toqquşmada iştirakına biganə qalmayacaq. Müharibənin baş verməsi isə hələ ki, nə Rusiyanın, nə də ABŞ-ın maraqlarına uyğun olmadığı üçün onun başlanmasına yol verməyəcəklər.

Lakin müharibə baş versə belə sonradan məğlub tərəfin, hər dəfə olduğu kimi, gələcəkdə də ələ düşən fürsətdən istifadə edərək Dağlıq Qarabağ uğrunda mübarizəyə başlamasının qarşısını almaq üçün bir sıra tədbirlər görmək lazım gələcək. (Bəlkə Ermənistanla Azərbaycan arasında Çin səddi tikmək lazımdır?!)

Regiona qonşu olan İran və Türkiyə də müharibənin əleyhinədirlər. İran baş verə biləcək müharibənin ABŞ-ın İrana qarşı hərbi aksiyalar başlaması üçün münasib şərait yarada biləcəyindən ehtiyat edir. Buna görə də bir sıra ekspertlər hesab edirlər ki, bu müharibənin başlayacağı təqdirdə İranın Ermənistana hərbi yardım göstərəcəyi mümkündür.





Azərbaycanın Dağlıq Qarabağı və onun ətrafındakı yeddi rayonu işğal altından azad etmək və Ermənistan işğalçılarını Azərbaycan torpaqlarından çıxarmaq üçün müharibəyə başlayacağı təqdirdə, əgər Rusiya və KTMT bu müharibəyə müdaxilə edərsə, onda bu onların Azərbaycan torpaqlarına təcavüzü kimi qiymətləndirilməlidir. Çünki həmin rayonlar və Dağlıq Qarabağ Azərbaycan əraziləridir və Azərbaycan heç bir digər suveren dövlətin sərhədlərini və ərazi bütövlüyünü pozmur, heç bir dövlətin daxili işinə qarışmır, yalnız özünün işğal altında olan ərazilərini geri qaytarmaq məqsədi daşıyır. Rusiya və KTMT isə müqavilələri Ermənistan Respublikası ilə bağlayıblar və buna uyğun olaraq öz qoşunlarını Ermənistan Respublikası ilə Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri boyunca düzüb Ermənistana qarşı təcavüz olarsa onu müdafiə etməyə hazır dayana bilərlər.

* * *

Dövlət başçılarının Buxarest görüşündən sonra 2006-cı il 15-17 iyulda Sankt-Peterburqda «Böyük səkkizliy»in (G8) zirvə toplantısı zamanı iştirakçı dövlətlərin Ermənistan-Azərbaycan münaqişəsinə dair öz mövqelərini bildirəcəkləri gözlənilirdi. Gözlənildiyi kimi toplantı zamanı təşkilat çərçivəsində ilk dəfə olaraq Ermənistan-Azərbaycan münaqişəsi müzakirə edilərək bəyanat qəbul edildi. Bəyanatda deyilirdi: «Biz ATƏT-in Minsk qrupunun vasitəçilik səylərini dəstəkləyirik. Biz 2006-cı ildə münaqişənin dinc yolla nizamlanmasının vacibliyini vurğulayırıq. Biz Azərbaycanla Ermənistanı siyasi iradə göstərməyə, öz xalqlarını müharibəyə yox, sülhə hazırlamağa çağırırıq» (101). Bir çox digər məqamlarda ol-

duğu kimi bu dəfə də sənəddə kimin təcavüzkar olduğu göstərilmədi.

Zirvə toplantısı ərəfəsində sülh danışıqlarını dəstəkləmək məqsədi ilə Azərbaycan və Ermənistan dövlətlərinin də toplantıya dəvət olunacaqları gözlənilirdi, lakin belə olmadı. ABŞ konqresinin İndiana Ştatını təmsil edən respublikaçı Don Barton belə bir görüşün baş tutmamasını «sülhü irəli aparmaq üçün yaxşı imkanın əldən verildiyi» kimi qiymətləndirdi (137).

Müzakirə olunacaq məsələlərin konfidensial saxlanması barədə razılaşma mövcud olduğu üçün heç vaxt danışıqlardan əvvəl müzakirə ediləcək konkret məsələlər açıqlanmır. Bununla yanaşı, ATƏT-in Daimi Şurasının 22 iyun 2006-cı ildə Vyanada keçirilmiş iclasında Minsk qrupunun həmsədrləri bəyanat verdilər. Bəyanatda həmsədrlərin münaqişənin bütün aspektlərini bir mərhələdə tənzimləməyə cəhd etmədikləri göstərilirdi. Bundan başqa, bəyanatda danışıqlar dövründə ilk dəfə olaraq prezidentlər arasında müzakirə edilən sülh danışıqlarının «prinsiplər paketi» xalqın ixtiyarına verildi.

«Prinsiplər paketi» aşağıdakılardan ibarət idi:

*I prinsip – Laçının və Kəlbəcərin taleyi;*

«Kəlbəcər və Laçın rayonlarına xüsusi yanaşmaqla Ermənistan hərbi kontingentinin Dağlıq Qarabağ ətrafında yerləşən Azərbaycan ərazilərindən mərhələli çıxarılması».

*II prinsip – demilitarizasiya;*

«Həmin rayonların hərbsizləşdirilməsi».

*III prinsip – referendum;*

«Gələcəkdə Dağlıq Qarabağın son hüquqi statusunu müəyyənləşdirmək üçün nə vaxt keçiriləcəyi hələ müəyyənləşdirilməyən referendum, yaxud ümumi səsvermə keçirilməsi nəzərdə tutulub. Tərəflər bu referendumun vaxtını və formasını müəyyənləşdirmək üçün danışıqları davam etdirməyə borcludurlar».





*IV prinsip – Dağlıq Qarabağın müvəqqəti (aralıq) statusu;*

«Dağlıq Qarabağ və beynəlxalq əməkdaşlıq yaradanlar arasında əlaqələri təmin edəcək müəyyən aralıq razılaşmalar əldə olunacaq».

*V prinsip – sülhməramlı qüvvələr;*

«Münaqişə ərazisinə beynəlxalq sülhməramlı qüvvələr yerləşdiriləcək».

*VI prinsip – birgə komissiya;*

«Razılığın reallaşdırılması məsələləri üzrə birgə komissiya yaradılacaq».

*VII prinsip – minalardan təmizləmə;*

«Minadan təmizləmə, bərpa işləri və öz yaşayış yerlərindən köçürülmüş əhalinin keçmişdə işğal olunmuş və Dağlıq Qarabağ müharibəsi zamanı zərər çəkmiş ərazilərə qaytarılması».

*VIII prinsip – gücdən və hədələrdən imtina edilməsi.*

«Tərəflər güc tətbiq etməkdən, yaxud belə hədələrdən imtina edirlər, beynəlxalq və ikitərəfli təhlükəsizliyin təminatına zəmanət verirlər» (24, s.358-359).

Minsk qrupunun həmsədrlərinin təqdim etdikləri «prinsiplər paketi» 2006-cı il mart ayının sonlarında Dartmut konfransının* təklif etdiyi «prinsiplər paketi»nin demək olar ki,

* *Dartmut konfransı SSRİ (hazırda Rusiya) vətəndaşları ilə ABŞ vətəndaşları arasında ən uzunmüddətli ikitərəfli dialoqdur. Dartmut konfransı ilk dəfə 1960-cı ilin oktyabrında ABŞ-ın Dartmut kollecində keçirilmişdi. Sonra növbə ilə gah SSRİ-də, gah da ABŞ-da keçirilirdi. 1981-ci ildə Dartmut konfransının plenar iclasında biri – silahlanma üzərində nəzarət qrupu, digəri – regional münaqişələr üzrə qrup olmaqla iki xüsusi qrup yaratmaq qərarına gəlindi. Bu iki xüsusi qrup iki fövqəl dövlətin əlaqələrini, münasibətlərini, xüsusilə, gərgin olduğu sahələrdə araşdırmaq məqsədi daşıyırdı və*

eynidir. Dartmut konfransı çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinə dair görüşlər müntəzəm keçirilir, lakin bu görüşlər haqqında məlumat verilsə də, ümumilikdə, ictimaiyyət üçün tam açıqlanmır və bir sıra məqamlar gizli saxlanılır. Ermənilər bu görüşləri onunla əhəmiyyətli sayırlar ki, həmin görüşlərdə «Dağlıq Qarabağ respublikası»nın nümayəndələri ictimaiyyət təmsilçisi səviyyəsində olsa da iştirak edirlər. Və onların bu görüşlərdə qeyri-rəsmi iştirakı nümayəndəliyin ekspert-üzvlərinə müəyyən dərəcədə ən kəskin problemləri müzakirə etməyə, hətta bəzi razılıqlar əldə etməyə imkan verir.

Ermənilər Dartmut konfransı çərçivəsində ideya və təkliflərin işlənib hazırlandığını, sonra onların Minsk qrupu həmsədrlərinə təqdim edildiyini bildirirlər və Dartmut konfransını Minsk prosesinin alternativi hesab edirlər. Minsk qrupu formatında ölkə prezidentlərinin və xarici işlər nazirlərinin iştirakı vacib sayılırsa, Dartmut konfransı əksinə, məsələyə ilk əvvəl uzaqdan yanaşmanın tərəfdarıdır. Dartmut konfransı haqqında danışan erməni şərhçi Dağlıq Qarabağ probleminin, həmçinin Dartmut konfransı çərçivəsinə keçirilməsi qərarına gəlindiyini söyləyir və bunun məsələyə ictimaiyyətin öz ölkələrində nüfuz və təsir gücü olan fəal nümayəndələrinin də cəlb edilməsi məqsədi daşıdığını qeyd edir (366).

Dartmut konfransının işçi qrupunun həmsədrləri amerikalı Qarold Sonders və rusiyalı Vitali Naumkin 2006-cı ilin mart ayının sonlarında konflikt regionuna gəldikləri vaxt münaqişənin həlli üçün yeni variant kimi «aralıq status»u təklif etmişdilər (331). Rusiyalı həmsədr V.Naumkin həmin

*ümumi sovet-amerika münasibətlərinin inkişaf dinamikasını dərk etmək üçün xüsusi imkanlar yaradırdı (270). Dartmut konfransı Dağlıq Qarabağ münaqişəsinin də nizamlanmasına çalışır.*





ilin 31 dekabrında Xankəndində görüş zamanı «aralıq status»un «Dağlıq Qarabağ»a müəyyən hüquqi status verəcəyini bildirmişdi. O, həmçinin «Dağlıq Qarabağın de-fakto müstəqil olduğunu, bəzi digər dövlətlərin, o cümlədən Rusiyanın onunla əməkdaşlıq etdiyini», «aralıq status»un isə «Dağlıq Qarabağın damşıqlar prosesində tamhüquqlu tərəf kimi iştirakını təmin edəcəyini, Bakının həmin danışıqlara qoşularaq onun sənədləri imzalaması ilə razılaşacağını» da qeyd etmişdi (359).

«Dağlıq Qarabağ»a «arahq status»u verilərsə sonra ermənilər həmin müvəqqəti statusu daimi statusa çevirməyə cəhd göstərə bilərlər. Xüsusilə də həmin müvvəqəti status zamanı «Dağlıq Qarabağ»ın bütün təşkilatlarla və dövlətlər ilə əlaqələr yarada biləcəyini nəzərə alsaq ermənilərin belə bir addım atacaqlarını gözləmək mümkündür. Dartmut konfransının nümayəndələri danışıqlar prosesində «Dağlıq Qarabağ»ı müstəqil tərəf kimi qəbul edərək onun «rəhbərlər»i ilə müntəzəm görüşlər keçirir, Azərbaycanı isə antierməni mövqe tutaraq münaqişə tərəfləri arasmda əlaqə yaratmağa mane olmaqda günahlandırırlar (359).

Belə nəticəyə gəlmək olar ki, Dartmut konfransı nümayəndələri münaqişənin sülh yolu ilə və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həllindən daha çox «Dağlıq Qarabağ respublikası»nın müstəqil olmasına çalışırlar və onunla əməkdaşlıqda maraqlıdırlar.

Həm Minsk qrupunun həmsədrlərinin 2006-cı il iyul bəyanatından, həm də Dartmut konfransının işçi qrupunun həmin il mart ayının sonunda etdiyi təklifdən daha əvvəl – 2006-cı ilin mart ayının ikinci ongünlüyündə «Vaşinqton post» qəzetində İspaniyanın keçmiş xarici işlər naziri Anna Palasio və

ABŞ Marşall Fondunun* məsləhətçisi Daniel Tvayninqin həmmüəllifliyi ilə dərc edilmiş məqalənin bir hissəsini əhatə etmiş «Zaqafqaziya üçün Marşall planı»nda da yuxarıda danışılan təkliflərin bir qismi öz əksini tapmışdı. Məqalədə göstərilirdi: «Qərb hökumətləri Ermənistanın Azərbaycana məxsus işğal altında olan əyalətləri qaytarmaq və azərbaycanlı qaçqınların geri dönmələrinə icazə verən Razılığı dəstəkləməyə hazırdır. Dağlıq Qarabağ isə yaxın gələcəkdə regionun statusu referendum yolu ilə müəyyənləşdiriləcək müddətədək öz muxtariyyatını qoruyub saxlaya bilər» (340).

Lakin göstərilən məqalədən daha öncə - 2005-ci ilin dekabrında Bakıda Minsk qrupunun həmsədrləri ilə görüşən Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri Nizami Bəhmənov da danışıqların «Qaçqınların geri qaytarılması üçün şərait yaradılmasından: işğal altında olan ərazilərin azad edilməsindən, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları arasında qarşılıqlı inamın güclənməsindən, həmin ərazilərin Azərbaycan tərkibində hüquqi statusunun müəyyənləşməsindən» getdiyini bildirmişdi (369). Bundan başqa, işğal altından azad ediləcək torpaqların ilk mərhələdə təhlükəsizliyi məqsədilə sülhməramlı qoşunların (ərazilərdə müəyyən sayda müşahidəçi yerləşdirməkdən tutmuş, tərəflərin tərkisilah edilməsi və bütün ərazinin hərbsizləşdirilməsinədək) geniş miqyaslı sülhməramlı əməliyyatlar keçirəcəklərinin mümkünlüyü də elə həmin vaxt göstərilmişdi (369).

Bir az daha əvvələ getsək münaqişənin nizamlanması yolunda cəhdlərin lap əvvəldən qismən həmin prinsipləri əhatə etdiyini görərik. «Bişkek protokolu»nda qeyd edilmiş 18

---

* *Marşall fondu (The German Marshall Fund of the United States (GMF)) ictimai Amerkia təşkilatıdır və Almaniya tərəfdən ABŞ-ın Marşall planı çərçivəsində göstərdiyi köməyə minnətdarlıq olaraq 1972-ci ildə yaradılıb. Fond ABŞ və Avropa arasında əməkdaşlığın və anlaşmanın inkişafına xidmət edir (340).*





fevral 1994-cü il protokoluna əsasən də münaqişənin mərhələli həlli nəzərdə tutulurdu. 1993-95-ci illər Azərbaycan Respublikasının müdafiə naziri olmuş Məmmədrəfi Məmmədovun «Zerkalo» qəzetinə verdiyi müsahibədə göstərilirdi ki, Moskvada Rusiyanın müdafiə nazirinin iştirakı ilə keçirilən görüş zamanı gələcək tədbirləri nəzərdə tutan həmin protokola əsasən, ermənilər bir ay müddətində Ağdamı və Füzuli rayonlarını, növbəti üç ay müddətində isə Laçın rayonu istisna olmaqla digər dörd rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı və Zəngilan – *K.R.*) geri qaytarmalı idilər. Bundan sonra tərəflər arasında danışıqlar Şuşa, Laçın rayonlarının qaytarılması və Dağlıq Qarabağın statusu üzrə aparılacaqdı (208).

Bütün bunlar bir daha danışıqların heç bir nəticə verməsə də uzun müddətdən bu yana demək olar ki, eyni məzmunda aparıldığını göstərir.

Həmsədrlərin təqdim etdikləri «prinsiplər paketi»ndə münaqişənin həllində əsas sayılan ən mürəkkəb məsələlər (prezidentlərin də məhz həmin məsələlərdə razılığa gələ bilmədikləri güman edilir) tam aydın şərh edilmədiyi üçün tərəflər təklif edilmiş prinsiplərə fərqli yanaşır və onu öz mənafelərinə uyğun şərh edirlər.

Təklif edilmiş prinsiplərdə həm Ermənistan, həm də Azərbaycan tərəfinin ehtiyat etdiyi məqamlar mövcuddur. Bütün işğal etdiyi ərazilərdən çıxarılması, Laçının isə statussuz bölgəyə çevrilməsi və rayon ərazisində Ermənistanla Dağlıq Qarabağı birləşdirən eni 40 km olan və kimin nəzarət edəcəyi bəlli olmayan dəhliz ayrılması Ermənistanı narahat edir. O ehtiyat edir ki, belə olarsa Dağlıq Qarabağa nəzarət Ermənistanın əlindən çıxar və bundan sonra danışıqlar öz istiqamətini dəyişər (43).

Elə buna görə də Ermənistan Respublikası XİN 26 iyun 2006-cı il tarixdə bəyanat yayaraq amerikalı həmsədr M.Brayzanın nizamlamanın prinsiplərini «qismən açıqladığı-

nı, o cümlədən Ermənistanla Dağlıq Qarabağ arasındakı dəhliz və bölgənin referenduma qədərki aralıq statusu məsələlərinin diqqətdən kənarda qaldığını» bildirdi. Bəyannamədə, həmçinin bölgənin gələcək statusuna dair referendumun «Dağlıq Qarabağ xalqının öz müqəddəratını təyinetmə hüququna əsaslanmalı» olduğu iddia edilir. Sənəddə münaqişənin həll olunmamasında Azərbaycanın məsuliyyət daşıdığı göstərilir və işlər belə gedərsə danışıqlar masası arxasında Ermənistanın deyil, «Dağlıq Qarabağ»ın oturacağı deyilir (90). Bəyannamədə referendum məsələsinin Prezidentlər arasında razılaşdırıldığı, fikir ayrılığının isə Dağlıq Qarabağda silahlı münaqişənin nəticələrinin aradan qaldırılması mərhələlərinə aid olduğu da göstərilir. Bununla yanaşı, Ermənistan Minsk qrupu həmsədrlərinin təqdim etdikləri prinsiplərin danışıqları davam etdirmək üçün ciddi əsas olduğunu və bu əsasda Azərbaycanla danışıqlar aparmağa hazır olduqlarını bəyan etdi.

Ermənilər tərəfindən tənqid atəşinə tutulan Minsk qrupunun amerikalı həmsədri Metyu Brayza isə öz növbəsində bildirdi ki, həmsədrlərin bəyanatı hələ o, həmsədr kimi prosesə qoşulmamışdan əvvəl hazırlanmışdı və 22 iyunda Vyanada həmsədrlər tərəfindən ATƏT-ə təqdim edilmişdi (148). Bununla yanaşı, M.Brayza «Azadlıq» radiosuna müsahibəsi zamanı bu prinsiplərin həmsədrlər tərəfindən son iki il ərzində Dövlət başçılarının birbaşa iştirakı ilə hazırlandığı üçün siyasətçilərə xırdalıqlara getməməyi və hər bəndi şərh etməməyi təklif etdi (223).

Ermənistan Respublikası XİN-in 26 iyun 2006-cı il tarixli bəyanatına cavab olaraq Azərbaycan Respublikası XİN-i Ermənistanı münaqişənin həllində qeyri-konstruktiv mövqe tutmaqda suçlayan 27 iyun 2006-cı il tarixli bəyanat qəbul etdi. Bəyanatda deyilir: «Ermənistan Respublikasının işğalçı qoşunlarının bütün zəbt olunmuş ərazilərdən çıxarılması məsələsi münaqişənin nizama salınmasında həlledici





komponentlərdən biri olaraq Azərbaycan Respublikasının mövqeyini əks etdirir. Statusun müəyyən olunması davam edən işğal və etnik təmizləmə şəraitində mümkün deyil və bu səbəbdən müvafiq beynəlxalq təhlükəsizlik təminatları altında məcburi köçürülmüş Azərbaycan əhalisinin öz daimi yaşayış yerlərinə qayıtmasına şərait yaratmaq üçün Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunması və bütün münaqişə zonasının demilitarizasiyası tələb olunur.

Azərbaycan tərəfi Azərbaycan Respublikasının qüvvədə olan Konstitusiyası və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağa ən yüksək muxtariyyat verilməsinə hazır olduğu barədə mövqeyini bir daha təsdiq edir». Bəyanatda, həmçinin Azərbaycanın ərazi bütövlüyünün danışıqlar mövzusu olmadığı bildirilir və danışıqlar prosesinin pozulacağı təqdirdə bütün məsuliyyətin Ermənistan tərəfinin üzərinə düşəcəyi göstərilir (7).

Azərbaycanla Ermənistan öz aralarında razılığa gəldikləri kimi görünən bəzi vaxtlarda isə Avropa Şurası qarşısında münaqişənin həllini təşviq etmək üçün «Dağlıq Qarabağ»a əhəmiyyətli təsirindən istifadə etmək öhdəliyini götürməsinə baxmayaraq, Ermənistanın (5) diktəsi ilə «Dağlıq Qarabağ respublikası» irəli çıxır və razılaşdırılmış prinsipin «Dağlıq Qarabağ» «xalqı»nın mövqeyinə uyğun olmadığını bəyan edir. Bununla da ermənilər münaqişənin Ermənistanla Azərbaycan arasında deyil, «Dağlıq Qarabağ»la Azərbaycan arasında olduğunu sübut etmək istəyirlər. Məsələn, 1997-ci il oktyabr ayının 10-da Strasburqda Azərbaycan və Ermənistan təklif edilmiş «mərhələli həll» variantını danışıqlara başlamaq üçün əsas kimi qəbul etdiyi və razılığa gəldiyi bir vaxtda «Dağlıq Qarabağ respublikası»nın «prezidenti» A.Qukasyan bu variantın qəbuledilməz olduğunu bildirmişdi. ATƏT-in Minsk qrupunun həmsədrləri də «Dağlıq Qarabağ»ın fikirlərini nəzərə alaraq həmin ilin 2 dekabrında həmin varian-

tı yenidən işləyərək tərəflərə təqdim etmişdilər. Həmin variant «Dağlıq Qarabağ»ın münaqişə tərəfi kimi tanınması təklifini irəli sürürdü. Azərbaycan tərəfi də öz növbəsində buna etiraz edərək razılaşdırılmış variant üzrə danışıqlara hazır olduğunu bildirmişdi. 1998-ci il yanvar ayının 7-8-də Yerevanda Ermənistanın Təhlükəsizlik Şurasının iclasında həmin vaxt baş nazir R.Köçəryanın, müdafiə naziri Vazgen Sarkisyanın, milli təhlükəsizlik və daxili işlər naziri Serj Sarkisyanın, iclasa dəvət edilmiş «Dağlıq Qarabağ respublikasının prezidenti» A.Qukasyanın və «müdafiə naziri» Babayanın prezident L.Ter-Petrosyanı qəbul etdiyi qərara görə tənqid etmələri «Dağlıq Qarabağ» rəhbərlərinin Ermənistanın rəsmi şəxsləri tərəfindən idarə edildiyini bir daha sübut etdi (82).

Dağlıq Qarabağ ermənilərinin daha bir iddiaları isə «Dağlıq Qarabağ»ın «KarabakhOpen» elektron qəzetində 2007-ci ilin yayında ortaya atıldı. Onlar «Qarabağ deyəndə keçmiş DQMV, yoxsa DQMV üstəgəl Şaumyan (Ağcakənd – *K.R.*) rayonu, yaxud Dağlıq Qarabağ respublikası indiki sərhədləri çərçivəsində nəzərdə tutulur?» sualı ilə çıxış etdilər. Onu da əvvəlcədən bildirdilər ki: «Əgər söhbət DQMV sərhədləri çərçivəsində tanınmaqdan gedirsə, onda bu tamamilə bizim maraqlarımız daxilində deyil» (337).

* * *

Buxarest görüşündən sonra Minsk qrupunun həmsədrləri artıq bütün mümkün variantları təklif etdiklərini bildirdikdən sonra, Ermənistan tərəfi də danışıqlarda iştirak etməməyə başlamışdı. Münaqişə 2006-cı ilin sentyabr ayında BMT Baş Məclisinə çıxarıldıqdan sonra ermənilər yenidən danışıqlar masası arxasına qayıtdılar (72). Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşü 12-13 sentyabr 2006-cı ildə Parisdə və Londonda oldu. ATƏT-in Minsk





qrupunun həmsədri Yuri Merzlyakov görüşlərin faydalı keçdiyini, Ermənistan tərəfin may ayında həmsədrlərin tərəflərə təqdim etdikləri sənədlər üzərində işləməyə hazır olduqlarını, Azərbaycan tərəfin isə sənəddə öz qeydlərini etdiklərini və həmsədrlərin həmin qeydləri araşdırdıqlarını bildirdi (322). E.Məmmədyarov və V.Oskanyanın növbəti görüşü oktyabr ayının 6-da həmsədrlər Y.Merzlyakov, B.Fasye və M.Brayzanın iştirakı ilə keçirildi. Hər iki ölkənin xarici işlər nazirləri görüşdən razı qaldıqlarını və görüşün konstruktiv və məhsuldar keçdiyini bildirdilər. Azərbaycanlı nazir bildirdi ki, «Praqa prosesi» çərçivəsində müzakirə edilən məsələlərin yenidən işlənmiş variantları və münaqişənin tənzimlənməsi üçün əsas prinsiplər müzakirə edilib. Əsas prinsiplər razılaşdırılıb, lakin iki razılaşdırılmamış prinsip qalıb ki, onların da üzərində işləyirik. Görüşdən əvvəl nazirlərlə ayrılıqda görüşən Rusiyanın xarici işlər naziri Sergey Lavrov da görüşdən razı qaldığını bildirdi (323). Noyabr ayının 14-də Azərbaycan və Ermənistan xarici işlər nazirləri Brüsseldə görüşdülər. Bu dəfə də danışıqların konstruktiv keçdiyi və tərəflərin əvvəl razılaşdıra bilmədikləri bir sıra məqamların yenidən müzakirə olunduğu bildirildi. Ermənistanın xarici işlər naziri V.Oskanyan müzakirələr zamanı müəyyən uzlaşma məqamlarının göründüyünü bəyan etdi. Minsk qrupunun həmsədrləri baza prinsiplərində dəyişikliklər edildiyi üçün bu görüşdən sonra 28 noyabr 2006-cı ildə ölkə başçılarının görüşünü təşkil etmək qərarına gəldilər. Görüşü təşkil etmək məqsədi ilə rusiyalı və fransalı həmsədrlər noyabr ayının 21-22-də Yeravanda və Bakıda ölkə başçıları ilə görüşdülər (43). Prezident İcra Aparatının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov həmsədrlər tərəfindən konkret təkliflər irəli sürüləcəyi halda Prezidentin bu görüşə razılıq verəcəyini bildirmişdi (72). Görüşə razılıq verildiyi üçün belə qənaətə gəlmək olar ki, konkret təkliflər irəli sürülmüşdü.

2006-cı il noyabr ayının 28-də Minsk şəhərində xarici işlər nazirləri Elmar Məmmədyarovun və Vardan Oskanyanın, həmçinin Rusiya xarici işlər naziri Sergey Lavrovun, ATƏT-in fəaliyyətdə olan sədri Karel de Quxtun, onun şəxsi nümayəndəsi Anji Kaspşikin və Minsk qrupunun rusiyalı həmsədri Yuri Merzlyakovun iştirakı ilə başlamış görüş Dövlət başçılarının təkbətək danışıqları ilə davam etdirildi (382). Minsk qrupunun amerikalı həmsədri M.Brayza və fransalı həmsədr B.Fasye görüşdə iştirak etməyib. Ona görə də görüşün məhz Rusiya tərəfindən təşkil edildiyi söylənilir (79). Görüşdə mübahisəli məsələlər müzakirə edilib. Azərbaycan Respublikasının Dövlət başçısı da son dövr ərzində bir sıra məsələlərin həll olunduğunu, əvvəllər razılaşdırılmamış məsələlərin artıq razılaşdırıldığını və fikirlərin üst-üstə düşmədiyi bəzi prinsipial məsələlərin müzakirə edildiyini bildirib. Beynəlxalq təşkilatların fəaliyyətindən razılığını, onların bu münaqişənin Azərbaycanın ərazi bütövlüyünü qorunub-saxlamaqla həll edilməsinin tərəfdarı olduqlarını və bunun da Azərbaycanın mövqeyini gücləndirdiyini bildirən Dövlət başçısı Azərbaycanın mövqeyinin dəyişməz qaldığını bəyan edib (167; 68). Xarici işlər naziri E.Məmmədyarov da jurnalistlərə müsahibəsində bir ciddi məsələnin qaldığını və onun həll ediləcəyi təqdirdə əsaslı irəliləyiş baş verəcəyini bildirib.

Prezidentlərin görüşündən əvvəl konkret sənədin hazırlandığı bildirilirdi. Həmin sənəddə bəzi dəyişikliklər edilmişdisə də, ümumilikdə, «prinsiplər paketi»ndə nəzərdə tutulmuş bir sıra məqamlar öz əksini tapmışdı. Sənəd aşağıdakıları nəzərdə tuturdu: Ermənistan nəzarəti altında saxladığı Azərbaycan ərazilərindən öz qoşunlarını çıxarır; qaçqınlar öz daimi yaşayış yerlərinə qayıdır; Ermənistan və Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələr düzəlir; münaqişə zonasında sülhməramlı qüvvələr yerləşdirilir; Dağlıq Qarabağ regionuna beynəlxalq iqtisadi yardım göstərilir və «Dağlıq Qarabağ»ın statusuna dair referendum keçirilir. Burada erməni tərəfinin öz qoşunlarını işğal altında olan yeddi rayondan çıxarması nəzərdə tutulurdu. Bunun müqabilində isə Bakı Dağlıq Qarabağı Ermənistanla birləşdirən 40 km-lik dəhliz ayırmalıdır və həmin dəhlizə sülhməramlı qoşunların nəzarət edəcəyi planlaşdırılırdı (238).





Minsk görüşündən sonra Prezidentlər də, Minsk qrupunun həmsədrləri də görüşü Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində əhəmiyyətli hadisə kimi qiymətləndirdilər. Azərbaycan Respublikasının Prezidenti isə Azərbaycanla Ermənistan arasında münaqişənin həlli istiqamətində razılaşdırılmamış bir prinsip qaldığını bildirdi (88).

Həmin il dekabr ayının əvvəllərində ATƏT-in xarici işlər nazirləri Şurasının Brüsseldə 14-cü toplantısı keçirildi. Toplantının yekununda Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bəyanat qəbul edildi. Bəyanatda Minsk qrupunun səyləri və qurumun fəaliyyətdə olan sədrinin dəstəyi ilə tərəflərin münaqişənin həlli üzrə mövqelərinin yaxınlaşmasından razılıq bildirilir və Şura münaqişənin həllinə xüsusi diqqət yetirdiyinə görə «böyük səkkizliy»in liderlərinə xüsusi təşəkkür edilirdi. Bundan başqa, bəyanatda Azərbaycan və Ermənistan tərəflərinə müraciət edilərək 2007-ci ildə münaqişənin tezliklə həll olunması istiqamətində səylərini artırmaları, eyni zamanda, qarşılıqlı inamı möhkəmləndirməkdə və münaqişənin sülh yolu ilə həlli prosesinə müsbət təsir göstərə biləcək ekoloji problemlərin həlli və yanğınların nəticələrinin aradan qaldırılması istiqamətində əməkdaşlıq etmələri tövsiyə edilir (71; 168).

Münaqişının həlli istiqamətində atılmış bütün addımlara və səylərə baxmayaraq «Dağlıq Qarabağ respublikası» 2006-cı il dekabr ayının 10-da «konstitusiya referendumu» keçirmək qərarı verdi.

Ermənistan Respublikasının Prezidenti R.Köçəryan isə 15 dekabr 2006-cı ildə Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində danışıqların Ermənistanda keçiriləcək parlament seçkilərinə qədər – 2007-ci ilin may ayınadək dondurulacağını elan etdi (88). O, nizamlama prosesinin seçkiqabağı əhval-ruhiyyənin girovuna çevrilməsini istəmədiyi üçün belə bir qərar verdiyini və danışıqların, tam fəal olmasa da, davam etdiriləcəyini bildirmişdi (338).

2006-cı ili Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün əlverişli və mümkün sayan və bunun üçün çalışan ATƏT və Minsk qrupu ilin axırında heç olmasa danışıqların dayandırılmayacağına və davam etdiriləcəyinə ümid etdiklərini bildirirdilər. Həmin ildə ATƏT-in fəaliyyətdə olan sədri Karl de Quxtun sədrlik müddəti bitdi və sədrlik səlahiyyətləri İspaniyanın xarici işlər naziri Migel Anxel Moratinosa keçdi. Karl de Quxt həm 2006-cı ilin, həm də öz sədrlik fəaliyyətinin yekununu nikbin ruhda başa vuraraq, münaqişənin 2007-ci ildə həll olunacağına ümid etdiyini və Qarabağ münaqişəsinin həllində əsas tərəqqi əldə edildiyini bildirdi.

2007-ci ilin fevral ayında Yerevanda Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayeri qəbul edən V.Oskanyan 2006-cı ildə münaqişənin həllinə dair son nöqtəyə yaxınlaşan vaxtların çox olduğunu, lakin son anda təxirə salındığını etiraf etmişdi. Danışıqların isə Ermənistanda parlament seçkilərindən sonra bərpa olunacağını, təqdim edilmiş sənədlərin və hər iki dövlətin mövqeyinin 2007-ci ildə nizamlama prosesində bir çox irəliləyişlərin əldə ediləcəyinə, yaxud münaqişənin həll oluna biləcəyinə əsas verdiyini bildirmişdi (92).

Amerikalı həmsədr Metyu Brayza isə belə hesab edir ki, Minsk qrupunun həmsədrləri bir neçə ildir ki, danışıqları münaqişənin nizamlanması prinsipləri əsasında aparırlar və «həmin prinsiplər Dağlıq Qarabağın ümumxalq referendum yolu ilə son statusunun müəyyənləşməsinə kömək edəcək. Bu, həmçinin erməni qüvvələrinin Dağlıq Qarabağ ətrafındakı ərazilərdən başqa yerə köçürülməsi, Dağlıq Qarabağla Ermənistan arasında dəhlizin yaradılması və regionda beynəlxalq sülhməramlı qoşunların yerləşdirilməsi kimi digər mühüm hadisələr fonunda baş verəcək» (218). Azərbaycan və Ermənistan Respublikalarının Prezidentlərinin 2007-ci il 9 iyun tarixində keçiriləcək görüşü ərəfəsində M.Brayza bildirmişdi ki, Yerevan və Bakı Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş rayonların azad edilməsinə dair razılığa gəliblər (332). Belə bir xəbər 2005-ci ilin may ayında Azərbaycan və Ermənistan Respublikalarının Prezidentləri arasında keçirilən görüşdən sonra da yayılmışdı. Həmin rayonların 5+1+1 formulu əsasında, əvvəlcə Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı və Ağdam, sonuncu mərhələdə isə Kəlbəcər və Laçın rayonlarının qaytarılacağı barədə razılığa gəlindiyi deyilirdi. Bunun müqabilində isə Azərbaycan ərazisindən Ermənistana nəqliyyat dəhlizi açılacaqdı və Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi təmin ediləcəkdi. Bundan başqa, Azərbaycan Türkiyə-Ermənistan sərhəddinin açılmasına da razılıq verməyə hazır olduğunu bildirmişdi (283).

2007-ci ilin oktyabr ayının sonlarında Minsk qrupunun həmsədrləri əvvəlcə Ermənistana, sonra isə Azərbaycana səfər etdilər. Oktyabr ayının 26-da Bakıya səfər zamanı amerikalı həmsədr Metyu Brayza Ermənistandakı prezident seçkilərinə qədər münaqişə tərəflərinin dövlət başçıları arasında centlmen sazişi imzalana biləcəyi haqqında məlumat verdi. Onun sözlərinə görə, həmsədrlər Ermənistanda olarkən, prezident Robert Köçəryan seçkilərə qədər belə bir imkanın mövcud olduğunu istisna etməyib. M.Brayza bunu belə şərh edib: "Mən bununla bağlı prezident Robert Köçəryana sual verdim. Və o dedi ki, nəsə razılaşdırmaq imkanı var. Misal üçün seçkilərə qədər centlmen sazişi imzalana bilər. Amma

əlbəttə ki, bu bütün prosesin sonu demək olmayacaq. Çünki bu sadəcə çərçivə sazişi ola bilər. Prezident dedi ki, hələ də ciddi müzakirə olunacaq məsələlər var. Amma seçkilərə qədər centlmen sazişin imzalanması mümkündür. Bu o deməkdir ki, prezidentlər arasında razılıq əldə olunsun və Ermənistanda yeni seçiləcək prezident də bunu dəstəkləsin" (80).

Bundan sonra 2007-ci il noyabr ayının sonunda Madrid şəhərində ATƏT-in üzv dövlətlərinin Xarici İşlər Nazirləri Şurasının 15-ci iclası keçirildi. İclas çərçivəsində noyabr ayının 29-da Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarov və Ermənistan xarici işlər naziri V.Oskanyan görüşdü. Görüş vaxtı Minsk qrupunun amerikalı həmsədri Metyu Brayza, Rusiya xarici işlər naziri S.Lavrov və ABŞ Dövlət katibinin beynəlxalq məsələlər üzrə köməkçisi Nikolas Berns nazirlərə münaqişənin nizamlanmasına dair təkliflər paketi təqdim etdilər. Həmin sənəd münaqişənin nizamlanmasına dair son sənəd kimi nəzərdə tutulmayıb. Sənəddə 2004-cü ildən sənəd təqdim edilən günədək aparılan danışıqlar zamanı müzakirə edilmiş və tərəflərin razılığa gələ bilmədikləri baza prinsiplərinin güzəştli ortaq variantları 10 təklifdə, 2,5 səhifədə ümumiləşdirilib.

Minsk qrupu həmsədrlərinin Madrid görüşünə dair bəyanatında göstərilir ki: «Tərəflərə təqdim edilən baza prinsipləri haqqında sənəd Moskva, Vaşinqton, Paris və ATƏT tərəfindən nizamlanma üçün həyat qabiliyyətli təməl kimi qəbul olunur». ABŞ Dövlət Departamenti də Madrid danışıqlarına dair 30 noyabr 2007-ci il tarixli bəyanatında Minsk qrupunun təqdim etdiyi təklifləri dəstəklədiyini bildirir, Azərbaycanı və Ermənistanı danışıqların indiki mərhələsini yekunlaşdıraraq «Böyük sülh planı layihəsi»nin hazırlanmasına başlamağa çağırır (114).

2008-ci ildə tərəflərin danışıqları həmin təkliflər əsasında aparacağı mümkündür. Azərbaycanın xarici işlər naziri





E.Məmmədyarov «Trend» agentliyinə müsahibəsində qeyd edib ki: «Təkliflər hər iki ölkədə keçiriləcək prezident seçkilərindən sonra danışıqların gələcəkdə davamlılığını təmin etmək məqsədi ilə yazılı tərtib olunub» (42).

Ermənistanın xarici işlər naziri V.Oskanyan isə bildirir ki: «Həmsədrlərin bu cür tələsməsinin əsas səbəblərindən biri odur ki, danışıqları aparan şəxslərdən biri dəyişə bilər. Növbəti prezident isə öz hüququndan istifadə edə bilər ki, bu sənədi qəbul etmir. Ona görə də həmsədrlər çalışırlar ki, yeni şəxsin əldə edilmiş razılaşmadan geri çəkilməsi çətin olsun». Bununla yanaşı, o, danışıqların həmin baza əsasında davam etdiriləcəyinə inandığını da qeyd edib (89).

* * *

İki ən güclü dövlətdən biri olan, sarsılmaz və dünyaya meydan oxuyan SSRİ-nin dağılmasında (133) və «soyuq müharibə»nin bitməsində (378, s.231) xüsusi rolu olan bir təşkilatın – ATƏT-in Ermənistan-Azərbaycan münaqişəsinin həllində bu qədər aciz görünməsi bir qədər təəccüblüdür. Ermənistanın etirazlarına baxmayaraq, indiyədək ATƏT beynəlxalq hüquq və prinsipləri əsas götürərək adı çəkilən münaqişəni öz səlahiyyətləri daxilində çoxdan ədalətli həll etmək imkanına malik idi və hələ də malikdir. Hətta ATƏT çərçivəsində bütün qərarların konsensus yolu ilə qəbul edilməsi də münaqişənin həllinə mane ola bilməzdi. Çünki münaqişəni ədalətli həll etmək üçün ATƏT-in «konsensus minus 2» adlanan variantdan istifadə etmək hüququ var. Bundan başqa, 1992-ci ildə ATƏM-in Nazirlər Şurasının iclasında qəbul olunan qərara görə insan hüquqları və əsas azadlıqları məsələsi ilə bağlı hər hansı iştirakçı dövlət tərəfindən təşkilat üzrə öhdəliklərin kobud şəkildə nümayişkaranə və aradan qaldırılması mümkün olmayan pozuntusuna yol verildiyi halda həmin dövlətin razılığı olmadan da müvafiq qərar qəbul oluna

bilər (170 s.333). Bundan başqa, ATƏT-in fəaliyyətdə olan sədri konsensus olmadan da müəyyən qərarları qəbul etdirmək hüququna malikdir (97, s.49).

Qarabağ Azadlıq Hərəkatının rəhbəri Akif Nağı isə belə hesab edir ki: «təcavüzün nəticələrinin aradan qaldırılması ilə bağlı məsələnin ATƏT-in ixtiyarına verilməsi, ümumiyyətlə, düzgün addım olmamışdır. Çünki ATƏT-in fəaliyyətində yalnız insan haqları, milli azlıqların hüquqları, mətbuat azadlığı kimi məsələlər prioritet təşkil edir. Buna görə də ATƏT və onun nəzdində yaradılmış Minsk qrupu işğal faktı və onun nəticələrinin aradan qaldırılmasına deyil, Dağlıq Qarabağdakı erməni etnik azlığının, daha doğrusu, Ermənistanın işğal alətinə çevrilmiş bir ovuc separatçının hüquqlarını müdafiə etməyə üstünlük vermişdir» (36).

Ermənistan XİN-in 2006-cı il üçün ölkənin xarici siyasətinə dair hesabatında göstərilir ki, 2006-cı ilin yazında Belçika hökuməti ölkə parlamentinə baxılmaq üçün ölkənin cinayət məcəlləsinə əlavələr edilməsi haqqında qanun layihəsi təqdim etmişdi. Həmin layihə II Dünya müharibəsi dövründə sosial-demokrat partiyası tərəfindən soyqırım törədilməsi və ermənilərə qarşı soyqırım faktını inkar edənlərin məsuliyyət daşıyacağını təsdiq edirdi (276). Qeyd etmək lazımdır ki, Belçika hökumətinin belə bir ermənipərəst qərarı Belçika xarici işlər naziri Karel de Quxtun ATƏT-ə sədrlik etdiyi bir vaxtda təsadüf edirdi.

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov 2006-cı il dekabr ayının əvvəlində ATƏT-in üzv dövlətlərinin xarici işlər nazirlərinin 14-cü toplantısında bildirmişdi ki, ATƏT-in qəbul etdiyi qərarları icra edə bilməməsi quruma olan etimadı ciddi şəkildə azaldır və onun qlobal arenada olan mövqeyinə mənfi təsir edir (71).

Minsk qrupunun da fəaliyyətinin nəticəsiz qalması Azərbaycanın rəsmi dairələri tərəfindən dəfələrlə vurğulanıb.





2005-ci ilin fevralında Rusiya səfərindən əvvəl Bakıda «Независимая газета»ya müsahibə verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın Minsk qrupunun fəaliyyətindən narazı olduğunu və həmsədrlərin dəyişdirilməsinin tərəfdarı olduğunu bildirmişdi (316). Lakin 2007-ci ilin sentyabr ayında Litva mətbuatına müsahibə verən Dövlət başçısı Minsk qrupunun həmsədrlərinə nisbətən fərqli münasibət göstərərək bildirdi ki: «Nəticə olmadığına baxmayaraq, mən Minsk qrupu və onun həmsədrləri barədə heç bir pis fikir söyləyə bilmərəm. Onlar çox yaradıcı şəkildə işləyir, həqiqətən mövqeləri yaxınlaşdırmağa, çox çətinliklə razılaşdırıla biləcək bəndləri razılaşdırmağa çalışırlar. Həmsədrlər mövcud prinsiplər əsasında mövqeləri bir növ yaxınlaşdırmağa cəhd göstərdikləri bir vaxtda, onların fəaliyyətini dəstəkləmək lazımdır. İndiki halda əgər Ermənistan tərəfi konstruktivlik nümayiş etdirərsə, sağlam düşüncənin səsinə və Minsk Qrupunun təkliflərinə qulaq asarsa, münaqişə həll oluna bilər» (67).

Prezident İcra Aparatının beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov da 2006-cı ilin sentyabr ayında AzərTAc-a müsahibəsində ATƏT-in dünyada beynəlxalq hüququ, dövlətlərarası münasibətləri formalaşdıran ölkələrdən ibarət bir qurum olduğunu, lakin Minsk qrupunu təmsil edən dövlətlərin isə beynəlxalq hüquqa söykənən mövqe göstərmədiklərini bildirmişdi (59). Azərbaycan Respublikasının Müdafiə naziri Səfər Əbiyev 2 oktyabr 2006-cı il tarixdə Minsk qrupunun amerikalı həmsədri Metyu Brayza ilə görüşündə qrupun fəaliyyətindən narazılıq bildirmişdi (147).

Minsk qrupunun həmsədrləri özləri də fəaliyyətlərinin gözlənilən nəticə vermədiyini etiraf etməli olublar. 2007-ci il iyun ayının 6-da Minsk qrupunun həmsədrlərinin Rusiyanın Azərbaycandakı səfirliyində keçirdikləri mətbuat konfransı zamanı fransalı həmsədr B.Fasye bildirdi ki, bu illər ərzində

tərəflər münaqişənin həllinə yaxınlaşmamışlar. Lakin münaqişənin həlli üçün bazanın formalaşdırılması prosesi getmişdir. Yerində saymaq isə ictimaiyyətin vasitəçilərə etimadını zəifləmişdir (181).

Minsk qrupunun vasitəçilik fəaliyyətlərinin bir nəticə verməsi üçün isə ilk növbədə həmsədr dövlətlərin öz aralarında münasibət və mövqeləri əsas rol oynayır. Çünki Ermənistan-Azərbaycan münaqişəsinin Minsk qrupu (ATƏT) çərçivəsində həlli heç də münaqişənin nizamlanması prosesində bir subyektin iştirakı demək deyil. Burada münaqişə tərəflərindən başqa, ən azı dörd tərəf – ATƏT (bütün üzv-dövlətləri, o cümlədən Minsk qrupu dövlətləri ilə birlikdə), ABŞ, Rusiya və Fransa iştirak edir. İştirakçıların sayının çox, mövqeyinin müxtəlif olması isə vəziyyəti sadələşdirmir, əksinə mürəkkəbləşdirir və nəticələri gözlənilməz edir.

Minsk qrupunun həmsədrlərinin fikri nümayəndəsi olduqları dövlətin mövqeyi ilə üst-üstə düşməyə bilər. Lakin onlar hər halda nümayəndəsi olduqları dövlətin maraqlarını təmsil edirlər və onların fikirləri dövlətin mövqeyini əks etdirir.

Həmsədr dövlətlər hərəsi ayrılıqda bir nüfuzlu təşkilatın yaradıcılarından olmaqla onun üzvüdürlər: ABŞ – NATO-nun, Fransa – Avropa İttifaqının (Aİ), Rusiya – Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT). Bundan başqa, hər dövlət özü ayrılıqda nüfuz sahibidir və üzvü olduğu təşkilatda sözü keçərlidir, lazım gəldikdə isə ayrılıqda öz sözünü demək iqtidarındadır.

ABŞ-ı daha güclü edən odur ki, onun (ABŞ-ın) Təhlükəsizlik konsepsiyasında ölkəsinin təhlükəsizlik maraqları dairəsi elan etdiyi bir çox regionlara BMT TŞ-nın razılığı olmadan da silahlı qüvvələr yeritmək hüququ nəzərdə tutulur (133). ABŞ çox vaxt beynəlxalq təşkilatları, o cümlədən BMT-ni Amerikanın hərəkət azadlığına manea kimi görür (373).





Avropa İttifaqını isə daha güclü edən odur ki, ikisi BMT TŞ-nın daimi üzvü olmaqla (Fransa, İngiltərə) Avropanın üç ən nüfuzlu dövləti (Fransa, İngiltərə, Almaniya) təşkilatın üzvüdür.

Rusiya isə onunla güclüdür ki, ərazisinə görə dünyanın ən böyük dövləti olmaqla yanaşı postsovet məkanında yerləşən bəzi dövlətlər və böyük dövlətlər tərəfindən təcrid edilmiş ölkələr onu özlərinin himayədarı olaraq görürlər. Bundan başqa, Rusiya böyük enerji ehtiyatlarına sahib olan ölkədir və Avropanın enerjiyə olan tələbatının çox hissəsini ödəyir.

Hər üç dövləti birləşdirən və daha nüfuzlu edən onların BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmalarıdır. Onlar TŞ-da baxılması mümkün olan bütün məsələlərə dair qəbul edilə biləcək bütün qərarlara veto qoymaq hüququna malikdirlər və bir veto qərarın qəbul edilməməsi deməkdir. Həmin səbəbə görə Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə hər üç dövlətin mövqeyi üst-üstə düşməlidir ki, onun TŞ-ya çıxarılacağı halda hər hansı qərarın qəbul edilməsi zamanı heç bir fikir ayrılığı və narazılıq meydana çıxmasın. Tərəflər razılığa gəlmək üçün münaqişənin TŞ-ya çıxarılmasını gözləməkdənsə, elə Minsk qrupu çərçivəsində razılığa gələ bilərlər.

Minsk qrupunun həmsədr dövlətlərinin isə həm öz aralarında, həm də münaqişəyə münasibətlərində ziddiyyətlər mövcuddur. Həmin ziddiyyətlərdən biri də 2006-cı ildə GUAM ölkələri «dondurulmuş münaqişələr»i BMT Baş Məclisinin 61-ci sessiyasına çıxarılması təşəbbüsü* ilə müraciət edərkən müşahidə olundu. ABŞ bu təklifin lehinə, Rusiya əleyhinə səs verdi, Fransa isə bitərəf mövqe tutdu. Minsk qrupunun həmsədrləri də bununla bağlı öz dövlətlərinin mövqeyindən çıxış edərək fərqli fikirlər bildirdilər.

---

* *Bu barədə fəsil 5-də məlumat verilir.*

Amerikalı həmsədr Metyu Brayzanın fikrincə, münaqişənin ATƏT çərçivəsində həlli ən tarazlaşdırılmış və ölçülüb-biçilmiş həll ola bilər. Bununla yanaşı, Minsk qrupunun işini gücləndirən hər hansı fəaliyyət razılığın əldə edilməsində yardım edə bilər. GUAM ölkələrinin «dondurulmuş münaqişələr»i BMT Baş Məclisinə çıxarılması təşəbbüsünün də öz növbəsində Ermənistan-Azərbaycan münaqişəsinin nizamlama prosesinə müsbət təsir göstərməsi mümkündür. Bunu amerikalı həmsədr Bakıda jurnalistlərə müsahibə verərkən bildirmişdi (318).

Rusiyalı həmsədr Yuri Merzlyakovun isə mövqeyi tam başqadır. O, «Arminfo» agentliyinin müxbirinə, bu məsələnin BMT BM-ə çıxarılmasının heç bir nəticə verməyəcəyini və Rusiyanın lap əvvəldən BM-in bu məsələni müzakirəyə çıxarmaq cəhdlərinin əleyhinə çıxış etdiyini bildirib. O, həmçinin qeyd edib ki, Ermənistan-Azərbaycan münaqişəsinin formatı «Böyük səkkizliy»in 2006-cı il sammitində bəyənilib və məsələnin BM-ə çıxarılması münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin bütün mövcud nizamlama formatlarını pozur (322). Məsələ 2007-ci ildə BMT BM-in 62-ci sessiyasına çıxarılanda da o, bir daha bunun əleyhinə olduğunu və münaqişənin ATƏT çərçivəsində həllinin tərəfdarı olduğunu bildirdi.

Həmin sessiya çərçivəsində 2008-ci ilin mart ayında keçirilən BMT Baş Məclisinin geniş iclası zamanı Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətlə bağlı qətnamə layihəsi qəbul edilərkən isə həmsədr dövlətlər fərqli mövqe və həmrəylik nümayiş etdirdilər. Qətnamə layihəsinin əleyhinə səs verən çox az (7 ölkə) dövlət arasında həmsədr dövlətlər də vardı. İclasdan əvvəl Metyu Brayza ABŞ-ın Dövlət Departamentində AzərTAc-ın müxbirinə müsahibəsində bildirmişdi: «Ümid edirik ki, Azərbaycan qətnaməni BMT-nin müzakirəsinə çıxarmayacaq, danışıqların aparılması üçün bizə bir az





da vaxt verəcək. Lakin qətnamə müzakirəyə çıxarılsa, ümidimiz budur ki, layihə son illər ərzində Ermənistana və Azərbaycana təklif etdiyimiz tarazlı və fikrimizcə, ədalətli əsas prinsipləri əks etdirəcəkdir. Biz sülh prosesinə təkan verəcək hər hansı qətnaməni dəstəkləməyə hazırıq və ümid edirik ki, masa üstündə olan qətnamə layihəsi məhz bu məqsədə xidmət edəcəkdir» (150).

Səsvermə zamanı hər üç həmsədr dövlətin Azərbaycanın ərazi bütövlüyü prinsipini özündə əks etdirən qətnaməyə qarşı çıxması rəsmi Bakının, eləcə də ölkə ictimaiyyətinin kəskin tənqidinə səbəb oldu. Xarici işlər nazirinin müavini və Prezidentin xüsusi nümayəndəsi Araz Əzimov həmsədrlərin bu addımını onların münaqişəni öz inhisarına almaq istəyindən irəli gəldiyini bəyan etdi (77). Rəsmi Bakı Minsk qrupunun hazırki formatda öz effektini itirdiyini, həmsədr dövlətlərlərlə münasibətlərə yenidən baxılacağını və dəyişikliklər ediləcəyini bildirdi.

Həmsədr dövlətlər isə onların vasitəçilik missiyasına qarşı ciddi narazılığın yarandığı üçün öz mövqelərini əsaslandırmağa çalışırlar. Bununla bağlı Minsk qrupunun həmsədrləri 18 mart 2008-ci ildə bəyanat yayaraq bildirdilər ki, Minsk qrupuna daxil olan ölkələrin BMT Baş Məclisinin qətnaməsinin əleyhinə səs vermələri onların Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alması və Dağlıq Qarabağın müstəqilliyinin tanınması mənasını daşımır. Həmsədrlərin sözlərinə görə Madrid görüşündə münaqişənin sülh yolu ilə həllinə dair təklif edilmiş baza prinsiplərinə əsasən «Tərəflər razılığa gəliblər ki, bütün detallar yalnız hər iki tərəfin razılığından sonra qüvvəyə minə bilər. Həmin prinsiplər hələ də danışıqlar prosesində müzakirə obyekti olaraq qalır. Amma BMT Baş Assambleyası tərəfindən qəbul olunan bu qətnamə layihəsi yalnız bir tərəfin maraqlarından çıxış edir və Minsk qrupu həmsədrlərinin balanslaşdırılmış ərazi bütövlüyü təkli-

fini nəzərə almır. Minsk Qrupuna həmsədr olan ölkələr bu qətnamə layihəsini qənaətbəxş saymadığına və ayrı-seçkilik kimi qiymətləndirdiyinə görə bu birtərəfli qətnamənin əleyhinə çıxıblar» (106).

Əgər Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan münaqişəsinin, özləri dedikləri kimi, həllində maraqlı olsaydılar, öz səlahiyyətləri daxilində münaqişənin həllinə nail ola bilərdilər. Ən azı beynəlxalq hüquq və prinsiplərə əsaslanaraq münaqişədə kimin haqlı, kimin haqsız olduğunu dəqiq göstərə və münaqişənin ədalətli həlli yolunu müəyyənləşdirə bilərdilər. Minsk qrupunun həmsədrləri, xüsusilə də ABŞ və Rusiya Ermənistan-Azərbaycan münaqişəsinə daha çox özlərinin bir-birinə qarşı olan mövqelərindən və münasibətlərindən asılı olaraq yanaşırlar, onsuz da o qədər də yaxşı olmayan münasibətlərini bir az da korlamaq istəmirlər. Həmsədr dövlətlər, əslində, öz maraqlarına xidmət edirlər və münaqişənin həlli bir dövlət olaraq onların qarşısında əsas vəzifə deyil. Və münaqişənin mövcud vəziyyəti hər iki dövlətin özünün regiondakı hazırki mövqeyini qoruyub saxlamasına imkan verir. Münaqişənin hər hansı şəkildə həlli isə iki dövlətdən birinin mənafeyinə uyğun gəlməyə bilər. Bəlkə də elə əsas bu səbəbdəndir ki, münaqişə hələ də həll olunmamış qalır.

Onu da qeyd etmək lazımdır ki, Minsk qrupunun həmsədr dövlətlərinin heç biri hələ indiyədək Ermənistanı təcavüzkar dövlət kimi tanımasa da «Dağlıq Qarabağ»ın «müstəqilliy»ini də tanımayıb. Bununla yanaşı, hər üç həmsədr dövlətdə – ABŞ-da, Rusiyada və Fransada «Dağlıq Qarabağ respublikasınm» nümayəndəliyi fəaliyyət göstərir (346).

Həmsədr dövlətlər Ermənistanı təcavüzkar kimi tanımasalar da fransalı həmsədr Bernar Fasye 22 fevral 2006-cı il tarixdə Brüsseldə Avropa Parlamentinin iqamətgahında Azərbaycan Respublikası Xarici Əlaqələr Komitəsinin nümayəndə heyəti tərəfindən təşkil olunmuş «Qonşuluğumuzda





sabitlik və demokratikləşdirmənin təmin olunması: Aİ Cənubi Qafqazda nə kimi rol oynaya bilər» mövzusunda dinləmələr keçirilən zaman çıxış edərək Ermənistanın Azərbaycana məxsus Dağlıq Qarabağ bölgəsini və onun ətrafındakı 7 rayonu işğal edərək həmin ərazilərə nəzarət etdiyini bildirmişdi. O, həmçinin qeyd etmişdi ki, Avropa Şurasının üzvü olan bir dövlətin təşkilatın üzvü olan digər dövlətin ərazilərini işğal etməsi yolverilməzdir və Ermənistan öz qoşunlarını Azərbaycanın ərazilərindən çıxarmalıdır (61).

Ermənistan kütləvi informasiya vasitələrinin verdiyi məlumatda isə göstərilir: 2007-ci il iyun ayının əvvəllərində Minsk qrupunun regiona səfəri çərçivəsində rusiyalı həmsədr Yuri Merzlyakov Yerevan şəhərində olarkən bildirib: «Bu gün Dağlıq Qarabağ beynəlxalq səviyyədə müstəqil dövlət olaraq tanınmayıb. Bizim ölkəmiz də onun müstəqilliyini tanımayıb və Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Lakin bu o demək deyil ki, biz Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyırıq». Merzlyakovun bu bəyanatı müqabilində Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vasili İstratov izahat verməli oldu. O bildirdi: «Təsdiq edə bilərəm ki, rusiyalı həmsədr belə sözlər deməyib. Rusiyanın isə Azərbaycanın ərazi bütövlüyünə mövqeyi yaxşı məlumdur və bu, Rusiya-Azərbaycan arasında bağlanmış ikitərəfli sənədlərdən başlayaraq bir sıra digər sənədlərdə də öz əksini tapıb. Həmin mövqe dəyişməz olaraq qalır» (371). Qeyd etmək lazımdır ki, 2004-cü ilin iyul ayında da Y.Merzlyakov buna bənzər fikirlər söyləmişdi. Bakıda jurnalistlərin suallarına cavab verən rusiyalı həmsədr bildirmişdi: «Erməni qoşunlarının Dağlıq Qarabağ ərazisindən çıxarılması erməni qoşunlarınm Azərbaycan ərazisindən çıxarılması demək deyil. Məncə, bunlar ayrı-ayrı şeylərdir. Bir var Azərbaycan rayonları, bir var Dağlıq Qarabağ» (372).

Cənubi Qafqaz regionunda Rusiya və ABŞ öz mövqelərini daha çox möhkəmlətməyə nail olduqları üçün Minsk qrupunun tərkibində də bu iki dövlətdən olan həmsədrin fəaliyyəti Fransalı həmsədrin fəaliyyətindən daha qabarıq nəzərə çarpır. Qeyd etmək lazımdır ki, ABŞ-la Rusiya arasında bir sıra məsələlərdə ziddiyətlər mövcuddur: 1 - Rusiyadan fərqli olaraq Buş adminstrasiyası GUAM təşkilatını (307, s.322), o cümlədən Gürcüstan və Ukraynada baş verən dəyişiklikləri dəstəkləyir, Rusiyanın Ukrayna və Gürcüstana qarşı münasibətini bəyənmir (403); 2 - Rusiyanın postsovet respublikalarında yürütdüyü siyasəti və Rusiyanın öz daxili siyasətini pisləyir və həmişə öz narazılığını bildirir (403); 3 – Kosovo məsələsi ilə bağlı mövqeləri fərqlidir; 4 - İranın nüvə proqramına dair razılığa gələ bilmirlər; 5 – Rusiya ABŞ-ın Avropada raket əleyhinə sistem yerləşdirməsinin əleyhinədir və s.

Onu da qeyd etmək lazımdır ki, ABŞ və Rusiya arasında ATƏT daxilində də ziddiyyətlər mövcuddur. ABŞ bildirir ki, Rusiya ATƏT-də elə şəkildə islahatların aparılmasının tərəfdarıdır ki, həmin islahatlar nəticəsində postsovet məkanında gedən demokratik proseslərin qarşısında sədd çəkilsin. Rusiya da öz növbəsində ABŞ-ı təşkilatı tam öz nəzarəti altına salmaq cəhdlərinə görə ittiham edir (310).

ABŞ və Rusiya arasında ziddiyyətlərin daha da kəskinləşməsi isə münaqişənin həllinə kömək etməyəcək. Əksinə münaqişənin həlli üçün ABŞ və Rusiya arasında münasibətlər normallaşmalı və onlar münaqişə ilə bağlı öz aralarında razılığa gəlməlidirlər.

Rusiyanın ATƏT-lə də münasibətləri o qədər qənaətbəxş deyil. Rusiya ATƏT-in yaradılması ideyasının Moskvada yarandığını* xüsusi qeyd edir və indi də təşkilatın daha çox onunla hesablaşmasına çalışır. Həmin səbəbdəndir ki, təşkilat yarandığı zaman Helsinki yekun Aktında üç istiqamətin – hərbi-siyasi, iqtisadi və humanitar sahələrin əsas götürüldüyünü, zaman keçdikcə isə həmin sahələr arasında balansın pozulduğunu, humanitar istiqamətin üstünlük təşkil etdiyini bildirən Rusiya ATƏT-də islahatlar aparılmasını vacib sayır. Bundan başqa, Rusiya ATƏT-i öz fəaliyyətini yalnız postsovet və keçmiş Yuqoslaviya məkanlarına yönəltməkdə, digər regionlarınsa onun diqqətindən kənarda qalmasında suçlayır. 2006-cı ilin 5-6 dekabrında Brüsseldə ATƏT-in üzv dövlətlərinin xarici işlər nazirlərinin yığıncağında Rusiyanın xarici işlər naziri S.Lavrov təşkilatı yenidən yuxarıda göstərilən səbəblərə görə tənqid etdi və Rusiyanın təşkilatı tərk edə biləcəyinə eyham vurdu. O, ATƏT-in əvvəlcədən nəzərdə tutulmuş istiqamətlərdə fəaliyyətini bərpa etməyə, yaxud da sırf humanitar məsələlərlə məşğul olacaq təşkilat yaratmağı məsləhət gördü. Belə olarsa hər dövlət özü belə təşkilata üzv olmaq, yaxud olmamaq haqqında qərar verər (254). ATƏT-in rəhbərliyi də öz növbəsində Rusiyanı 1999-cü il İstanbul sammitinin şərtlərinə əməl etməməkdə, hərbi bazalarını Gürcüstan və Moldovadan vaxtında çıxarmamaqda ittiham edir. ATƏT və Rusiya münasibətlərində də heç bir tərəf güzəştə getmək istəmir (168).

Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin lap əvvəlindən Ermənistanı dəstəkləyir və ermənipərəst mövqe tutur. SSRİ-nin süqutundan sonra isə Rusiya Cənubi Qafqazda nüfuzunun itməsi və regionun onun nəzarətindən çıxması təhlükəsi ilə üzləşdiyi bir vaxtda son variant kimi Ermənistanda öz mövqeyini qoruyub saxlaya bilmişdi. Bu vaxt Rusi-

* *Qeyd etmək lazımdır ki, ATƏT Varşava Müqaviləsi Təşkilatının təşəbbüsü ilə yaradılıb.*

yanın Ermənistan-Azərbaycan münaqişəsində Ermənistanı dəstəkləməsi böyük rol oynadı. Ermənistan da öz növbəsində arxalanacaq bir dövlətə ehtiyacı olduğu üçün Rusiya ilə əməkdaşlığını qoruyub saxladı.

Rusiyanın Ermənistandakı ilk səfiri Vladimir Stupişin elə həmin dövrdə bildirmişdi ki, Ermənistanı özünə müttəfiq respublika olaraq qoruyub saxlamaq, erməni əhalinin ruspərəst dairələrinə mənəvi-siyasi dəstək vermək, Ermənistanda rus ruhunu qoruyub-saxlamaq, iqtisadi və elmi-texniki əlaqələrin bərpa və inkişaf etdirilməsi, rus-erməni münasibətləri üçün geniş müqavilə-hüquqi əsasın yaradılması, ölkələr arasında xarici siyasi əməkdaşlığın başlanması, həmçinin tədbirlərin koordinasiyası və MDB çərçivəsində kooperasiya Rusiyanın uzunmüddətli milli maraqlarına cavab verir. O özünün səfirlik fəaliyyətinin ilk günlərində Rusiya rəhbərliyinə ünvanladığı məlumatında yazırdı: «Rusiyanın öz dövlət maraqları haqqında düşünməsi pis olmazdı. Azərbaycanı Türkiyə və islamçılıq meyllərindən döndərmək mümkün olmayacaq, Ermənistanı isə əldən verə bilərik və belə olarsa regiondakı vəziyyətə ümumiyyətlə hər hansı təsir vasitəsindən məhrum ola bilərik» (386). V.Stupişin bundan başqa belə hesab edirdi ki, Rusiya özünün Azərbaycandan getməsi ilə yaranmış boşluğun Türkiyə və NATO tərəfindən doldurulmasına imkan verməməlidir və Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması isə Rusiyanın Azərbaycana qayıtması üçün ən yaxşı imkandır (386).

Dövlətlər arasında bir çox sahələrdə, o cümlədən strateji əməkdaşlıq mövcud olsa da Ermənistan Rusiyanın əlində regionda öz mövqeyini qoruyub saxlamaq üçün bir alətdir. 1998-ci ilin əvvəllərində Fransanın «Mond» qəzetinə müsahibə verən ABŞ strateji və beynəlxalq tədqiqatlar mərkəzinin rəhbəri Zbiqnev Bjezinski Rusiyanın Ermənistandan Azərbaycana təzyiq vasitəsi kimi istifadə etdiyini bildirmişdi. Münaqişənin həll olunmamış qalması isə Rusiyaya Ermənistana təsir etmək imkanı verir.





Rusiya Ermənistanla hərbi və iqtisadi əməkdaşlığını saxlamaq və inkişaf etdirməklə yanaşı, Azərbaycanla da əlaqələrindən vaz keçmək fikrində deyil, əksinə, öz xarici siyasətində və iqtisadiyyatında Azərbaycan üçün yer ayırır (336). Əslində, Rusiya region dövlətləri arasında özünün nisbətən yüksək iqtisadi inkişaf səviyyəsi, stabil siyasi kursu və daxili vəziyyəti ilə seçilən Azərbaycanla əməkdaşlığın onun üçün daha çox maraq kəsb etdiyini bildirir (278). Ermənistanı isə özünün Cənubi Qafqazdakı forpostu hesab edir. Rusiyanın Dövlət Dumasının başçısı Boris Qrızlov da 15 dekabr 2004-cü il tarixdə Ermənistana rəsmi səfəri zamanı həmin vaxt üçün Milli Məclisin sədri olan Artur Baqdasaryanla görüşündə Ermənistanı Rusiyanın forpostu adlandırmışdı (401).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı öz fikrini həmin vaxt belə bildirmişdi: «Biz həmişə Ermənistanı dövlət bilirdik, amma sən demə o, forpost imiş. İndi biz bilmirik danışıqları kiminlə aparmalıyıq, forpostla, yoxsa onun sahibiylə» (401). Ermənistan Prezidenti R.Köçəryan isə bunun cavabında Azərbaycana Ermənistanla Rusiya arasındakı isti münasibətlərdən «narahat» olmamağı məsləhət görmüşdü və Azərbaycana Rusiya ilə analoji münasibət qurmağa heç kimin mane olmadığını bildirmişdi (401). Dövlət başçısı İlham Əliyev, həmçinin onu da qeyd etmişdi ki: «Əgər Ermənistan özünü müstəqil dövlət kimi aparsa, onda biz yaxın vaxtlarda konkret razılaşma imzalamağa nail olarıq» (401). Ermənistan özü də Rusiyanın ona qarşı mövqeyini başa düşür. «Çorrord İşxanutyun» adlı erməni qəzeti yazırdı ki: «Ermənistan Cənubi Qafqazda Rusiyanın yalnız hərbi partnyorudur. İqtisadi cəhətdən isə Rusiya üçün Gürcüstan və Azərbaycan maraq kəsb edir» (209).

GUAM təşkilatının üzv dövlətləri ilə (Azərbaycan istisna olmaqla) soyuq münasibətləri olan Rusiya Ermənistanın həmin dövlətlərlə və NATO ilə əməkdaşlığından narazlıq və narahatlıq keçirir.

2005-ci ilin əvvəllərində Ermənistan Prezidenti R.Köçəryanın Gürcüstana, həmin ilin avqust ayının sonlarında isə Gürcüstan Prezidenti M.Saakaşvilinin Ermənistana qeyri-rəsmi, dostluq səfəri Rusiyanın narahatlığına səbəb olmuşdu. Rusiya Cənubi Qafqazda özünün ən sadiq və yeganə strateji müttəfiqi olan Ermənistanın Qərbə meyl edə biləcəyindən və Gürcüstanın Qərblə Ermənistan arasında vasitəçi olacağından ehtiyat edirdi. Rusiya belə bir addımı özünün regiondakı mövqelərinə ciddi zərbə kimi qiymətləndirirdi. Rusiyanın bu narahatlığına cavab verən Ermənistan Prezidenti bildirmişdi ki, Ermənistan Rusiya Prezidentinin Azərbaycan Prezidenti ilə çox dostlaşdığı haqqında bir söz demir və yəqin ki, heç deməyəcək də. Ermənistan və Gürcüstan Prezidentlərinin görüşü isə ikitərəfli əlaqələrlə bağlıdır və həmin görüş Rusiya-Ermənistan münasibətlərinə heç bir təsir etməyəcək. Gürcüstan politoloqları isə buna cavab olaraq bildirmişdilər ki, Rusiyanın narahatçılığına heç bir səbəb yoxdur. Birincisi ona görə ki, bəlkə Gürcüstan Ermənistanı Avropaya yönəltməyə çalışmayacaq, əksinə Ermənistan Gürcüstanı Rusiyaya yönəldəcək. Belə olsa, onda Rusiyanın regionda maraqları udacaq. İkincisi, ona görə ki, ola bilsin, məhz Saakaşvilinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan münasibətlərində yaxşıya doğru dəyişiklik və irəliləyiş baş verdi (289). Bütün bunlara baxmayaraq, Ermənistan postsovet məkanında Rusiyanın hələ də ən sadiq tərəfdaşı olaraq qalmaqdadır.

Ermənistan və Rusiya arasında mövcud iqtisadi razılaşmalar, Ermənistanın Rusiyaya olan borcu müqabilində demək olar ki, bütün sənaye müəssisələrinin Rusiyanın girovuna çevrilməsi, Azərbaycanla hər an hərbi əməliyyatların bərpa edilə biləcəyi təhlükəsi, Türkiyənin Ermənistanla münasibətlərinin gərgin olması və onu blokadada saxlaması, həmçinin Ermənistanın güclü dövlətlərin himayəsinə ehtiyac duyması, o cümlədən Ermənistanın NATO ilə əməkdaşlıq edəcəyindən doğan narahatlıq Rusiyanın Ermənistandakı mövqelərinin möhkəmlənməsinə və onu özündən asılı vəziyyətdə saxlamasına kömək edir.





Rusiya Ermənistan üçün vacib partnyor olmaqla yanaşı həm də artıq onun himayədarına çevrilib. Lakin Ermənistan regionda ABŞ, Aİ, NATO, ATƏT və s. təsirinin artmasını, Rusiyanın isə nüfuzunun getdikcə daha da azalmasını görüb ondan uzaqlaşmaq, Azərbaycan və Gürcüstan kimi Qərbə inteqrasiya yolunu tutmaq, bununla da ölkənin öz inkişafında və münaqişənin həllində bir nəticə əldə etmənin mümkün olduğunu da dərk edir. Digər tərəfdən isə Rusiyanın himayəsindən imtina etməkdən çəkinir və onunla (Rusiya ilə) münasibətlərinə zərər gətirməkdən çəkindiyi üçün Qərblə münasibətlərini hələ ki, ehtiyatla qurur. Rusiya-Ermənistan münasibətlərində vaxtaşırı meydana çıxan narazılıqlar da Ermənistanı öz mövqeyində dəyişikliklər etməyə və qərb dövlətləri, xüsusilə də ABŞ-la əlaqələr qurmağa vadar edir.

Ermənistan KTMT-nin üzvü olmaqla yanaşı həm də NATO ilə əməkdaşlıq edir. Ermənistan silahlı qüvvələrinin general-mayoru Arkadi Ter-Tadevosyan bunu onunla izah edir ki, Ermənistan xarici əlaqələrini öz milli maraqlarının müdafiəsinin tələb etdiyi şəkildə qurmaq hüququna malikdir və Ermənistan birtərəfli inkişaf edə bilməz (323). 2005-ci ildə 46 nəfər erməni əsgərinin də NATO-nun sülhməramlı dəstələri olan Polşa qoşunlarının tərkibində İraqa göndərilməsi Rusiyanın narazılığına səbəb olmuşdu. Qeyd etmək lazımdır ki, Ermənistan həmin qərarı qəbul edərkən nə Rusiya, nə də üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının digər üzv dövlətləri ilə məsləhətləşməmişdi (216). Rusiyanın

narazılığı haqqında isə A.Ter-Tadevosyan «Новости-Армения» informasiya agentliyinə müsahibəsində bildirib ki: «Ermənistan öz əsgərlərini İraqa göndərməməli idi və bu, haqlı olaraq, Rusiyada neqativ rezonans doğurub» (323).

V.Oskanyan isə 2006-cı il 29 aprel tarixdə Xankəndinə səfəri zamanı komplementar siyasətin Ermənistana daha etibarlı təhlükəsizlik zəmanəti verdiyini bildirib (136). 2007-ci ilin iyun ayında Ermənistan Respublikasının Prezidenti R.Köçəryan NATO-ya daxil olmaqla Ermənistanda təhlükəsizliyin səviyyəsinin düşəcəyini, əlavə və ciddi problemlər yarana biləcəyini bildirib. Daha çox Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə əməkdaşlığa üstünlük verdiyini vurğulayan R.Köçəryan bildirib ki: «Hərbi bloklara qəbul olarkən bir suala cavab tapmaq lazımdır, bu ölkənin təhlükəsizliyini artıracaq, ya yox. Biz hesab edirik ki, təhlükəsizliyin təminatı üçün bugünkü format Ermənistan üçün ən optimal formatdır». Lakin Prezident NATO ilə fərdi əməkdaşlıq planı çərçivəsində əməkdaşlığın davam etdiriləcəyini də qeyd edib (256). Bununla yanaşı, ermənilər belə hesab edirlər ki, bir sıra məsələlərin həllində NATO böyük rol oynaya bilər ki, həmin məsələlərdən biri də Türkiyənin Ermənistanı blokadada saxlaması məsələsidir. Türkiyə NATO-nun üzvü olduğu üçün o, regionun təhlükəsizliyini möhkəmlətmək məqsədi ilə Türkiyəyə həmin blokadanı aradan qaldırmaq göstərişi verə bilər. Bu da öz növbəsində NATO-ya siyasi sahədə öz qüdrətini və bu məsələni sülh yolu ilə həll etmək bacarığını nümayiş etdirmək imkanı verər (282).

Rusiya isə 2006-cı ilin əvvəlində Azərbaycana hərbi-texniki sahədə əməkdaşlıq üzrə dövlətlərarası komissiya yaratmaq təklifi edib (221). Həmin ilin yayında Bakıda səfərdə olan Rusiyanın müdafiə naziri S.İvanov mətbuat konfransı zamanı Rusiya ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlığa işarə edərək bildirmişdi ki: «Beş il əvvəl, yəqin ki, heç





kim Rusiya ilə Azərbaycanın hərbi-texniki sahədə əməkdaşlıq edəcəyini təsəvvür etməzdi. Rusiya indi Azərbaycanı Müdafiə Nazirliyinin maraqları daxilində ciddi hərbi texnika ilə təchiz etməklə məşğuldur» (356). Dekabr ayının 22-də Bakıda «Эхо Москвы» radiosuna müsahibə verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Azərbaycan və Rusiyanın hərbi-texniki sahədə əməkdaşlıq etdiyini bildirdi və qeyd etdi ki, Azərbaycan silahı ücüz, keyfiyyətli və problem az olan yerdən almaq niyyətindədir. «Bizim üçün istehsalçıdan almaq, sonradan üçüncü əldən almaqdan daha yaxşıdır» (69).

Ermənistan isə Rusiya ilə Azərbaycan arasındakı hərbi əməkdaşlıqdan narazıdır. Ermənistanda belə hesab edirlər ki, Ermənistan KTMT-nin üzvü olduğu üçün Rusiyadan özünə qarşı xüsusi münasibət gözləməyə haqqı var. Və Rusiyanın Azərbaycanla hərbi sahədə əməkdaşlığının səviyyəsi Rusiya ilə Ermənistan arasında olan hərbi əməkdaşlıq səviyyəsinə çatmamalıdır (210). Bəzi erməni politoloqlar isə bu fikirdədirlər ki, Cənubi Qafqazın üç dövlətindən təkcə Ermənistanın heç nəyə yaramayan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvü olması regionda parçalanmaya səbəb olur (284, s.50).

Son illər Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsində neytral mövqe tutduğunu deyən ermənilər, Rusiyadan fərqli olaraq, ABŞ-ın tanınmamış respublikaya birbaşa yardım etməsindən və münaqişənin həlli planına referendum keçirilməsinə dair bəndin salınmasına nail olduqlarından məmnunluq bildirirlər (210).

Fransa da Ermənistanın Qərbdəki himayədarı hesab edilir. Onun bütün sahələrdə Ermənistanı dəstəkləməsini, xüsusilə də Fransa Milli Assambleyasının 1915-ci il qondarma erməni soyqırımını inkar edən şəxslərin cəzalanmasını nəzərdə tutan qanun layihəsi qəbul etdiyini nəzərə alsaq, onun da

münaqişədə ermənipərəst mövqe tutduğu fikri yaranır. Bundan başqa, Fransada güclü erməni diasporu fəaliyyət göstərir.

Münaqişənin ədalətli həllinə çalışdığını nümayiş etdirən ABŞ da, əslində, Azərbaycanla əlverişli və əməkdaşlıq etmək mümkün olan sahələrdə əməkdaşlıq edir, bununla da Qafqazda öz mövqeyini möhkəmlətmək və regionun geostrateji mövqeyindən istifadə edərək Avrasiya məkanını öz nəzarətində saxlamaq, Rusiyanın isə regiondakı onsuz da zəifləmiş mövqeyini və nüfuzunu daha da zəiflətməyə çalışır. ABŞ Ermənistanla sıx əməkdaşlıq etməsə də Cənubi Qafqaz regionunda ən çox ona maliyyə yardımı göstərir.

Minsk qrupunun fransalı həmsədri B.Fasye isə münaqişənin Avropa İttifaqı çərçivəsində həll ediləcəyinə inanır. O, 25 yanvar 2007-ci il tarixdə həmsədrlərin Xankəndinə səfəri zamanı müsahibə verərkən bildirmişdi: «Avropa İttifaqı belə məsələləri həll etmək üçün digər vasitələrə malikdir. Məsələn, qonşuluq siyasəti. Aİ nizamlama prosesini həll edə bilər, lakin o danışıqlarda iştirak etmir» (236).

Minsk qrupunun səylərinin nəticəsiz qaldığı üçün Azərbaycan tərəfi, eyni zamanda, digər təşkilatların da bu məsələ ilə məşğul olmasını zəruri saymağa başlayıb. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Bakıda 23 yanvar 2007-ci il tarixdə Fransada çıxan "Fiqaro" qəzetinin redaktor müavini Pyer Ruselinə müsahibə verərkən bildirib: «Bu formatı dəyişmək cəhdi kimi qəbul edilməməlidir, müzakirəni daha da genişləndirmək səyləri ilə bağlıdır. Təbii ki, Ermənistan buna qarşı çıxır, çünki onlar hesab edirlər ki, beynəlxalq təşkilatlar bu münaqişə haqqında nə qədər az məlumatlı olsalar, bu, onların (ermənilərin) xeyrinə olacaqdır. Onlar münaqişənin nəticələri ilə bağlı ictimai rəyi çaşdırmağa çalışırlar. Lakin bu, baş tutmur və hamının bu haqda məlumatı var. Məhz bu səbəbə görə biz məsələni digər təşkilatlarda da müzakirə etmək təşəbbüsünü irəli sürmüşük» (104).





2007-ci il ATƏT-in sədri* olan İspaniyanın xarici işlər naziri Migel Anxel Moratinos həmin il sentyabr ayının 4-də Gürcüstanın paytaxtı Tbilisi şəhərində «Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yeni format axtarmaq məqsədi ilə dialoqa başlamağın zamanı çatdığını» bəyan etmişdi. O, həmçinin həmin ayın 3-də Brüssel şəhərində Azərbaycan və Ermənistan Respublikalarının xarici işlər nazirləri ilə görüşü zamanı da mövcud formatların tərəfləri təmin etmədiyi üçün yeni təşəbbüslər göstərməyin zamanı gəldiyini bildirdiyini qeyd etdi. Bunun müqabilində Prezident İcra Aparatının beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov sentyabr ayının 5-də həmsədrlərin qarşılarına qoyduqları vəzifələrinin öhdəsindən gələ bilməsələr də danışıqlar formatının dəyişdirilməsinə hələ zərurət olmadığını bildirdi. Digər təşkilatların format dəyişdirilmədən danışıqlar prosesinə cəlb edilməsi isə münaqişənin nizamlanmasında ədalətli mövqenin yaranmasına kömək edə bilər (335).

---

* *2008-ci ildə ATƏT-in sədrliyi Finlandiyaya keçdi və xarici işlər naziri İlkko Kanevro ATƏT-in sədri oldu.*

# FƏSİL 5

## ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜNƏ BEYNƏLXALQ İCTİMAİYYƏTİN MÜNASİBƏTİ

Ermənistan-Azərbaycan münaqişəsi ilə ATƏT məşğul olsa da o, vaxtaşırı digər beynəlxalq təşkilatlarda da müzakirə olunur və münaqişə ilə bağlı müxtəlif sənədlər qəbul edilir.

***Demokratiya və İqtisadi İnkişaf Naminə – GUAM təşkilatı (DİİT-GUAM).*** DİİT-GUAM regional beynəlxalq təşkilatdır və Ermənistan-Azərbaycan münaqişəsi mütəmadi olaraq təşkilatın yığıncaqlarında müzakirə edilir.

Təşkilat 1997-ci il 9-11 oktyabr tarixdə Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova Respublikaları prezidentlərinin birgə təşəbbüsü ilə qeyri-rəsmi «dördlər qrupu» şəklində yaradılıb və «konsultativ forum» statusu alıb. Qrup üzv dövlətlərin baş hərflərinə uyğun olaraq GUAM adlandırılmışdı və heç bir hüquqi öhdəliklərə, nizamnaməyə malik deyildi, yalnız siyasi iradəyə əsaslanırdı.

2005-ci il 22 aprel tarixində Kişinyov şəhərində keçirilən zirvə toplantısı zamanı GUAM dövlətləri mövcud münaqişələrin nizamlanması prosesində Rusiyanın 1990-cı illərdən əsas rol oynadığını, indi isə üzv dövlətlərin həmin proseslərə digər dövlətlərin də cəlb edilməsinin tərəfdarı olduqlarını, həmçinin ABŞ və Avropa Birliyi ilə sıx əməkdaşlıq etmək niyyətlərini bəyan etdilər (222). Məhz həmin zirvə toplantısı zamanı üzv dövlətlər GUAM-ı fəaliyyəti demokratiyanın möhkəmləndirilməsinə, iqtisadi və sosial inkişafa, təhlükəsizlik sahəsində əməkdaşlığa əsaslanacaq bir təşkilata çevirmək qərarına gəldilər (222). GUAM təşkilatının MDB-yə qarşı yaradılmış təşkilat olduğu iddia edilsə də Ukraynanın xarici işlər naziri B.Tarasyuk onun heç kimə qarşı olmadığını, lakin





«GUAM-ın MDB-nin effektivsizliyinin və Birliyin fəaliyyətinin onun üzvlərini təmin etməməsinin nəticəsi olduğunu» bildirib (385).

2006-cı ilin 23 mayında GUAM təşkilatının Kiyev şəhərində keçirilən sammitində isə təşkilata üzv dövlətlər yeni beynəlxalq təşkilatın yaradılmasına dair Bəyannamə imzaladılar. Bəyannaməyə əsasən təşkilat «GUAM – Demokratiya və İqtisadi İnkişaf Naminə» adlandırıldı. Təşkilatın qərargahı Kiyev şəhərində yerləşdi. Sammitin gedişində yeni təşkilatın nizamnaməsi də qəbul edildi*. Təşkilatın strukturu və işinin müxtəlif istiqamətlərdə gücləndirilməsi GUAM-ın üzv dövlətlərinin milli maraqlarına cavab verir. Təşkilat «dondurulmuş» münaqişələrə qarşı yeni siyasət, həmçinin Avropa İttifaqına və NATO-ya inteqrasiya yolunu tutub (385). Təşkilat, həmçinin NATO-ya inteqrasiya yolunu seçmiş ölkələrə energetika təhlükəsizliyi və iqtisadi qarşılıqlı yardım məsələlərinin müzakirəsi üçün imkan yaradır. Azərbaycan GUAM-ın energetika təhlükəsizliyini təmin edə biləcək əsas ölkədir.

Demokratiya və İqtisadi İnkişaf Naminə – GUAM təşkilatının məqsədi aşağıdakılardır: demokratik dəyərlərin təsdiqlənməsi, ali hüquqların təmin edilməsi və insan haqqlarına hörmət; davamlı inkişafın təmin edilməsi; beynəlxalq və regional təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi; Avropa inteqrasiyasının dərinləşdirilməsi, həmçinin iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi; tərəflərin sosial-iqtisadi, nəqliyyat, energetika, elmi-texniki və humanitar potensialını inkişaf etdirmək; qarşılıqlı maraqlara cavab verən sahələrdə qarşılıqlı siyasi təsirin və praktiki əməkdaşlığın fəallaşdırılması (30).

---

* *Nizamnamə Azərbaycan Milli Məclisinin 29 dekabr 2006-cı il tarixli qərarı ilə təsdiq edilmişdir.*

GUAM ölkələrini birləşdirən cəhətlərdən biri də odur ki, postsovet məkanında ərazi bütövlüyünə görə baş verən bütün münaqişələr, məhz təşkilatın üzv dövlətlərinin ərazisində baş verir. GUAM-ı digər təşkilatlardan fərqləndirən cəhətlərdən biri odur ki, digər təşkilatlardan (ATƏT, NATO, AŞ, Aİ, MDB və s.) fərqli olaraq bu təşkilatda bir-birilə əks mövqeyə malik dövlətlər yoxdur.

2006-cı ilin may ayında GUAM-ın zirvə toplantısı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təşkilatın demək olar ki, bütün üzv dövlətlərinin hər birinin təcavüzkar separatizm və ərazi bütövlüyünün pozulması ilə qarşılaşdığına görə həmin məsələlərin ümumi səylərlə gündəliyə çıxarılmasının mühüm olduğunu bildirdi (59). Ukrayna Prezidenti V.Yuşşenko bununla bağlı qeyd etdi ki, GUAM ölkələrinin qarşılaşdıqları münaqişələrə yalnız birgə səylərlə son qoymaq mümkündür və GUAM bu istiqamətdə ATƏT, Aİ, ABŞ və digər dövlətlərlə qarşılıqlı fəaliyyətə hazırdır (135).

May ayının sonu MDB üzv dövlətlərinin Müdafiə Nazirləri Şurasının 50-ci yığıncağının açılışında isə Ukrayna və Azərbaycan Respublikalarının müdafiə nazirləri Anatoli Qritsenko və Səfər Əbiyevin görüşündə ukraynalı nazir GUAM formatında təşkilatın özünün sülhməramlı dəstələrinin yaradılmasının zəruri olduğunu bildirdi. Sentyabr ayının sonlarında təşkilatın Xarici İşlər Nazirləri Şurasının Nyu-Yorkda keçirilən iclasında təşkilat özünün sülhməramlı dəstələrinin yaradılması haqqında razılığa gəldi (246).

GUAM-ın sülhməramlı dəstəsinin GUAM-a üzv olmayan, lakin digər beynəlxalq təşkilatların himayəsi altında olan hər hansı ölkənin ərazisində də keçirilə biləcək əməliyyatlarda iştirakı mümkün sayılır. İştirakçı dövlətlər birgə sülhməramlı batalyonun formalaşdırılması, həmçinin özlərinin beynəlxalq polis kontingenti üzərində də işləyirlər. Bu proseslər başa çatdıqdan sonra ATƏT, yaxud BMT-dən beynəlxalq mandat alınması və GUAM dəstələrinin sülhməramlı əməliyyatlarda iştirakı nəzərdə tutulur (358). Dağlıq Qarabağda məhz GUAM sülhməramlı qoşunlarının yerləşdiriləcəyinə gəldikdə isə bu hələ sual altındadır. Çünki münaqişə bölgəsində yerləşdiriləcək sülhməramlı qüvvələrin tərkibi münaqişə tərəfləri ilə razılaşdırılmalıdır və Minsk qrupunun amerikalı həmsədri Metyu Brayza həmsədrlərin bu məsələdə həmrəy olduqlarını bildirib (148). Onu da qeyd edək ki, tərəflərin razılığına əsasən Dağlıq Qarabağda yerləşdiriləcək sülhməramlı qüvvələr nə həmsədr dövlətlərin, nə də münaqişə tərəfi olan dövlətlərin hərbçilərindən təşkil edilə bilməz.





GUAM-ın sülhməramlı dəstələrinin «Dağlıq Qarabağ respublikası»nın ərazisində yerləşdirilə biləcəyinə münasibət bildirən ermənistanlı politoloq L.Melik-Şahnazaryan, həmin ərazilərə sülhməramlı dəstələrin, xüsusilə də GUAM-ın sülhməramlı dəstələrinin gətiriləcəyini müharibənin yenidən bərpa olunması kimi qiymətləndirir. Politoloq, burada bir qaydanın da yada salınmasının əsl məqamı olduğunu vurğulayaraq, ölkənin ərazisinə onun icazəsi olmadan hər hansı qoşunun, o cümlədən sülhməramlı qoşunların yeridilməsinin təcavüz olduğunu deyir (303). Politoloqla tam razıyıq, lakin neçə illərdir ki, Azərbaycan Ermənistanın Azərbaycan ərazisi olan Dağlıq Qarabağa təcavüz etdiyini ona sübut edə bilmir. Yaxud Ermənistan özü də bunun təcavüz olduğunu başa düşdüyü üçün münaqişəni məhz Dağlıq Qarabağ ermənilərinin törətdiyini bildirir.

1994-cü ildə özünün sülhməramlı qoşunlarını Dağlıq Qarabağda yerləşdirməyə nail olmayan Rusiya indi GUAM sülhməramlılarının həmin ərazilərə yerləşdirilməsinə mane olacağını gizlətmir. Rusiyanın xarici işlər naziri Sergey Lavrov ölkəsinin bu məsələyə münasibətini şərh edərkən bildirib: «Təbii ki, mövcud münaqişələrin yalnız siyasi yolla həllinin tərəfdarı kimi çıxış

edən Rusiya vəziyyətin bu ssenari üzrə inkişafının qarşısını almaq üçün adekvat tədbirlər görəcəkdir» (303).

GUAM yarandığı gündən bir qurum olaraq təkcə ABŞ-la əməkdaşlıq edirdi. 2002-ci ilin dekabr ayında GUAM-ABŞ əməkdaşlığına dair Çərçivə proqramı təsdiq edilmişdi. ABŞ GUAM ərazisindəki münaqişələrin ərazi bütövlüyü və sülh yolu ilə həllinin tərəfdarıdır (407). 2007-ci il iyun ayında təşkilatın Bakıda keçirilən zirvə toplantısı ərəfəsində isə GUAM-ın əməkdaşlıq çərçivəsi nisbətən genişləndi və GUAM-Polşa, GUAM-Yaponiya əməkdaşlığının təməli qoyuldu (103).

Bu gün GUAM üzv dövlətlərin qarşılaşdığı konkret problemləri öz səlahiyyətləri daxilində həll etmək iqtidarındadır, həmçinin digər beynəlxalq təşkilatlarda da üzv dövlətlərin mövqeyindən çıxış edir və problemlərin həll olunmasına çalışır.

***Birləşmiş Millətlər Təşkilatı (BMT).*** Ermənistan-Azərbaycan münaqişəsi 2006-cı ildə baxılmaq üçün BMT Baş Məclisinin 61-ci sessiyasının gündəliyinə salındı. Bu məhz yenicə beynəlxalq təşkilata çevrilmiş DİİT-GUAM təşkilatının səyləri nəticəsində mümkün oldu.

Həmin ilin avqust ayında GUAM adından BMT-yə Dağlıq Qarabağ, Dnestryanı, Cənubi Osetiya və Abxaziya münaqişələrinin həllinə müdaxilə etməsi haqda müraciət göndərilmişdi. Müraciətdə həmin münaqişələrin qlobal təhlükəsizlik üçün qorxu mənbəyi olması və onların həlli üçün indiyədək göstərilən vasitəçilik səylərinin heç bir nəticə verмədiyi deyilirdi. Bu məsələni BMT Baş Məclisinə çıxarmaqda GUAM ölkələrinin əsas məqsədi beynəlxalq ictimaiyyət tərəfindən münaqişələr mövcud olan ölkələrin ərazi bütövlüyünün bir daha təsdiq edilməsi idi (325).

2004-cü ildə Azərbaycan özü «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» adlı qətnamə layihəsinin Baş Məclisdə müzakirəsinə təşəbbüs göstərmişdi. Həmin vaxt ABŞ-ın





BMT-dəki nümayəndəsi Syuzan Mur Baş Məclisin sədrini Ermənistan-Azərbaycan münaqişəsinə qarışmamağa və həmsədrlərin işinə mane olmamağa çağırmışdı və məsələnin müzakirəsi qeyri-müəyyən vaxta təxirə salınmışdı. ABŞ da həmsədr ölkə olaraq bitərəf mövqe tutmalı olduğunu əsas gətirərək qətnamə layihəsinin sessiyaya çıxarılmasına razılıq verməmişdi (32). GUAM ölkələri eyni təşəbbüslə 2005-ci ildə də BMT BM-in 60-cı sessiyasında da çıxış etmişdilər, lakin məsələnin gündəliyə salınmasına nail ola bilməmişdilər. Bu vaxt ABŞ münaqişənin ATƏT çərçivəsində müzakirəsinin tərəfdarı olduğunu bildirmişdi (81). 2006-cı il sentyabr ayının 12-də də BMT-nin Ümumi komitəsinin* iclasında GUAM adından edilmiş müraciətin gündəliyə salınmasına etiraz edilmişdi. Ayın 13-də isə Ukrayna tərəfi GUAM adından təşkilatın üzvü olan dövlətlərin işğal altında olan ərazilərindəki vəziyyətin sülhə, təhlükəsizliyə və beynəlxalq proseslərə mənfi təsir etdiyini bildirərək məsələnin gündəliyə salınmasını təkid etdi (59). BMT BM məcburiyyət qarşısında qalaraq məsələni səsverməyə qoydu. Məsələnin gündəliyə salınması səsə qoyularkən 15 ölkə əleyhinə, 16 ölkə isə lehinə səs vermişdi və qərar cəmi 1 səs üstünlüyü ilə qəbul edilmişdi. (65 ölkənin nümayəndəsi bitərəf qalıb, 96 ölkənin təmsilçiləri isə səsvermədə iştirak etməmişdi) (59).

2005-ci il BM-in 60-cı sessiyası zamanı münaqişənin ATƏT çərçivəsində müzakirəsinin tərəfdarı olan ABŞ bu dəfə münaqişələrin BMT çərçivəsində müzakirəsinin danışıqlar prosesinə mənfi təsir göstərməyəcəyini bildirmişdi (81). Bu dəfə isə Minsk qrupunun digər həmsədr ölkəsi Rusiya münaqişənin BMT BM-in gündəliyinə salınmasının əleyhinə səs

* *Qaydaya görə bütün müraciətlər BMT-nin Ümumi Komitəsinə göndərilir, Komitə isə öz növbəsində hansı məsələnin gündəliyə salınmasının zəruri olması barədə Baş Məclisə tövsiyə verir.*

vermişdi. Rusiya XİN-in informasiya və mətbuat departamenti nazirliyin rəsmi nümayəndəsi Mixail Kamınınə istinad edərək bildirmişdi ki, Ümumi komitənin iclasında Rusiya bu məsələnin gündəliyə salınmasının əleyhinə çıxmışdı. O, problemin siyasiləşdirilməsinin və bu məqsədlə BMT BM-in formatından istifadə edilməsinin əleyhinə olduğunu, mövcud formatların isə münaqişələrin həlli yollarının axtarışına kömək edəcəyini bildirmişdi. Kamının onu da qeyd etməyi unutmamışdı ki, Ümumi komitə üzvlərinin əksəriyyəti Rusiyanın təklifinə etiraz etməmişdi (180). Fransa isə neytral mövqe tutaraq məsələnin gündəliyə salınmasının nə lehinə, nə də əleyhinə səs verməmişdi.

ABŞ-ın GUAM-ın təşəbbüsünü dəstəkləməsindən təəccüblənən Ermənistanın Milli Məclisinin sədri Tiqran Torosyanın fikrincə münaqişəni digər beynəlxalq təşkilatlarda müzakirə etmək olar, lakin onun nizamlanmasını digər təşkilata keçirməyə cəhd yolverilməzdir, çünki bu mürəkkəb prosesdir və davamlı vaxt tələb edir (384). Ermənistanın BMT-dəki daimi nümayəndəsi Armen Martirosyan isə Ermənistan-Azərbaycan münaqişəsinin həllinin ATƏT çərçivəsindən çıxarılıb BMT çərçivəsinə keçiriləcəyi təqdirdə Ermənistanın öz taktikasını və strategiyasını dəyişəcəyini bildirib (322).

Sessiyada Azərbaycanın təcavüzə məruz qalması faktı və Ermənistanın təcavüzkar dövlət kimi göstəriləcəyi gözlənilirdi. BM-in qətnamələri məcburi xarakter daşımasa da qəbul edilməsi gözlənilən həmin qətnamədə Baş Məclis Azərbaycan torpaqlarının azad olunmasını tələb edə bilərdi. BMT BM-in gündəliyində məsələlər 9 əsas mövzu ətrafında tərtib edilmişdi. «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» və «GUAM dövlətləri ərazisində davam edən münaqişələr və onların beynəlxalq sülh və inkişafa təsiri» haqqında bəndləri çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinin iki dəfə müzakirə olunması nəzərdə tutulurdu. Bu iki bənd gündəli-





yin ən vacib mövzusu olan beynəlxalq sülh və təhlükəsizliklə bağlı məsələlər sırasına daxil idi (59).

BMT BM-in 61-ci sessiyası 19 sentyabr 2006-cı ildə Nyu-York şəhərində öz işinə başladı. Müzakirələr zamanı səsvermə yolu ilə Azərbaycanın işğal edilmiş ərazilərində yanğınların səbəblərinin araşdırılması ilə bağlı «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» adlı qətnamə qəbul edildi. BMT Baş Məclisi ATƏT-ə vəziyyəti öyrənmək üçün əraziyə beynəlxalq ekspert qrupu göndərmək tapşırdı (71).

Gündəlikdə münaqişələrə dair «GUAM ərazisində davam edən münaqişələr, onların beynəlxalq sülh və təhlükəsizliyə təsiri» adlanan 27-ci bəndin 6 noyabr 2006-cı ildə müzakirəsi nəzərdə tutulmuşdu (163). Lakin məsələ açıq qaldı. 11 dekabr 2006-cı ildə Novruz Məmmədov BMT-də dondurulmuş münaqişələrlə bağlı müzakirələrin açıq qalmasının Azərbaycanın maraqlarına cavab verdiyini, məsələnin müəyyən mənada yaxşı hazırlanması üçün vaxt lazım olduğunu və növbəti sentyabr ayına qədər məsələni yenidən qaldırmaq imkanı olduğunu söylədi (162).

Nəzərdə tutulan müzakirə ilə bağlı Ermənistanın xarici işlər naziri Vardan Oskanyan Ermənistan-Azərbaycan münaqişəsinin BMT BM-in gündəliyinə salınmasını «mənasız qüvvə itkisi» kimi qiymətləndirmiş və «problemin başqa müstəviyə çıxarılmasının danışıqlar prosesinə mənfi təsir göstərəcəyini» qeyd etmişdi (81). O, BMT BM-in 61-ci sessiyasında çıxış edərkən bildirmişdi ki, «Dağlıq Qarabağ erməniləri öz müqəddəratlarını artıq müəyyənləşdiriblər və heç bir dövlətin daxilində yaşamaq istəmirlər». (172) BMT BM-in sessiyasının protokol qaydalarına əsasən ümumi müzakirələr bitdikdən sonra təşkilatın üzv dövlətləri səslənən bəyanatlara «cavab vermək hüququ»na malikdirlər (65). Sentyabr ayının 27-də – ümumi müzakirələrin yekun günü Baş Məclisin presrelisində «Azərbaycan nümayəndəsi» kimi göstərilən Azər-

baycanın BMT-dəki daimi nümayəndəliyinin* müşaviri İlqar Məmmədov da öz səlahiyyətlərindən istifadə edərək Ermənistan xarici işlər nazirinin çıxışına cavab vermişdi. O, faktlarla danışaraq bildirmişdi ki, BMT BM-in «Müstəmləkə ölkələrə və xalqlara müstəqilliyin verilməsi haqqında» 1960-cı il 14 dekabr tarixli bəyannaməsi, 1970-ci il «Dövlətlər arasında əməkdaşlıq və dostluq münasibətlərinə dair beynəlxalq hüquq prinsipləri bəyannaməsi», 1993-cü il «İnsan hüquqlarına dair dünya konfransının tədbir proqramı və bəyannaməsi»nə əsasən «öz müqəddəratını təyinetmə» hüququndan suveren və müstəqil dövlətin ərazi bütövlüyü hesabına istifadə oluna bilməz. Həmin sənədlərə əsasən, həmçinin öz müqəddəratını təyin etmək müəyyən ərazidə yaşayan bütün əhalinin hüququdur. Bu hüquqdan onlar yalnız sülh yolu ilə, dövlətin siyasi birliyi, suverenliyi və ərazi bütövlüyünü möhkəmləndirmək şərti ilə istifadə edə bilərlər (65; 66).

2007-ci il sentyabr ayında da Ermənistan-Azərbaycan münaqişəsi BMT Baş Məclisinin növbəti – 62-ci sessiyasına çıxarıldı. Ermənistanın xarici işlər naziri V.Oskanyan bu dəfəki çıxışında Ermənistan və Azərbaycan arasında Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması istiqamətində mütəmadi olaraq danışıqlar aparıldığı üçün onun GUAM ərazisində dondurulmuş münaqişə olmadığını bildirdi. O, həmçinin BMT-nin münaqişənin həlli yeri olmadığını və bu məsələ ilə ATƏT-in məşğul olduğunu qeyd etdi. Bütün bunlarla yanaşı o, keçən sessiyadan fərqli olaraq, Kosovo müstəqillik əldə edəcəyi təqdirdə onun münaqişə üçün presedent olacağını bəyan etdi.

Nəhayət ki, 2008-ci il mart ayının 14-də BMT Baş Məclisinin geniş iclasında 62-ci sessiyanın gündəliyində 20-ci

---

* *Azərbaycanın BMT yanında daimi nümayəndəliyi 1992-ci ilin 6 martından fəaliyyət göstərir (97, s.58).*





bənd kimi duran «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» müzakirə olundu və gözlənilən qətnamə qəbul edildi. Müzakirələr zamanı Azərbaycanın BMT-də daimi nümayəndəsi səfir Aqşin Mehdiyev Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti haqqında danışdı və BMT-nin üzvü olan nüfuzlu dövlətlərin nümayəndələrini Azərbaycanın müəllifi olduğu qətnamə layihəsini dəstəkləməyə çağırdı (78). Azərbaycan nümayəndəsinin çıxışından sonra BMT-nin bir sıra üzv dövlətlərinin nümayəndələri bəyanatlar verərək məsələyə öz münasibətlərini bildirdilər.

Avropa İttifaqı *adından Sloveniya nümayəndəsi danışaraq* bildirmişdir ki, münaqişənin həlli Avropa Birliyinin Qonşuluq siyasətinin mühüm hissəsidir və təşkilatın müvafiq planlarında əksini tapmışdır və onun həlli üzrə beynəlxalq səylər Minsk qrupunun başçılığı altında həyata keçirilməlidir. Minsk qrupunun həmsədr ölkələri adından çıxış edən ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Alexandro Vulfun bəyanatına görə isə, həmsədrlər 2007-ci ilin noyabrında tərəflərə münaqişənin dinc yolla həlli üçün əsas prinsiplər paketi təqdim ediblər. Həmin prinsiplər Helsinki Yekun aktının əsaslarını, o cümlədən dövlətlərin ərazi bütövlüyünü tanımaq və insanların öz müqəddəratını təyin etmək haqda hüquqlarını əks etdirirlər. ABŞ *nümayəndəsi çıxışında bildirmişdir ki*, Azərbaycanın təklif etdiyi qətnamə layihəsi bu prinsiplərin bəzilərini əks etdirsə də, həmsədrlərin bütün tarazlı təkliflərini əhatə etmir. Bu səbəbdən də hər üç həmsədr ölkə layihənin əleyhinə çıxış edəcəklər. Bununla yanaşı, ABŞ nümayəndəsi Minsk qrupu həmsədrlərinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini və Dağlıq Qarabağın müstəqilliyini tanımadıqlarını vurğuladı. Fransa nümayəndəsi də çıxışında qanun layihəsinin əleyhinə səs verəcəklərini bildirdi. İslam Konfransı Təşkilatı adından çıxış edən Pakistan nümayəndəsi erməni qüvvələrinin zəbt etdiyi ərazilərdən dərhal, tam və

qeyd-şərtsiz çıxarılmasına, münaqişənin dinc yolla, ərazi bütövlüyü və beynəlxalq miqyasda tanınan sərhədlər çərçivəsində həllinə çağırdı. Türkiyə və Uqanda nümayəndələri də pakistanlı həmkarları ilə razılaşdılar. GUAM adından çıxış edən Ukrayna nümayəndəsi isə, hazırkı müzakirələrin Azərbaycan, Moldova və Gürcüstan ərazisində davamlı münaqişələri diqqət mərkəzinə gətirdiyindən razılıq bildirdi. O, bildirdi ki, bu münaqişələr həmin dövlətlərin demokratik və iqtisadi inkişafının qarşısını alan mühüm maneədir. Beynəlxalq birlik bu münaqişələrin qeyd-şərtsiz, ərazi bütövlüyü prinsipi əsasında həlli üçün praktik addımlar atmalıdır. Çinin nümayəndəsi də ölkəsinin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bildirmiş, Cənubi Qafqazda yaranan vəziyyəti "mürəkkəb və həssas" adlandırdı. Səsvermədən əvvəl son söz alan Ermənistan nümayəndəsi Azərbaycanı layihəni təqdim etməklə sülh prosesində sabotaj yaratmaqda günahlandırdı və bildirdi ki, Dağlıq Qarabağın Azərbaycanın tərkibində öz müqəddəratını həll etməsi 20 il bundan əvvəl alınmayıbsa, bu gün də alınmayacaqdır (44).

Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət haqqında qətnamə 39 ölkənin səs çoxluğu ilə qəbul edildi. Sənədin qəbul edilməsinin əleyhinə 7 dövlət – ABŞ, Rusiya, Fransa, Ermənistan, Hindistan, Anqola və Vanuatu səs verib, 100 dövlət isə bitərəf mövqe tutub.

BMT BM-in münaqişəyə dair mövqeyini özündə əks etdirən doqquz maddədən ibarət həmin qətnamədə Azərbaycan Respublikasının suverenliyi və dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyünün dəstəkləndiyi göstərilir. Qətnamə layihəsində Baş Məclis bir daha bəyan edir, heç bir dövlət Azərbaycan Respublikası ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyəti qanuni olaraq tanımamalıdır, həmin vəziyyətin qorunub saxlanmasına dəstək verməməli və çalışmamalıdır. Bununla yanaşı, Azərbaycanın işğal olunmuş əraziləri-





nin dərhal və şərtsiz azad edilməsi və məcburi köçkünlərin öz yurd-yuvalarına qaytarılması tələb edilir. BMT BM beynəlxalq hüquq çərçivəsində ATƏT-in Minsk qrupunun səylərini dəstəkləyir və onlara münaqişənin sülh yolu ilə həlli üçün səylərini daha da artırmağı arzu edir. BMT Baş katibinə Baş Məclisin növbəti 63-cü sessiyasında «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət»lə bağlı qəbul edilmiş qətnamənin həyata keçirilməsi haqqında məruzə ilə çıxış etmək tapşırıldı (77).

BMT ən nüfuzlu beynəlxalq təşkilat olaraq əvvəllər də Ermənistan-Azərbaycan münaqişəsini öz diqqətindən kənarda qoymamışdır. BMT TŞ münaqişə ilə bağlı bir neçə dəfə müzakirələr aparmış, dörd qətnamə qəbul etmişdi. (*Bax: Fəsil 3*)

BMT qətnamələrinin icra edilməməsi müqabilində heç bir cəza tədbiri tətbiq edilmir ki, bu da həmin qətnamələrin əhəmiyyətsiz olduğu fikrini yaradır. 2005-ci ilin sentyabr ayında Nyu-York şəhərində minilliyin Bəyannaməsinin* icrası istiqamətində əldə edilmiş nailiyyətləri müzakirə etmək və normaların qeyri-ixtiyari tətbiq edilməsi və nəticəsiz qalan qanun pozuntuları hallarının azaldılması ilə bağlı daha vacib, konkret addımlar atılması məqsədilə BMT-nin zirvə toplantısı keçirilmişdi. Toplantı zamanı təşkilatın bütün fəaliyyəti müddətində yaradılmış normativ çərçivəni gücləndirmək qərarı verilmişdi (83, s.11).

Azərbaycanlılar ermənilər tərəfindən etnik təmizləmə və soyqırıma məruz qaldıqları üçün BMT tərəfindən qanunun aliliyi məqsədilə nəzərdə tutulan tədbirlər Azərbaycanın maraqlarına tam cavab verir. BMT Baş Katibinin hesabatında qanunun aliliyini mükəmməlləşdirmək yolunda aşağıdakı tədbirlər tələb olunurdu: Beynəlxalq ictimaiyyət soyqırım, etnik təmizləmə və bəşəriyyətə üzləşdiyi cinayətlərə qarşı kol-

* *Minilliyin Bəyannaməsi 2000-ci ildə qəbul edilmişdi*

lektiv tədbirlərin əsası kimi «müdafiə məsuliyyəti»ni öz üzərinə götürməlidir; Mülki şəxslərin müdafiəsi ilə bağlı bütün sazişlər ratifikasiya və icra edilməlidir; Beynəlxalq Cinayət Məhkəməsi və hərbi cinayətlərlə məşğul olan müxtəlif beynəlxalq və qarışıq tribunallarla əməkdaşlığı, eləcə də Beynəlxalq Ədalət Məhkəməsini gücləndirmək məqsədi ilə addımlar atılmalıdır; BMT Baş Katibi, həmçinin münaqişə və ya münaqişədən sonrakı dövrü yaşayan cəmiyyətlərdə qanunun aliliyinin bərpa edilməsinə yönəldilmiş səylərə kömək etmək məqsədi ilə Katibliyin imkanlarını genişləndirmək niyyətindədir (83, s.11).

***Avropa Şurası (AŞ).*** Regional beynəlxalq təşkilat olan AŞ-nın əsas məqsədlərindən biri insan haqlarını müdafiə etməkdir. AŞ təşkilatı Ermənistan-Azərbaycan münaqişəsinin davamlı müzakirə edildiyi təşkilatdır. 1992-ci ilin yanvar ayında Avropa Şurası Azərbaycana xüsusi dəvətolunmuş statusu verməkdən imtina etsə də Cənubi Qafqazda gedən prosesləri, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsini öz diqqətindən kənarda qoymamışdır. Təşkilat lap əvvəldən qəbul etdiyi sənədlərdə Dağlıq Qarabağı Azərbaycan ərazisi olaraq göstərir və münaqişənin sərhədlərin pozulmazlığı prinsipi üzrə həllinə tərəfdar çıxır.

Avropa Şurası Nazir müavinlərinin 11 mart 1992-ci il tarixli 471-ci iclasında Nazirlər Komitəsi tərəfindən «Dağlıq Qarabağa dair» adlı və 15 aprel 1993-cü il tarixli 492-ci iclasında Azərbaycan Respublikasının Kəlbəcər rayonunun 4 aprel 1993-cü il tarixdə ermənilər tərəfindən işğalı ilə əlaqədar olaraq «Dağlıq Qarabağ münaqişəsinin gərginləşməsinə dair» adlı Bəyannamə qəbul edilmişdi. Hər iki Bəyannamədə Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində mülki əhaliyə qarşı zorakılıq və hücumları kəskin şəkildə pislənir və göstərilir ki, məsələnin güc vasitəsilə həlli beynəlxalq





ictimaiyyət tərəfindən qəbul edilə bilməz (2, s.120-121; 3, s.119-120).

Bunlardan başqa, Avropa Şurası Parlament Assambleyası «Dağlıq Qarabağ münaqişəsinə dair» 1994-cü il tarixli 1047 №-li Qətnamə, 10 noyabr 1994-cü il tarixli 1251 №-li Tövsiyə, «Ermənistan və Azərbaycanda qacqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair» 15 mart 1995-ci il tarixli 1059 №-li Qətnamə, 1995-ci il tarixli 1263 №-li Tövsiyə qəbul etmişdi.

Zaman keçdikcə Azərbaycanda baş verən müsbət dəyişikliklər Avropa Şurası ilə dövlət arasında münasibətlərin yaxşılaşmasına kömək etdi. 28 iyun 1996-cı ildə AŞ PA-nın bürosu Azərbaycanın xüsusi dəvət olunmuş statusu ilə Avropa Şurasına qəbul edilməsi barədə qərar qəbul etdi (57).

Avropa Şurası münaqişənin ərazi bütövlüyü çərçivəsində və yüksək statuslu muxtariyyat verilməklə həllinin tərəfdarıdır. AŞ Parlament Assambleyasının «Zaqafqaziyada münaqişələrə dair» 1997-ci il 22 aprel tarixli 1119 saylı Qətnaməsinin 5-ci bəndində münaqişəyə cəlb olunan bütün tərəfləri münaqişənin siyasi həllinə dair danışıqları, xüsusilə, 1975-ci il Helsinki Yekun Aktı və 1990-cı il Paris Xartiyasına əsaslanan - a) sərhədlərin pozulmazlığı; b) aidiyyatlı ərazilərdə bütün xalqların, xüsusilə çoxmillətli sülhməramlı qüvvələr vasitəsilə təmin olunmuş təhlükəsizliyi; c) bütün maraqlı tərəflərin razılaşdırdığı geniş muxtariyyat statusu; d) qaçqın və məcburi köçkünlərin geri dönmək hüququ və insan hüquqlarına hörmət kimi onların vətəndaşlığının bərpa olunması prinsipləri üzrə aparmasını tələb edir (4, s.131-133; 196).

2001-ci ilin yanvar ayında Azərbaycan və Ermənistan Avropa Şurasına üzv qəbul ediləndə* isə Ermənistan-Azər-

---

* *2000-ci il 28 iyun tarixdə AŞ PA-nın növbəti sessiyasında Azərbaycan Respublikasını Avropa Şurasına tamhüquqlu üzv qəbul etmək barədə təşki-*

baycan münaqişəsinin tez bir zamanda sülh yolu ilə həllinə dair öhdəlik götürüblər.

Avropa Şurası Parlament Assambleyasının 2001-ci il sentyabr sessiyası zamanı Azərbaycan nümayəndə heyətinin Nazirlər Komitəsinə ünvanladığı «Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması» barədə yazılı sorğu 43 ölkənin iştirakı ilə müzakirə edilmişdi. Nazirlər Komitəsi sorğu ilə bağlı qərar qəbul etmişdi və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərə, suverenliyə və ərazi bütövlüyünə dəstəyinə dəstəyini təsdiq etmiş və Dağlıq Qarabağ probleminin yalnız Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla həll oluna biləcəyi göstərilmişdi. Bununla yanaşı, qərarda deyilirdi, torpaq əldə etmək məqsədi ilə gücdən istifadə qəbuledilməzdir və ondan irəli gələn heç bir nəticə qanuni sayıla bilməz. Sənəd AŞ PA Nazirlər Komitəsinin iclasında yekdilliklə qəbul edilmişdi (63, s.22-23).

AŞ PA tərəfindən 2005-ci ilin yanvar ayında qəbul edilmiş Ermənistanın işğalçılıq siyasətini ifşa edən ən mühüm sənəd 1416 №-li qətnamə hesab olunur.

2004-cü ilin payız sessiyası zamanı həmin vaxt AŞ PA-nın Dağlıq Qarabağ üzrə məruzəçisi olan Terri Devisin Qarabağa dair məruzəsinin dinləniləcəyi, 2005-ci ilin yanvar ayında keçiriləcək qış sessiyası zamanı isə həmin məruzə əsasında qətnamə qəbul ediləcəyi nəzərdə tutulurdu. Məruzəni hazırlamamışdan əvvəl T.Devis həmin ilin fevral ayında münaqişə regionuna səfər etmişdi. O əvvəl Ermənistanın prezidenti, xarici işlər və müdafiə nazirləri, həmçinin AŞ PA-nın erməni nümayəndələrinin keçmiş rəhbəri və Dağlıq Qarabağ-

---

*latın Nazirlər Komitəsinə tövsiyə qəbul edilmişdir. 2001-ci il yanvar ayının 17-də Nazirlər Komitəsi Azərbaycanın təşkilata tamhüquqlu üzv qəbul olunması barədə qərar qəbul etmişdi. Yanvar ayının 25-də isə Strasburqda Avropa Şurasının binası qarşısında Azərbaycan Respublikasının üçrəngli bayrağı ucaldılıb.*





da A.Qukasyan ilə, sonra isə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevlə, AŞ PA-nın azərbaycanlı nümayəndələri və ayrı-ayrı deputatlarla görüşmüşdü. T.Devisin hazırladığı məruzədən narazı qalan və ona barmaqarası baxan, həmin vaxt Ermənistan prezidentinin mətbuat katibi olan Aşot Köçəryan məruzədə deyilənlərin məruzəçinin öz subyektiv fikri olduğunu bildirmişdi və 2005-ci ilin əvvəllərində səsvermə yolu ilə qəbul ediləcək qətnamənin ermənilər üçün daha əhəmiyyətli olduğunu bildirmişdi. Bundan başqa, o, yeni təyin edilmiş məruzəçi Britaniyalı parlament üzvü Devid Atkinsonla işləyəcəklərini qeyd etmişdi. 1993-cü ildə D.Atkinson AŞ-nın üzvü olmayan dövlətlər üzrə komissiyanın sədri olaraq Qarabağda olmuş və 1994-cü ildə Strasburqda AŞ-da Qarabağ məsələsi üzrə dinləmələr təşkil etmişdi. Həmin vaxt Azərbaycan tərəfi bu dinləmələrdən narazı qalmışdı (215). Ermənilər ümid edirdilər ki, bu dəfə də o, ermənilərin maraqlarını təmin edərək T.Devisin hazırladığı məruzənin mətnində əsaslı dəyişikliklər edəcək.

1 sentyabr 2004-cü il tarixdə Terri Devis Avropa Şurasının baş katibi vəzifəsini icra etməyə başladı. AŞ PA-nın siyasi komissiyasının 14 sentyabr 2004-cü il tarixli iclası zamanı isə Devid Atkinson onun əvəzinə AŞ PA-nın Dağlıq Qarabağ üzrə məruzəçisi təyin edildi. Qarabağ məsələsi üzrə Terri Devis tərəfindən hazırlanmış məruzə də ilk olaraq məhz həmin iclas zamanı dinlənildi. Bundan sonra D.Atkinson məruzənin mətnində dəyişikliklər etsə də bu ermənilərin gözlədiyi nəticəni vermədi. AŞ PA-nın Ermənistan nümayəndələrinin sədri Tiqran Torosyan D.Atkinsonun məruzəsinə öz münasibətini belə bildirdi: Devisin Qarabağa dair məruzəsi hüquqi qüvvəyə malik deyil və sırf məsləhət xarakteri daşıyır. Sözsüz ki, Atkinsonun da məruzəsi hüquqi güvvəyə malik olmayacaq, lakin mühüm siyasi və təbliğati əhəmiyyət daşıyacaq (217).

AŞ PA-nın siyasi komissiyasının 2004-cü il 17 noyabr tarixli iclasında Avropa Şurası britaniyalı parlament üzvü Devid Atkinsonun «ATƏT-in Minsk Konfransının həlli ilə məşğul olduğu Dağlıq Qarabağ regionunda münaqişə» adlı məruzəsi dinlənilərək qəbul edildi. Ermənistanı rəsmən təcavüzkar dövlət kimi tanıyan və həmçinin Ermənistanın Azərbaycana qarşı törətdiyi etnik təmizləmə siyasətini pisləyən 1416 №-li qətnamə də həmin məruzə əsasında 2005-ci il yanvar ayının 25-də Strasburqda keçirilən qış sessiyası çərçivəsində qəbul edildi. Qətnamənin lehinə 123, əleyhinə isə 7 dövlət səs verdi. İlk dəfə idi ki, beynəlxalq hüquqi sənəddə Ermənistan aqressor-ölkə, «Dağlıq Qarabağ» rejimi isə separatçı-rejim adlandırıldı.

Qətnamədə aşağıdakılar qeyd olunmuşdu:

1. Assambleya hərbi əməliyyatların başlanmasından keçən on ildən artıq bir müddətdə Dağlıq Qarabağ regionunda münaqişənin həll edilməməsinə təəssüf edir. Yüz minlərlə insan hələ də məcburi köçkün vəziyyətində ağır şəraitdə yaşayır. Azərbaycanın ərazisinin böyük bir hissəsi hələ də Ermənistan qoşunlarının işğalı altındadır və separatçı qüvvələr hələ də Dağlıq Qarabağ regionuna nəzarət edirlər.

2. ... Assambleya bir daha təsdiq edir ki, regional ərazinin müstəqilliyi və dövlətdən ayrılması etnik mənsubiyyətinə görə insanların yerlərindən qovulması və ərazinin qəsb edilərək de-facto başqa bir dövlətə birləşdirilməsinə gətirib çıxaran silahlı münaqişə yolu ilə deyil, yalnız bu ərazinin sakinlərinin demokratik dəstəyi əsasında qanuni və dinc yolla həyata keçirilə bilər. Assambleya üzv dövlət tərəfindən xarici ərazinin işğal edilməsini bu dövlətin Avropa Şurasının üzvü kimi öhdəliyinin ciddi pozulması demək olduğunu bir daha təkrar edir və münaqişə ərazisindən olan məcburi köçkünlərin təhlükəsizlik şəraitində və ləyaqətlə öz evlərinə qayıtmaq hüquqlarının olduğunu bir daha təsdiqləyir.





Assambleya, həmçinin münaqişənin dinc yolla həlli üzrə ATƏT çərçivəsində Minsk prosesini dəstəkləyir və Ermənistan ilə Azərbaycanı razılaşma yoluna dəvət edirdi (5).

Devid Atkinsonun məruzəsi müqabilində «Dağlıq Qarabağ respublikası»nın televiziyası 1993-cü ildə - D.Atkinsonun AŞ-nın üzvü olmayan dövlətlər üzrə komissiyasının sədri olduğu vaxt Dağlıq Qarabağa səfər edərkən lentə alınmış müsahibəsini üzə çıxarmışdı. O, müsahibə zamanı bildirmişdi: «Müharibəni Azərbaycan başlayıb və müharibə bitməyincə Avropa Şurası Azərbaycanı öz sıralarına qəbul etməyəcək». Atkinson onu da qeyd etmişdi ki: «Qarabağlılar öz müqəddəratlarını sərbəst şəkildə təyin etmək hüququna malikdirlər. Bizim təşkilat və mən şəxsən Qarabağ ermənilərinin öz torpaqlarında rahat yaşaması üçün mümkün olan hər şey edəcəyik» (397).

Bununla, Avropanın Xəzərin enerji resurslarına nəzarət etməkdə maraqlı olduğu üçün D.Atkinsonun belə «ikiüzlü» və «məqsədli» (397) siyasət yürütdüyünü qabartmaq istəyən ermənilər, əslində, beynəlxalq ictimaiyyətin getdikcə həqiqəti üzə çıxardığını və hadisələri öyrənərək analiz etməklə kimin haqlı, kimin haqsız olduğunu və bu münaqişədə kimin qərəzli, kimin qərəzsiz mövqe tutduğunu aydınlaşdırdığını göstərmiş oldular.

Həmin ərəfədə – 2004-cü ilin sonundan Rusiya və Ermənistan arasında başlanmış anlaşılmazlıq və münasibətlərin nisbətən soyuması 2005-ci ilin yanvar ayında Avropa Şurasının qış sessiyası zamanı özünü göstərmişdi. Sessiya zamanı Rusiya da Ermənistanı təcavüzkar dövlət kimi tanıyan qətnamənin qəbul edilməsinin lehinə səs vermişdi (397). Və bu Rusiyanın Ermənistanı qane etməyən qərarı dəstəklədiyi ilk addım deyildi. 1996-cı il ATƏT-in Lissabonda keçirilən zirvə toplantısı zamanı da Rusiya Azərbaycanın mövqeyini əks etdirən sənədin lehinə səs vermişdi.

Qəbul edilmiş 1416 №-li qətnamənin beşinci maddəsinə* uyğun olaraq, Ermənistan-Azərbaycan münaqişəsi üzrə AŞ PA-nın Siyasi işlər Komitəsinin nəzdində fəaliyyət göstərən xüsusi – müvəqqəti Alt Komitə yaradılıb. Alt Komitəyə AŞ PA-nın prezidenti olmuş britaniyalı Lord Ceyms Rassel-Conston sədrlik edir. Komitə yarandığı gündən bu günədək nümayəndələri regiona səfərlər edərək azərbaycanlılar və ermənilər arasında müxtəlif səviyyələrdə danışıqlar aparırlar. 2007-ci ilin sonlarında isə AŞ PA-nın dondurulmuş münaqişələrlə məşğul olan xüsusi daimi Alt Komitəsinin yaradılması ideyası irəli sürüldü. Lakin komitənin yaradılmasına münasibət müxtəlifdir. Hazırda AŞ PA-nın Dağlıq Qarabağ münaqişəsi üzrə Alt Komitəsinin sədri böyük britaniyalı deputat Lord C.Rassel-Conston hər bir münaqişə fərqli cəhətlərə malik olduğu üçün yeni komitənin yaradılmasını faydalı saymır. Lakin ərazisində belə münaqişələri olan Gürcüstan, Moldova və Azərbaycan, o cümlədən həmin ölkələrlə bərabər GUAM-ın üzvü olan Ukrayna dövləti də bu Komitənin yaradılmasını dəstəkləyirlər. AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun sözlərinə görə «Müzakirələr onu deməyə əsas verir ki, dondurulmuş münaqişələr üzrə Alt Komitənin yaradılması ideyası qəbul olunandır və bununla bağlı işlər görülür». O qeyd edib ki: «Avropa Şurasının bu məsələdə böyük rolu var. Bizim məqsədimiz ondan ibarətdir ki, dondurulmuş münaqişələr həll olunana qədər beynəlxalq ictimaiyyətin gündəmindən çıxmasın» (37).

* *Qətnamənin beşinci maddəsində Avropa Şurası Baş Assambleyası Minsk qrupunun üzv dövlətlərini münaqişənin dinc yolla həllinə nail olmaq üçün səylərini artırmağa çağırır. Həmin dövlətlərin Assambleyadakı milli nümayəndə heyətlərini hər il hökümətlərinin bu istiqamətdə gördüyü işlər barəsində Assambleyaya məruzə etməyə dəvət edir. Bu məqsədlə Assambleya Bürodan xüsusilə bu milli nümayəndə heyətlərinin başçılarından ibarət olan Xüsusi Komitə yaratmağı xahiş edir.*





Avropa Şurası Dövlət başçılarının münaqişəni silah gücünə həll edəcəkləri kimi bəyanatlarına da biganə qalmayaraq öz münasibətini bildirib. 2006-cı ilin aprel ayında AŞ PA-nın prezidenti Rene van der Linden Qarabağ problemini güc yolu ilə həll etməyə başlayacaq ölkənin Avropa Şurasında üzvlüyü məsələsinə baxılacağını və münaqişəni silah gücünə həll etməyə çalışan dövlətin Avropa Şurasında yeri olmadığını dövlətlərin nəzərinə çatdırıb (348).

2006-cı ilin dekabr ayında Bakıda AŞ PA-nın Siyasi məsələlər Komitəsinin iclası keçirildi. Qeyd etmək lazımdır ki, AŞ-ın qərarı ilə həmin Komitənin iclasının Azərbaycanda keçirilməsi qadağan edilmişdi, yaxud o şərtlə mümkün idi ki, Komitənin iclası Ermənistanda da keçirilsin. İclas zamanı Komitə sədri bildirdi ki: «Azərbaycan ilə Avropa Şurası arasındakı əlaqələr getdikcə möhkəmlənir və Azərbaycan təşkilat üçün etibarlı tərəfdaşa çevrilir». Sədrin sözlərinə görə: «AŞ qəbul etdiyi qətnamənin yerinə yetirilməsinə çalışır. Siyasi məsələlər Komitəsi isə bu barədə daha bir qətnamə hazırlayaraq yuxarı orqanlara təqdim edib» (186).

Toplantıda Avropa Şurası Parlament Assambleyasının Qafqaz üzrə məruzəçisi rumıniyalı deputat Adrian Severin də Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini diqqətə çəkərək, AŞ tarixində üzv dövlətlərdən birinin digərinin ərazilərini işğal etməsini görünməmiş hal kimi qiymətləndirmişdi (61).

Lakin Dağlıq Qarabağ problemi Azərbaycan və Ermənistan hələ AŞ-ın üzvü olmadıqları bir vaxtda yaranmışdı. Bu səbəbə də AŞ Ermənistanı təşkilata üzv qəbul etməyə bilərdi. Yeri gəlmişkən qeyd edək ki, 2006-cı ilin yanvar ayında, AŞ PA-nın qış sessiyası zamanı, Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Rəfael Hüseynov Avropa Şurası Nazirlər Komitəsinə «Avropa Şurasının təməl prinsiplərinə və əsas meyarlarına zidd fəaliyyət göstərən işğalçı Er-

mənistan bu təşkilatın üzvlüyündə qalmasının yolverilməzliyi» adlı sənəd ünvanlayıb və Ermənistanın işğalçı dövlət kimi təşkilatda üzvlüyü məsələsinə baxılmasını istəyib. Müraciətdə Ermənistanın işğalçılıq siyasətini göstərən faktlar öz əksini tapıb, o cümlədən Ermənistanın AŞ qarşısındakı öhdəliklərinə əməl etmədiyi göstərilir və işğalçı ölkənin AŞ-da üzv kimi saxlanmasının təşkilatın təməl prinsiplərinə zidd olduğu bildirilib (74). «Trend» agentliyinin verdiyi məlumata əsasən, AŞ nazirlər Kabinetinin 2008-ci il 15 fevral tarixli 956-cı iclasının gündəliyinin layihəsinin üçüncü bəndində 483-cü məsələ kimi qeyd olunmuş həmin məsələnin müzakirəsi nəzərdə tutulmuşdu (410).

Avropa Şurasının Baş katibi Terri Devis Ermənistanın «A1+» telekanalına müsahibəsində Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi və hazırda işğal altında olan ərazi sayıldığını qeyd edib (192). Bundan başqa, T.Devis 2007-ci ilin iyun ayında Qarabağ probleminin Azərbaycanda və Ermənistanda keçiriləcək prezident seçkilərinədək həll ediləcəyinə ümid etdiyini bildirmişdi (332).

Avropa Şurası Ermənistanı təcavüzkar kimi tanıyan ikinci beynəlxalq təşkilat oldu. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğala məruz qalmasını ilk tanıyan beynəlxalq təşkilat İslam Konfransı Təşkilatı olmuşdu. Bu faktı özündə əks etdirən ilk qətnaməni də məhz İKT 27-29 aprel 1993-cü il tarixdə Pakistanın paytaxtı Kəraçi şəhərində keçirilən təşkilatın Xarici İşlər Nazirlərinin XXI konfransında qəbul etmişdi. Həmin qətnamədə BMT Baş Katibindən və Təhlükəsizlik Şurasının sədrindən xahiş olunurdu ki, Təhlükəsizlik Şurasında Ermənistanın təcavüzünü pisləyən və Azərbaycanın işğal edilmiş bütün torpaqlarından erməni qüvvələrinin çıxarılmasını tələb edən qətnamə qəbul olunması üçün bütün səlahiyyətlərindən istifadə etsin (13, s.132-133).





***Avropa İttifaqı (Aİ).*** Avropa İttifaqı Şurasının 16 dekabr 1991-ci il tarixdə Brüsseldə xarici işlər nazirləri səviyyəsində keçirilən iclasında Nazirlər SSRİ-də mövcud vəziyyəti müzakirə edərək qəbul olunmuş beynəlxalq standartlara riayət etmək şərti ilə və konkret siyasi vəziyyətdən çıxış edərək müttəfiq respublikaları müstəqil dövlət kimi tanımağa razı olduqlarını bildirmişdilər. Dövlətlərin müstəqilliyini tanımağa qərar verən nazirlər Helsinki Yekun aktını və Paris xartiyasını əsas götürmüşdülər. Müstəqillik üçün bir neçə meyar vacib sayılırdı. Həmin meyarlar arasında aşağıdakılara diqqət etmək yerinə düşər:

- bütün *sərhədlərin toxunulmazlığına hörmət:* sərhədlər yalnız sülh yolu ilə və qarşılıqlı razılaşma ilə dəyişdirilə bilər;
- öhdəlikləri müqaviləyə əsasən həll etmək: o cümlədən dövlətin hüquqi varislik və regional mübahisələrə dair bütün məsələlər, hətta arbitraj məhkəməsinə müraciət edilməsi lazım gələn halları da.

Bundan başqa, Nazirlər aqressiya nəticəsində yaranmış dövlətlərin tanınmayacağını da bildirmişdilər. Qərar 23.12. 1991-ci ildə qəbul edilib (261).

1993-cü il aprel ayının 7-də Aİ Ermənistan-Azərbaycan münaqişəsilə bağlı sərt bəyanatla çıxış edərək Ermənistanı əsassız ərazi iddialarından əl çəkməyə çağırmışdı (50).

Avropa İttifaqının sərhədlərinin getdikcə genişləndiyi üçün isə 2003-cü ildə təşkilat «Daha geniş qonşuluq: Şərq və Qərb qonşularla yeni çərçivə təşəbbüsü» adlı proqram qəbul etdi. Təşkilatın xarici işlər nazirləri 2004-cü ilin yanvarında Cənubi Qafqaz respublikalarını həmin proqrama cəlb etmək üçün Avropa Komissiyasına təkliflər hazırlamağı tapşırmışdılar. Bundan sonra Avropa İttifaqının Cənubi Qafqaz üzrə

xüsusi nümayəndəsi təyin olunmuşdu* (50). 2006-cı ilin 20 fevralından Piter Semnebi Aİ-nin Qafqaz regionu üzrə xüsusi nümayəndəsi təyin edildi. Əgər əvvəlki xüsusi nümayəndənin mandatı ona münaqişələrlə yalnız «maraqlanmaq» imkanı verirdisə, P.Semnebiyə verilmiş mandat ona «münaqişənin həllinə kömək etmək» imkanı verir (257).

Piter Semnebi 2006-cı ilin may ayında Moskvaya rəsmi səfəri zamanı «Независимая Газета»ya eksklüziv müsahibəsində Qafqazın təbii region, yaxud daha böyük Qara dəniz regionunun bir hissəsi olduğunu müəyyənləşdirmək lazım olduğunu söyləmişdi (257). Azərbaycan Prezidentinin İcra Aparatının beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov da AzərTAc-a müsahibəsində indi Xəzər bölgəsi, Cənubi Qafqaz və Qara dəniz bölgəsinin geniş mənada bir region hesab olunduğunu bildirib (59). Həmin səfər zamanı Piter Semnebi «Avropanın qonşuluq siyasəti»nin Avropa İttifaqına üzvlük perspektivi nəzərdə tutmadığını qeyd edib (257). Dövlət və hökumət başçılarının 2006-cı ilin 15 dekabrında keçirilən zirvə toplantısı zamanı Aİ-nin genişlənməsinin əleyhinə olan dövlətlər 2007-ci ilin 1 yanvarından Rumıniya və Bolqarıstanın təşkilata üzv olması ilə təşkilatın qapılarının digər dövlətlərin üzünə bağlanmasını istədilər və bunu ölkələrində həddən artıq ucuz işçi qüvvəsinin yaranması, nəticədə isə öz vətəndaşlarının əmək haqqlarının aşağı düşməsi, sosial rifahın zəifləməsi ilə izah etdilər. Genişlənmə tərəfdarı olan Avropa Komissiyasının sədri Manuel Barrozu isə genişlənmənin 3 istiqamətdə – kommunikasiya, konsolidasiya və şərtlərə uyğun olaraq aparılmasını zəruri sayır. Kommunikasiya və konsolidasiya hər şeydən əvvəl avropalıların qarşılıqlı əlaqələri, birliyi, ittifaq institutlarınm islahatlar yolu ilə gücləndirilməsidir. Şərtlərə uyğunluq isə İttifaqa üzv olmaq istəyən, lakin Avropada yerləşməyən ölkələrə aiddir (54). Avropa İttifaqına üzv olmaq üçün irəli sürülən şərtlərdən biri də odur ki, üzv olmaq istəyən ölkənin nə həmsərhəd, nə də digər dövlətlərlə arasında heç bir münaqişə olmamalıdır.

---

* *Avropa İttifaqının Cənubi Qafqaz üzrə ilk nümayəndəsi 1995-ci ilin aprel ayından 1996-cı ilin sonunadək Minsk qrupunun həmsədri olmuş finlandiyalı Heyke Talvitiye idi.*





Uzun illər Avropa İttifaqı katolik və protestant ölkələr birliyi kimi inkişaf etdiyi üçün o bir-birinə oxşar sivilizasiyaya mənsub dövlətləri birləşdirən təşkilat hesab edilirdi. 1982-ci ildə pravoslav ölkə olan Yunanıstan, onun ardınca digər pravoslav ölkələrin Aİ-yə qoşulması ilə təşkilat bütün xristian aləmini özündə birləşdirdi (399). İndi isə Aİ-ni xristian ölkələr birliyi adlandırırlar. Və öz sivil inkişafına görə Avropa ölkələrindən heç də geri qalmayan Türkiyə qarşısında bəzi şərtlər qoyulsa da, belə fikirlər mövcuddur ki, Türkiyənin Aİ-yə qəbul edilməməsinin əsas səbəbi əslində, onun məhz müsəlman ölkəsi olmasıdır. Hətta bəzi analitiklər Aİ Konstitusiyasının qəbul edilməməsinin səbəbini Konstitusiyadan Aİ-nin xristian dəyərlərinə əsaslandığı göstərilən bəndin çıxarılması ilə izah edirlər (395).

Türkiyənin Aİ-yə qəbul edilməsi üçün qarşısında qoyulan ən əsas şərtlərdən biri onun Ermənistanla sərhədlərinin açılmasıdır. 2005-ci ilin oktyabr ayında Türkiyənin Avropa İttifaqına üzv olması məsələsi müzakirə olunarkən Türkiyə rəhbərliyi ölkə qarşısına qoyulan şərtlərdən birini - «Ermənistanla əlaqələrini normallaşdırması» şərtini qəbul etmədiklərini qəti şəkildə bildirmiş və qeyd etmişdi ki, Türkiyə qarşısına qoyulan şərtləri kifayət qədər yerinə yetirir və Ermənistanla sərhədlərini isə, yalnız onun Azərbaycan torpaqlarını azad edəcəyi təqdirdə açacaq. Türkiyə prezidenti Əhməd Necdət Sezər birbaşa bəyan etmişdi: «Türkiyə Avropaya möhtac olan köməksiz və aciz bir ölkə deyil. Biz Avropa İt-

tifaqına üzvlük naminə hər şeyi qurban verəcək dərəcədə şəxsi ləyaqət hissimizi itirməmişik» (143 s.20-21).

Aİ də bütün digər təşkilatlar kimi Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, sülh və danışıqlar yolu ilə və ATƏT-in Minsk qrupu çərçivəsində həllinin tərəfdarıdır (48). Piter Semnebi bu fikirdədir ki, münaqişə rayonlarında icmalar, azlıqlar və çoxluqlar arasında inam yaratmaq istiqamətində gərgin iş aparmadan münaqişəni həll etmək mümkün deyil (257). O, həmçinin Dağlıq Qarabağın statusunun referendumla deyil, danışıqlar yolu ilə həllinin tərəfdarıdır (86).

Avropa İttifaqı 2004-cü ilin əvvəlində Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş beş rayonun (Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan) qaytarılması müqabilində Bakı-Naxçıvan-Yerevan dəmiryol xəttinin açılması təklifi ilə çıxış etmişdi. Azərbaycan tərəfi bu təkliflə razılaşsa da Ermənistan buna etiraz etmişdi (50).

13-14 dekabr 2006-cı il tarixdə Strasburq şəhərində Azərbaycan Respublikası Milli Məclis sədrinin müavini Valeh Ələsgərov və Fransa Parlamentinin deputatı Aysler Beguinin sədrliyi ilə Avropa İttifaqı-Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsinin 7-ci iclası keçirilmişdi. İclasda bir sıra tövsiyə xarakterli sənədlər qəbul edilmişdi. Sənədlərin Dağlıq Qarabağdakı vəziyyətlə bağlı hissəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam dəstəklənir, həmçinin qeyd edilirdi ki, regionda sülhə və təhlükəsizliyə nail olmaq üçün BMT TŞ qətnamələri, ATƏT-in sənədləri və qərarları əsasında Minsk qrupunun münaqişənin həllinə yönəlmiş səylərinə siyasi dəstək artırılmalıdır. Dağlıq Qarabağın statusuna gəldikdə isə sənəddə göstərilir ki, status yalnız dövlətin ərazi bütövlüyü və suverenliyi prinsipi, milli azlıqların hüquqları nəzərə alınmaqla, regionun azərbaycanlı və erməni icmalarından ibarət olan bütün əhalisinin tam, bərabər və





birbaşa iştirak edəcəyi təqdirdə hüquqi, demokratik və dinc yolla müəyyənləşdirilə bilər (51).

Lakin bütün bunlarla yanaşı, Avropa İttifaqının münaqişəyə münasibətdə bəzən ikili mövqe tutması diqqəti cəlb edir. 2006-cı ilin dekabr ayında Azərbaycan və Ermənistanla «Yeni Qonşuluq Siyasəti» çərçivəsində Fəaliyyət Planını imzalayan Avropa İttifaqının Azərbaycanla imzaladığı sənəddə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn tanınmış normaları, BMT qətnamələri və ATƏT-in sənədləri və qərarları əsasında həllini dəstəklədiyi qeyd olunsa da, Ermənistanla bağladığı müqavilədə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən «millətlərin öz müqəddəratlarını təyinetmə» hüququ çərçivəsində həllini dəstəklədiyi qeyd olunub. Bir problemə eyni qurumun ikili yanaşmasının səbəblərini şərh edən P.Semnebi hər iki variantın müvafiq beynəlxalq müqavilələrə uyğun olduğunu bildirib. Amma o, son olaraq münaqişənin hansı prinsip üzrə ədalətli həll ediləcəyini söyləməyə çətinlik çəkib. Hazırkı mərhələdə Avropa İttifaqının münaqişənin nizamlanmasında yaxından iştirak etmədiyini bildirən xüsusi nümayəndə gələcəkdə bu istiqamətdə dəyişikliklərin mümkünlüyünü də istisna etməyib (48). Aİ-nin «Yeni qonşuluq siyasəti» Proqramı üzrə Azərbaycanla əlaqələrə məsul nümayəndə Cüzeppe Buzini də münaqişənin həllinin Proqramın icraçılarının səlahiyyətində olmadığını bildirib. Bununla yanaşı, o, Avropa İttifaqının üzvü olan Fransanın ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olduğu üçün Aİ-nin münaqişəyə birbaşa olmasa da hər halda aidiyyatı olduğu fikrindədir (127).

Əvvəldə də qeyd etmişdik ki, ATƏT-in fransalı həmsədri B.Fasye də Avropa İttifaqının Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün imkanlara malik olduğunu bildirmişdi. Təşkilatın Cənubi Qafqaz üzrə nümayəndəsi Piter

Semnebi isə 2006-cı ilin mart ayında Azərbaycan televiziyasına müsahibəsində Avropa İttifaqının Ermənistan-Azərbaycan münaqişəsinin həllində birbaşa iştirak edəcəyini, «Azadlıq» radiosuna müsahibəsində isə Cənubi Qafqazda münaqişələrin nizamlanmasının Aİ-nin prioritetlərindən biri olacağını və bunun isə təşkilatın problemli vəziyyətlərin həlli məsələlərinə daha fəal cəlb edilməsinə siqnal olduğunu qeyd edib (383). Buna uyğun olaraq Aİ 2007-ci ildən Ermənistan-Azərbaycan münaqişəsinin nizamlama prosesində yaxından iştirak etməyə başlayıb. Oktyabr ayının ilk günlərində Avropa Parlamentinin xarici əlaqələr Komitəsində Cənubi Qafqaz haqqında dinləmələr zamanı Avropa Parlamentinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi fransalı İsler Bequin Minsk qrupunda Fransanın Avropa İttifaqı ilə əvəz edilməsini təklif etdi. O bunu onunla əlaqələndirdi ki: «Avropa İttifaqının Cənubi Qafqazda baş verən münaqişələrin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həllində yaxından iştirakı vacibdir». Onun fikrincə həmsədr kimi Fransanın mandatı Aİ-yə verilərsə o, münaqişəni yüksək səviyyədə nizamlaya bilər (345). Azərbaycan tərəfi bu haqda rəsmi müraciət edilərsə o zaman bu məsələyə baxılacağını bildirib. Bununla yanaşı, Aİ Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının görüşünü təşkil etmək təklifi ilə çıxış etdi. Azərbaycanlı icmasının rəhbəri N.Bəhmənov belə bir görüşün yalnız Şuşa şəhərində və Azərbaycan bayrağı altında baş tuta biləcəyini bəyan edib. Rəsmi dairələrdə isə belə bir görüş üçün vaxtın hələ yetişmədiyi bildirilir.

Piter Semnebi 2006-cı ilin dekabr ayında Azərbaycanda səfərdə olarkən Aİ ilə Azərbaycan arasında münasibətlərin əməkdaşlıq mərhələsindən inteqrasiya mərhələsinə keçdiyini bildirmişdi. Qurumun Azərbaycanda nümayəndəliyinin açılacağı gözlənilir və bundan sonra ölkədə gedən prosesləri müşahidə etmək daha da asanlaşacaq və fəaliyyət planının





həyata keçirilməsi barədə hər il hesabat hazırlanması nəzərdə tutulur (52).

***NATO.*** Azərbaycan NATO-nun* üzvü olmasa da təşkilatla qarşılıqlı sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq 1994-cü ildən «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində başlayıb, 2004-cü ilin may ayından isə «Fərdi tərəfdaşlıq fəaliyyət planı» çərçivəsində aparılır (157). 2003-cü ilin may ayının əvvəllərində Bakıda Milli Məclisin həmin vaxt sədri olan Murtuz Ələsgərovla görüşən NATO-nun cənubi-şərqi Avropa üzrə birləşmiş qüvvələr komandanı, ordu generalı O.Ataman NATO-nun Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesində iştirak etməsi üçün BMT və ATƏT-in ona müvafiq səlahiyyətlər verməli olduğunu bildirmişdi. O, münaqişənin siyasi yolla həllinin tərəfdarı olduğunu da qeyd etmişdi (252).

NATO 2004-cü il İstanbul sammitində Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının özünün strateji əhəmiyyətli zonası olduğunu göstərən sənəd qəbul edib (284, s.26).

NATO Parlament Assambleyasının sədri Pyer Lelluş 2006-cı il 26-30 may tarixdə PA-nın sessiyasının gedişində Azərbaycan və Ermənistan Prezidentləri ilə görüşüb regional təhlükəsizlik, Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsini müzakirə etmək məqsədilə Dövlət başçılarını Parisə dəvət etmişdi. Azərbaycan Prezidenti buna razılıq versə də Ermənistan Prezidentinin mətbuat katibi Viktor Soqomonyan həmin günlərdə, may ayının 25-26-da, Minsk qrupunun həmsədrlərinin Yerevana gəlişi gözlənildiyi və 28 mayda

---

** 2006-cı il 3 iyulda NATO İctimai Diplomatiya İdarəsi, Azərbaycan hökuməti və «Avro Atlantik mərkəz» İctimai Birliyinin dəstəyi ilə Avro Atlantik Mərkəz təsis edilmişdi. Mərkəzin məqsədi – NATO tərəfdaşlığı çərçivəsində ictimai diplomatiyanı gücləndirmək və Azərbaycan ictimaiyyətinin Şimal İttifaqı haqqında məlumat səviyyəsini artırmaqdır. Eyni zamanda, Avro Atlantik Mərkəz NATO-nun Azərbaycanda məlumat mərkəzidir (49).*

isə Respublika günü münasibətilə bayramı keçiriləcəyi üçün Ermənistan Prezidentinin sessiyada iştirak edə bilməyəcəyini bildirmişdi (136).

Azərbaycan Respublikasının başçısı İlham Əliyev isə Parisdə NATO-nun yaz sessiyasında iştirak edərək may ayının 30-da «Cənubi Qafqazda təhlükəsizliyə olan təhdidlər» mövzusunda çıxış edərək «Dağlıq Qarabağ»ın Qafqaz üçün təhlükə mənbəyi olduğunu və münaqişənin Ermənistanın işğalçı siyasəti nəticəsində yarandığını və həllinin uzandığını göstərmişdir (117).

NATO-nun Parlament Assambleyası çərçivəsində 19-23 oktyabr 2006-cı il tarixdə Kişinyov şəhərində keçirilən 64-cü Rouz-Rout* seminarında Azərbaycanı təmsil edən Elman Məmmədov Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məruzəsində ATƏT-in bu məsələdə heç bir fəaliyyətinin olmadığını və bunun da təcavüzkarlıq siyasətinə geniş impuls verdiyini qeyd etdi. Ümumilikdə isə məruzə ermənilərin münaqişədən öz müstəqilliklərini hüquqi çərçivəyə salmaq üçün demokratiya, insan haqları mövzusunda spekulyasiya etmələrinə həsr edilmişdi (87).

2006-cı ilin noyabr ayında NATO PA-nın Kanadanın Kvebek şəhərində keçirilən 52-ci illik sessiyasının gündəliyində duran Cənubi Qafqaz ölkələri ilə bağlı hazırlanmış hesabat, eləcə də Ermənistan-Azərbaycan münaqişəsinə dair məsələ 14 noyabr tarixdə NATO PA-nın Müdafiə və Təhlükəsizlik Komitəsinin yığıncağında müzakirə edildi və müvafiq qərar qəbul olundu. Yığıncaqda qəbul edilmiş «Cənubi Qafqazın NATO-da rolu» adlı sənəddə, əvvəlki illərdə qəbul

* *Belə seminarlar müxtəlif konflikt ocaqları üzrə keçirilir və bu seminarlarda hər hansı bir sənəd qəbul edilmir. Müzakirələr əsasən mövqelərin öyrənilməsi və NATO-nun daha yuxarı qərarverici qanunları üçün beyin mərkəzi funksiyasını yerinə yetirir. Toplanan materiallar əsasında NATO özünün bu və ya digər regiona dair siyasətini formalaşdırır (87).*





olunmuş sənədlərdən fərqli olaraq Azərbaycan ərazilərinin 20 faizinin işğal olunması, 1 milyondan artıq qaçqın və məcburi köçkünün uzun illərdən bəri çətin şəraitdə yaşaması, o cümlədən Ermənistan ərazisindən 200 min azərbaycanlının silah gücünə qovulması, BMT TŞ-nın münaqişəyə dair 4 qətnaməsi, həmçinin AŞ PA-nın münaqişə ilə bağlı qəbul etdiyi qərar öz əksini tapdı. Sənəddə münaqişə ilə bağlı bütün məqamlar konkret rəqəmlərlə göstərilmişdi. Yığıncaqda səsvermə hüququ olan 26 iştirakçı dövlətin 25-i sənədin lehinə səs vermişdi (158). 2006-cı il noyabr ayında NATO-ya üzv olan 26 dövlətin ölkə və hökumət başçılarının Riqada zirvə toplantısı zamanı qəbul edilən Bəyannamənin 43-cü maddəsində üzv dövlətlərin Azərbaycanın ərazi bütövlüyünü tanıdığı qeyd edib (156).

***10 dekabr 2006-cı il «konstitusiya referendumu» və beynəlxalq ictimaiyyətin ona münasibəti.*** Beynəlxalq ictimaiyyətin Ermənistan-Azərbaycan münaqişəsinə münasibəti «Dağlıq Qarabağ respublikasının» 10 dekabr 2006-cı il tarixdə keçirdiyi heç bir hüquqi qüvvəyə malik olmayan «konstitusiya referendumu»ndan sonra bir daha aydın oldu.

Həmin «konstitusiya referendumu» ilə münaqişənin həlli mərhələlərindən biri kimi təklif edilən referendum arasında heç bir əlaqə yoxdur. Çünki həmin referendum Dağlıq Qarabağın statusunu müəyyənləşdirmək məqsədi daşıyır və keçirilməsi bir sıra mərhələlərdən sonra mümkün sayıla bilər.

Azərbaycan Xarici İşlər Nazirliyi nəzərdə tutulmuş 10 dekabr 2006-cı il «referendum»u ilə bağlı 2 dekabr 2006-cı il tarixdə bəyanat yayaraq həmin aktın Azərbaycan Respublikasının Konstitusiyası ilə yanaşı beynəlxalq hüququn norma və prinsiplərini pozduğunu və hazırda davam edən sülh prosesinə mane olduğunu bildirmişdi. Sənəddə, həmçinin qeyd edilirdi: «Dağlıq Qarabağ regionu əhalisinin özünü idarəetmə haqqında hər hansı konstitusion sənəd, yalnız regionun

bütün erməni və azərbaycanlı icmalarının tam, bərabər və birbaşa iştirak edə biləcəyi son dərəcə dəqiq işlənmiş qanuni, demokratik və sülh prosesi vasitəsilə həyata keçirilə bilər». Bundan başqa Azərbaycanın heç vaxt Ermənistan tərəfinin həyata keçirdiyi fait accomrli (baş vermiş fakt) bədnam təcrübəsinə əsaslanan və regionda davamlı sülh və sabitliyə nail olmaq üçün göstərilən səylərə tamamilə zidd olan belə qanunsuz aktları tanımayacağı göstərilirdi (183;168; 88).

Beynəlxalq təşkilatlar və bir sıra dövlətlər «konstitusiya referendumu»na öz münasibətlərini hələ əvvəlcədən bildirdilər.

GUAM Xarici İşlər Nazirləri Şurası dekabr ayının 5-də Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu ərazisində «konstitusiya referendumu» adlandırılan aktla bağlı bəyanat vermişdi. Bəyanatda Şura «referendum»un keçirilməsini Azərbaycan Konstitusiyasının, həmçinin beynəlxalq hüququn müvafiq norma və prinsiplərinin pozulması kimi qiymətləndirirdi və onun heç bir hüquqi əhəmiyyət kəsb etməyəcəyini bildirirdi. GUAM Xarici İşlər Nazirləri Şurası bu aktı demokratiyanın dünya tərəfindən qəbul olunmuş standart və normalarına, qanun və insan haqqlarının aliliyi prinsipinə zidd hesab edirdi. Şura ATƏT-in bütün üzv dövlətlərini və digər beynəlxalq təşkilatları bu cür qeyri-qanuni hərəkəti müzakirə etməyə, Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunmuş sərhədlər çərçivəsində münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində davam edən cəhdləri dəstəkləməyə çağırdı (102).

Rumıniyanın xarici işlər naziri də öz dövləti adından bəyanat verərək bu tip qanunsuz aksiyaları tanımadığını və ərazi bütövlüyü prinsiplərinin onun üçün əsas olduğunu bildirdi (184).

ATƏT-in həmin vaxt fəaliyyətdə olan sədri Karel de Quxt da ATƏT-in bu referendumun nəticələrini tanımayaca-





ğını və referendumun son zamanlar müəyyən irəliləyiş əldə edilmiş danışıqlar prosesinə zidd olduğunu bildirmişdi. O, ayın əvvəlində ATƏT Nazirlər Şurasının Brüsseldə keçirilən 14-cü iclasında Dağlıq Qarabağa dair qəbul edilmiş bəyanata istinad edərək bildirmişdi: «Biz indi, müəyyən irəliləyişlərin əldə edildiyi bir vaxtda prosesi təhlükəyə məruz qoyan hər hansı bir əks hərəkəti qəbul etmirik və bu «referendum»un tanınmamasının səbəbi odur ki, beynəlxalq ictimaiyyətin heç bir nüfuzlu üzvü «Dağlıq Qarabağ respublikası» adlı müstəqil dövlət tanımır» (40).

Lakin əvvəlcədən verilən bəyanatlar da «referendum»un keçirilməsinin qarşısını ala bilmədi. «Dağlıq Qarabağ respublikası» 10 dekabr 2006-cı ildə özünün qanunsuz «konstitusiya referendumu»nu keçirdi. Referendumun keçirilməsi prosesində yüzə qədər «müşahidəçi» də iştirak etdi (88). Prezident Aparatı beynəlxalq əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov «referendum»da yalnız separatçı qurumun təmsilçilərindən başqa Rusiya və Ermənistandan nümayəndələrin iştirak etdiyini və digər xarici dövlətlərdən müşahidəçilər olmadığını bildirib. «Müşahidəçi»lərin çoxu qeyri-hökumət təşkilatlarını təmsil edirdilər və onların içində Rusiyadan gələnlər çoxluq təşkil edirdi. Rusiyalı «müşahidəçi»lər arasında dövlət qurumu olan Rusiya Elmlər Akademiyasının «Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər» institutunun direktoru Aleksandr Krılov da var idi (88). Aleksandr Krılov may ayının ikinci ongünlüyündə Rusiyanın «Strateji mədəniyyət» fondunun baş direktoru Vladimir Maksimenko və ekspert Andrey Araşevlə birgə Xankəndində olmuşdu. Həmin vaxt o, Qarabağ münaqişəsinin tez zamanda həllinin Dağlıq Qarabağa yalnız hərbi müdaxilə yolu ilə mümkün olduğunu desə də bildirmişdi ki: «Beynəlxalq vəziyyətin indiki durumu bu variantı mümkünsüz edir. Ona görə də bir real-

lığı qəbul etmək lazımdır ki, Qarabağ məsələsi on illərlə həll ediləcək» (321).

«Referendum»un gedişini işıqlandıran telekanallar için-də Gürcüstanın «Rustavi-2» telekanalı da var idi. Buna eti-raz olaraq, Gürcüstanın «Apxazeti» Beynəlxalq Təşəbbüs Qrupu (BTQ) həmin telekanalın jurnalistlərinin «referen-dum»un işıqlandırılmasında iştirakını pisləyən bəyanat yay-dı. Bəyanatda Gürcüstanın dostu və mühüm strateji tərəfdaşı olan, həm rəsmi Tbilisi, həm də gürcü xalqının dəstəklədiyi ölkənin ərazisində keçirilmiş «referendum»un işıqlandırılma-sı Gürcüstanla Azərbaycanın arasını vurmaq məqsədi daşı-yan fitnəkarlıq adlandırılırdı. BTQ bəyanatda, həmçinin «Rustavi-2» telekanalının həm Gürcüstan tamaşaçısı, həm də dost Azərbaycan xalqı və rəhbərliyi qarşısında üzr istəməsini təkid edirdi (38).

Beynəlxalq təşkilatlar dekabr ayının 10-da «Dağlıq Qa-rabağ»da keçirilən «konstitusiya referendumu»ndan sonra da onun yekunlarını tanımadılır və bununla bağlı bir sıra bə-yanatlar verdilər.

Avropa İttifaqının həmin vaxt fəaliyyətdə olan sədri Finlandiyanın xarici işlər naziri Matti Vanhanen dekabr ayı-nın 11-də yaydığı bəyanatda Aİ-nin «referendumun» nəticə-lərini tanımadığını və Minsk qrupunun və qrupun həmsədrlə-rinin Ermənistan-Azərbaycan münaqişəsinin nizama salın-ması üçün səylərini dəstəklədiyini bildirdi. Bəyanatda, həmçi-nin deyilirdi: «Avropa İttifaqı hesab edir ki, aparılan danı-şıqların nəticəsinə təsir göstərən belə «referendum»un keçiril-məsi münaqişənin dincliklə həlli üzrə konstruktiv hərəkətlərə kömək etmir». Aİ, həmçinin bütün münaqişə tərəflərini onun həllini danışıqlar yolu ilə təmin etmək üçün öz səylərini güc-ləndirməyə çağırmışdı (53). Aİ-nin Cənubi Qafqaz üzrə xüsu-si nümayəndəsi Peter Semnebi 2006-cı ilin dekabrında Azər-baycanda səfəri zamanı keçirdiyi mətbuat konfransında təş-





kilatın Dağlıq Qarabağ erməni separatçılarının keçirdiyi «re-ferendum»un nəticələrini tanımayacağını və belə hərəkətlərin münaqişənin həlli prosesinə mənfi təsir göstərəcəyini bildirdi (52). Avropa İttifaqı–Azərbaycan Parlamentlərarası əmək-daşlıq komitəsinin 13-14 dekabr 2006-cı ildə Strasburqda ke-çirilən 7-ci iclasında da həmin ilin 10 dekabrında keçirilmiş «konstitusiya referendumu» pisləndi (51).

13 dekabr 2006-cı il tarixdə Avropa Şurası Nümayən-dələr Komitəsinin Strasburq şəhərində keçirdiyi 983-cü icla-sında da Dağlıq Qarabağda qeyri-qanuni olaraq keçirilmiş «konstitusiya referendumu» müzakirə olunaraq Komitənin sədri adından bəyanat qəbul edilmişdi. Bəyanatda «konstitu-siyaya dair referendum»un tanınmadığı, onun heç bir beynəl-xalq hüquqi əsasının olmadığı və beynəlxalq hüquq prin-siplərinə və normalarına tamamilə zidd olduğu bildirildi (56).

Avropa Şurasının Nazirlər Komitəsi Katibliyinin rəh-bərliyinin də «referendum»a dair bəyanatında deyilirdi: «2006-cı il dekabrın 10-da Dağlıq Qarabağda keçirilmiş «konstitusiya referendumu»nun beynəlxalq ictimaiyyət tərə-findən tanınmadığını nəzərə alaraq, AŞ Nazirlər Komitəsinin rəhbərliyi bir daha bəyan edir ki, ATƏT-in Minsk qrupunun və onun həmsədrlərinin Ermənistan-Azərbaycan münaqişə-sinin həlli istiqamətində göstərdiyi səyləri bütünlükdə dəstək-ləyir. Komitə onu da narahatlıqla qeyd edir ki, danışıqların nəticəsini gözləmədən belə «referendum»un keçirilməsi mü-naqişənin həllinə kömək edə bilməz. Nazirlər Komitəsi tərəf-ləri Avropa Şurası qarşısında götürdükləri öhdəliklərə uyğun olaraq münaqişənin sülh yolu ilə həlli üçün səylərini artırma-ğa çağırır» (86).

İslam Konfransı Təşkilatı da qondarma «Dağlıq Qara-bağ Respublikası»nın keçirdiyi referendumun nəticələrini ta-nımayacağını bəyan etdi. Təşkilatın nümayəndəsi Ətta əl-Mənnan bildirdi ki, bu saxta referendum beynəlxalq hüqu-

qun bütün norma və prisiplərini ən kobud şəkildə pozur və sülh danışıqlarının davam etdirilməsinə mane olur. O, həmçinin İKT-nın işğaldan və Ermənistan ordusunun Dağlıq Qarabağın azərbaycanlı əhalisinə qarşı apardığı etnik təmizləmələrdən yaxşı xəbərdardır və Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır. Ətta əl-Mənnan Dağlıq Qarabağın statusunu müəyyənləşdirən hər hansı sazişin bu bölgənin həm erməni, həm də azərbaycanlı icmalarının lazımınca və bərabər iştirakı şərti ilə dinc demokratik proses çərçivəsində qəbul edilməsinin tərəfdarı olduğunu da bildirdi (124). İKT-nin bəyanatında deyilirdi: «İKT Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü bir daha kəskin surətdə pisləyir və Ermənistanı öz işğalçı kontingentini Azərbaycan ərazisindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarmağa çağırır» (134).

«Dağlıq Qarabağ respublikası»nın həmin vaxt «prezident»i A.Qukasyan öz bəyanatında keçirilmiş «referendum»un münaqişənin sülh yolu ilə həllinə xidmət etdiyini bildirsə də Ermənistan Prezidentinin mətbuat katibi V.Soqomonyan öz növbəsində beynəlxalq təşkilatların «referendum»a münasibətini Ermənistana və «Dağlıq Qarabağ»a hörmətsizlik olduğunu qeyd etdi (88).

Dövlətlər də «konstitusiya referendumu» keçirildikdən sonra ona öz mənfi münasibətlərini bildirdilər. ABŞ Dövlət Departamenti də «referendum»la bağlı bəyanat verərək onu pislədi və onun münaqişənin həllinə xidmət etmədiyini bildirdi. Bəyanatda, həmçinin Amerikanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığı və «Dağlıq Qarabağ»ı müstəqil dövlət kimi qəbul etmədiyi deyilir (88).

Gürcüstan və Minsk qrupunun həmsədrlərindən biri olan Fransa dövləti «referendum»a öz münasibətlərini Ermənistandakı səfirləri vasitəsilə bildirdilər. Gürcüstanın Ermənistandakı səfiri Revaz Qaçeçeladze Gürcüstanın «referendum»un nəticələrini tanımadığını və Gürcüstanın Ermənistandakı səfiri kimi öz ölkəsinin GUAM çərçivəsində ifadə olunmuş mövqeyi ilə razı olduğunu bildirdi (184).





Fransanın Ermənistana yeni təyin olunmuş səfiri Serj Smessov bildirdi: «Fransa Dağlıq Qarabağdakı «referendum»u qeyri-konstruktiv yanaşmanın təzahürü kimi qiymətləndirir». Səfir onu da qeyd etdi ki: «Biz Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımırıq və məntiqə uyğun olaraq, «referendum»un nəticələrini də tanımırıq» (184).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 22 dekabr 2006-cı il tarixdə Moskvanın «Эхо Москвы» radiosuna müsahibəsi zamanı bildirmişdi ki, Azərbaycan əvvəlcədən «referendum»un keçirilməsinə xüsusi etiraz bildirməmişdi. Prezident bunu onunla izah etmişdi ki, o, əvvəlcədən beynəlxalq təşkilatların bu «konstitusiya referendumu»na necə reaksiya verəcəyini bilirdi və Ermənistanın belə ağılsız addım atmasını gözləyirdi. «Referenduma» cavab olaraq beynəlxalq təşkilatlar və dövlətlər də verdikləri bəyanatlarda bir daha Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını və heç vaxt «Dağlıq Qarabağ»ı müstəqil dövlət kimi tanımayacaqlarını bəyan etdilər (69).

Ermənilər Dağlıq Qarabağda vaxtaşırı «seçkilər» və s. keçirməklə dünya ictimaiyyətinin diqqətini cəlb etmək məqsədi güdürlər. Lakin əvvəldən də münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və beynəlxalq hüququn prinsiplərinə uyğun həllinin tərəfdarı olan təşkilatların və dövlətlərin 10 dekabr 2006-cı il «referendum»una münasibətləri bir daha dünya ictimaiyyətinin Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağı onun tərkib hissəsi kimi qəbul etdiyini təsdiq etdi.

## FƏSİL 6

## İRANIN NÜVƏ MƏSƏLƏSİ VƏ ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ

İranın nüvə məsələsi ətrafında 1990-cı illərdən başlayan gərginliklə əlaqədar olaraq ABŞ onu bütün dünya, o cümlədən Yaxın Şərq və Amerikanın özü üçün təhlükə mənbəyi sayır. Buna görə də ABŞ İrana təsir edə biləcək yollar axtarmağa və bir sıra tədbirlər görməyə çalışır.

İranın nüvə proqramı ətrafında vəziyyətin 2006-cı il üçün daha da kəskinləşməsini ABŞ-ın Ermənistan-Azərbaycan münaqişəsinin məhz həmin ildə həllinə çalışmasının səbəblərindən biri kimi görürdülər və həmin il ABŞ-ın İrana qarşı hərbi sanksiyalar tətbiq edəcəyi ehtimalı da yüksək idi.

İran ilk olaraq, 1957-ci ildə Amerikanın «Sülh üçün atom» proqramı çərçivəsində onunla atom enerjisini dinc məqsədlərlə istifadə etmək haqqında razılaşma imzaladıqdan sonra nüvə sahəsində tədqiqatlara başlamışdı. Proqram çərçivəsində atom energetikasını inkişaf etdirmək üçün ABŞ-ın İranı nüvə qurğuları və avadanlıqları ilə təmin edəcəyi və həmin sahədə mütəxəssislər hazırlayacağı nəzərdə tutulurdu, bir şərtlə ki, həmin sahədə istifadə edilən obyektlərin monitorinqi və təftişi hüququna ABŞ-a verilsin. Proqrama əsasən Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) maddi və texniki dəstəyi ilə 1967-ci ildə ABŞ Tehranda yerləşən nüvə elmi-tədqiqat mərkəzini lazımi təchizatla təmin etməyə başladı və bununla İranda atom enerjisinin istehsalı üçün baza yaradıldı (398, s.34).

1970-ci ilin əvvəllərində İran enerji kompleksini genişləndirmək üçün proqram qəbul etdi və atom enerjisinin inkişafı proqramın ən prioritet istiqaməti oldu. 1974-cü ildə İran





Şahı Məhəmməd Rza Pəhləvi ölkə qazının və neftinin tükənəcəyini və artmaqda olan əhali qarşısında enerji qıtlığı yaranacağını əsas gətirərək atom enerjisi üzrə inkişaf planını təqdim etdi. ABŞ hökuməti də İranla tərəfdaş olduğu üçün sırf kommersiya məqsədilə bu sahədə onunla əməkdaşlığa razılıq verdi (272). 2005-ci ilin mart ayında «Vaşinqton post» qəzeti 1975-ci ildə ABŞ və İran arasında imzalanmış məxfi sənədi - «ABŞ və İran arasında nüvə sahəsində qarşılıqlı fəaliyyətlər» adlı 292 nömrəli Memorandumu dərc edərək İranın nüvə yanacağı istehsalının ABŞ-la İranın müştərək planı olduğunu bir daha təsdiq etdi. Memorandumda göstərilir: «nüvə enerjisindən istifadə etmək İrana özünün inkişaf etməkdə olan iqtisadiyyatının tələblərini ödəməyə, eyni vaxtda neft ehtiyatlarının ixracına və neft-kimya sahəsində istifadəsinə imkan yaradacaq». Qəzetdə Memorandumu o vaxt Dövlət katibi olmuş Henri Kissencerin imzaladığı, imzalama mərasimində isə o zaman Ağ evin Aparat rəhbəri olmuş D.Ramsfeldin, sonra onu həmin postda əvəz etmiş Dik Çeyninin, həmçinin silahlanma və tərksilah üzrə nəzarət idarəsində mühüm vəzifə tutan Vulfoviçin də iştirak etdikləri göstərilir. Bundan başqa, 1976-cı ildə ABŞ Prezidenti Fordun Tehrana urandan pluton əldə etmək üçün Amerikadan təchizat almasını təklif etməsinə dair məlumatlar da açıqlanmışdı (272). 1979-cü ildə Şah rejiminin devrilməsi və hakimiyyətə antiamerika siyasəti yürüdən rejimin gəlməsi ilə ABŞ-ın İranın nüvə məsələsinə münasibəti dəyişdi. İndi İranın hazırda hakimiyyətdə olan rejimi də şahın arqumentlərindən çıxış edir, lakin ABŞ buna inanmaq istəmir və nüvəni zənginləşdirməsini dayandırmayacağı təqdirdə İranı sanksiyalar tətbiq edəcəyilə hədələyir.

Qeyd etmək lazımdır ki, İran Nüvə silahının yayılması haqqında Müqavilənin üzvüdür, həmin Müqavilənin digər üzvləri kimi onun da nüvə yanacağı istehsal etməyə tam hüququ var və Beynəlxalq Atom Enerjisi Agentliyi də

(MAQATE) İranın bu hüququnu tanıyır (389). ABŞ-ın Dövlət katibi Kondoliza Rays ABŞ hökumətinin də İranın dinc nüvə proqramını inkişaf etdirmək hüququnu tanıdığını, lakin onun uranı zənginləşdirməsindən narahat olduğunu bildirərək qeyd etmişdi: «Biz istəyirik ki, iranlılar nüvə energetikasından bəhrələnsinlər və bu sahədə əməkdaşlıq mümkündür. Lakin uranın zənginləşdirilməsi nüvə silahının yaradılması ilə nəticələnə bilər» (33). Əvvəllər ABŞ Dövlət Departamentində kütləvi qırğın silahının yayılmaması məsələlərinə cavabdeh olmuş ABŞ-ın BMT-də səfiri Con Bolton isə Bi-bi-si telekanalına müsahibəsində İranın artıq 18 ildir ki, gizli olaraq nüvə silahı işləyib-hazırladığını və həmin silahın iranlılara Yaxın Şərqin digər ölkələrini qorxu altında saxlamaq, bəlkə də terrorçulara vermək üçün lazım olduğunu bildirmişdi (227).

İİR-in prezidenti Əhmədinejad isə 2005-ci il İKT-nin Məkkədə keçirilən zirvə toplantısı zamanı jurnalistlərə müsahibə verərkən İranın atom enerjisinə dair mövqeyini belə izah etmişdi: «İran MAQATE-yə üzv olan ilk azsaylı ölkələrdəndir. Ölkə NPT-nin* öhdəliklərini qəbul edib və ona əməl edir. Həmin öhdəliyin dördüncü maddəsində deyilir ki, sülh məqsədilə atom enerjisi istehsal etmək hər bir ökənin haqqıdır və heç bir dövlət İranı bu enerjini əldə etməkdən çəkindirə bilməz. Atom enerjisi texniki bir məsələdir ki, zaman keçdikcə siyasi məsələyə çevrilib. MAQATE və Qərb İranın atomu zənginləşdirməsinə siyasi nöqteyi-nəzərdən yanaşırlar, nəinki qanuni. Lakin İran NPT çərçivəsində öz fəaliyyətini davam etdirəcək» (411).

İİR Prezidenti Əhmədinejadın İsrailə və ABŞ-a dair bir sıra hədələyici bəyanatları ABŞ hökumətinin mövqeyinin daha da kəskin xarakter almasına səbəb olub.

* *nüvə silahının yayılmasına və istehsalına qadağa*





İran Prezidenti Əhmədinejad 2005-ci il oktyabr ayının 26-da (4 Aban 1384) ölkə Daxili İşlər Nazirliyində keçirilən «Sionizmsiz dünya» adlı konfransda minlərlə şagird qarşısında çıxışı zamanı İran İslam Respublikasının banisi Ayatolla Homeyninin sözlərinə istinadən «İsrailin yer üzündən silinməli» olduğunu söylədi. Əhmədinejad onu da qeyd etdi ki: «Allahın qüdrətilə tezliklə Amerikasız və sionizmsiz dünyanı sınaqdan keçirəcəyik» (412).

Bu sözlərdən sonra Rusiya xarici işlər naziri S.Lavrov İranı beynəlxalq sanksiyalardan müdafiə etməyə çalışan dövlətlərin mövqelərində dəyişikliklər yarandığım, lakin buna baxmayaraq İranın nüvə məsələsinin BMT Təhlükəsizlik Şurasına çıxarılmasının əleyhinə olan Rusiyanın MAQATE-nin təqdim edəcəyi konkret faktlardan çıxış edəcəyini də bildirmişdi (227). Əhmədinejadın sözləri müqabilində İsrail İranı BMT üzvlüyündən çıxarmağa səslədi. Bundan başqa, İsrail mətbuatı İranın sanksiyalardan qorxmamasının səbəblərini göstərərək bildirdi ki, İran rejiminə təzyiq göstərə biləcək böyük dövlətlər onunla iqtisadi əlaqələrini kəsməkdə maraqlı deyillər. Rusiya Buşəhr AES-in təkcə inşasından 1 milyard dollar əldə edib, Çinin İran neftinə ehtiyacı var, Fransa, İtaliya, İspaniya və s. Avropa dövlətlərinin biznesmenləri isə burada ABŞ-ın rəqib olmaması hesabına varlanırlar. ABŞ özü isə İranla birbaşa konfliktə getməkdən çəkinir (392). Qeyd etmək lazımdır ki, heç bir ölkə, hətta Avropa İttifaqı İranın təhlükəsizliyinə təminat verə bilmir, çünki ABŞ onlarla razılaşmır. Buna görə də İrana yalnız ABŞ-ın təminatı lazımdır.

İran da öz növbəsində iddia edir ki, İsrail yarandığı gündən – 1952-ci ildən nüvə enerjisi üzrə komissiya yaradıb, bununla da nüvə enerjisinin tədqiqinə başlayıb. ABŞ və İsrailin digər avropalı strateji müttəfiqləri də ona MAQATE-nin xəbəri olmadan özünün hərbi nüvə proqramını işləyib-hazırlamaqda köməyini əsirgəməyib. Bu gün İsrail özünün nü-

və arsenalına malik olsa da Nüvə silahının yayılmaması haqqında Müqavilənin üzvü olmaqdan imtina edir. Nə qədər ki, İsrail özünün nüvə, kimyəvi və bioloji silahlarından əl çəkməyəcək və MAQATE ilə əməkdaşlıq etməyəcək Yaxın Şərq dövlətlərindən heç biri özünü təhlükəsizlikdə hiss etməyəcək (379).

Heç nəyə baxmayaraq, Əhmədinejadın İsrailə ismarıcları bitmədi. 7 dekabr 2005-ci ildə (16 Azər 1384) Məkkədə İKT-nin zirvə toplantısı zamanı mətbuat konfransında İİR-in prezidenti Əhmədinejad bildirmişi ki, «İsraillilər əmindirlər ki, ikinci dünya müharibəsi zamanı Hitler həddindən çox avropalı yəhudi qətlə yetirib və bu məsələ İsrail üçün bir bəhanə olub ki, Fələstində dövlət qursun. Biz İsraillilərə təklif edirik, öz torpaqlarına və Avropaya geri dönsünlər. Bu yolda biz onlara kömək edərik və onları dəstəkləyərik» (411). 2006-cı ilin may ayında isə o, İsraili «nə vaxtsa məhv ediləcək tiran rejim» adlandırdı (231).

ABŞ-ın mövqeyi İranın nüvə proqramını dəstəkləyən və onunla bu sahədə əməkdaşlıq edən Rusiyanın mövqeyi ilə üst-üstə düşmür. İİR Rusiyanın iştirakı ilə Buşəhrdə atom elektrik stansiyası inşa edir. 1970-ci illərin ortalarında Almaniyanın «Siemens» konserni tərəfindən inşa edilməyə başlamış, sonra isə İranda rejimin dəyişməsilə əlaqədar olaraq və İranın şirkətə olan borcu müqabilində 1979-cu ilin iyul ayından yarımçıq qalmış Buşəhr AES-in inşası 1992-ci ildən Rusiyanın «Atomstroyeksport» şirkətinin iştirakı ilə davam etdirilir. 2005-ci ilin fevral ayında istifadə edilmiş yanacağın yenidən Rusiyaya qaytarılacağına dair razılıq əldə edildikdən sonra onu nüvə yanacağı ilə Rusiyanın təchiz edəcəyi barədə müqavilə imzalanmışdı (309). Rusiyanın bu addımı ABŞ tərəfdən kəskin qarşılanmış və Senator Con Mak Keyn Rusiyanın «böyük səkkizlik»dən çıxarılmasını tələb edən qətnamə layihəsi təklif etmişdi. Bununla yanaşı, İran məsələsində düz-





gün mövqe tutmayan ölkələrə qarşı (ilk növbədə Rusiya nəzərdə tutulur) ticarət və iqtisadi sanksiyaların tətbiq ediləcəyi kimi hədələr də səsləndirilmişdi (309). 2007-ci ildə Rusiyanın «böyük səkkizlik»dən çıxarılmasını bir daha gündəmə gətirən Con Mak Keyn Rusiyanın əvəzinə Hindistanın, yaxud Braziliyanın səkkizliyə qəbul edilməsi təklifini irəli sürdü. Əvvəlcədən İranın nüvəni zənginləşdirməsinin əleyhinə olan ABŞ 2006-cı ilin iyun ayının əvvəlində İrana gələcəkdə öz ərazisində (İranda) uranı zənginləşdirəcəyinə icazə verəcəyini bildirdi. Ekspertlər isə bunu belə izah edirlər, əsas səbəb odur ki, ABŞ İran AES-ləri üçün uranın Rusiya ərazisində zənginləşdirilməsinin əleyhinədir. Çünki bu Moskva və Tehran arasında əlaqələrin daha da möhkəmlənməsinə gətirib çıxarar, ABŞ-a isə İranı təkləmək lazımdır ki, ona kənardan təzyiq göstərmək asan olsun (334).

Bir sıra digər məsələlərdə olduğu kimi İranın nüvə məsələsinə münasibətdə də həm ABŞ, həm də Rusiya Azərbaycanı özünə müttəfiq görmək istəyir. Bununla bağlı belə bir fikir mövcuddur ki, ABŞ İrana zərbə endirməzdən əvvəl antiiran koalisiyasına heç olmasa bir müsəlman ölkəsi cəlb etmək niyyətindədir ki, Azərbaycan həmin müsəlman ölkəsi ola bilər (275). Hesab edilirdi ki, 2006-cı ildə ABŞ Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsinə kömək edəcək və bunun müqabilində Azərbaycanın antiiran koalisiyasına qoşulmasına çalışacaq (219). Bununla yanaşı, İranın təcrid olunduğu bir vaxtda region dövlətinin, xüsusilə də Azərbaycan ərazisindən hərbi meydan, yaxud İrana zərbə endirmək üçün hava limanı kimi istifadə etmək məqsədilə ABŞ-a Cənubi Qafqaz regionunda sülh və sabitlik lazım olduğu söylənilirdi (219).

İran da, öz növbəsində, Azərbaycanın ona qarşı koalisiyaya qoşulacağından narahatlıq keçirirdi. 2004-cü il avqust ayının əvvəllərində İran Prezidenti Məhəmməd Xatəmi Azər-

baycanda rəsmi səfərdə olarkən Azərbaycanın Qərbə, xüsusilə də ABŞ-a meylli olmasından İranın narazılığını bildirmişdi (343). 2005-ci ilin yanvar ayında Prezident İlham Əliyevin İrana səfəri ərəfəsində Təbriz şəhərində Azərbaycan konsulluğunun* açılmasının və həmin vaxt bir sıra məsələlərdə İranın ciddi güzəştlərə getməsi də Azərbaycanın öz ərazilərini İrana qarşı hərbi aksiyalar üçün istifadəyə verməkdən çəkindirmək məqsədi daşıdığı güman edilir (271). 2006-cı ilin 19-21 aprelində İİR-in müdafiə naziri Mustafa Məhəmməd Necər Azərbaycan Respublikasının müdafiə naziri S.Əbiyevin dəvətilə Bakıya səfər etmişdi. Həmin səfərin Prezident İlham Əliyevin aprel ayının sonunda ABŞ-a rəsmi səfər edəcəyi ərəfədə baş tutmasını da İranın Azərbaycanın antiiran koalisiyasına qoşulacağından narahat olması ilə bağlayırlar. Səfər zamanı iranlı müdafiə naziri bildirmişdi ki, İran heç vaxt ABŞ-la arasında bir vasitəçinin olmasını istəməmişdi. İndi isə İlham Əliyev ABŞ və İran arasında danışıqlarda vasitəçi ola bilər və ayın sonunda Amerikaya rəsmi səfəri zamanı «İlham Əliyev Vaşinqtona regiondakı vəziyyət və İranın nüvə fəaliyyəti haqqında daha dəqiq məlumat təqdim edə bilər» (267). Müdafiə naziri M.Necər, həmçinin Azərbaycana Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsində İİR-in köməklik göstərməyə hazır olduğunu da qeyd etmişdi.

---

* *1994-cü ilin yayında Prezident Heydər Əliyevin Tehrana rəsmi səfəri zamanı imzalanmış sazişdə Naxçıvanda İranın, Təbriz şəhərində isə Azərbaycan Respublikasının baş konsulluğunun açılması nəzərdə tutulmuşdu. Naxçıvanda İranın baş konsulluğu açılsa da İran tərəfi sözünə əməl etmədi və bu uzun müddət iki ölkə arasında gərgin müzakirə predmeti oldu. 2004-cü ilin avqust ayında İran prezidentinin Azərbaycana rəsmi səfəri zamanı İlham Əliyev və Məhəmməd Xatəminin görüşündə Təbrizdə konsulluğun fəaliyyətə başlamasına dair qərar qəbul olundu. Həmin il oktyabr ayının 20-də İranın Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulluğu açıldı.*





Elə buna görə də, 2006-cı il aprel ayının 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerikaya rəsmi səfəri zamanı ABŞ Prezidenti Corc Buşu İrana qarşı sanksiya tətbiq etmək qərarından çəkindirməyə çalışacağı gözlənilirdi (275). İ.Əliyevin ABŞ-a səfəri ABŞ-Azərbaycan strateji əməkdaşlığına həsr edilmişdi və bu görüş aprel ayının əvvəllərində Azərbaycanın xarici işlər naziri E.Məmmədyarovun Vaşinqtonda ABŞ-ın Dövlət katibi K.Raysla görüşü zamanı razılaşdırılmışdı (266). Görüşdən sonra hər iki Dövlət başçısı bəyanatla çıxış etdi. C.Buş öz bəyanatında bir sıra digər məsələlərlə yanaşı, İran haqqında da danışıqlar aparıldığını və İlham Əliyevi bu problemi diplomatik və dinc yolla həll etmək arzusunda olduğuna əmin etdiyini bildirdi (1, s.13).

ABŞ Prezidenti ilə görüş ərəfəsində Dövlət başçısı İlham Əliyev beynəlxalq əlaqələr Şurasında görüşdə olmuş və orada bildirmişdi: «Azərbaycan regionda bütün problemlərin sülh yolu ilə həllinin tərəfdarıdır. Və Azərbaycanla İran arasında imzalanmış razılaşmaya əsasən bizim ərazilərimiz hərbi məqsədlər üçün bir-birimizin əleyhinə istifadə edilə bilməz. İqtisadi inkişaf və qarşılıqlı əməkdaşlıq yolu tutmuş Azərbaycan heç vaxt dövlətlər arasında qarşıdurma meydanı olmayacaq» (267).

Azərbaycan İran məsələsinin sülh yolu ilə nizamlanmasında maraqlıdır. Ona görə ki: I. İran və Azərbaycan dövlətləri arasında bağlanmış müqaviləyə əsasən xaricdən hər hansı təhlükə gözlənərsə, onda nə Azərbaycanın, nə də İranın ərazisi bir-birinin əleyhinə istifadə olunmayacaq; II. İranın şimalında çoxsaylı azərbaycanlı yaşayır və hərbi aksiyanın tətbiq ediləcəyi halda həmin ərazilərdən çoxsaylı azərbaycanlının Azərbaycan Respublikasına köçəcəyi ehtimalı böyükdür; III. Hərbi aksiyalar nəticəsində bütün regionda sabitlik pozulacaqdır; IV – Hərbi aksiyalar Ermənistan-Azərbaycan

münaqişəsinin həlli istiqamətində aparılan danışıqların dondurulmasına səbəb ola bilər.

Qeyd edək ki, ABŞ-ın İrana qarşı hərbi aksiyalara başlayacağından narahat olan yerli əhali arasında artıq İrandan mühacirət edənlər var. Çox ehtimal ki, Ermənistan İrandan mühacirət edəcək erməniləri Dağlıq Qarabağ ərazisində yerləşdirməyə cəhd edəcək.

Türkiyə silahlı qüvvələrinin ölkənin İraqla həmsərhəd bölgələrində PKK terror təşkilatına qarşı keçirdiyi əməliyyatlar nəticəsində isə terrorçuların ermənilərin işğal etdikləri Dağlıq Qarabağ ərazilərində yerləşdirilməsinə başlanılıb. 2007-ci ilin sonunda Bakıya səfəri zamanı Türkiyə Prezidenti Abdulla Gül bildirmişdi ki, kəşfiyyat Kürd Fəhlə Partiyasının erməni diasporu ilə əlaqə yaratdığını müəyyənləşdirib. Onlar arasında qurulmuş plana əsasən kürd terrorçuları hər hansı Avropa ölkəsinə, oradan isə Qafqaza keçir və burada Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilirlər. Erməni tərəfi isə bu məlumatın düz olmadığını və ermənilərə atılmış böhtan olduğunu bildirir (260).

İranla Ermənistan arasındakı sıx əməkdaşlıq mövcud olduğu üçün isə indi İİR-ə qarşı sanksiyaların tətbiq ediləcəyinin düşünüldüyü və onun təcrid edildiyi bir vaxtda Ermənistan ərazisindən İrana silah və hərbi texnikanın keçirilə biləcəyi güman edilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-cı il may ayının son günlərində Fransada «Fiqaro» qəzetinə müsahibəsində ABŞ-la İran arasında münaqişə törədə biləcək təhlükədən narahat olduğunu və belə olarsa, Azərbaycanın İrana qarşı hərbi aksiyanı dəstəkləməyəcəyini bəyan edib. Prezident, həmçinin məsələnin sülh və diplomatiya yolu ilə həll edilməsinə çalışmaq lazım olduğunu qeyd edib (119). Həmin ilin oktyabr ayının sonunda Moskva səfəri zamanı xarici jurnalistlərə müsahibəsində isə Dövlət başçısı bu





sanksiyaları effektsiz saydığını və problemin həll edilməsinə gətirib çıxarmayacağını, əksinə regiondakı mövcud vəziyyəti daha da gərginləşdirəcəyini bildirdi (201). İyun ayının əvvəlində Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı Bəyanatda da Azərbaycan BMT-nin üzvü olan hər bir dövlətin Beynəlxalq Atom Enerjisi Agentliyi ilə əməkdaşlıq çərçivəsində nüvə proqramlarını inkişaf etdirmək hüququna malik olduğunu nəzərə alaraq, İranın nüvə proqramı ətrafında yaranmış vəziyyətlə əlaqədar davam edən müzakirələrdə məsələnin sülh yolu ilə həllinə sadiq qaldığını təsdiq etdi. Azərbaycan Cənubi Qafqaz və Xəzər regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinin vacibliyini vurğulayaraq tərəfləri israrla qarşıdurma yaradan addımlardan çəkinməyə və qarşılıqlı konstruktiv əməkdaşlıq yolu ilə getməyə çağırdı (171). Xəzəryanı Dövlət başçılarının Tehran sammiti zamanı 16 oktyabr 2007-ci il tarixdə beş Dövlət başçısının birgə Bəyannaməsi qəbul edildi. Bəyannamənin 15-ci bəndində bir daha tərəflər qeyd etdilər ki: «Tərəflərin hər hansı birinə qarşı təcavüz və digər hərbi hərəkətlər törətmək üçün digər dövlətlərə heç bir halda öz ərazilərindən istifadə etməyə yol verilməyəcəkdir» (6).

* * *

İran regionda aparıcı dövlət olmaqda iddialıdır, regionun iqtisadi və siyasi inkişafı üçün bütün lazımi imkanlara malik olduğuna əmindir. 1990-cı illərin əvvəllərində isə dünyada və regionda baş verən siyasi proseslərlə əlaqədar olaraq İran hökuməti öz mövqeyini müəyyənləşdirmək və onu möhkəmlətmək məcburiyyətində qalmışdı. Həmin vaxt, antiiran koalisiyasının mövcudluğu, türkçülük, Şimali və Cənubi Azərbaycan məsələsinin yenidən gündəmə gəlməsi, Cənubi Azərbaycan Milli Oyanış hərəkatının fəallaşması, Ermənistan-Azərbaycan münaqişəsinin fəsadlarının İran ərazisinə keçəcəyi təhlükəsindən və NATO-nun Şərqə doğru inkişafın-

dan narahat olan İran Rusiya və Ermənistanla əməkdaşlığa üstünlük vermişdi. Həmin dövrün ilk illərində SSRİ-nin süqutunu real saymayan İran hökuməti MDB məkanında yerləşən ölkələrlə öz münasibətlərini Rusiyanın mövqeyini və fikrini nəzərə alaraq qururdu (116, s.179).

SSRİ-nin süqutu və «Soyuq müharibə»nin bitməsi nəticəsində qüvvələr balansını tənzimləyən bir qütb kimi siyasi arenadan sıxışdırılması ilə barışmayan və hələ də siyasi meydanda qüdrətli söz sahibi olduğunu sübut etməyə çalışan Rusiya isə böyük dövlətlər və əsas təşkilatlar tərəfindən bir növ təklənmiş ölkələrlə əməkdaşlıq qurur və onlara himayədarlıq edir. Məhz bu səbəbdəndir ki, onun İran, Çin və ərəb dünyasından ibarət «antiqərb blok»a rəhbərlik etdiyi deyilir. Bununla da özünün dünyada baş verən siyasi proseslərdə vacib tərəf olduğunu göstərmək istəyən Rusiya ABŞ-ı onun mövqeyi ilə razılaşmağa vadar etmək məqsədi güdür. ABŞ hökuməti isə Rusiyanın bu siyasətini sülhü qoruyub-saxlamaq üçün göstərilən səylərə zidd hərəkət kimi qəbul edir (307, s.308). İndi isə Rusiyanın rəsmi Bakını «antiqərb blok»a qoşmaq niyyətində olduğu söylənilir.

Azərbaycan İranın nüvə məsələsində ABŞ-ı dəstəkləsə, onda İrandan başqa, həm də onun strateji tərəfdaşı olan və regionda xususi çəkiyə malik Rusiya ilə də münasibətləri korlana bilər. Bu vaxt Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesində daha sərt mövqe nümayiş etdirə və hətta danışıqlar prosesini dayandıra da bilər. Minsk qrupunun həmsədri Yuri Merzlyakov da 2007-ci ilin aprel ayının əvvəlində İran ətrafında baş verən hadisələr barədə danışarkən İran məsələsinin sonrakı inkişafının Ermənistan-Azərbaycan münaqişəsinin həllinə mənfi təsir edə biləcəyini və hətta münaqişənin həlli istiqamətində aparılan danışıqların dondurulmasına da səbəb ola bilcəyini bildirib (122). Buna görə də Azərbaycan bu məsələdə Rusiyanın





mövqeyini də nəzərə almalıdır. Bundan başqa, İrana qarşı silahlı aksiyalar Azərbaycanın yaxın müttəfiqi olan Türkiyə üçün də arzuolunmaz fəsadlar törədə bilər və bu, Türkiyənin İranla sərhədlərində kürdlərin fəallaşması ilə nəticələnər. Onsuz da ABŞ-ın İraqda keçirdiyi hərbi aksiyalar nəticəsində İraqm Türkiyə ilə sərhədlərində kürdlər artıq real təhlükə mənbəyinə çevriliblər. Xüsusilə də ABŞ senatoru Cozef Baydenin İraqda federal hökumətin səlahiyyətlərini məhdudlaşdırmaqla regionların funksiyalarını artırmaq haqqında təklifi ölkənin gələcəkdə etnik əlamətlərə görə bir neçə hissəyə bölünməsi təhlükəsi yaradır (34). Bunun nəticəsində kürdlər muxtariyyat və ya müstəqillik əldə edərlərsə, İranda da hərbi sanksiyalar tətbiq edilərsə və orada kürdlər yaşayan ərazilər nəzarətdən çıxarsa bu zaman İraqda və İranda yaşayan kürdlər bütün kürdlər yaşayan əraziləri birləşdirmək üçün çalışacaqlar. Bu vaxt onlar kürdlər yaşayan Türkiyə ərazilərinə də iddia edəcəklər ki, bu da Türkiyə üçün daha böyük problemlərin meydana çıxmasına gətirib çıxarar.

ABŞ və Rusiya isə İramn nüvə məsələsinin BMT Təhlükəsizlik Şurasına çıxarılmasına dair razılığa gələ bilmirdilər. Rusiya bunun əleyhinə çıxış edir və hər dəfə mövcüd vəziyyətdə buna ehtiyac olmadığını bildirirdi. 2006-cı ilin fevral ayının əvvəllərində MAQATE İranın dosyesini BMT TŞ-ya təqdim etdi (390). Həmin ilin may ayında RF-nin xarici işlər naziri S.Lavrov BMT TŞ-nın İranı hər-hansı hərəkətlərə məcbur edən şərtlər irəli sürə biləcək qətnaməsini Rusiya və Çinin dəstəkləməyəcəyini bildirdi (273).

İranın BMT Təhlükəsizlik Şurası haqqında fikirlərinə gəldikdə isə o, TŞ-nın tərkibinin dəyişdirilməsinin tərəfdarıdır. 2006-cı ilin iyun ayında Bakıda keçirdiyi mətbuat konfransı zamanı bu haqda məlumat verən İİR-in xarici işlər naziri Mənuçöhr Möttəki bir milyarddan artıq müsəlmanın yaşadığı 50-dən artıq İslam ölkəsindən heç birinin BMT TŞ-nin

üzvü olmadığından təəssüfləndiyini bildirmişdi. O, BMT Təhlükəsizlik Şurasını öz imicinə xələl gətirməmək üçün ədalətli qərar çıxarmağa çağırmışdı (123). Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bir sıra dövlətlər TŞ-nın üzvlərinin, o cümlədən daimi üzvlərinin sayının artırılmasının tərəfdarıdırlar. Hindistan, Almaniya, Braziliya, Yaponiya və s. digər ölkələr TŞ-nın daimi üzvü olmağa iddialıdırlar. BMT-də islahatların aparılması ilə əlaqədar olaraq daimi üzvlərinin sayının artırılması məsələsinə baxılması nəzərdə tutulsa da daimi üzv olan ölkələr hansı ölkəni dəstəkləyəcəklərinə dair tam razılığa gələ bilmirlər.

2006-cı ilin 23 dekabrında BMT TŞ nüvə proqramını dayandırmaqdan imtina etdiyinə görə rəsmi Tehrana qarşı sanksiyaların tətbiqini nəzərdə tutan 1737№-li qətnamə qəbul etdi və İrana uranın zənginləşdirilməsi ilə bağlı bütün işləri dayandırmaq üçün 60 günlük möhlət verdi. Bu qətnamə Təhlükəsizlik Şurasının daimi üzvlərinin həmin ilin oktyabr ayından başlamış danışıqlarının nəticəsində qəbul edilmişdi. Rusiyanın səyləri nəticəsində sənəddən bəzi sanksiyalar çıxarılmışdı. Çinin Xarici İşlər Nazirliyinin nümayəndəsi isə İranın nüvə proqramı ətrafında münaqişənin həllinə dair diplomatik səyləri davam etdirməyə çağırmışdı. Qətnamədə nəzərdə tutulan sanksiyalar, əvvəldən məlum olduğu kimi, BMT Nizamnaməsinin VII fəslinin 41-ci bəndinə əsasən hazırlanmışdı. (41-ci bənd sanksiyaların tətbiq edilməsini nəzərdə tutur.) Həmin ərəfədə ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Nikolas Berns İranla hərbi münaqişənin qaçılmaz olmadığını və Amerikanın öz tərəfdaşları olan ərəb dövlətlərinin təhlükəsizliyini təmin etmək məqsədilə belə bir addım ata biləcəyini bildirmişdi (33). Möhlət başa çatsa da İran ona qarşı irəli sürülmüş tələbləri yerinə yetirmədi. Bunun müqabilində 2007-ci il mart ayının 24-də BMT TŞ İrana qarşı yeni sanksiyalar nəzərdə tutan 1747№-li qətnamə qəbul etdi. Qət-





namədə İranın uranın zənginləşdirilməsi və raket texnologiyasının təkmilləşməsi layihələrində iştirak edən 13 kompaniya və 15 fiziki şəxsin hesablarının dondurulması, o cümlədən vizanın məhdudlaşdırılması və İrandan silah ixracına embarqo nəzərdə tutulurdu (409). İİR Prezidenti M.Əhmədinejad ölkəsinin BMT TŞ-nın Tehrana qarşı sanksiyalarının daha da kəskinləşməsini dəstəkləyən ölkələrə qarşı münasibətlərini bir daha nəzərdən keçirəcəyini bildirdi (292). Mətbuatda ABŞ-ın 6 aprel 2007-ci il tarixdə səhər saat 4-dən başlayaraq İranın nüvə obyektlərini 12 saat bombardman edəcəyinə dair xəbərlər yayıldı (400). Lakin bu xəbər özünü doğrultmadı.

Rusiya da İranın uranın zənginləşdirilməsi üzrə gizli atom proqramının aşkar ediləcəyindən narahat olduğu üçün 2002-2003-cü illərdə işləyib-hazırladığı strategiyaya uyğun olaraq Buşəhr layihəsindən yavaş-yavaş uzaqlaşmağa başlamışdı. Və bəzi problemləri bəhanə gətirərək AES-in istismara verilməsini yubadır, lakin layihə ilə bağlı müəyyən işlərin həyata keçirilməsini davam etdirirdi ki, Tehran onunla əlaqələrini birdən kəsməsin (391). Rusiya 2006-cı ilin sentyabr ayında AES-i 2007-ci ilin mart ayında nüvə yanacağı ilə təchiz edəcəyini öhdəsinə götürmüşdü. Lakin həmin ilin (2007) fevral ayında, BMT TŞ-nin dekabr qətnaməsində verilmiş möhlətin başa çatması ərəfəsində, İran tərəfin yanacağın haqqını ödəməni gecikdirdiyini səbəb göstərərək yanacağın çatdırılması təxirə salınmışdı. Bununla da Rusiya İrana qarşı sərt mövqe tutduğunu nümayiş etdirmişdi (292). Rusiya mütəxəssislərinin dediyinə görə, İran tərəfinin maliyyə problemlərilə əlaqədar olaraq Buşəhr AES-in inşasının rəsmən 2008-ci ilin iyul ayında başa çatdırılacağı gözlənilir (327). Rusiya yanacağın nəqlini gecikdirdiyi üçün İran özü lazimi tədbirlər görəcəyini bildirirdi. İİR-in Atom enerjisi üzrə Təşkilatının rəhbəri Qulamrza Ağazadənin sözlərinə görə, Rusiyanın nüvə yanacağını çatdırmasını dayandırması İranı uranın zən-

ginləşdirilməsini davam etdirmək məcburiyyətində qoyur (311). 2007-ci ilin əvvəlində yanacağın çatdırılmasının dəqiq vaxtı qeyri-müəyyən olaraq qalmaqda idi. Rusiya buna AES-in inşasının bir neçə dəfə başa çatdırılması vaxtının müəyyən edilsə də baş tutmadığını və nə vaxt başa çatacağının hələ də məlum olmadığını səbəb göstərirdi. Müqaviləyə əsasən yanacağın AES istismara verilməzdən 6 ay əvvəl çatdırılması nəzərdə tutulmuşdu (311). 2007-ci ilin dekabr ayının 16-dan isə Rusiya iki dövlət hökumətləri arasındakı razılaşmaya əsasən və beynəlxalq atom enerjisi agentliyinin nəzarəti altında Buşəhr AES üçün yanacağın göndərilməsinə başladı. İranın atom enerjisi təşkilatının məlumatına görə 28 yanvar 2008-ci ildə Buşəhr AES üçün yanacağın son partiyası artıq İrana çatdırılıb. Rusiyadan verilən məlumata əsasən İrana 82 ton nüvə yanacağı və lazımi avadanlıq göndərilib (374).

İranla atom sahəsində əməkdaşlıq Rusiya üçün iqtisadi cəhətdən çox sərfəli olsa da o, İranın nüvə silahına yiyələnməsinin tərəfdarı deyil. Bu səbəbdən də uranın zənginləşdirilməsinə dair güzəşt əldə edilməsə Rusiya ABŞ və Avropa üçlüyü (Fransa, İngiltərə və Almaniya) ilə birgə Tehrana təzyiq üsullarının işlənib-hazırlanması üzərində işləmək məcburiyyətində qalır (232). Nüvə yanacağının göndərilməsi ilə eyni vaxtda BMT TŞ də İrana qarşı üçüncü sanksiyanın işlənib hazırlanmasına başladı. Rusiya, ABŞ, Fransa, Böyük Britaniya, Çin və Almaniyanın xarici işlər nazirlərinin razılaşdırdığı layihə əsasında 28 yanvar 2008-ci ildə TŞ-da sanksiyaların hazırlanmasına dair məsləhətləşmələr başlandı. (374)

ABŞ-ın Azərbaycanla olan strateji əməkdaşlığı ona İranı daim nəzarətdə və gərginlikdə saxlamağa imkan yaradır. Əvvəldə də qeyd etmişdik ki, ABŞ-la Azərbaycan arasında hərbi əməkdaşlıq çərçivəsində su sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə ölkənin hərbi-dəniz qüvvələrinin gücləndirilməsi və ölkənin hava məkanını müdafiə sahəsində





Azərbaycanın hərbi təsisatlarının idarəetmə imkanlarının NATO standartlarına yaxınlaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Lakin Amerikanın Xəzər dənizi sahillərində hərbi qüvvələr yerləşdirmək niyyətinin İrana qarşı hərbi sanksiyalar tətbiq etmək məqsədi daşıdığı söylənilir. Bundan başqa, ABŞ Cənubi Qafqaz və Xəzər dənizi regionunu öz milli maraqları zonası elan etdiyi üçün nəqliyyat kəmərlərinin və Xəzər neft-qaz yataqlarının təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan və Gürcüstanın milli silahlı qüvvələrində islahatlar aparılmasına kömək edir (220). 2004-cü ilin avqust aymda ABŞ senatının binasında keçirilən xüsusi iclasda Avropada Amerika qoşunları komandanının müavini, hərbi-hava qüvvələri generalı Çarlz Uold bildirmişdi: «Xəzərin karbohidrogen resurslarına, terror təhlükəsinə, qeyri-qanuni silah və narkotik alverinə görə Gürcüstan, Azərbaycan və Ermənistan indi yeni geopolitik təhlükə mənbəyi kimi qəbul edilmişdir». Bununla əlaqədar olaraq Vaşinqton Cənubi Qafqaz ölkələrində «müvəqqəti yerləşdirilmiş mobil qüvvələr» adlandırılacaq hərbi qüvvələrin yerləşdirilməsini nəzərdə tuturdu (225). Milli Təhlükəsizlik konsepsiyasına görə ölkə ərazisində xarici ölkələrin hərbi bazalarının yerləşdirilməsi qadağandır və Azərbaycan Respublikasının «Milli Təhlükəsizlik haqqında» Qanununun 19.4 maddəsinə görə «Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr istisna olmaqla, ölkə ərazisində xarici hərbi bazaların habelə hərbi qüvvələrin, silah, hərbi texnika, kütləvi qırğın silahı komponentləri və texnologiyalarının tranzit daşımalarına yol verilmir» (11; 96, s.52). Lakin Azərbaycan Respublikasının «Milli Təhlükəsizlik haqqında» 29 iyun 2004-cü il tarixli Qanununda «mobil qüvvələr»in yerləşdirməsinin qadağan edildiyini göstərən maddə yoxdur (11).

Dövlət başçısı İlham Əliyev də NATO PA-nın sessiyasında iştirak üçün Fransaya səfəri zamanı 2006-cı il may ayı-

nın 29-da «Euronews» telekanalına müsahibəsində Azərbaycanın öz ərazilərində xarici dövlətlərin hər hansı şəkildə hərbi qüvvələrinin yerləşdirilməsinin mümkünlüyünü nəzərdən keçirmədiyini bildirib (118). 1997-ci ilin may ayında Azərbaycan Respublikasının Prezidentinin ABŞ-a səfəri zamanı hər iki dövlətin həmin vaxtki Prezidentləri Bill Klinton və Heydər Əliyev Azərbaycanın müstəqilliyini və onun öz ərazisində xarici qoşunların yerləşdirilməsinə icazə verməmək hüququnu təsdiq edən birgə bəyanatla çıxış etmişdilər (134, s.52). Lakin bunlarla yanaşı, 2005-ci ilin fevral ayında Rusiyada nəşr edilən «Независимая газета»ya müsahibə verən Dövlət başçısı İlham Əliyev müstəqil Azərbaycanın regionda sülhün tərəfdarı olduğunu və xarici hərbi qüvvələrinsə özlərinin mənsub olduğu dövlətin maraq və məqsədlərinə cavab verəcəyini bildirməklə yanaşı, belə qüvvələrin Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün məqsədyönlü sayıla biləcəyi halda həmin məsələyə baxıla biləcəyini də qeyd etmişdi (316).

Xəzəryanı dövlətlərdə fövqəladə vəziyyətlər baş verərsə, terrorçular tərəfdən neft obyektlərinə, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəmərinə hücum təhlükəsi gözlənilərsə dərhal reaksiya vermək xüsusiyyətinə malik xüsusi təyinatlı qruplar şəbəkəsi və polis qüvvələri yaratmaq nəzərdə tutulurdu ki, Xəzər dənizi sahillərində hərbi qüvvələrin də həmin məqsədlə yerləşdirilməsi mümkündür. Xəzər neftinin istismarı üçün bağlanmış neft müqavilələrində iştirak edən şirkətlərin çoxu NATO-ya üzv olan dövlətlərə məxsusdur. Bu səbəbdən də regionun və boru kəmərləri keçən ərazilərin təhlükəsizliyinin də NATO tərəfindən təmin edilməsi qanunauyğun bir hal kimi qiymətləndirilməlidir. Xəzər dənizi regionunda təhlükəsizliyi təmin etmək üçün Azərbaycanda «Xəzər gözətçisi» adlı xüsusi təyinatlı qüvvələr yaratmaq məqsədilə ABŞ-





ın müdafiə naziri D.Ramsfeld*, Avropada NATO qoşunlarının komandanı general Ceyms Cons və Türkiyə silahlı qüvvələrinin yüksək vəzifəli şəxsləri 2005-ci ildə tez-tez Bakıya səfərlər edirdilər (288). Bundan başqa, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əsas terminalı yerləşən Səngəçal yaxınlığında Amerikaya məxsus 200 km radiusu izləmək qabiliyyətinə malik TRML-3D tipli mobil RLS yerldəşdirilməsi nəzərdə tutulurdu (225). Onu da qeyd etmək lazımdır ki, strateji əhəmiyyət daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin mühafizəsi Xüsusi Dövlət mühafizə xidməti tərəfindən həyata keçirilir (220).

BTC neft kəmərinə təhlükə isə bir neçə tərəfdən gözlənilə bilər: I-hər hansı terror təşkilatı tərəfdən; II-Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməmiş qalmasından; III - İranın hərbi əməliyyatların tətbiq ediləcəyi təqdirdə ABŞ-ın maraqlarına daxil olan obyektlərə cavab zərbəsi endirəcəyi mümkündür ki, BTC neft kəməri də belə obyektlərdəndir.

ABŞ Dövlət Departamentinin Xəzər dənizi enerji ehtiyatları məsələsi üzrə məsləhətçisi və Minsk qrupunun amerikalı həmsədri olmuş Stiven Mənn də Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasını neft kəmərinin təhlükəsizliyinə kömək edə biləcək əsas şərtlərdən biri sayırdı. Belə ki, Ermənistan və Azərbaycan arasında hərbi əməliyyatlar bərpa olunarsa, heç kim həmin əməliyyatların neft kəməri keçən ərazilərə gedib çıxmayacağına təminat verə bilməz (288). Rusiya da Xəzər dənizi regionunda ABŞ qüvvələrinin yerləşdiriləbiləcəyindən narazıdır. Hələ 2004-cü il iyul aymın əvvəlində Rusiyanın Təhlükəsizlik Şurasının katibi İ.İvanov Tehrana səfəri zamanı bildirmişdi ki, ABŞ Qafqazı və Mərkəzi Asiyanı öz maraqları zonası elan etsə də Rusiya regionda

---

** 2006-cı ildə Donald Ramsfeldin əvəzinə Robert Qeyts müdafiə naziri təyin edildi.*

üçüncü dövlətin iştirakının, xüsusilə də hərbi iştirakının əleyhinədir və bu fikirdədir ki, regionun təhlükəsizliyini region dövlətləri özləri qorumahdırlar (313). Regionda digər dövlətlərin iştirakının və «Xəzər gözətçisi»nin əleyhinə olan Rusiya da öz növbəsində Xəzər dənizində terrorizm və narkotrafikə qarşı mübarizə məqsədilə Xəzəryanı dövlətlərin «Kasfor» adlı operativ-taktiki qrupunun yaradılmasını təklif etdi. Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Səfər Əbiyev Azərbaycanın «Kasfor» layihəsində iştirak etməyə hazır olduğunu, lakin bunun Xəzər bölündükdən sonra mümkün olacağını bildirdi (265). 2007-ci ilin oktyabr ayında Xəzəryanı dövlət başçılarının Tehran toplantısı zamanı bu məsələyə bir də toxunuldu. Toplantı zamanı Qazaxıstan prezidenti Nursultan Nazarbayev Xəzərdə təhlükəsizliyin qorunması üçün beş dövlətin iştirakı ilə hərbi qüvvələrin yaradılmasına ehtiyac olduğunu bildirdi. Rusiya prezidenti Vladimir Putin isə ölkəsinin bu formatda danışıqların davam etdirilməsinə həmişə tərəfdar olduğunu vurğuladı. 2008-ci ilin oktyabr ayında Bakıda keçirilməsi qərara alınmış Xəzəryanı dövlət başçılarının Zirvə toplantısınadək Xəzər dənizində gəmilərin milli bayraqlar altında üzməsi haqqında sənəd hazırlanması nəzərdə tutulub.

ABŞ-ın Dövlət katibinin Avropa və Avrasiya üzrə köməkçisi və Minsk qrupunun amerikalı həmsədri Metyu Brayza 30 mart 2007-ci ildə Gürcüstana səfərinin yekununda keçirilən mətbuat konfransında ABŞ-ın, zəruri olarsa hərbi məqsədlərlə Azərbaycanın hava limanlarından istifadə edəcəyinə ümid etdiyini bildirmişdi. Buna cavab olaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyi 1 aprel 2007-ci ildə bəyanat verərək, Azərbaycanın antiterror koalisiyanın üzvü olaraq Əfqanıstanda antiterror əməliyyatların həyata keçirilməsi üçün öz hava məkanından istifadəyə icazə verməsinə baxmayaraq öz qonşularına qarşı əməliyyatlar məqsədilə digər dövlətlərə ölkə ərazisindən istifadə etmək üçün şərait yaratmaq niyyətində olmadığını bildirdi (199).





Əvvəldə də qeyd etmişdik ki, ABŞ-ın Təhlükəsizlik konsepsiyasında ölkənin təhlükəsizlik maraqları dairəsi elan etdiyi bir çox regionlara BMT TŞ-nın razılığı olmadan da silahlı qüvvələr yeritmək hüququ nəzərdə tutulur. ABŞ İraqa da öz qoşunlarını BMT TŞ-nın sanksiyası olmadan yeritmişdir.

Xəzər hövzəsi də ABŞ-ın milli təhlükəsizlik maraqları dairəsinə daxildir (109, s.157) və Birgə Döyüş Komandanlıq Planına əsasən Xəzər regionu 2002-ci ilin oktyabr ayından etibarən Birləşmiş Ştatların Avropadakı silahlı quvvələri komandanlığının əhatə dairəsinə aid edilib (146, s.57).

ABŞ-ın 2006-cı il üçün Milli Təhlükəsizlik Strategiyasında isə kütləvi qırğın silahının yayılmasının da ABŞ-ın Milli Təhlükəsizliyinə əsas hədə olduğu göstərilir (388). Bundan başqa, ABŞ hökuməti 2001-ci il 11 sentyabr terror aktlarının həyata keçirilməsində İranın Ben Ladenin terrorçu təşkilatına köməklik edən ölkələr sırasında olmasından şübhələnir (224) və onu İraq şiələrini maliyyələşdirməkdə və onları silahla təchiz etməkdə günahlandırır (253). Buna görə də ABŞ hökuməti İranın nüvə silahı istehsal etmək niyyətində olduğunu və özünün digər şübhələrini sübut edə bilsə onda öz qoşunlarını TŞ-nın qərarını gözləmədən İran ərazisinə yeritmək iqtidarındadır. Onu da qeyd edək ki, İİR-in Prezidenti M.Əhmədinejad da 2006-cı ilin may ayında ABŞ Prezidenti C.Buşa göndərdiyi məktubunda 2001-ci il 11 sentyabr terrorunda ABŞ xüsusi xidmət orqanlarının əli olmadığına şübhə edərək soruşur: «Bu əməliyyatın xüsusi xidmət orqanlarının əlaqəsi olmadan planlaşdırılması və həyata keçirilməsi mümkündürmü?» (274).

Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesində öz iştirakını vacib sayan İran Minsk qrupu dövlətlərinin düz-

gün seçilmədiyi fikrindədir. Daryuş Səfərinejad adlı İran analitikinin fikrincə: «Minsk qrupunun tərkibinin çoxsaylı erməni diasporunun yerləşdiyi üç xristian ölkəsindən ibarət olması münaqişənin nizamlanması prosesində ədalətsiz və birtərəfli vasitəçilikdən xəbər verir. Münaqişə tərəfi olan və öz ərazisinin bir qismini itirmiş Azərbaycan müsəlman ölkəsi olduğu üçün münaqişənin nizamlanması ilə məşğul olan komissiyaya heç olmasa bir müsəlman ölkəsini, məsələn İranı cəlb etmək lazım idı. İranın Minsk qrupu həmsədrləri sırasında olması, praktiki olaraq, bu münaqişədə çox məsələləri həll edə bilər» (341). Bir neçə il əvvəl İİR-in xarici işlər naziri Kəmal Xərrazi də tərəflərin müraciət edəcəkləri təqdirdə İranın münaqişənin nizamlanması prosesində vasitəçilik etməyə hazır olduğunu bildirmişdi (252). Lakin Rusiya və Qərb dövlətləri, o cümlədən ABŞ İranın münaqişədə vasitəçilik səylərinin uğurla nəticələnə biləcəyindən və bununla da regionda onun nüfuzunun artacağından narahatlıq keçirirlər. Bu səbəbdən də İİR-in vasitəçilik etmək səylərinə hər hansı şəkildə mane olmağa çalışırlar və buna nail olublar.

21 fevral 2007-ci ildə həmin vaxt İİR-nın Bakıdakı səfiri Əfşar Süleymani Azərbaycan televiziyasına müsahibəsində Azərbaycanın İranın nüvə məsələsinə münasibətinin rəsmi İranı qane etdiyini bildirdi.

Hələ ki, nə Ermənistan-Azərbaycan münaqişəsi öz həllini tapmayıb, nə də ki, İranın nüvə məsələsi ətrafındakı gərginlik azalmayıb. ABŞ da İrana qarşı təsir yolları axtarmaqda davam edir.





# FƏSİL 7

## ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN ERMƏNİSTAN İQTİSADİYYATINA TƏSİRİ

Belə qəbul olunmuşdur ki, iqtisadiyyat mühüm siyasi alətdir. Qafqaz regionu da geopolitik və geostrateji əhəmiyyətli olmaqla yanaşı həm də iqtisadi cəhətdən çox əlverişli məkandır. Xüsusilə də Xəzər hövzəsi regionu daha da əlverişli və xarici sərmayələr üçün daha da sərfəli edir.

Azərbaycan Cənubi Qafqazla bağlı bütün layihələrin iştirakçısıdır və həmin layihələrin heç birinin həyata keçirilməsi onun iştirakı olmadan mümkün deyil. Xüsusilə də enerji layihələri, çünki birincisi – Xəzərdən çıxarılan enerji ehtiyatlarının Qafqaz yolu ilə ixracı yolları Azərbaycandan keçmədən mümkün deyil; ikincisi - region vasitəsilə Azərbaycana məxsus neft-qaz yataqlarının məhsulları ixrac edilir* və Mərkəzi Asiyadan ixrac edilməsi nəzərdə tutulan neft və qaz da həmin borulara qoşularaq ixrac ediləcək. Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmamış qalması da Ermənistana Türkiyə və Azərbaycanla normal əlaqələr qurmağa mane olur və bu səbəbdən də o, regionda gedən enerji layihələrindən kənarda qalır, Xəzər nefti və qazının ixracı üçün tranzit ərazi olmaq imkanını əldən verir. Hətta Ermənistanla normal münasibətləri olan və Ermənistanın bu layihələrdən kənarda qalmasını istəməyən Gürcüstana da yalnız təəssüflənmək qalır. Çünki rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycanın işğal altında olan torpaqları azad edilməyincə təcavüzkar ölkə ilə hər hansı müştərək layihənin reallaşmasından söhbət gedə bilməz. Buna görə də Cənubi Qafqazda həyata keçirilən

---

** Xəzər dənizi bölgəsində ən zəngin karbohidrogen ehtiyatları Xəzər dənizinin məhz Azərbaycana aid hissəsində yerləşir (134, s.60).*

layihələrdə Azərbaycan, yaxud Ermənistan dövlətlərindən biri iştirak edəcəksə bu Azərbaycan olacaq. Ermənistanın Azərbaycana təcavüz etdiyinə və onun torpaqlarını işğal etdiyinə görə Türkiyə 1993-cü ildən Ermənistana yardımını dayandıraraq onunla sərhədlərini bağladı və diplomatik əlaqələrini kəsdi. Qərb dövlətlərinin, o cümlədən ABŞ-ın təzyiqlərinə və Aİ-yə qəbul edilməsi üçün qarşısına qoyulan əsas şərtlərdən birinin olmasına baxmayaraq Türkiyə sərhədləri açmır və Ermənistandan işğal altında saxladığı Azərbaycan ərazilərini azad etməsini tələb edir. Türkiyə ilə sərhədlərin bağlı olması da Ermənistan iqtisadiyyatının inkişafına mane olur.

Azərbaycan özünün enerji təhlükəsizliyini daxili imkanları hesabına təmin edir. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri sayəsində isə Azərbaycan dünyanın karbohidrogen ixrac edən ölkəsinə çevrilib və bir sıra dövlətləri enerji ilə təmin edir.

Ölkə iqtisadiyyatının daha çox inkişaf etmiş sayılan energetika sahəsini istismar etmək üçün belə öz təbii qaz ehtiyatlarına malik olmayan Ermənistan isə qazı ən yaxın tərəfdaşı olan Rusiyadan idxal edir. Rusiya isə öz energetikasından böyük məharətlə təzyiq vasitəsi kimi istifadə etməyi bacarır. Qaza olan tələbatı və münaqişə həll olunmamış qaldığı üçün heç bir layihədə iştirak edə bilməməsi Ermənistanın Rusiyadan asılılığını bir az da artırır. Ermənistan-Azərbaycan münaqişəsində Rusiyanın Ermənistana dayaq olması isə onun Rusiyanın «xətrinə dəymədən» özü üçün digər sərfəli yollar axtarmasına mane olur.

Rusiya digər region dövlətlərindən fərqli olaraq Ermənistana qazı iki dəfədən də az güzəştli qiymətlə ixrac edir. Rusiyadan Gürcüstana və Türkiyəyə nəql edilən qazın hər min kubmetri 235 ABŞ dolları təşkil edirsə, Ermənistan hər min kubmetr üçün 110 ABŞ dolları ödəyir (211). 2006-cı ilin





aprel ayına kimi Ermənistan üçün həmin qiymət 54 dollar təşkil edirdi, razılaşmaya əsasən isə 2009-cu ilin 1 yanvarına kimi həmin qiymət 110 dollara qaldırılıb (243). Azərbaycan isə Rusiyadan hər min kubmetri 110 ABŞ dolları olmaqla 4,5 milyard kubmetr həcmində qaz alırdı. Rusiya qazın qiymətini qaldırdığı üçün Azərbaycan ondan imtina etdi və «Qazprom»la qaz əməkdaşlığını bitirdi. Və yanacağa olan ehtiyacını ölkə mazutu hesabına ödəməyə başladı. Mazut almaq üçün isə əlavə neftə ehtiyacı olduğuna görə Azərbaycan 2007-ci ilin ikinci kvartalından Bakı-Novorossiysk neft kəməri ilə neft nəqlini dayandırdı (326).

Digər dövlətlərlə müqayisədə Rusiyadan qaz idxal etməsi Ermənistan üçün sərfəli görünə bilər. Əslində isə hər şey göründüyü kimi deyil. Onsuz da «Qazprom»un ixtiyarına verilmiş Rusiya təbii qazı hesabına işləyən Razdan istilik elektrik stansiyasının (İES) hələ başa çatmayan beşinci blokunu da Ermənistan qazın nisbətən ucuz başa gəlməsi üçün 2006-cı ilin aprel ayında həmin şirkətə 248,8 mln. dollara satmalı olub. Bundan başqa, su elektrik stansiyalarının (SES) Sevan-Razdan kaskadı da Ermənistanın Rusiyaya olan borcu müqabilində RF-yə verilib. Hazırda Ermənistanın energetika sahəsinin 80%-ə qədəri Rusiyaya məxsusdur (243).

Rusiya və Ermənistanın qaz nəqliyyat sistemlərini birləşdirən qaz kəməri Gürcüstandan keçdiyi üçün Ermənistan Gürcüstana tranzit haqqı ödəmək məcburiyyətindədir. Rusiya ixrac etdiyi qazın haqqını artırdığı üçün Gürcüstan da öz ərazisindən keçən hər min kubmetr qaz üçün tranzit haqqını 6 dollardan 30 dollara qaldırıb (243). Buna görə də Rusiyadan idxal edilən qaz Ermənistana nəzərdə tutulduğundan nisbətən baha başa gəlir.

2007-ci ilin 1 fevralında RF-nin Prezidenti V.Putin Rusiyanın bundan sonra heç bir dövlətə ixrac ediləcək qazın qiymətində güzəştə getməyəcəyini bildirdikdən sonra həm

qazın qiymətinin, həm də bununla əlaqədar olaraq tranzit haqqının artmasından ehtiyat edən Ermənistan Rusiya qazına alternativ axtarmaq barədə düşünməli oldu. Ola bilsin ki, gələcəkdə Rusiya qazının qiymətinin çox baha olacağı təqdirdə Ermənistan qazı təkcə İrandan idxal etmək qərarına gəlsin. 2004-cü ildə Ermənistan və İran arasında imzalanmış razılığa əsasən İran 20 il ərzində Ermənistana 36 milyard kubmetr qaz ixrac edəcək, alacağı hər kubmetr qaz müqabilində isə Ermənistan İrana üç kVt enerji nəql edəcək (243). İrandan Ermənistana qaz ixrac ediləcəyinə dair 1990-cı illərin ortalarında da razılığa gəlinmişdi. Lakin 2000-ci ildə ABŞ ticarət nazirliyinin MDB və Baltikyanı ölkələr üzrə məsləhətçisi Yan Kalitski Ermənistana İran qazından imtina etməyi məsləhət görmüşdü və bunun müqabilində onun transxəzər enerji dəhlizlərinə qoşulması üçün əllərindən gələni edəcəklərinə söz vermişdi. Lakin həmin vaxt da Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmamış qalması Ermənistanın həmin layihələrdən kənarda qalmasına səbəb olmuşdu (387). İndi isə ABŞ Ermənistana qazın İrandan ixracından və ümumiyyətlə, Ermənistanın İranla əlaqələrindən narazı olsa da onun blokada vəziyyətini nəzərə alaraq bu əməkdaşlığa qarşı çıxmır.

Hazırda İran-Ermənistan qaz kəmərinin istismarı hüququ Ermənistan-Rusiya birgə müəssisəsi olan «ArmRosqazprom»a aiddir ki, həmin şirkətin aksiyalarının 57,6 %-i Rusiyaya məxsus olan «Qazprom» şirkətinə məxsusdur (387). Ermənilər Ermənistanın enegetika sahəsinin bir ölkədən asılı vəziyyətdə olmasının ölkənin energetika təhlükəsizliyinin effektliyini şübhə altına saldığından narahatdırlar (243). Ermənistan Milli Məclisinin sabiq spikeri A.Baqdasaryan hadisələrin belə inkişaf edəcəyi təqdirdə Yerevanın əvvəllər Rusiya kompaniyalarına borc yerinə verilmiş, yaxud satılmış dövlət əmlakını məhkəmə yolu ilə qaytara biləcəyi fikrin-





dədir (285). Ermənistan müxalifəti dövlət borcu müqabilində müəssisələrin RF-yə verilməsini Ermənistanın Rusiyanın «vassalı»na çevrilməsi kimi, bunun da öz növbəsində R.Köçəryanın öz hakimiyyətini qoruyub-saxlamaq səyləri kimi qiymətləndirir (235).

2006-cı ilin mart ayında «vaxt Azərbaycanın xeyrinə işləyir» sözlərinə görə hədələyici bəyanatla çıxış edən Ermənistan prezidenti R.Köçəryandan fərqli olaraq, Ermənistan ümummilli hərəkatının idarə sədrinin müavini Andranik Ovakimyan L.Ter-Petrosyanın hakimiyyətdən getdiyi vaxtdan keçən 10 il ərzində Azərbaycanın iqtisadi sahədə inkişaf etdiyi, Ermənistan üçün isə həmin vaxtın itirilmiş olduğu fikrindədir. A.Ovakimyan Ermənistanın enerji, nəqliyyat, infrastruktur və s. bu kimi bütün mühüm layihələrdən kənarda qaldığını bildirməklə yanaşı, onu Cənubi Qafqazın ən zəif inkişaf etmiş dövləti hesab edir (406).

Ermənistan MEA-nın Şərqşünaslıq İnstitutunun direktoru Nikolay Ohanesyan isə 2005-ci ildə Rusiyanın Ermənistana münasibətini tənqid edərək bildirmişdi ki: «Ermənistan artıq çoxdandır iqtisadi blokadadadır və heç kim bizə kömək etmək məqsədilə bir tədbir görmür. O cümlədən Rusiya bir neçə rəsmi bəyanatdan başqa blokadanı aradan qaldırmaq üçün bir tədbir görmür. Bu da Rusiyanın, ümumiyyətlə bu barədə düşündüyünə şübhə yaradır. Bununla da Rusiya ölkələr arasında strateji partnyorluq anlayışının özünü nüfuzdan salır» (354). Həmin vaxt N.Ohanesyanın heç ağlına da gəlmirdi ki, Rusiya nəinki Ermənistanı blokadadan çıxarmaq barədə düşünmür, hətta özü bir-neçə aydan sonra Gürcüstanla sərhəddində «Yuxarı Lars» nəzarət-buraxılış məntəqəsini qeyri-müəyyən vaxta təmirə bağlamaqla Ermənistanın daha da blokada halına düşməsinə «kömək» edəcək. Məhz həmin məntəqə vasitəsilə Ermənistan Rusiya istiqamətində

kənd təsərrüfatı məhsulları ixrac edirdi, indi isə məntəqənin bağlanması Ermənistanın ticarətinə ciddi ziyan vurdu (370).

Ermənistan özü də Cənubi Qafqazda həyata keçirilən bütün genişmiqyaslı iqtisadi layihələrdən kənarda qaldığı üçün artıq narahat olmağa başlayıb. Xarici işlər naziri V.Oskanyan 7 fevral 2007-ci il tarixdə Ermənistan Parlamentində çıxışında Ermənistanın 2008-ci ildə inşasına başlanması nəzərdə tutulan Transxəzər qaz kəmərinə qoşulması haqqında planlar işlənib-hazırlandığını bildirib. Tengiz (Qazaxıstan) – Türkmənbaşı (Türkmənistan) – Bakı (Azərbaycan) – Tbilisi (Gürcüstan) – Ərzurum (Türkiyə) marşrutu üzrə çəkilməsi nəzərdə tutulan bu kəmərə qoşulmaqla Ermənistanın niyyətinin Azərbaycan qazından deyil, Mərkəzi Asiyadan nəql edilən qazdan istifadə etmək olduğunu bildirən nazir qaza görə Ermənistanın münaqişədə Azərbaycana güzəştə getmək niyyətində olmadığını bildirməyi də unutmayıb (211). Oskanyanın bəyanatına cavab olaraq Azərbaycan hökuməti həmişə olduğu kimi bildirdi ki, Ermənistan-Azərbaycan münaqişəsi nizamlanmayınca Ermənistanla nə ikitərəfli, nə də çoxtərəfli əlaqələr mümkün deyil (211; 84).

Ermənistan reallaşmaqda olan Bakı-Tbilisi-Qars dəmiryolu layihəsindən də kənarda qaldı. 2007-ci ilin 7 fevralında V.Oskanyan ölkəsinin parlamentində Transxəzər qaz kəmərinə qoşulmaq haqqında planlarından danışdığı bir vaxtda Gürcüstan parlamentinin binasında Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli regional əməkdaşlıq sammitinin sənədlərinin imzalanması mərasimi keçirildi. Mərasimdə «Regional əməkdaşlığa ümumi baxış haqqında Tbilisi Bəyannaməsi» qəbul edildi* və «Bakı-Tbilisi-Qars dəmiryolu xətti haqqında» saziş imzalandı*. Gürcüstan prezidenti M.Saakaşvili öz çıxışında bildirdi ki, bu layihə üç ölkəni (Azərbaycan-Gürcüstan-Türkiyə) bir-birilə daha da yaxınlaşdıracaq, bundan başqa bir tərəfdən Mərkəzi Asiya, Çin, digər tərəfdən Avropa bu məkanda qovuşacaq. Layihənin hər bir ölkəyə fayda gətirəcəyindən, o cümlədən tərəfdaşlar üçün də xeyirli olacağını vurğulayan Saakaşvili qonşu Ermənistanın da alternativ enerji mənbələrinə ehtiyacı olduğunu qeyd etdi və onlarla dostluq münasibətlərini inkişaf etdirməyi təklif etdi (194). Ermənistanın xarici işlər naziri V.Oskanyan isə layihəyə öz münasibətini bildirərkən qeyd edib ki: «Yeni xətt çəkməkdənsə, ermənilərin nəzarətində olan ərazidən keçən mövcud xətdən istifadə etmək olardı». Həmin fikri 2005-ci ilin iyul ayında Gürcüstanın Axalkələk şəhərinə səfəri zamanı baş nazir olan A.Marqaryan da söyləmişdi. O, bildirmişdi ki, Gürcüstan Türkiyə ilə əlaqələr yaratmaq istəyirsə yeni Qars-Axalkələk dəmir yolu xətti çəkməkdənsə mövcud Qars-Gümrü dəmir yolu xəttini yenidən işə salmaq daha faydalıdır (244). Ermənilər belə hesab edirlər ki, Bakı-Tbilisi-Qars dəmir yolunun məqsədi «erməniləri Cavaxkdan sürgün etməkdir» (75). Gürcüstanın Cavaxk rayonunun erməni gənclər İttifaqının lideri Zaven Çaxalyan isə tam əminliklə bildirmişdi ki, Qars-Axalkələk dəmir yolunun tikilməsinə mane olmağa çalışacaqlar və bunun üçün onlar bütün vasitələrə və imkanlara malikdirlər (244). Bu Cavaxetiya ermənilərinin dövlət işlərinə qarışmaq və mane olmaq üçün ilk cəhdləri deyildi. 2005-ci ildə 62-ci rus hərbi bazası Gürcüstanın Axalkələk şəhərindən çıxarılan zaman da mart ayından başlayaraq Cavaxetiyada yaşayan ermənilər buna etiraz olaraq mitinqlər ke-

* *Bəyannaməni Azərbaycan və Gürcüstan dövlətlərinin prezidentləri İ.Əliyev və M.Saakaşvili, Türkiyə tərəfdən isə Baş nazir R.T.Ərdoğan imzaladılar.*





* *Sazişi Azərbaycan tərəfdən nəqliyyat naziri Ziya Məmmədov, Gürcüstan tərəfdən iqtisadi inkişaf naziri Georgi Arveladze, Türkiyə tərəfdən nəqliyyat naziri Binali Yıldırım imzaladılar.*

çirirdilər. Bu vaxt Gürcüstan Prezidenti M.Saakaşvili Ermənistan Prezidenti R.Köçəryanın bu məsələyə qoşulmasını məqsədəuyğun saymışdı və onu Gürcüstana dəvət etmişdi. R.Köçəryan da öz növbəsində Gürcüstanda olarkən bəyan etmişdi ki, rus hərbi bazasının Axalkələkdən çıxarılması məsələsi Gürcüstanın daxili işidir. Gürcüstan parlamentinin erməni deputatı Van Bayburt isə bildirmişdi ki, baş verənlər Gürcüstan hökumətinin diqqətini yerli əhalinin ağır sosial vəziyyətinə cəlb etmək məqsədi daşıyır, rus hərbi bazası onları iş yerləri ilə təmin edirdi, buna görə də hadisələrə siyasi qiymət vermək lazım deyil. O, bunu da qeyd etmişdi ki, Axalkələkdə baş verənlərin 62-ci rus hərbi bazasının öz hərbçiləri tərəfindən qızışdırıldığı aydındır və onlar Cavaxetiya ermənilərini Gürcüstana qarşı beşinci kolonnaya çevirmək istəyirlər (377).

21 noyabr 2007-ci il tarixdə layihənin əsas hissəsi sayılan Gürcüstan bölməsində «dəmir İpək yolu» adlandırılan layihənin bir hissəsi olan və tamamlanması 2010-cu ilə nəzərdə tutulan Bakı-Tbilisi-Qars dəmiryolunun inşasına başlandı (73). Həmin gün Tbilisi şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan respublikalarının prezidentlərinin iştirakı ilə bu münasibətlə təntənəli təməlqoyma mərasimi keçirildi. Prezidentlər layihənin həyata keçirilməsinin başlandığına dair sənəd imzaladılar və xatirə obeliskinin təməlinə Dostluq Bəyannaməsi olan kapsul qoydular (408). Mərasim zamanı Türkiyə Cümhuriyyətinin Prezidenti Abdulla Gül çıxışında layihəni tarixi və coğrafiyanı dəyişdirən və Çinlə Londonu birləşdirəcək böyük bir layihə olduğunu bildirdi və qeyd etdi ki: «Çindən çıxan vaqonlar və lokomotivlər Xəzəri, daha sonra Bakı, Tbilisi və Qarsı keçərək İstanbula çatacaqdır. İstanbulda sürətlə inşa edilən «Mərmərə ray» xətti vasitəsilə dənizin altından keçərək Avropanı qət edəcək və oradan da La-Manş boğazını keçərək Londona çatacaqdır» (193).





Türkiyə ilə Ermənistan arasında əməkdaşlığın olmadığını V.Oskanyan Bakının xidmətləri sayır və qeyd edir ki, Ankara iki dövlət arasında münasibətlərin normallaşmasının Dağlıq Qarabağ probleminin həllinə bağlı olduğunu bildirir (368). Türkiyə ilə diplomatik münasibətlərdən daha çox iqtisadi əlaqələrə üstünlük verən Ermənistan ilk növbədə Türkiyə ilə sərhədlərin açılmasının və iqtisadi əlaqələrin normallaşmasının tərəfdarıdır (368). Ermənistan Respublikasının Prezidenti R.Köçəryan 2007-ci ilin fevral ayında Fransada səfəri zamanı yerli «Fiqaro» qəzetinə müsahibəsində Yerevanın heç bir ilkin şərtsiz Türkiyə ilə diplomatik əlaqələr qurmağa və hökumətlərarası komissiyalar yaradaraq ən həssas məsələlər də daxil olmaqla bütün problemləri müzakirə etməyə hazır olduğunu bildirmişdi (212). V.Oskanyan isə hətta «erməni soyqırımı» məsələsinin Türkiyə tərəfindən tanınmasının da sərhədlərin açılması üçün şərt olmadığını bildirib.

Erməni politoloqu Stepan Qriqoryan böyük regional layihələrə maksimum region dövlətlərinin (Ermənistan daxil olmaqla – *K.R.*) cəlb edilməsinin tərəfdarıdır. O fikrini belə əsaslandırır ki, bu, münaqişə tərəfləri arasında qarşılıqlı inamın yaranmasına kömək edər və gələcəkdə münaqişənin hər iki tərəfi razı sala biləcək həlli üçün zəmin yaradar (284, s.35). 2004-cü ildən Aİ «Yeni qonşuluq siyasəti» proqramının bir istiqaməti kimi Azərbaycanla birgə iqtisadi layihələr həyata keçirilir. Həmin ilin may ayında isə «Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında» adlı ikitərəfli saziş imzalanıb (50). Həmçinin 7 noyabr 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu tərəfindən Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandum imzalanıb (62). 2006-cı ildə Avropa İttifaqı Azər-

baycan və Ermənistanla «Yeni Qonşuluq Siyasəti» çərçivəsində Fəaliyyət Planını imzalayıb.

Ermənistan Aİ-nin «Yeni qonşuluq siyasəti» layihəsinin reallaşması prosesində azad bazar münasibətlərinin inkişaf edəcəyinə, ticarət mallarının, xidmət və kapitalın sərbəst daşınmasına imkan yaranacağına və bununla da dövlətlər arasında sərhədlərin zəifləyəcəyinə, Avropa standartlarına uyğun qanunvericilik bazasının formalaşmasının zəruri olacağına və vahid iqtisadi məkanın, bazarda azad rəqabətin yaranmasına şərait yaradacağına ümid edir. Bununla da ermənilər Avropaya inteqrasiyanı Ermənistan-Azərbaycan arasında münasibətlərin normallaşması və münaqişənin həlli üçün mühüm yol sayırlar (284, s.53).

Ermənistan praktiki olaraq öz diasporu və başqa dövlətlərdən aldığı yardım hesabına yaşayır. 2007-ci il iyul ayının 2-də Ermənistanın keçmiş baş naziri Armen Darbinyan bu haqda danışarkən erməni diasporunun Ermənistana transferinin həcminin Azərbaycanın neft Fondunun həcmindən artıq olduğunu və xaricdə yaşayan ermənilərin Ermənistan iqtisadiyyatının inkişafı üçün böyük potensial olduqlarını bildirib (233). ABŞ-da fəaliyyət göstərən erməni lobbisinin səyləri nəticəsində Amerika Ermənistan üçün bir sıra sahələr (demokratiya, iqtisadi və sosial islahatlar, təhlükəsizlik və hüquq) üzrə yardım ayırır. Məsələn, Ermənistan MEA-nın Şərqşünaslıq institutunun direktorunun sözlərinə görə, 2006-cı il üçün ABŞ-ın Ermənistana ayırdığı yardım (75 mln. dollar) təxminən ölkənin Rusiyaya olan borcu qədərdir (354). Ermənilər yardım hesabına yaşamağı üstün tutsalar da Dağlıq Qarabağın azərbaycanlı əhalisi öz torpaqlarına qayıtmaq üçün humanitar yardımdan da imtina etməyə hazırdırlar. 2007-ci il aprel ayının 6-da Bakıda səfərdə olan BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalin Dağlıq Qarabağın azərbaycanlı icması-





nın rəhbəri Nizami Bəhmənovla görüşmüşdü. Görüş zamanı V.Kalin N.Bəhmənovu beynəlxalq təşkilatları kəskin tənqid etməkdə qınayaraq bunun müqabilində təşkilatların humanitar yardımı dayandıra biləcəklərini bildirmişdi. N.Bəhmənov isə öz növbəsində bildirmişdi ki: «Ölkəmizin iqtisadi qüdrəti gündən-günə artır. Bir müddətdən sonra Azərbaycan özü donor ölkəyə çevriləcəkdir. Bizi yardım yox, münaqişənin tezliklə həll olunması, BMT TŞ-nın məlum qətnamələrinin yerinə yetirilməsi maraqlandırır. Təcavüzkar yerinə oturdulduqdan və məcburi köçkünlər doğma yurdlarına qaytarıldıqdan sonra yardıma da ehtiyac qalmayacaq. Heç bir köçkün əcdadlarının, əzizlərinin uyuduğu torpağı ərzaq yardımına dəyişmək fikrində deyildir» (140).

Azərbaycan münaqişənin ədalətli həlli yolunda tərəfdarlar toplamaq məqsədilə öz iqtisadi potensialını səxavətlə xərcləyir. Bu da Azərbaycan ictimaiyyətində dünya və beynəlxalq birliyin münaqişədə onun mövqeyini dəstəkləyəcəyinə ümid yaradır. Əslində isə dövlətlər münaqişədə Azərbaycanın mövqeyini dəstəklədiklərini nümayiş etdirməklə öz mənafelərini güdür, münaqişənin həllində isə onsuz da heç bir rolları olmadığı üçün onun Minsk qrupu çərçivəsində ədalətli və beynəlxalq hüququn prinsiplərinə uyğun həllinin tərəfdarı olduqlarını bildirirlər.

Ermənistan isə iqtisadi cəhətdən həm geri qalır, həm də digər sahələrdə olduğu kimi bu sahədə də getdikcə Rusiyadan daha da asılı vəziyyətə düşür. Bunun əsas səbəbi isə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmamış qalmasıdır. Münaqişənin həlli isə Ermənistanın çətin vəziyyətdən çıxmasına kömək edər, onun iri regional layihələrə qoşulması üçün yollar açardı. Bu da, öz növbəsində, ölkənin iqtisadi inkişafına müsbət təsir edər, Ermənistana Rusiya ilə yanaşı digər böyük dövlətlər ilə də sərbəst əlaqələr qurmaq və müstəqil xarici siyasət yürütmək üçün imkan verərdi. Lakin Azər-

baycanın inkişafı, Ermənistanın isə həmin inkişafdan kənarda qalması heç də həmişə münaqişənin asanlıqla həll ediləcəyi kimi yozulmur. Belə fikirlər mövcuddur ki, bu vəziyyət Ermənistanın münaqişəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli variantını qəbul etməsinə gətirib çıxaracaq, digər fikirlərə görə isə bu iki ölkə arasında münasibətlərin daha da pisləşməsinə səbəb olacaq. ABŞ Dövlət katibinin sabiq birinci müavini Riçard Armtac da Dağlıq Qarabağ məsələsinin, həmçinin Azərbaycan və Ermənistan iqtisadiyyatının inkişafında mövcud fərqlərin ölkələr arasındakı münasibətlərin xeyrinə olmadığı fikrindədir. O, AzərTAc-a müsahibəsində bunu belə şərh edib: «Azərbaycan gələcəkdə çox böyük uğurlar əldə edəcək, Ermənistan isə, təəssüf ki, sabiq sovet ölkələri siyahısında ən kasıbları sırasında qalaraq çox çabalayacaqdır. Bu isə onsuz da Dablıq Qarabağ münaqişəsi üzündən pozulan Ermənistan-Azərbaycan münasibətlərinə əlavə təzyiq gətirəcəkdir» (173).





## NƏTİCƏ

Ermənistan-Azərbaycan münaqişəsi SSRİ dövlətinin və Ermənistan Respublikasının məqsədyönlü siyasəti nəticəsində yaranmış münaqişədir. Millətlərarası münaqişələr Sovet İmperiyasını qoruyub saxlamaq məqsədilə qızışdırılmışdısa da yaranmış vəziyyət Ermənistana çoxdankı arzularını həyata keçirmək fürsəti verdi və onlar əllərinə düşmüş bu fürsətdən məharətlə istifadə edərək Azərbaycana qarşı torpaq iddiaları irəli sürdülər.

Ermənilər münaqişənin əsasında xalqın «öz müqəddəratını təyinetmə» prinsipi durduğunu iddia etsələr də, onun həlli «ərazi bütövlüyü» prinsipi əsasında mümkündür. Bu nəticəyə gəlməyə o faktlar əsas verir ki, bir millət olaraq ermənilər öz dövlətlərinə malikdirlər, 1923-cü ildə isə Dağlıq Qarabağda yaşayan ermənilər yerli əhalinin bir hissəsi olaraq öz müqəddəratlarım Azərbaycanın tərkibində qalmaqla həll ediblər. Bundan başqa, Dağlıq Qarabağ tarixən Azərbaycan əraziləridir və ermənilər milli azlıq olaraq Azərbaycan xalqının bir hissəsini təşkil edirlər. Beynəlxalq hüquqi sənədlərə müraciət edərək gördük ki, milli azlıq xalqın bir hissəsi olaraq (hətta çoxluq təşkil etdiyi ərazilərdə) özünüidarə, yaxud muxtariyyat tələb etmək hüququna malik deyil. Azərbaycan isə Dağlıq Qarabağın məhz erməni əhalisinin istəyini nəzərə alaraq ona ən yüksək statuslu muxtariyyat vəd edir. Həmin muxtariyyat Azərbaycan tərəfdən edilmiş güzəşt kimi qiymətləndirilməlidir. Çünki milli azlıqlar yaşayan əraziyə hər hansı statusu verəcəyini dövlət özü müəyyənləşdirir. Və hadisələrin heç bir nəticə verməyərək daha uzun müddət davam edəcəyi təqdirdə, ölkə Başçısı İlham Əliyevin dediyi kimi, Azərbaycan bu muxtariyyatı gələcəkdə heç təklif etməyə də bilər.

Ermənilərin əsas kimi götürdükləri digər «fakt» isə dövlətin varisliyi məsələsidir ki, onlar Azərbaycanın özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etməklə, həmin dövrdə Dağlıq Qarabağ onun tərkibində olmadığı üçün müasir Azərbaycan dövlətinin də hüdudlarından kənarda qaldığını iddia edirlər. Lakin Dağlıq Qarabağ Cümhuriyyət dövründə mübahisəli ərazi sayılsa da elə həmin dövrdə məsələnin həll edildiyi və Dağlıq Qarabağın Azərbaycan tərkibində saxlanılması faktı həmin dövr sənədlərində qeyd edilir. Həmin sənədlərdə Dağlıq Qarabağın Azərbaycana verilməsi deyil, məhz Azərbaycan tərkibində saxlanması faktı diqqəti cəlb edir. Bundan başqa, bir daha beynəlxalq hüquqi sənədlər əsasında aydınlaşdırdıq ki, dövlət özünü hansı dövlətin varisi elan edirsə etsin, bunu yalnız özünü varis elan etdiyi vaxt üçün mövcud sərhədləri daxilində etmək hüququna malikdir. Əks təqdirdə, Azərbaycan özünü varis elan etməklə, avtomatik olaraq, Cümhuriyyət dövründə malik olduğu və SSRİ dövründə itirdiyi ərazilərə də sahib olmaq imkanı əldə edərdi.

Ermənistan-Azərbaycan münaqişəsinin həllində tərəflərin - Ermənistanın və Azərbaycanın mövqeyi heç cür üst-üstə düşmür. Azərbaycan haqlı olaraq öz mövqeyindən çəkilmək niyyətində deyil və Dağlıq Qarabağın müstəqil olmasına, yaxud onun Ermənistana birləşdiriləcəyinə heç vaxt razı olmayacaq.

Ermənistan da haqsız olsa belə öz mövqeyində israrlıdır və «Dağlıq Qarabağ» üçün hətta ən yüksək statuslu muxtariyyat belə qəbul etmək istəmir, onu ya müstəqil, ya da Ermənistanın tərkibində görür. Ermənistan Dağlıq Qarabağın erməni icmasının münaqişə tərəfi kimi qəbul edilməsinə ciddi cəhdlər edir.

Tərəflər öz aralarında razılığa gələ bilmədikləri üçün 1992-ci ildən ATƏM (ATƏT)-in Minsk qrupu fəaliyyət göstərir. 1994-cü ildən isə münaqişənin həlli ilə yalnız ATƏT məşğuldur. Bütün beynəlxalq təşkilatlar və dövlətlər də münaqişənin Minsk qrupu çərçivəsində həllinin tərəfdarıdırlar.





Son illər isə Minsk qrupunun səylərinin nəticəsiz qaldığı üçün Azərbaycan tərəfi, eyni zamanda, digər təşkilatların da bu məsələ ilə məşğul olmasını zəruri saymağa başlayıb. Əvvəllər yalnız İKT Ermənistanı rəsmən işğalçı dövlət kimi tanımışdısa, 2005-ci ildə Avropa Şurası da onu işğalçı dövlət, Dağlıq Qarabağdakı mövcud rejimi isə separatçı rejim kimi tanıdı. 2006-2007-ci illərdə isə GUAM-ın təşəbbüsü ilə təşkilatın üzv dövlətlərinin ərazisində mövcud münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsi də BMT Baş Məclisində müzakirəyə çıxarıldı.

Ermənistan-Azərbaycan münaqişəsinin başlandığı vaxtdan bu günədək olan inkişafı yoluna nəzər saldıqda onun, əslində dünya siyasətinin əlində bir alət olduğunu görürük. Beynəlxalq ictimaiyyət münaqişənin beynəlxalq hüququn prinsip və normalarına uyğun həllinin tərəfdarı olduğunu bildirsə də, Azərbaycanın ərazi bütövlüyünü tanısa da, münaqişənin həllində ərazi bütövlüyünün əsas götürülməsini dəstəklədiklərini göstərsə də hələ ki, onun həll edilməsi üçün həm Ermənistanı, həm Azərbaycanı, eyni zamanda Cənubi Qafqazda öz mövqeyini möhkəmlətmiş hər bir dövləti qane edəcək konkret bir yol təklif edə bilmir.

1994-cü il «atəşkəs haqqında» saziş münaqişənin daha da kəskinləşməsinin qarşısını aldısa da hazırda danışıqlar və bütün səylər münaqişənin nizamlanması istiqamətində aparılır. Nizamlama prosesindən sonra isə gələcəkdə onun bir də baş qaldırmaması üçün birdəfəlik həll edilməsi vacib şərtdir.

Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmamış qalması müəyyən mənada *Ermənistanın maraqlarına* cavab verir. Keçmiş prezident L.Ter-Petrosyan da Köçəryan hakimiyyətinin status-kvo vəziyyətinin keçən on ildə qorunub-

saxlanmasını böyük uğur saydığını və bununla da dünya ictimaiyyətinin bu vəziyyətə alışacağını və nəticədə Dağlıq Qarabağın müstəqilliyini tanıyacağına ümid etdiyini bildirib (328).

Regionda münaqişələrin həll olunmamış qalması isə nüfuz uğrunda mübarizə aparan super dövlətlərə (ABŞ-a və Rusiyaya) sərf edir. Çünki belə olduqda, həmin dövlətlər regionu nəzarətdə saxlamaqla yanaşı, digər ölkəyə özünün siyasi arenada və regionda nüfuz sahibi olduğunu və regionu öz nəzarətində saxladığını nümayiş etdirmək imkanı verir, bununla da digər dövlətə onunla hesablaşmağın vacib olduğunu göstərir. Münaqişənin hələlik nizamlanması, tam həllinin isə daha sonrakı vaxta saxlanması regiona nəzarət edən dövlətlərin mənafeyinə xidmət edir. Nə qədər ki, həmin dövlətlər regiondadırlar və öz aralarında razılığa gələ bilirlər vəziyyət sabit olaraq qalır və münaqişə həll olunmuş kimi görünür. Lakin nüfuz yiyəsi olan dövlətlərdən hansısa regionu tərk etmək məcburiyyətində qalarsa, onda bu vaxt, ya həmin dövlətin təşəbbüskarlığı ilə, ya da yaranmış zəruri amillərə əsasən münaqişə yenidən baş qaldırar və dövlətin yenidən regionun həyatında rolu vacib sayılar. Bununla da həmin dövlət yenidən tərk etdiyi məkana qayıtmaq imkanı qazanar. Cənubi Qafqaz regionunda da mövqeyini möhkəmlətmək niyyəti olan hər bir dövlət Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesində iştirak etməklə öz məqsədinə çatmaq istəyir.

Minsk qrupu həmsədrləri bu fikirdədirlər ki, münaqişənin həll olunması üçün Azərbaycan və Ermənistan tərəfləri öz aralarında razılığa gəlməlidirlər. Lakin hətta belə olarsa kənar qüvvələrin tərəflərə təzyiq göstərməyəcəyinə heç kim zəmanət verə bilməz. Ermənistan öz qərarını ilk növbədə Rusiya ilə razılaşdırmalıdır.





Münaqişənin haqlı olaraq Azərbaycanın xeyrinə həll edilməsi Rusiyaya sərf etmir. Çünki belə olarsa Azərbaycan tamamilə onun nəzarətindən çıxar və Ermənistan da ümidlərinin puça çıxdığı üçün güvəndiyi Rusiya ilə münasibətləri poza bilər, həmçinin digər Cənubi Qafqaz dövlətləri kimi Qərbə inteqrasiya yolunu tutar və ABŞ-la əməkdaşlığını gücləndirər. Bununla da Rusiya bütün regionda öz nüfuzunu itirər və regionu tamamilə tərk etmək məcburiyyətində qalar. Bu vaxt hətta Ermənistanla Rusiya arasında bir sıra məsələlər üstündə münaqişə yaranacağını da ehtimal etmək olar.

Münaqişənin Ermənistanın istəyinə uyğun həll edilməsi də Rusiyanın ürəyincə olmazdı. İndi Ermənistan digər böyük dövlətlərlə əməkdaşlıq qurarkən və bütün digər fəaliyyətini Rusiyanın fikrini nəzərə almaqla həyata keçirir və onun regionda öz təsirini qoruyub-saxlamasına şərait yaradır. Məhz ona görə ki, Rusiya münaqişədə Ermənistanın mövqeyini dəstəkləyir və əgər Ermənistan onun sözündən çıxarsa o münaqişəyə fərqli münasibət göstərə bilər. Münaqişə Ermənistanın xeyrinə həll ediləcəyi halda da Ermənistan daha sərfəli partnyorlar axtarmağa, onlarla əməkdaşlıq qurmağa və bununla da Rusiyadan həm iqtisadi, həm də bütün digər sahələrdə asılılığından qurtulmağa çalışar və dünya siyasətində öz yerini möhkəmlədər. Nəticədə isə Rusiya Ermənistanın ona arxa çevirməyəcəyindən arxayın ola bilməz. Ümumiyyətlə, münaqişə hər hansı şəkildə həll edilirsə edilsin, bu, Ermənistanın ABŞ-la əməkdaşlığının artmasına gətirib çıxaracaq ki, bu da Rusiyaya sərf etmir.

Münaqişənin Azərbaycanın xeyrinə həll edilməsinə ABŞ-ın razılaşacağını və bununla da onun Azərbaycanda olan nüfuzunun daha da artacağını fikirləşmək olar. Azərbaycan ABŞ üçün vacib ölkədir və nə qədər ki, dövlətlər arasında yaxşı münasibətlər mövcuddur ABŞ-ın Azərbaycana təzyiq göstərməsi üçün heç bir vasitəyə ehtiyacı yoxdur kimi

görünür. Bundan başqa, məsələnin belə həlli də Ermənistanın Rusiyadan üz döndərərək ABŞ-a meyl etməsi ilə nəticələnər. Lakin ABŞ-dakı erməni lobbisi məslənin belə həllinə ABŞ-ın razı olmasına hər cür mane olmağa çalışar. ABŞ hər hansı dövlətlə yaxşı münasibətə malik olursa olsun, hər halda ona bir təzyiq vasitəsinə malik olmağa üstünlük verir. Ermənistan-Azərbaycan münaqişəsi isə təkcə Ermənistana və Azərbaycana deyil, həm də Rusiyaya təsir vasitəsidir. Bundan başqa, ABŞ İranı qorxu altında saxlamaq üçün, üstüörtülü şəkildə olsa da, münaqişənin həllini İrana qarşı əməkdaşlığa dəyişməyə hazır olduğunu göstərir.

Münaqişənin Azərbaycanın xeyrinə həlli Ermənistan Respublikasının rəsmi şəxslərinin də xeyrinə deyil. Heç bir Ermənistan Prezidenti belə bir hadisənin onun prezidentliyi dövründə baş verməsini istəməz. Ona görə də hər prezident məsələnin onun vaxtında Azərbaycanın xeyrinə həll olmaqdansa, həll olunmamış qalmasına üstünlük verir.

ABŞ və Rusiya arasında bir sıra məsələlərdə ziddiyyətlər olmaqla yanaşı qarşılıqlı siyasi asılılıq da mövcuddur. Təhlükəsizlik məsələlərilə bağlı bir sıra dünya miqyaslı məsələlərin həlli ABŞ və Rusiya arasında razılıq olmadan demək olar ki, mümkün deyil. Ermənistan-Azərbaycan münaqişəsinin həllində də həmin dövlətlərin fikir həmrəyliyi böyük rol oynaya bilər. Lakin ABŞ və Rusiya münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının xeyrinə həll edilməsinə dair razılığa gəlsələr həmsədr və ümumilikdə Ermənistanı dəstəkləyən dövlət olaraq Fransa dövləti əks mövqe nümayiş etdirə bilər.

Əgər münaqişə danışıqlar yolu ilə həll edilmirsə onu Beynəlxalq məhkəmə yolu ilə həll etməyə çalışmaq lazımdır. BMT Nizamnaməsinin XIV fəslinin 93-cü maddəsinə əsasən təşkilatın üzvü olan bütün dövlətlər, ö cümlədən Azərbaycan və Ermənistan Respublikaları Beynəlxalq Məhkəmənin Statutunun iştirakçılarıdır. Lakin məsələni Beynəlxalq Məhkəməyə çıxarmaq üçün hər iki dövlətin razılığı lazımdır. Çünki ən ağır beynəlxalq hüquq pozuntusu törətmiş dövləti belə onun öz razılığı olmadan Beynəlxalq Məhkəməyə vermək olmaz (113, s.8).





Münaqişəni beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq iki şəkildə həll etmək mümkündür ki, onların hər ikisi Azərbaycan Respublikasının mənafeyinə uyğundur.

I - Dağhq Qarabağda baş verənlərin BMT TŞ-nın qətnamələrində göstərildiyi kimi yerli erməni qüvvələri tərəfindən törədildiyini qəbul edərək, onu ölkə daxilində terror aktı kimi qiymətləndirmək və BMT qətnamələrini regionda antiterror əməliyyatlar keçirmək üçün beynəlxalq sanksiya hesab edərək münaqişəni həll etmək mümkündür (185, s.91). Bu vaxt Ermənistan Respublikasının özünün də Dağlıq Qarabağ ermənilərinə kömək etdiyi faktını təsdiq etdiyi üçün Azərbaycan Respublikasının daxili işlərinə qarışdığı və digər dövlətin ərazisində terror qrupları təşkil etdiyinə və dəstəklədiyinə görə o, məsuliyyət daşımalıdır.

II - Münaqişə iki dövlət - Ermənistan və Azərbaycan arasında baş verən beynəlxalq münaqişə kimi, Ermənistan isə təcavüzkar dövlət kimi qəbul edilərsə onda, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinə əsasən Ermənistan hüquqazidd sayılan hərəkətlər törətdiyinə, digər dövlətin – Azərbaycanın ərazilərini qeyri-qanuni güc tətbiq etməklə işğal etdiyinə və digər dövlətin – Azərbaycanın beynəlxalq sərhədlərini ərazi və sərhəd mübahisəsini həll etmək üçün güc tətbiq etdiyinə görə məsuliyyət daşımalıdır. Bundan başqa, Rusiya da həmin dövrdə Ermənistanın Azərbaycan ərazisində işğalçılıq aktları həyata keçirdiyini bilə-bilə ona hərbi yardım göstərdiyinə görə məsuliyyət daşımalıdır.

Bunun üçün isə ilk növbədə Dağlıq Qarabağın tarixən Azərbaycan əraziləri, Azərbaycan dövləti yaranandan isə onun tərkib hissəsi olduğunu (Əslində buna ehtiyac yoxdur, çünki Ermənistandan başqa bütün dövlətlər və bütün təşkilatlar Dağlıq Qarabağı Azərbaycan dövlətinin tərkib hissəsi kimi tanıyırlar), Ermənistan Respublikasının Azərbaycanın daxili işlərinə qarışdığını və Ermənistan-Azərbaycan münaqişəsinin yaranmasının səbəbkarı olduğunu, münaqişə başladığı vaxtdan (1988-ci ildən) Dağlıq Qarabağda Ermənistanın birbaşa iştirakı ilə baş verən hadisələrin heç bir hüquqi əsası olmadığını və münaqişənin əsasında xalqın «öz müqəddəratını təyinetmə» istəyinin deyil ermənilərin separatçılıq niyyətinin durduğunu sübut edərək Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həllinə nail olmaq olar.

Münaqişə Beynəlxalq Məhkəməyə çıxarılarsa onda yuxarıda göstərilənlərin hamısını sübut etmək üçün Azərbaycan dövlətinin əlində faktları sübut edən sənədlər (o cümlədən arxiv sənədləri) və lentlər, görkəmli və nüfuzlu ziyalıların elmi əsərləri, ən əsası isə hələ ki, canlı şahidlər var.

Bütün deyilənlər belə nəticəyə gəlməyə əsas verir ki, ölkədaxili, yaxud beynəlxalq münaqişə kimi qəbul edilməsindən asılı olmayaraq beynəlxalq hüququn norma və prinsipləri Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həll edilməsini tələb edir.



## Mənbələr və istifadə olunmuş ədəbiyyat

### *Mənbələr*

*a). Azərbaycan dilində*


1.ABŞ prezidenti Corc Buşun bəyanatı // «Dirçəliş-XXI əsr», 98-99/2006

2.Avropa Şurası Nazirlər Komitəsinin «Dağlıq Qarabağ münaqişəsinin gərginləşməsinə dair» 15 aprel 1993-cü il tarixli Bəyannamə // «Diplomatiya aləmi»», 2003, №3

3.Avropa Şurası Nazirlər Komitəsinin «Dağlıq Qarabağa dair» 11 mart 1992-ci il tarixli Bəyannamə // «Diplomatiya aləmi», 2003, №3

4.Avropa Şurası Parlament Assambleyasının «Zaqafqaziyada münaqişələrə dair» 22 aprel 1997-ci il tarixli 1119 saylı Qətnaməsi // «Diplomatiya aləmi», 2003, №3

5.Avropa Şurası Parlament Assambleyasının 25.01.2005-ci il tarixli 1416 saylı Qətnaməsi *[http://www.refugees-idps-committee.gov.az/material_02_005d.html]*

6.Azərbaycan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası və Türkmənistan Bəyannaməsi. 16 oktyabr 2007-ci il, Tehran. «Xalq qəzeti», Bakı, 2007, 19 oktyabr

7.Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 27 iyun 2006-cı il tarixli Bəyanatı. «Xalq qəzeti», Bakı, 2006, 28 iyun

8.Azərbaycan Respublikasının beynəlxalq təşkilat yanında Daimi Nümayəndəliyi haqqında əsasnamə. «Xalq qəzeti», 2006, 23 iyun

9.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2005.

10.Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı. Bakı, 1991

11.Azərbaycan Respublikasının «Milli Təhlükəsizlik haqqında» 29 iyun 2004-cü il tarixli qanunu *[http://www.mns.gov.az/nslaw_az.html]*

12.BMT BM-in «Milli və ya etnik, dini və dili azlıqlara mənsub insanların hüquqlarına dair» 18 dekabr 1992-ci il tarixli Bəyannaməsi *[http://www.r-komitet.ru/vera/32.htm]*

13.İKT-nın «Ermənistan və Azərbaycan arasında münaqişə üzrə» 25-29 aprel 1993-cü il tarixli qətnaməsi // Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: «Tuna» nəşriyyatı, 1998
14.Sovet Sosialist Respublikaları İttifaqının Konstitusiyası (Əsas Qanunu). – B.: Azərnəşr, 1988.

*b).rus dilində*

15.Бишкекский протокол *[http://www.vn.kazimirov.ru/doc9.htm]*
16.Венская Конвенция о праве международных договоров. Вена, 23 мая 1969 г. *http://web1.law.edu.ru/norm/norm.asp?normID=1167089&subID=100059590,100059601#text]*
17.Венская Конвенция о правопреемстве государств в отношении договоров от 23 августа 1978 г.
18.Всеобщая декларация прав человека: принята и провозглашена резолюцией 217 А (III) Генеральной Ассамблеей от 10 декабря 1948 года *[http://ktomy.narod.ru/vsedek.htm]*
19.Декларация о недопустимости интервенции и вмешательства во внутренние дела государств: Принята резолюцией 36/103 XXXVI Генеральной Ассамблеи ООН от 9 декабря 1981 г. *[http://web1.law.edu.ru/norm/norm.asp?normID=1168211]*
20.Декларация о провозглашении Нагорно-Карабахской Республики (2 сентября 1991 г.) *[http://www.nkr.am/rus/deklaraciya209.html]*
21.Закон СССР «О порядке решения вопросов, связанных с выходом союзной республики из СССР» № 409-1 от 3 апреля 1990 года *[www.bestpravo.ru/ussr/data01/tex10973.htm]*
22.Закон об органах государственной власти и управления союза ССР в переходный период № 2392-1 от 5 сентября 1991 г. *[http://zaki.ru/pagesnew.php?id=1614]*
23.Закон СССР о разграничении полномочий между союзом ССР и субъектами федерации от 26 апреля 1990 г.
24.Заявление Минской группы ОБСЕ по урегулированию нагорно-карабахского конфликта (22 июня 2006 г.) // «Dirçəliş-XXI əsr», 2006, №100-101
25.Из протокола заседания пленума Кавбюро ЦК РКП(б) от 5 июля 1921 г.: В кн.: К истории образования НКАО Аз.ССР

26.О признании Нагорно-Карабахской республики. Резолюция международного конгресса *[http://www.nkr.am/rus/deklaraciya209.html]*
27.Совместное коммюнике об итогах посреднической миссии президентов Б.Ельцина и Н.Назарбаева *[http://www.vn.kazimirov.ru/doc1.htm]*
28.Сообщение в центральный комитет РКП(б) от 10 июля 1920 г.: В кн.: К истории образования НКАО Аз.ССР
29.Текст доклада министра обороны Армении на парламентских слушаниях по Карабаху (30.03.2005) *[http://www.xachik.ru/modules.php?name=News&file=article&sid=46]*
30.Устав Организации за Демократию и Экономическое Развитие – ГУАМ (23 мая 2006 г.)
31.Устав Организации Объединенных Наций и Статут Международного Суда. Издано Департаментом общественной информации ООН. Нью-Йорк, 2001

***İstifadə olunmuş ədəbiyyat***

*a).Azərbaycan dilində*

32.ABŞ heç vaxt Azərbaycanın BMT-dəki təşəbbüsünün əleyhinə çıxış etməmişdir. «Azərbaycan» qəz., Bakı, 2007, 8 fevral
33.ABŞ İrana xəbərdarlıq etdi. «Azərbaycan» qəz., Bakı, 2007, 23 fevral
34.ABŞ senatoru Cozef Baydenin təhlükəli təklifi. «Xalq qəzeti», Bakı, 2007, 9 oktyabr
35.ABŞ-dakı erməni lobbisi ilə rəsmi Yerevan arasında uçurum dərinləşməkdədir. «Xalq qəzeti», 2007, 13 aprel
36.Akif Nağı. Hərb meydanından keçən yeganə yol *[http://karabakh-doc.azerall.info/ru/articls/artc098az.htm]*
37.AŞ PA-da dondurulmuş münaqişələr üzrə Alt Komitə yaradılması ilə bağlı fikir ayrılığı var (29.01.08) *[http://news.trend.az/?show=news&newsid=1122404&lang=AZ]*
38.«Apxazeti» Beynəlxalq Təşəbbüs Qrupu «Rustavi-2» telekanalını «DQR»də «referendum»u işıqlandırdığına görə pisləyir. «Xalq qəzeti», Bakı, 2006, 19 dekabr
39.ATƏM Şurasının 1992-ci il Helsinki birinci əlavə görüşü // «Diplomatiya aləmi», Bakı, 2003, №2, s.112-113

40.ATƏT Dağlıq Qarabağda keçirilmiş «referendum»u tanımır. «Xalq qəzeti», Bakı, 2006, 12 dekabr
41.ATƏT-in Lissabon sammiti Azərbaycan xarici siyasətinin parlaq qələbəsi kimi tarixə yazılmışdır. «Xalq qəzeti», Bakı, 2006, 3 dekabr
42.ATƏT-in Minsk qrupu Dağlıq Qarabağ münaqişəsi tərəflərinin məsuliyyətdən mümkün qaçma cəhdlərinin qarşısını almağa can atır *[http://news.trend.az/?show=news&newsid=1085163&lang=AZ]*
43.ATƏT-in Minsk qrupu regiona yarımçıq heyətlə gəlir. «Azərbaycan» qəz., Bakı, 2006, 22 noyabr
44.ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin etirazlarına baxmayaraq, BMT Baş Məclisi Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətlə bağlı qətnamə qəbul etmişdir. «Xalq qəzeti», Bakı, 2008, 16 mart
45.ATƏT-in Minsk qrupunun həmsədrləri İstanbulda növbəti görüş keçirmişlər. «Xalq qəzeti», Bakı, 2006, 23 mart
46.ATƏT-in Minsk qrupunun həmsədrləri olan dövlətlərin nümayəndələri birgə bəyanat vermişlər. «Xalq qəzeti», Bakı, 2006, 25 may
47.ATƏT-in sədri Dağlıq Qarabağ probleminin artıq bu il tənzimlənəcəyinə ümid edir. «Xalq qəzeti», Bakı, 2006, 18 yanvar
48.Avropa Birliyindən ikili münasibət *[http://www.aamik.az/ts_gen/azl/news/20061219161041.htm]*
49.Avro Atlantik Mərkəz NATO haqqında informasiya bazası yaradır. «Xalq qəzeti», Bakı, 2007, 11 yanvar
50.«Avropa evi»nin astanasında. «Azərbaycan» qəz., Bakı, 2006, 14 dekabr
51.Avropa İttifaqı - Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsi Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır. «Xalq qəzeti», Bakı, 2006, 29 dekabr
52.Avropa İttifaqı Dağlıq Qarabağda keçirilən referendumun nəticələrini tanımır. «Xalq qəzeti», Bakı, 2006, 19 dekabr



53.Avropa İttifaqı Dağlıq Qarabağda Konstitusiyaya dair «referendum»u və onun nəticələrini tanımır. «Xalq qəzeti», Bakı, 2006, 12 dekabr
54.Avropa İttifaqı mövcud fikir ayrılıqlarını aradan qaldıra biləcəkmi? «Xalq qəzeti», Bakı, 2007, 11 yanvar
55.Avropa Şurası Azərbaycanın demokratik dəyərlərə sadiqliyinə inanır. «Xalq qəzeti», Bakı, 2007, 18 aprel
56.Avropa Şurasının Nümayəndələr Komitəsi Dağlıq Qarabağda keçirilmiş referendumla bağlı bəyanat vermişdir. «Xalq qəzeti», Bakı, 2006, 16 dekabr
57.Azərbaycan: Avropa Şurasına gedən çətin və şərəfli yol. «Xalq qəzeti», Bakı, 2006, 17 yanvar
58.Azərbaycan bizi qane etməyən razılaşmaya heç vaxt getməyəcəkdir. «Xalq qəzeti», Bakı, 2006, 6 oktyabr
59.Azərbaycan diplomatiyasının növbəti uğuru. «Xalq qəzeti», Bakı, 2006, 15 sentyabr
60.Azərbaycan dövləti və diasporu beynəlxalq aləmdə öz sözlərini daha qətiyyətlə deyirlər. «Xalq qəzeti», Bakı, 2007, 6 aprel
61.Azərbaycan xalqı başqa xalqların tarixinə və mədəni abidələrinə hörmətlə yanaşır. «Xalq qəzeti», Bakı, 2006, 25 fevral
62.Azərbaycan ilə Avropa Birliyi arasında anlaşma memorandumu imzalanmışdır. «Xalq qəzeti», Bakı, 2006, 8 noyabr
63.Azərbaycan Milli Məclisinin nümayəndə heyəti AŞ PA-da uğurlu fəaliyyətini davam etdirir (Strasburq, 24 sentyabr 2001-ci il) // Dirçəliş-XXI əsr, 2003, №59, s.22-24
64.Azərbaycan möhkəm sülhün tərəfdarıdır. «Xalq qəzeti», Bakı, 2006, 22 iyul
65.Azərbaycan nümayəndəsi BMT kürsüsündən səslənən erməni ittihamlarına cavab vermişdir. «Xalq qəzeti», Bakı, 2006, 29 sentyabr
66.Azərbaycan nümayəndəsinin Ermənistanın xarici işlər nazirinin ittihamlarına cavab verməsi barədə məlumata şübhə etməyə heç bir əsas yoxdur. «Xalq qəzeti», Bakı, 2006, 30 sentyabr
67.Azərbaycan Prezidenti: «Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair görüntü xatirinə danışıqlar aparmaq bizə lazım

deyil» *[http://azerbaijanfoundation.org/cgi-bin/e-cms/vis/vis.pl?s=001&p=0060&n=000046&g=]*
68.Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsi. «Xalq qəzeti», Bakı, 2006, 30 noyabr
69.Azərbaycan Prezidenti İlham Əliyevin «Exo Moskvı» radiosuna müsahibəsi. «Xalq qəzeti», Bakı, 2006, 26 dekabr
70.Azərbaycan Prezidenti İlham Əliyev Minsk qrupunun həmsədri olan dövlətlərin nümayəndə heyətini qəbul etmişdir. «Xalq qəzeti», Bakı, 2006, 25 may
71.Azərbaycan və Ermənistan XİN başçılarının görüşü baş tutmadı. «Yeni Azərbaycan» qəz., Bakı, 2006, 6 dekabr
72.Azərbaycan və Ermənistan prezidentlərinin Minskdə görüşəcəkləri təsdiqləndi. «Azərbaycan» qəz., Bakı, 2006, 24 noyabr
73.Azərbaycan və Türkiyə Ermənistanı bütün regional layihələrdən kənarda qoydular. «Xalq qəzeti», Bakı, 2007, 1 dekabr
74.Azərbaycanlı deputat Ermənistanın Avropa Şurasına layiq olmaması barədə sənəd hazırlamışdır. «Xalq qəzeti», Bakı, 2006, 27 yanvar
75.Bakı-Tbilisi-Qars dostluğa və əməkdaşlığa yönəlmiş layihədir. «Azərbaycan» qəz., Bakı, 2007, 12 dekabr
76.Beynəlxalq Münasibətlər Şurasında görüş. «Xalq qəzeti», Bakı, 2006, 2 may
77.BMT-nin Baş Assambleyası Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamə qəbul etmişdir. «Xalq qəzeti», Bakı, 2008, 18 mart
78.BMT-nin Baş Məclisi Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətlə bağlı qətnamə qəbul etmişdir. «Xalq qəzeti», Bakı, 2008, 15 mart
79.Brayza və Fasye Minskə niyə gəlməmişdilər. «Azərbaycan» qəz., Bakı, 2006, 30 noyabr
80.Centlmen sazişi *[http://karabakh.info.az/articles/326/1/]*
81.Dağlıq Qarabağ münaqişəsi Ermənistanda siyasi çəkişmələrə rəvac verir. «Xalq qəzeti», Bakı, 2006, 22 sentyabr
82.Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli prosesində Ermənistanın qeyri-konstruktiv mövqeyi göz qabağındadır. «Xalq qəzeti», Bakı, 2006, 1 oktyabr



83.Daha azad mühitdə: Hər kəs üçün inkişaf, təhlükəsizlik və insan hüquqları, BMT Baş Katibinin hesabatının qısa icmalı. Bakı, 2005. - 15s.
84.Daha bir qlobal layihə gerçəkliyə çevrildi. «Azərbaycan» qəz., Bakı, 2007, 9 fevral
85.Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu soydaşlarımızın lobbiçilik fəaliyyətinə böyük təkan verəcək. «Azərbaycan» qəz., Bakı, 2007, 18 mart
86.Dünya ictimaiyyəti Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mövqeyini müdafiə edir. «Xalq qəzeti», Bakı, 2006, 15 dekabr
87.Elman Məmmədov NATO-nun seminarında məruzə edib. «Yeni Azərbaycan» qəz., Bakı, 2006, 26 oktyabr
88.Erməni tərəfinin yeni təxribatı. «Xalq qəzeti», Bakı, 2006, 19 dekabr
89.Erməni nazir: Madrid sənədi bizim uğurumuzdur *[http://butovaz.info/index.php?option=com_content&task=view&id=754&bItemid=6]*
90.Ermənilər ABŞ diplomatından niyə narazı qaldılar? «Xalq qəzeti», Bakı, 2006, 30 iyun
91.Ermənilərin qanunsuz məskunlaşdırılması beynəlxalq hüquq prinsiplərinin kobud şəkildə pozulması deməkdir. «Xalq qəzeti», Bakı, 2006, 25 iyun
92.Ermənistanı ciddi məğlubiyyət gözləyir. «Azərbaycan» qəz., Bakı, 2007, 24 fevral
93.Ermənistanın işğalçılıq siyasəti beynəlxalq aləmdə kəskin pislənir. «Azərbaycan» qəz., Bakı, 2007, 11 noyabr
94.Ermənistanın mövqeyi tez-tez dəyişir. «Yeni Azərbaycan» qəz., Bakı, 2006, 3 iyun
95.Əhmədinejad Buşa məktub yazıb // Bakı-Təbriz, 2006, №4(7), s.6
96.Əhmədov A.A. İran məsələsi və Azərbaycanın milli maraqları // Bakı Slavyan Universitetinin Elmi əsərləri, 2006, №1-2, s.50-55
97.Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: «Tuna» nəşriyyatı, 1998. – 137s.

98.Əliyev V. ABŞ xarici siyasətində lobbi fəaliyyəti // Dirçəliş-XXI əsr, 2006, №98-99, s.226-238
99.Əsədi P. İran və nüvə problemi // Bakı-Təbriz, 2007, №8, s.13-17
100.Fransa-Azərbaycan əlaqələri strateji müttəfiqliyə çevrilir. «Azərbaycan» qəz., Bakı, 2007, 15 fevral
101.G8 qlobal məsələləri müzakirə etdi. «Xalq qəzeti», Bakı, 2006, 19 iyul
102.GUAM Qarabağ ərazisində «konstitusiya referendumu» adlandırılan aktla bağlı bəyanat verib. «Yeni Azərbaycan» qəz., Bakı, 2006, 6 dekabr
103.Gülüstan sarayında zirvə görüşünün açılışı. «Xalq qəzeti», Bakı, 2007, 20 iyun
104.Heç vaxt elə bir addım atmarıq ki, qonşulara ziyan dəysin (Azərbaycan Prezidenti İ.Əliyevin 2007-ci il yanvarın 23-də Prezident sarayında Fransanın "Fiqaro" qəzetinin redaktor müavini Pyer Ruselinə müsahibəsi). «Səs» qəz., Bakı, 2007, 30 yanvar
105.Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Tərtibçilər: Nazim İbrahimov, İbrahim Şükürov. Bakı: «Azərbaycan» nəşriyyatı, 1994. – 174s.
106.Həmsədrlər bəyanat verdi. «Müsavat» qəz., Bakı, 2008, 19 mart
107.Həsənoğlu F.H. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin konfliktoloji aspektləri. «Qarabağ: suallar və faktlar» kitabında. Bakı: «Qismət» nəşriyyatı, 2005, s.131-145
108.Həsənov Ə.M. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997. - 80s.
109.Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: «Azərbaycan» nəşriyyatı, 2005. – 752s.
110.Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: «Azərbaycan» nəşriyyatı, 1998. – 315s.

111.Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Tarix elm.dok. ... dis.avtoref. Bakı, 2000, 76s.
112.Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). B.: Azərnəşr, 1993. - 362s.
113.Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı: «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2000. – 408s.
114.XİN başçısından qəti xəbərdarlıq: «Azərbaycan torpaqlarının bir qarışını da Ermənistana güzəştə getməyəcək» *[http://www.hafta-ichi.com/aze/2007/12/01/anons=1]*
115.İbayev V. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Ermənistanın törətdiyi beynəlxalq hüquq pozuntuları: «Qarabağ: suallar və faktlar» kitabında. Bakı: «Qismət» nəşriyyatı, 2005, s.99-130
116.İftixari Areş. İran İslam Respublikası-Ermənistan siyasi münasibətləri (1991-2005) // Tarix və onun problemləri, 2007, №1, s.178-182
117.İlham Əliyev: Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəkdir! «Xalq qəzeti», Bakı, 2007, 2 yanvar
118.İlham Əliyev: Azərbaycanın ərazi bütövlüyü qeyd-şərtsiz bərpa olunmalıdır (Azərbaycan Prezidentinin «Euronews» telekanalına müsahibəsi). «Yeni Azərbaycan» qəz., Bakı, 2006, 3 iyun
119.İlham Əliyev: Biz ABŞ-la qonşumuz İran arasında münaqişə yarada biləcək təhlükədən ciddi narahatıq. «Yeni Azərbaycan» qəz., Bakı, 2006, 3 iyun
120.İlham Əliyev: «Biz heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına razılıq verə bilmərik». «Xalq qəzeti», Bakı, 2006, 4 mart
121.İlham Əliyev: «Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək». «Xalq qəzeti», Bakı, 2006, 19 iyul
122.«İran ətrafındakı gərginlik Dağlıq Qarabağ münaqişəsinin həllinə təsir göstərir» *[http://www.liderv.com/view_index.php?lang=az&menu=news&type=aview&id=10369]*

123.İranın xarici işlər naziri Manuçöhr Möttəki Bakıda mətbuat konfransı keçirdi *[http://www.ans.az/aznews/php?category=6#TOP]*
124.İslam Konfransı Təşkilatı Dağlıq Qarabağda keçirilmiş «referendum»u tanımır. «Xalq qəzeti», Bakı, 2006, 17 dekabr
125.İsmayıl T.R. Türkiyə-Avropa İttifaqı münasibətlərinə geosiyasi nəzər // Bakı Slavyan Universitetinin Elmi əsərləri, 2004, №1-2, s.80-85
126.Qarabağ münaqişəsi: Hadisələrin xronikası *[http://www.vescc.com/az/karabakh.php]*
127.Qarabağ münaqişəsinin həlli Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir. «Yeni Azərbaycan» qəz., Bakı, 2006, 3 iyun
128.«Qarabağ müstəmləkə deyil, Azərbaycanın bir hissəsidir». «Xalq qəzeti», Bakı, 2007, 24 noyabr
129.Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996. – 135s.
130.Qasımov M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: «Mütərcim» nəşriyyatı, 1997. – 124s.
131.Qasımov M.C. Bəşəriyyətin sağ qalması naminə. Bakı: Azərnəşr, 1991. – 64s.
132.Qasımov M.C. Regional siyasət // Strateji analiz, Bakı, 2002, №5, s.12-19
133.Qasımov T. BMT, ATƏT və yeni dünya düzəni. Siyasi biliklərin əsasları. «İnam» plüralizm mərkəzi. Bakı, 1998 *[http://www.kitabxana.org/site/index.php?name=view&page=1&id=214]*
134.Qlobal üfüqlər. Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ səfəri. Bakı, 1997
135.Kiyevdə GUAM ölkələri dövlət başçılarının zirvə görüşü keçirilmişdir. «Xalq qəzeti», Bakı, 2006, 24 may
136.Köçəryan beynəlxalq əlaqələrdən qaçır. «Xalq qəzeti», Bakı, 2006, 23 may
137.Konqresmen Don Barton həmkarlarını Dağlıq Qarabağ məsələsində neytral mövqe tutmağa çağırmışdır. «Xalq qəzeti», Bakı, 2006, 20 iyul
138.Lissabon sammiti Ermənistana hüquqi müstəvidə sarsıdıcı zərbə oldu. «Azərbaycan» qəz., Bakı, 2006, 3 dekabr



139.Mahmudov Y.M., Şükürov K.K. Qarabağ tarixi: Qədim zamanlardan müasir dövrədək: «Qarabağ: suallar və faktlar» kitabında. Bakı: «Qismət» nəşriyyatı, 2005, s.3-52
140.Məcburi köçkünlərin öz torpaqlarında yaşamaq hüququ bərpa ediləcəkdir. «Xalq qəzeti», Bakı, 2007, 7 aprel
141.Məhərrəmov A. Dağlıq Qarabağ münaqişəsi Türkiyə-Ermənistan münasibətləri kontekstində // Filologiya məsələləri, Bakı, 2004, №5, s.233-240
142.Məhərrəmov A. Türkiyə Böyük Millət Məclisinin Dağlıq Qarabağ probleminin həlli istiqamətində tutduğu rəsmi mövqe // Tarix və onun problemləri, Bakı, 2006, №1, s.152-157
143.Məhərrəmzadə A.M. Türkiyə və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. Tarix elm.nam. ... dis.avtoref. Bakı, 2007. - 26s.
144.Məmmədov Ə.M. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (80-ci illərin sonu-1997-ci il). Bakı: «Elm» nəşriyyatı, 1999. – 360s.
145.Məmmədova H.İ. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920). Bakı: "Nağıl Evi" nəşriyyatı, 2006. - 150s.
146.Məmmədov N. Prezident Əliyevin xarici siyasət kursu Azərbaycanın təhlükəsiz, davamlı və dinamik inkişafının qarantıdır // «Diplomatiya aləmi», 2003, №3, s.49-64
147.Mətyu Brayzə: Azərbaycan bütün sahələrdə Ermənistandan üstündür. «Xalq qəzeti», Bakı, 2006, 4 oktyabr
148.Mətyu Brayzə: Azərbaycan dünyanın nadir bir dövlətidir. «Xalq qəzeti», Bakı, 2006, 2 iyul
149.Mətyu Brayzə Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlarda iyula qədər irəliləyişlərin əldə olunacağını istisna etmir. «Xalq qəzeti», Bakı, 2007, 10 aprel
150.Mətyu Brayzə: Dediklərimizdə davamlı və ədalətliyik. «Xalq qəzeti», Bakı, 2008, 15 mart
151.Mir Yaqub. Qafqazın problemləri. Bakı: «Azərbaycan» nəşriyyatı, 1996. – 104s.

152.Musabəyov R. Cəmiyyət və Dövlət. Bakı: «Ayna Mətbuat Evi», 2004
153.Musayev Ə. «Millət», «xalq» anlayışları insan hüquqları kontekstində // «Dirçəliş-XXI əsr», 2007, №114-115, s.157-165
154.Münaqişənin həlli prosesi yeni mərhələdə. «Xalq qəzeti», Bakı, 2006, 15 yanvar
155.Nağıyeva N.C. Avropa Konstitusiyası: problemlər və perspektivlər // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2008, №1, s.153-160
156.NATO Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini tam dəstəkləyir. «Xalq qəzeti», Bakı, 2006, 1 dekabr
157.NATO Azərbaycanla sıx əməkdaşlıqdan razıdır. «Xalq qəzeti», Bakı, 2006, 20 sentyabr
158.NATO PA-nın Müdafiə və Təhlükəsizlik komitəsi Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını təsdiqləmişdir. «Xalq qəzeti», Bakı, 2006, 16 noyabr
159.Nəsibov E.M. ABŞ-ın Cənubi Qafqaz siyasəti və Azərbaycan Respublikası // «Dirçəliş-XXI əsr», 2005-2006, №94-95, s.166-173
160.Nəsibov E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Bakı: «Çıraq» nəşriyyatı, 2006. - 310s.
161.Nəsirov E. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər). Bakı: Qanun nəşriyyatı, 1998. – 136s.
162.Novruz Məmmədov: «BMT-də dondurulmuş münaqişələrlə bağlı müzakirələrin açıq qalması bizim maraqlarımıza daha çox cavab verir» *[http://www.azhumanrights.org/cgi-bin/e-cms/vis/vis.pl?s=001&p=0097&n=000343&g=]*
163.Nyu-Yorkda GUAM Xarici İşlər Nazirləri Şurasınm iclası keçirilmişdir. «Xalq qəzeti», 2006, 27 sentyabr
164.Paskal Loro, Fransua Tüal. Geopolitika. / fransızcadan tərcümə edən Fuad Həsənoğlu. Bakı, 2001. - 168s.
165.Paşayev H. Bir səfirin manifesti. Bakı: «Şərq-Qərb», 2007. - 248s.



166.Piriyev A.M. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı: BDU, 2002. -534s.
167.Prezident diplomatiyası. «Azərbaycan» qəz., Bakı, 2006, 1 dekabr
168.Prezident İlham Əliyev: Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. «Xalq qəzeti», Bakı, 2006, 14 dekabr
169.Rəcəbli A.Ə., Əliyev O.Ə., Hacı R.M. Ermənistan-Azərbaycan münaqişəsi (müharibəsi). Bakı: «Kitab aləmi» nəşriyyat və poliqrafiya mərkəzi, 2004. – 102s.
170.Rəcəbli H. Azərbaycan ATƏT məkanında // «Dirçəliş-XXI əsr», 2006, №96-97, s.327-335
171.Rəsmi Bakı İranın nüvə problemini diplomatik yolla həll etməyə çağırır. «Yeni Azərbaycan» qəz., Bakı, 2006, 3 iyun
172.Rəsmi İrəvan məğlubiyyətini anlamağa başlayıb. «Xalq qəzeti», Bakı, 2006, 28 sentyabr
173.Riçard Armtac: Azərbaycan ayağa qalxıb irəliləyir. «Xalq qəzeti», Bakı, 2007, 16 noyabr
174.Ruintən K.F. Dağlıq Qarabağ münaqişəsi və ATƏT // Tarix və onun problemləri, 2006, №3, s.233-238
175.Ruintən K.F. Ermənistan-Azərbaycan münaqişəsində dövlətlərin varisliyi və xalqın öz müqəddəratını təyinetmə hüququ // Tarix və onun problemləri, 2007, №3, s.209-215
176.Ruintən K.F. Qafqaz regionunda nüfuz uğrunda mübarizə və Dağlıq Qarabağ münaqişəsi / Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya. İqtisadi və Beynəlxalq münasibətlər. II Beynəlxalq Konqresin materialları. Bakı, 02-05 may 2007, III kitab, s.1343-1348.
177.Ruintən K.F. Nüvə təhlükəsizliyi və İran məsələsi / BSU əməkdaşlarının illik elmi işlərinin yekununa həsr olunmuş konfrans məruzələrinin tezisləri. Bakı: Kitab aləmi, 2006, s.225-226
178.Ruintən S.F. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı: «Adiloğlu» nəşriyyatı, 2005. – 236s.

179.Ruintən S.F. Azərbaycanın müstəqil türk dövlətləri ilə siyasi əlaqələri (XX əsrin 90-cı illəri). Tarix elm.nam. ... dis.avtoref. Bakı, 2007. - 25 s.
180.Rusiya «dondurulmuş» münaqişələr məsələsinə BMT-nin Baş Məclisində baxılması barədə MDB ölkələrinin təşəbbüsünü dəstəkləyir. «Xalq qəzeti», Bakı, 2006, 14 sentyabr
181.Rusiya səfirliyində mətbuat konfransı keçirilmişdir. «Xalq qəzeti», Bakı, 2007, 8 iyun
182.Semyuel A. Uimz. Ermənistan: terrorçu "xristian" ölkənin gizlinləri *[http://www.karabakh-doc.azerall.info/ru/armyanstvo/arm71az-1.php]*
183.Separatçıların «referendum» avantürası. «Azərbaycan» qəz., Bakı, 2006, 5 dekabr
184.Separatçıların «referendum»u həmsədrlərin əli ilə dəfn olundu. «Azərbaycan» qəz., Bakı, 2006, 14 dekabr
185.Səlimov K. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hüquqi aspektləri: «Qarabağ: suallar və faktlar» kitabında. Bakı: «Qismət» nəşriyyatı, 2005, s.81-98
186.Səməd Seyidov: Avropa Şurası Parlament Assambleyası Siyasi Məsələlər Komitəsinin iclasının Azərbaycanda keçirilməsi böyük siyasi hadisədir. «Xalq qəzeti», Bakı, 2006, 20 dekabr
187.Surət və reallıq. Birləşmiş Millətlər Təşkilatı haqqında suallar və cavablar. Birləşmiş Millətlər Təşkilatının İctimai İnformasiya Departamenti. Bakı, 2003. – 60s.
188.Tağıyev Ə.M., Şükürov M.A. Etnopolitologiya. Bakı: «Elm», 2000. - 165s.
189.Talıblı S.Ə. İranın Dağlıq Qarabağ münaqişəsində mövqeyi // Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəbərləri (humanitar elmlər seriyası), 2007, №3, s.87-97
190.Talıblı S.Ə.Azərbaycan-İran münasibətlərinin əsas istiqamətləri // Hikmət (elmi araşdırmalar toplusu), 2006, №8, s.53-62
191.Tayfun Atmaca. XX əsrin axırlarında Azərbaycan-Türkiyə münasibətləri. Siyasi elm.nam. ... dis.avtoref. Bakı, 2007
192.Terri Devis: Dağlıq Qarabağ Azərbaycan ərazisinin qanuni tərkib hissəsidir. «Xalq qəzeti», Bakı, 2007, 24 iyun



193.Uğurla icra edilən layihələr əməkdaşlıq və dostluq amillərini daha da möhkəmləndirir. «Azərbaycan» qəz., Bakı, 2007, 4 dekabr
194.Üçtərəfli regional əməkdaşlıq sammiti sənədlərinin imzalanması mərasimi. «Azərbaycan» qəz., Bakı, 2007, 8 fevral
195.Vasitəçilər ümidlərini itirmir. «Səs» qəz., Bakı, 2006, 29 iyul
196.Zeynalov F. ATƏT və geostrategiya. «Xalq qəzeti», Bakı, 2006, 31 mart

*b).rus dilində*

197.Аббасбейли А., Гасанов А. Азербайджан в системе международных и региональных организаций. Баку: Азернешр, 1999. – 256с.
198.Абасов А., *Хачатрян А.* Варианты решения Карабахского конфликта: идеи и реальность. Баку: Издательский Дом ЛТД "Ени Несил", 2002
199.Азербайджан отказал США в помощи. «Независимая газета», Москва, 2007, 4 апреля
200.Алиев и Кочарян попытаются договориться в Рамбуйе. «Независимая газета», Москва, 2006, 3 февраля
201.Алиев не хочет ссоры с соседом. «Независимая газета», Москва, 2006, 1 ноября
202.Алиев О.А. Косовары у непрецедентного финиша борьбы. Газ. «Зеркало», Баку, 2008, 16 февраля
203.Алиев О.А. Концептуальные основы современных международных отношениий: подходы к анализу проблем глобализации и международной безопасности // Ученые записки Бакинского славяиского университета. Серия общественно-политических наук, 2005, №1-2, с.14-24
204.Алиев О.А. ООН: в поисках выхода из тупика. Газ. «Каспий», Баку, 2008, 16 января
205.Анжей Каспшик: «Если не достигнуто договоренности по всем элементам переговорного процесса, значит, результатов нет» *[http://azerbaijanfoundation.org/cgi-bin/e-cms/vis/vis.pl?s=001&p=0049&n=002385&g=]*
206.Араслы Д. Армяно-азербайджанский конфликт: военный аспект. Баку, 1995

207.Армения за неделю. Обзор СМИ за 21-27 ноября 2006 года. *[http://www.sarinfo.org/smi018.htm]*
208.Армения еще в 1994 году подписала документ о возвращении шести оккупированных районов *[http://azerbaijanfoundation.org/cgi-bin/e-cms/vis/vis.pl?s=001&p=0071&n=000127&g=]*
209.Армения не желает быть "форпостом России": Армения за неделю. Хроника недели. 14 декабря *[http://www.regnum.ru/news/381673.html]*
210.Армения не хочет региональной изоляции. «НГ-Дипкурьер», Москва, 2006, 11 декабря
211.Армения готова изменить. «Независимая газета», Москва, 2007, 9 февраля
212.Армения готова к диалогу с Турцией без условий. «Независимая газета», Москва, 2007, 20 февраля
213.Армения обиделась на ОДКБ. Газ.«Эхо», Баку, 2008, 20 марта
214.Армения признает Косово, но не собирается признавать Карабах? 12.03.2008 *[www.regnum.ru/news/970099.html]*
215.Армянские и азербайджанские СМИ об осенней сессии ПАСЕ *[http://rustunnel.ru/news/1338.html]*
216.Армянских солдат отправили в Ирак. «Независимая газета», Москва, 2005, 19 января
217.Аткинсон представляет доклад, подготовленный Девисом *[http://www.azg.am/?lang=RU&num=2004111801]*
218.Баку вооружается. «Независимая газета», Москва, 2007, 25 июня
219.Баку и Ереван принуждают к миру. «Независимая газета», Москва, 2006, 15 марта
220.Баку отвязался от Российской трубы. «Независимая газета», Москва, 2006, 30 мая
221.«Большая Закавказская война?» *[http://www.memo.ru/hr/hotpoints/caucas1/msg/2006/05/m55154.htm]*
222.Большая кишиневская разморозка. «Независимая газета», Москва, 2005, 25 апреля
223.Брайза нашел рецепт для карабахской проблемы. «Независимая газета», Москва, 2006, 3 июля



224.Буш атаковал Иран. «Независимая газета», Москва, 2004, 21 июля
225.В Азербайджане появятся военные базы США. «Независимая газета», Москва, 2004, 18 августа
226.В отличие от СНГ, в ГУАМ нет Армении. Газ. «Эхо», Баку, 2006, 27 мая
227.В ООН зреет ядерный конфликт. «Независимая газета», Москва, 2005, 17 октября
228.В Париже проходит встреча министров иностраниых дел Азербайджана и Армении *[http://www.day.az/news/politics/50999.html]*
229.В Париже пытаются открыть «окно возможностей» *[http://www.azg.am/print_new.php?num=2006021002&lang=RU]*
230.Вардан Осканян: «Мы согласились на такую степень компромисса, что наша совесть спокойна, на случай, если Азербайджан пойдет на военное решение проблемы» *[http://www.day.az/news/armenia/50648.html]*
231.Вашингтон может смириться с ядерным Ираном. «Независимая газета», Москва, 2006, 12 мая
232.Вашингтон не создавал антииранскую коалицию. «Независимая газета», Москва, 13 февраля 2006
233.Вероятность возобновления войны возрастает *[http://www.regnum.ru/news/856254.html]*
234.Владимир Казимиров: Нагорный Карабах должен участвовать в переговорах *[http://www.regnum.ru/news/386829.html]*
235.Власть или оппозиция: кто может стать партнером на Южном Кавказе. «НГ-Дипкурьер», Москва, 2005, 25 апреля
236.Визит сопредстедателей Минской группы в регион *[www.azhumanrights.org/cgi-bin/e-cms/vis/vis.pl?s=001&p=0097&n=000351&g=]*
237.Вилаят Кулиев. «Али Марданбек Топчубашев. Письма из Парижа» *[http://karabakh-doc.azerall.info/ru/azerpeople/ap060-1.php]*
238.Встреча Алиева и Кочаряна состоится в Минске. «Независимая газета», Москва, 2006, 22 ноября
239.Гаджиев К.С. Геополитика Кавказа. М., 2001. -333с.

240.Гаджинский Э., Байрамов Х. Основные факторы сотрудничества Ирана и России на Южном Кавказе // История и её проблемы. Б., 2006, №2, с.166-174
241.Генсек Совета Европы: Если Карабах хочет воспользоваться вопросом Косово в качестве прецедента, то это прискорбно *[http://www.regnum.ru/news/848981.html]*
242.Глава Парламентской ассамблеи НАТО: Армения должна получить контроль над Нагорным Карабахом. 27.12.2004 *[http://www.limber.ru/newsview-35.html]*
243.Григорян С. Последний союзник. «НГ-Дипкурьер», Москва, 2007, 5 март
244.Грузинские армяне требуют отказаться от идеи строительства железной дороги Ахалкалаки-Карс, дабы не удостоить Джавахк участи Нахичевани *[http://www.azg.am/RU/2005072601]*
245.Грушкин Д.В. Право народов на самоопределение: история неразвития и воплощения идеи *[http://www.memo.ru/hr/referats/selfdet/Chapter2.htm]*
246.ГУАМ создает миротворческое подразделение *[http://www.day.az/news/politics/49885.html]*
247.Гудби Д., Неразделенная Европа. Новая логика мира в американо-российских отношениях. М.: Междунар. отношения, 2000. -336с.
248.Гулиев Д. С позиции интернационализма // Конфликт в Нагорном Карабахе: Сборник статей. – Б.: Азернешр, 1990, с.42-51
249.Гулузаде В. Кавказ среди врагов и друзей, Баку *[www.kitab.az/]*
250.Гулузаде В. Лиссабонский саммит ОБСЕ – миф или реальность // Центральная Азия и Кавказ, 1999, №2(3), с.89-97
251.Двуликий Янус для Косово. «Независимая газета», Москва, 2007, 19 марта
252.День двух побед, НАТО и Европейский суд приближаются к Нагорному Карабаху: обзор СМИ, 2-8.5.2003 *[http://www.regnum.ru/news/114183.html]*
253.Достучаться до Совбез. «Независимая газета», Москва, 2007, 12 марта



254.Европейская безопасность в броуновском движении. «Независимая газета», Москва, 2004, 6 декабря
255.Ежегодник Большой Советской Энциклопедии. 1982. Вып.26 / Гл.ред.В.Г.Панов; Ред.кол.Л.М.Володарский, В.В.Загладин, А.Н. Игнатьев и др. – М.: Сов.Энциклопедия, 1982. – 600с.
256.Ереван сохраняет лояльность Москве. «Независимая газета», Москва, 2007, 28 июня
257.Закавказью не светит место в Евросоюзе. «Независимая газета», Москва, 2006, 17 мая
258.Заргаров А. Злой умысел, чуждые голоса // Конфликт в Нагорном Карабахе: Сборник статей. – Б.: Азернешр, 1990. – с.119-131
259.Застолбили Каспий. «Независимая газета», Москва, 2005, 15 апреля
260.Зачем армянам курды в Карабахе?: Нагорный Карабах за неделю *[http://www.regnum.ru/news/932833.html]*
261.Заявление "двенадцати" о будущем статусе России и других бывших республик, 23 декабря 1991 г. *[http://web1.law.edu.ru/norm/norm.asp?normID=1167319]*
262.Золян Сурен. Нагорный Карабах: проблема и конфликт. Издательство "Лингва", 2001г. *[http://www.armenianhouse.org/zolyan/nf-ru/karabakh/6.html]*
263.ИА REGNUM 31.03.2006 *[http://sarmos.ru/news/?id=530]*
264.Иванов выполнил задание Путина. «Независимая газета», Москва, 2007, 12 апреля
265.Иванов поставил Алиева перед выбором. «Независимая газета», Москва, 2006, 7 февраля
266.Ильхама Алиева пригласили в Белый дом. «Независимая газета», Москва, 2006, 12 апреля
267.Ильхам Алиев пытается отвести удар от Ирана. «Независимая газета», Москва, 2006, 28 апреля
268.Илюхин Виктор. Обвиняется Ельцин. (Речь главного обвинителя - председателя Комитета по безопасности Государственной Думы Федерального Собрания Российской Федерации). Москва, ФТМ России, 1999 *[http://rusotechestvo.narod.ru/law/gp12.html]*

269.Имеют ли под собой почву военные угрозы Азербайджана?: Нагорный Карабах за неделю *[http://politic-news.spb.ru/politika/news_2007-06-27-09-35-03-726.html]*
270.Имомов А., Сондерс Г., Чуфрин Г. Межтаджикский диалог в рамках дартмутской конференции *[http://ca-c.org/datarus/st_03_imomov.shtml]*
271.Иран предлагает руку и сердце Азербайджану. «Независимая газета», Москва, 2005, 26 января
272.Иранский атом придумали Чейни, Рамсфелд и Вулфовиц. «Независимая газета», Москва, 2005, 29 марта
273.Иранский гамбит. «Независимая газета», Москва, 2006, 17 мая
274.Иранский лидер припомнил Бушу всё. «Независимая газета», Москва, 2006, 11 мая
275.Испытание Тегераном и Вашингтоном. «Независимая газета», Москва, 2006, 21 апреля
276.Итоги армянской внешней политики за 2006 год: Отчет МИД Армении *[http://www.regnum.ru/news/764386.html]*
277.К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918-1925: Документы и материалы. Б.: Азернешр, 1989. – 334с.
278.Кавказский узел. «Независимая газета», Москва, 2005, 22 марта
279.Казимиров В.Н. Два хельсинкских принципа и «атлас конфликтов» *[http://www.globalaffairs.ru/numbers/25/7309.html]*
280.Казимиров В.Н. Первые шаги минской группы СБСЕ *[http://vn.kazimirov.ru/x004d.htm]*
281.Кальвокоресси П. Мировая политика 1945-2000: В 2-х кн. Кн.1. / Пер.с англ. М.: Междунар. отношения, 2003. – 624с.
282.Карабах - как фактор региональной стабильности *[http://www.karabagh.am/GlavTem/13KarFaktorRegStab.htm]*
283.Карабах сдался. «Независимая газета», Москва, 2005, 18 мая
284.Карабахский конфликт: понять друг-друга / Ариф Алиев, Степан Григорян, Расим Мусабеков, Борис Навасардян. – Ер.: «ВЭЛАС ПРИНТ», 2006. – 300с.



285.Киловатты и кубометры с политическим оттенком. «Независимая газета», Москва, 2006, 28 апреля
286.Конфликт можно решить только путем компромисса. «Независимая газета», Москва, 2007, 26 сентября
287.Кочарли Т. Необходимое уточнение // Конфликт в Нагорном Карабахе: Сборник статей. – Б.: Азернешр, 1990, с.30-42
288.Кочарян зря прогибался. «Независимая газета», Москва, 2005, 24 августа
289.Кочарян изменяет России. «Независимая газета», Москва, 2005, 19 августа
290.Кочарян предлагает Алиеву рискнуть. «Независимая газета», Москва, 2006, 10 февраля
291.Краткий политический словарь / Абаренков В.П., Аверкин А.Г., Агешин Ю.А. и др.; Сост.и общ.ред.Л.А.Оникова, Н.В. Шишлина. – 4-е изд., доп. – М.: Политиздат, 1987. – 509с.
292.Кризис вокруг Бушера исчерпан. «Независимая газета», Москва, 2007, 27 марта
293.Курбанов Э. "Международное право о самоопределении и конфликт в Нагорном Карабахе" (27.01.2006) *(http://www.azhumanrights.org/cgi-bin/e-cms/vis/vis.pl?s=001&p=0094&n=000012&g=)*
294.Ленин В.И. Социалнстическая революция и право наций на самоопределение (тезисы) *[http://lugovoy-k.narod.ru/lenin/27/40.htm]*
295.Лоббирование вместо переговоров по Косово. «Независимая газета», Москва, 2007, 21 марта
296.Мамедов И. Трилогия панарменизма – Коварная стратегия чередующихся агрессий. Книга 1. «Великая Армения» смертоносная программа кровавых злодеяний. Баку: «Адильоглы», 2006. – 136с.
297.Мамедов И. Трилогия панарменизма – Коварная стратегия чередующихся агрессий. Книга 2. «Армянский вопрос» Вопиющий бастион сепаратизма и экспансионизма. Баку: «Адильоглы», 2006. – 168с.
298.Мамедов И. Трилогия панарменизма – Коварная стратегия чередующихся агрессий. Книга 3. «Геноцид армян». Бродя-

чий призрак искаженной истины и некоторые аспекты истории армяно-азербайджанских отношений. Баку: «Адильоглы», 2006. – 176с.
299.Манасян А. Карабахский конфликт. Ключевые понятия и хроника. – Ер.: НОФ «Нораванк», 2005. - 216с.
300.Маркедонов С.М. Азербайджан: «без друзей и без врагов» // Россия в глобальной политике, 2007, №4, июль-август *[http://www.globalaffairs.ru/numbers/27/8088.html]*
301.Матвеев А. Удары по Ирану могут спровоцировать боевые действия между Арменией и Азербайджаном // Военно-промышленный курьер *http://www.analitika.az/articles.php?item_id=20060525032429593&sec_id=8]*
302.Международное право. Изд.2-е, доп.и перераб. Отв.ред.Ю.М. Колосов, В.И.Кузнецов. – М.: Междунар.отношения, 1998. – 624с.
303.Мелик-Шахназарян Л. Миротворцы ГУАМ готовятся к войне *[http://www.peacekeeper.ru/print.php?dbase=main&id=2516]*
304.Метью Брайза: «Вопрос в том, кого считать иародом Карабаха» *[http://www.day.az/news/politics/55174.html]*
305.Министр обороны Армении: Азербайджан и Нагорный Карабах были созданы параллельно *[http://in-alushta.ru/sn_new/844/]*
306.Мир вокруг России: 2017 (контуры недалекого будущего) / Под.ред.С.А.Караганова. Москва: “Культурная революция”, 2007. - 160с.
307.Мировая политика и международные отношения: Учебное пособие / Нод ред.С.А.Ланцова, В.А.Ачкасова. – СПб.: Питер, 2006. – 448с.
308.Михайлов С.А. США и общеевропейская политика в сфере безопасности и обороны. Рос.ин-т.стратегич.исслед. М., 2005. – 76с.
309.Москва достроит АЭС в Бушере. «Независимая газета», Москва, 2006, 27 февраля
310.Москва не списывает ОБСЕ со счетов. «Независимая газета», Москва, 2006, 7 декабря
311.Москва подтолкнула Тегеран к ядерной независимости. «Независимая газета», Москва, 2007, 4 апреля



312.Москва согласна на санкции против Ирана. «Независимая газета», Москва, 2006, 31 июля
313.Москва спасает Иран от санкций. «Независимая газета», Москва, 2004, 6 июля
314.Мусаев Т.Ф. Нагорно-Карабахский конфликт: анализ некоторых ключевых элементов правового характера *[http://forum.aztop.com/lofiversion/index.php/t16779.html]*
315.Мусаев Т.Ф. Правовые аспекты Нагорно-Карабахского конфликта *[http://www.azhumanrights.org/cgi-bin/e-cms/vis/vis.pl?s=001&p=0094&n=000010&g=]*
316.«Мы не будем вести переговоры ради переговоров». «Независимая газета», Москва, 2005, 14 февраля
317.Мэттью Брайза: ждем ответа от лидеров в Баку и Ереване *[http://news.bbc.co.uk/hi/russian/in_depth/2004/karabakh/newsid_5157000/5157078.stm]*
318."Мэтью Брайза: Инициатива ГУАМ может положительно сказаться на Карабахском урегулировании» *[http://www.regnum.ru/news/714864.html]*
319.Мяло К.Г. Россия и последние войны XX века (1989-2000). К истории падения сверхдержавы Москва: "Вече", 2002 г. *[http://library.cjes.ru/online/?a=con&b_id=412]*
320.Нагорный Карабах: взгляд на конфликт с места событий (Доклад № 166 Международной Группы по предотвращению кризисов (Крайсис Груп) к 15-й годовщине трагической депортации жителей армянских сел Нагорного Карабаха в апреле-июне 1991 года *(Тбилиси/Брюссель, 14 сентября 2005 г.)*) *[http://kavkaz.memo.ru/analyticstext/analytics/id/985780.html]*
321.Нагорный Карабах за неделю: Обзор СМИ за 12-18 мая 2006 года *[http://www.regnum.ru/news/643379.html]*
322.Нагорный Карабах за неделю. Обзор СМИ за 15-21 сентября 2006 года *[http://www.regnum.ru/news/711279.html]*
323.Нагорный Карабах за неделю. Обзор СМИ за 6-12 октября 2006 года. *[http://www.regnum.ru/news/721844.html]*
324.Насиров Г. Двойные стандарты, пристрастие, приверженность, или…? / Голос Карабаха

*[http://azerbaijanfoundation.org/fce/index.shtml?s=001&p=0098&n=0 00052]*
325.Настоящий интерес к ГУАМ еще впереди. «НГ-Дипкурьер», Москва, 2007, 2 апреля
326.Не вполне дружеский совет. «Независимая газета», Москва, 2007, 22 марта
327.Непростой партнер на юге. «Независимая газета», Москва, 2007, 8 октября
328.Ни один президент Армении не сможет продать Карабах – первый президент Армении *[http://newsarmenia.ru/karabah/20071026/41760097.html]*
329.Нигматуллина З.Б. «Справка из СФ по проблеме контитуитета» *[http://savelev.ru/journal/case/attachment/?caseid=49&id=17]*
330.Николас Бернс: Вашингтон продолжит давить на Иран. «Независимая газета», Москва, 2006, 27 февраля
331.Новый формат урегулирования конфликта отвечает интересам Азербайджана. Газ.«Зеркало», Баку, 2006, 13 апреля
332.ОБСЕ инспектирует Южный Кавказ. «Независимая газета», Москва, 2007, 4 июня
333.Овсепян Ж.И. О ходе конституционной реформы в СССР *[http://law.edu.ru/doc/document.asp?docID=1135586]*
334.Ответа Ирана ждут к саммиту G8. «Независимая газета», Москва, 2006, 8 июня
335.Официальный Баку против изменения формата переговоров по урегулированию Нагорно-Карабахского конфликта *[http://news.trend.az/cgi-bin/readnews2.pl?newsId=992023&lang=RU]*
336.Пентагон укрепляется в Азербайджане. «НГ-Дипкурьер», Москва, 2006, 30 января
337.Переговорный процесс *[http://www.regnum.ru/news/856254.html]*
338.Переговоры по Нагорному Карабаху приостановлены. «Независимая газета», Москва, 2006, 19 декабря
339.Петросян С. Энергетический сектор в экономике Армении // «Центральная Азия и Кавказ», 2000, №1(7), с.119-125
340.План Маршалла для Закавказья. «Независимая газета», Москва, 2006, 17 марта
341.Потенциальные возможности Ирана по посредничеству в Карабахском конфликте *[http://www.defacto.am/index.php?OP=140967936]*
342.Правовые основы признания НКР *[http://noev-kovcheg.1gb.ru/article.asp?n=88&a=20]*
343.Прагматизм побеждает и на Востоке. «Независимая газета», Москва, 2004, 9 августа
344.«Пражский процесс» заканчивается? *[http://birlik.ru/frm/index.php?showtopic=1615]*
345.Представитель Европарламента предложил исключить Францию из состава МГ ОБСЕ *[http://www.rambler.ru/news/0/0/11321243.html]*
346.Представительства НКР *[http://www.nkr.am/rus/mid/pred.htm]*
347.Президент Армении: Армения признает Карабахскую республику, если переговоры с Азербайджаном зайдут в тупик *[http://pr.kg/n/detail.php?id=5954]*
348.Президенты Азербайджана и Армении вновь встретятся *[http://www.iamik.ru/?op=full&what=content&ident=27213]*
349.Президент Азербайджана Ильхам Алиев дал интервью турецкому телеканалу НТВ. Газ.«Бакинский рабочий», Баку, 2006, 25 февраля
350.Премьер-министр Армении: «Я никогда не говорил, что карабахская проблема имеет религиозную почву» *[http://www.day.az/news/armenia/97542.html]*
351.Прибыловский В., Точкин Г. Кто и как упразднил СССР (для тех, кто уже забыл) *[http://www.sssr.su/denons.html]*
352.Признание непризнанных: Нагорный Карабах за неделю Обзор СМИ за 15-21 сентября 2006 года. *[www.regnum.ru/news/711279.html]*
353.Призрак Косово в Закавказье *[http://www.regnum.ru/news/721844.htm]*
354.Прорвать блокаду поможет диаспора. «Независимая газета», Москва, 2005, 12 сентября
355.Прощай, оружие! Коллективное… «Независимая газета», Москва, 2005, 14 февраля

356.Пулин Г. Сделали все, что могли // Военно-промышленный курьер, 2006, №21 (137), 07 - 13 июня 2006 года *[http://www.vpk-news.ru/article.asp?pr_sign=archive.2006.137.articles.army_02]*
357.Путин и Буш дали добро на полусанкции. «Независимая газета», Москва, 2006, 25 декабря
358.Работа по формированию миротворческих подразделений ГУАМ продолжается. Газ.«Новое время», 2006, 1 ноября
359.Рабочая группа Дартмутской конференции предлагает Нагорному Карабаху "промежуточный статус" *[http://www.regnum.ru/news/616232.html]*
360.Раджабли А.А. Глобализация и регионализация мира: анализ в контексте национально-государственных интересов // Ученые записки Бакинского славянского университета. Серия общественно-политических наук, 2005, №1-2, с.25-37
361.Раджабли А.А. Международные связи Российской Федерации. Учебное пособие. Баку: БСУ, Издательско-полиграфический центр «Китаб алями», 2005. – 384с
362.Раджабли А.А. Национальные интересы и международная безопасность (анализ внешнеполитического поведения). Баку: БСУ, Издательско-полиграфический центр «Китаб алями», 2004. – 400с.
363.Раджабли А.А. Принципы внешнеполитического поведения государств в области разоружения // История и её проблемы, 2006, №2, с.158-166
364.Раджабли А.А. Теория национальной безопасности. Баку, «Китаб алями», 2005. – 116с.
365.Разговоры о смене курса Баку – обычные политические спекульяции. «Независимая газета», Москва, 2004, 17 августа
366.Рамбуйе, Бухарест... Дартмут? *[http://www.armtown.com/news/ru/gol/20060615/2006061503/]*
367.Решение для Косово: одна страна – две системы. «Независимая газета», Москва, 30 ноября 2005
368.Россию интересует стабильная Армения. «Независимая газета», Москва, 2004, 8 июля



369.Россия не будет разоружать Карабах. «Независимая газета», Москва, 2005, 20 декабря
370.Россия отделилась от Грузии и Армении Верхним Ларсом. «Независимая газета», Москва, 2006, 4 сентября
371.Россия полностью господствует в Армении, а Азербайджан Москва удерживает посредством проблемы Карабаха: Нагорный Карабах за неделю Обзор СМИ за 1 - 7 июня 2007 года. *[http://sdev.ru/sdev/tematicheskie-novosti/news_2007-06-12-22-52-02-851.html]*
372.Российский посредник не считает Нагорный Карабах оккупированной территорией *[http://www.echo-az.com/archive/2004_07/873/politica02.shtml]*
373.Саймс Дмитрий. Катастрофы в отношениях с США не предвидится. «Независимая газета», Москва, 2005, 25 апреля
374.Санкции в помощь Ахмадинежаду. «Независимая газета», Москва, 2008, 29 января
375.Серж Саркисян: «Единственная причина карабахского конфликта состоит в религиозном факторе» *[http://www.day.az/news/armenia/97323.html]*
376.Системная история международных отношений / Под ред. доктора политических наук, профессора А.Д.Богатурова. Москва: «Московский рабочий», 2000 *[http://www.diphis.ru/content/view/167/63/]*
377.Скандал вокруг российской базы заставил Кочаряна прилететь в Тбилиси. «Независимая газета», Москва, 2005, 4 апреля
378.Современные международные отношения. Учебник / Под редакцией профессора А.В.Торкунова. Москва: РОССПЭН, 2000. – 583с.
379.Солтание Али Асгар. Двойной стандарт для атомной энергии. «Независимая газета», Москва, 2005, 28 марта
380.Сопредседатели МГ ОБСЕ представят сторонам варианты мирного урегулирования карабахского конфликта *[http://www.day.az/news/armenia/55623.html]*

381.Сопредседатели Минской группы ОБСЕ не видят необходимости в смене формата переговоров по Карабаху *[http://www.regnum.ru/news/943950.html]*
382.Состоялась встреча Ильхама Алиева и Роберта Кочаряна *[http://www.day.az/news/politics/64880.html]*
383.Спецпредставитель ЕС на Южном Кавказе предлагает Баку выбирать между войной и инвестициями *[http://www.putin.ag.ru/news/misc/newssng/06/03/28_010.htm]*
384.Спикер парламента Армении: "Карабахскую проблему вправе обсуждать любая международная организация" *[http://www.regnum.ru/news/725359.html]*
385.Страны ГУАМ намерены решать свои проблемы без СНГ. «Независимая газета», Москва, 2006, 23 мая
386.Ступишин В. Моя миссия в Армении. 1992-1994. Воспоминания первого посла России. Москва: Издательство Academia, 2001г. *[http://www.armenianhouse.org/stupishin/docs-ru/mission/contents.html]*
387.США толкают Армению к России. «Независимая газета», Москва, 20 марта 2007
388.США устроит только смена иранского режима. «Независимая газета», Москва, 2006, 6 июня
389.Тегеран возобновляет урановую программу. «Независимая газета», Москва, 2005, 12 мая
390.Тегеран готовится к худшему. «Независимая газета», Москва, 2006, 13 февраля
391.Тегеран загнали в бушерский тупик. «Независимая газета», Москва, 2007, 14 марта
392.Тегеран не собирается нападать на Израиль. «Независимая газета», Москва, 2005, 31 октября
393.Тигран Балаян: Карабахский конфликт: перемирие на долгосрочную перспективу *[http://www.regnum.ru/news/259352.html]*
394.Том де Ваал. Черный сад. Между миром и войной *[http://news.bbc.co.uk/hi/russian/in_depth/newsid_4673000/4673979.stm]*
395.Турецкий марш на долгие годы. «Независимая газета», Москва, 2005, 14 ноября



396.Турцию надо выдворить из состава Минской Группы ОБСЕ: вице-спикер парламента Армении *[http://www.regnum.ru/news/910224.html (06.11.2007)]*
397.У Армении не осталось союзников. «НГ-Дипкурьер», Москва, 2005, 7 февраля
398.У ядерного порога: уроки ядерных кризисов северной Кореи и Ирана для режима нераспространения / Под ред.Алексея Арбатова. Москва: Издательство «Российская политическая энциклопедия» (РОССПЭН), 2007. – 183с.
399.Украина: интеграция в Европу как цивилизационный проект. «Независимая газета», Москва, 2005, 18 марта
400.Укус Балуевского. «Независимая газета», Москва, 2007, 4 апреля
401.Уроки политграмоты от Ильхама Алиева. «Независимая газета», Москва, 2004, 21 декабря
402.Хлопков А. Ядерная программа Ирана – незаконченная история // У ядерного порога: уроки ядерных кризисов северной Кореи и Ирана для режима нераспространения / Под ред. Алексея Арбатова. Москва: Издательство «Российская политическая энциклопедия» (РОССПЭН), 2007. – с.34-61
403.Холодная мини-война. «Независимая газета», Москва, 2005, 7 декабря
404.Цыганов О. Американский вектор Азербайджанской политики // «Dirçəliş-XXI əsr», 2006, №98-99, с.28-37
405.Черный январь. Баку – 1990: Документы и материалы. – Б.: Азернешр, 1990. – 288с.
406.Экс президента Армении возвращают в политику. «Независимая газета», Москва, 3 июля 2007
407.Экспансия свободы на постсоветском пространстве. «НГ-Дипкурьер», Москва, 2006, 5 июня
408.Южнокавказский мост между Западом и Востоком. «Независимая газета», Москва, 2007, 22 ноября
409.Ядерные ловушки для Москвы. «Независимая газета», Москва, 2007, 26 марта
410.15 февраля Комитет министров Совета Европы обсудит вопрос о недопустимости членства Армении как страны-окку-

панта [http.//www.azhumanrights.org/cgi-bin/e-cms/vis/vis.pl?s=001&p=0095&n=000197&g=]

*c).fars dilində*

411.Əhmədinejad dər cəm-e xəbərneqaran: təhdid və təcavöz be yek keşvər-e eslami təhdid və təcavöz be həme keşvərha-ye eslamist. «Merh» qəz., Tehran, 2005, 9 dekabr (18 Azər 1384)
412.Rəis-e comhuri dər neşəst-e «cəhan bedun-e sehyunizm»: Hər kəs Esrail ra be rəsmiyyət beşenasəd, be ataş-e qəhr-e ommət-e eslam xahəd suxt. «İran» qəz., Tehran, 2005, 27 oktyabr (5 Aban 1384)



# MÜNDƏRİCAT

***Ön söz*** . . . . . . . . . . 3
***Müəllifdən*** . . . . . . . . . . 7
***Giriş*** . . . . . . . . . . 9
***Fəsil 1.*** *Ermənistan-Azərbaycan münaqişəsinin təhlili* . . . 19
***Fəsil 2.*** *Ermənistan-Azərbaycan münaqişəsində dövlətlərin varisliyi məsələsi və «öz müqəddəratını təyinetmə» hüququ* . . . . . . . . . . 33
***Fəsil 3.*** *Ermənistan-Azərbaycan münaqişəsinin başlanması və onun həlli yolunda atılmış ilk addımlar* . . 43
***Fəsil 4.*** *Ermənistanın Azərbaycana təcavüzü və ATƏT* . . 78
***Fəsil 5.*** *Ermənistanın Azərbaycana təcavüzünə beynəlxalq ictimaiyyətin münasibəti* . . . . . . . . . . 152
***Fəsil 6.*** *İranın nüvə məsələsi və Ermənistan-Azərbaycan münaqişəsi* . . . . . . . . . . 188
***Fəsil 7.*** *Ermənistan-Azərbaycan münaqişəsinin Ermənistan iqtisadiyyatına təsiri* . . . . . . . . . . 209
***Nəticə*** . . . . . . . . . . 221
***Mənbə və istifadə olunmuş ədəbiyyat*** . . . . . . . . . . 229

**Ruintən K.F.**
(*Ruintən Kəmalə Fərrux qızı*)

**ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ VƏ DÜNYA SİYASƏTİ**

**Руинтан Кямаля Фаррух гызы**

**АГРЕССИЯ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА И МИРОВАЯ ПОЛИТИКА**

**Operator: Lamiyə Ruintən**
**Tərtibatçı: Rahilə Məmmədova**

Çapa imzalanmışdır: 19.04.2008
Kağız formatı: 60x84 1/16
Həcmi: 16,25 ç.v.; Sifariş: 124; Sayı: 500

Kitab «ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmışdır.
*Ünvan: Bakı şəh., S.Rəhimov küç., 195, mənzil 17*
*Tel.: 498-68-25; 418-68-25; faks: 498-08-14;*
*Web: www.adiloglu.az; E-mail: info@adiloglu.az*

«İlay» MMC-nin mətbəəsində hazır diapozitivlərdən istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: Bakı şəh.,Şərifzadə küçəsi, 202*
*Tel.: 433-00-43*